MAFİLƏ MÜNTƏZİR

# P A R O L:

# ●|●

(SIFIR BİR SIFIR )

( ROMAN )

**Çocukla Zaman Yolçuluğu**

**1-Cİ KİTAB**

**"Elm və təhsil"**
**Bakı - 2025**

**Redaktor:**
**Minəxanım Təkləli**
*filologiya elmləri doktoru, professor*

**Mafilə Müntəzir. P A R O L: •|• (sıfır bir sıfır )**
**Bakı, "Elm və təhsil", 2025, 316 səh.**

Həkim-şair-yazıçı Mafilə Müntəzirin müəllifi olduğu "PAROL: O I O (SIFIR BİR SIFIR)" romanlar seriyasından 1-ci kitab olan "Çocukla zaman yolçuluğu" romanı istər ədəbi dil və təhkiyə, istərsə də məzmun baxımından öz bədii həllini tapmış romandır. Dilin sadəliyi və axıcılığı, əsərin alt qatlarının maraqlı, nağılvari təhkiyə ilə oxucuya çatdırılması, bütöv və vahid sujet xətti mistik-realizm janrında yazılan bu romanın əsas xüsusiyyətini təşkil edir.

Əsərdə Göy Türklərinin əzəli məskəni olan Ötüken planetindən dünyamıza gəlmiş, özünü Çocuk adıyla təqdim edən Göy Türk bəyi ilə onun Gülcə adlandırdığı Azərbaycanlı türk qızının zaman yolçuluğundan bəhs edilir. Əlbəttə, buradakı yol ruhun açdığı düşüncə yoludur və əsərin fəlsəfəsi də bu aspektdəki məkanla zamanın vəhdətindən yaranır. Dünyadakı türkləri himayə etmək, düşmənlərdən qorumaq, insanları şeytani əməllərdən uzaqlaşdırmaq, doğruluğa, ədalətə səsləmək Göy Türklərinin əsas prinsipləridir və onların düşüncə yolu ilə "O I O (SIFIR BİR SIFIR)" parolu altında bilgilər ötürdükləri Gülcə də elə ilk gündən düşüncə yolu ilə onlara qoşulur. Əsərdə təsvir edilən Göy Türkləri həm göydə, həm də yerdə məskən salan, Tanrı tərəfindən seçilmiş insanlardır. Onlar yerdə baş verəcək hadisələri öncədən görə, müdaxilə edə bilir, eyni zamanda istədikləri an keçmişə və gələcəyə gedir və istədikləri an görünməz ola bilirlər. Gülcə isə Yer planetinin sakini olaraq Göy Türklərini tanıdıqca yerdəki türklərin başına gələn bəlaların mənbəyini, onların xilas yollarının kodunu öyrənməyə can atır və əsər boyu onun həssas qəlbinin, ruhunun türkçülüklə nə qədər bağlı olduğunu görürük.

"Çocukla zaman yolçuluğu" romanının oxucular tərəfindən maraqla qarşılanacağına inanırıq.

**ISBN 978-9952-587-56-2**

**© "Elm və təhsil", 2025**

# P R O L O Q

Hər şey Göy Türk bəyinin onu ziyarət etməsi ilə başladı. Belə ki, Gülcənin mənəvi dünyasından, ruhunun gücündən Göy Türkləri xəbərdar imiş. Amma gözləmək lazım imiş. O vaxta qədər ki, Gülcə onlarla rastlaşdığı zaman çıxacağı yolun çətinliyindən qorxub geri çəkilməsin. Bu yolu sonadək gedə bilsin.

Gülcə isə Göy Türklərinin varlığından xəbərsiz, bundan sonrakı həyat yolunda mənəvi bir görəvin yerinə yetirilməsinin zamanı gələnə qədər, Yer kürəsinin digər sakinləri kimi, öz həyatını yaşamaqdaydı.

Artıq zaman yetişmişdi. Onu sıxan qılaf dağılmalıydı. Gülcə adıyla bu dünyaya yenidən doğurulması üçün, onun necə bir ruha sahib olmasını çoxlarının görməsi üçün, türk ruhunun iziylə gedərək Göy Türklərini və Göy Türk qəhrəmanını tanımaq və tanıtmaq üçün. An o an, zaman o zaman idi. Bu andan hər şey aydınlanacaqdı.

Hadisələr o qədər sürətlə baş verirdi ki, Gülcə bir də baxdı ki, onun türk ruhu şeir diliylə danışır. Türklüyü anladan, türk ruhunun, türk kimliyinin öygüsü səslənir ruhunun dilində. O, Göy Türk bəyinin onu ilk ziyarətindən və Göy Türkləriylə tanışlıqdan sonra, bir necə il ərzində elə inanılmaz hadisələrin, nağılabənzər həqiqətlərin şahidi olmuşdu ki, bəzən

özü belə heyrətlənməyə bilmirdi. Çocuk adıyla tanıdığı Göy Türk bəyi də “bunları yaz Gülce, yaz anlat! Türk kimliyini anlat!”-deyirdi. Gülcə isə şeir diliylə Türk kimliyini belə bəyan edirdi:

Ben kadınsam, ne ola ki, Er Türk`üm,
Sesi gürler, tükenmeyen sel Türk`üm,
Bir Türk kızı, Türk soyluyum, Gök Türk`üm,
Şanım yüce, kanım temiz, ruhum pak,
Türklüğe bir şan katayım, gel de bak!

Ötükenden göç eyledi soy köküm,
Türk Hatun`um, ezelden Türk`lük ülküm,
Dünyaya meydan okumuş Türk ırkım,
Şanım yüce, kanım temiz, ruhum pak,
Türklüğe bir şan katayım, gel de bak!

Oğuzlardan gelen bilin, soyum var,
Kimseye eğilmez ters bir huyum var,
Gökler, yerler bizim, sonsuz sayım var,
Şanım yüce, kanım temiz, ruhum pak,
Türklüğe bir şan katayım, gel de bak!

Doğurdu bak beni ismetli anne,
Namert, gelme çekil, dur sen bir yane,
Güc aldığım kutsal bir ev, bir hane,
Şanım yüce, kanım temiz, ruhum pak,
Türklüğe bir şan katayım, gel de bak!

Haber veren Gök Türkünün özüdür,
Özü kutsal, doğru olan sözüdür,
Çocuk* söyler, ben yazarım, yol birdir,
Şanım yüce, kanım temiz, ruhum pak,
Türklüğe bir şan katayım, gel de bak!

Əsəri oxuyan hər bir oxucu qısa zaman kəsiyində Çocukla birlikdə yolçusu olduğu zaman yolunda Gülcənin kimlərlə qarşılaşdığının, nələrin, hansı hadisələrin şahidi və iştirakçısı olduğunun, nağıla bənzər həqiqətlərin şahidi olacaqlar. Bu hələ yolun başlanğıcıdır. "O I O (SIFIR BİR SIFIR)" parpolu ilə ötürülən bilgilər və Çocukla zaman yolçuluğu davam edir. Kim bilir, hələ nələr yaşanacaq, nələr yazılacaq...

* Çocuk*- bir Göy Türk bəyidir.

## FƏSİL-1

Yerdən ayaqlarının üzüldüyünü hiss etdi. Getdikcə olduğu məkandan uzaqlaşmağa başladı. Hər şey nöqtəyə dönərək gözlərindən itdi. Sanki araya duman çökdü. Elə bil yerin cazibə qüvvəsi itərək çəkisizliyə düşdü.

Bir də baxdı gözləri önündə əsrarəngiz bir aləm açıldı. Necə oldu bura gəldi? Heç cür anlaya bilmədi. Sanki bir zaman dilimindən başqa bir zaman diliminə keçdi. Gördüyü mənzərə isə bura necə gəldiyi düşüncəsini, fikrini bir anlığa ona unutdurdu. İlahi, bu nədir, bu nə gözəllikdir?! O, əsrarəngiz bir gözəllik aləminə düşmüşdü. Hər şey bir harmoniya içində idi, bir-birini tamamlayırdı. Əvvəllər belə bir yerlə heç rastlaşmamışdı. Yalın ayaqlarını yerə basaraq qayalara kimi uzanan çəmənlikdə asta-asta dolaşmağa başladı. Onun topuğuna qədər uzanan paltarının ətəyi çəmənliyin üzərində dalğalanaraq arxasınca sürünür, bu göz oxşayan tabloya yeni-yeni naxışlar vururdu. Gəzdikcə bitmək bilməyən böyük bir yaşıllıq uzanırdı gözü önündə. Çiçəklərə bənzəyən, al-əlvan kəpənəklər uçuşurdu ətrafında. Gözəl görkəmli çətirlənmiş ağaclar, rəngarəng çiçəklər, ağacdan-ağaca qonaraq oxuyan quşlar, çəmənliyi əhatə etmiş dağlardan axan şəlalələr, onların töküldüyü, cəmənlik boyu axıb gedən dağ çayı bir başqa gözəllik qatırdı

gördüyü mənzərəyə. Qəribə bir işığa, nura qərq olmuşdu ətraf. Belə bir mənzərə ilə ilk dəfə idi rastlaşırdı. Buradakı bir çox ağacları, çiçəkləri ilk dəfə idi görürdü. Gördüyü bu gözəlliyin təsirindən onun ruhu bədənindən ayrılıb bu gözəlliklərə qarışmaq, burada əbədi məskən salmaq istəyirdi. Ətrafı xeyli gəzib-dolaşsa da kimsə gözə dəymirdi. Elə bil buralara heç insan ayağı dəyməmişdi.

Hiss etdi ki, heç bir şey düşünə bilmir. Sanki düşüncəsi donub. İndi haradadır, nədən bu yerlərə gəlib?

Birdən öndə görünən cox da hündür olmayan qayanın üzərində bir nəfər peyda oldu. Elə bil göydən düşdü bu adam. Bir insan övladı gördüyünə sevindi. İxtiyarsız olaraq ona doğru getdi. Qayanın lap kənarında, arxası ona tərəf dayanan adam aşağıda uzanan yaşıl vadiyə doğru baxırdı. Çox asta, sakit addımlarla yaxınlaşmasına baxmayaraq adam onun gəldiyini hiss edərək arxaya çevrildi. Uzun boyu, boyuna mütənasib bədən quruluşu, qısa kəsilmiş saçları, sifətinə yaraşan qısa saqqalı, qartal kimi iti baxışları vardı bu adamın. Ona elə gəldi ki, bu adamı haradasa görüb, haradansa tanıyır. Amma xatırlaya bilmədi.

-Sən məni haradan tanıdığını düşünürsən,- deyərək adam sözə başladı.

-Elədir, haradan bildin?

-Düşüncəni oxudum.

-Maraqlıdır.

-Hə, Gülcə, mən sənin haqqında çox şey bilirəm.

-Mənim adım Gülcə deyil axı?

-Göy Türkləri səni bu adla tanıyır.

-Göy Türkləri?

-Bəli, Göy Türkləri.

-Düzünü deyim ki, Gülcə adı çox xoşuma gəldi. Bu gündən adım Gülcə olsun, sevincək əlavə etdi. Birdən fərqinə vardı, adam onunla Azərbaycan türkcəsiylə danışır. Ağzını açıb sual verməmiş artıq cavabını aldı.

-Mən türk dilinin bütün ləhcələrində danışa bilirəm və anlayıram.

-Bəs siz burada nə edirsiz?

-Bizim məskənimiz həm göy, həm də yerdir.

-Söylədikləriniz lap nağıla bənzəyir.

-Göy Türkləri nağıl deyil. Biz də dünyaya bunu bəyan etmək istəyirik. Məqsədimiz türklüyə, bütün insanlığa xidmət etməkdir.

-Göy Türkləri? Mən Göy Türkləri haqqında tarixi kitablardan oxumuşam. Göytürk imperatorluğu, xaqanlığı olub zamanında.

-Sənin söylədiyin imperatorluğu, xaqanlığı bir zamanlar gəlib yerdə məskunlaşan Göy Türkləri qurmuşlar, yəni bir vaxtlar göydən yerə enərək məskən salmış Göy Türkləri. Göy Türklərinin əzəli məs-

kəni isə Ötükendir. Sən indi harada olduğunu bilirsənmi?

-Yox. Bura haradır ki?

-Ötükendir, Gülcə.

-Ötüken?

-Bəli, Ötüken. Göy Türklərinin əzəli məskəni olan Ötüken!

-Mən Göy Türkləri haqqında sizə söylədiyim qədər bilirəm.

-Bəli, sən çox az şey bilirsən. Amma zamanla öyrənəcəksən. Həm də təkcə Göy Türkləri haqqında deyil, sənin və çoxlarının bilmədiyi varlıqlar – Sürüngənlər, Onurğasızlar haqqında, onların dünyanı hansı vəziyyətə gətirmək istədikləri haqqında da öyrənəcəksən. Zaman-zaman, zərurət yaranarsa Göy Türklərinin dünyanın gedişatına necə müdaxilə etdiklərini, hansı texnalogiyalara malik olduqlarını, bu bilgiləri yer türklərinə düşüncə yoluyla necə ötürdüklərini və daha nələr-nələr öyrənəcəksən. Daha doğrusu öyrənməlisən!

-Mənim də özümə görə bildiklərim var. Əlbəttə ki, öz ixtisasıma, sənətimə, maraqlandığım sahələrə uyğun. Sizin söylədikləriniz haqqında da bilməyim vacibdirmi? - deyə qarşısındakı adamdan təbəssümlə soruşdu.

-Bu sənin mənəvi borcun, vəzifəndir! Biz səni doğulduğun gündən buna hazırlamışıq. Səni yaxşı tanıyırıq. Sənin bu günə kimi necə bir həyat yolu

keçdiyindən, necə yaşadığından, nələrlə qarşılaşdığından xəbərdarıq.

- Doğulduğum gündən?!

Heyrət içində rastlaşdığı adama baxdı.

-Bəli, doğulduğun gündən.

-Amma sizin bu söylədikləriniz barədə bilgiləri haradan, necə öyrənəcəyimi heç söyləmədiz.

-Məndən öyrənəcəksən.

-Sizdəəən? (ixtiyarsız olaraq səsi uzandı) Necə?

-Biləcəksən. Buraları necə, bəyəndinmi?

-Bura çox gözəldir. Sanki, heç insan ayağı dəyməyib, heç bir şeyə toxunulmayıb. Necə yaradılıbsa eləcə də qalıb. Amma Yer kürəsi orada yaşayan insan adlanan varlıqların əlləriylə, əməlləriylə bilsəniz nə günə qalıb? Dünya qan içində boğulur. Yer sakinləri Yer kürəsini, onun təbiətini məhv etməklə əslində öz həyatlarını, yaşamlarını da məhv etdiklərinin fərqində deyillər. Hələ bundan sonra dünyada insanlar nələrlə qarşılaşacaq məlum deyil.

-Xəbərdarıq, Gülcə. Hələ yer sakinlərini sənin bilmədiyin, təsəvvür belə edə bilmədiyin daha dəhşətli günlərin gözlədiyindən də xəbərdarıq. Təəssüf ki, bunları Yer sakinlərinin şeytana xidmət edən bir zümrəsi insanlara yaşadacaq. Biz də onlarla mübarizə aparırıq. Yer kürəsinin, insanların daha az ziyan çəkməsi üçün çalışırıq. Təbii ki, bizə izn verildiyi həddə qədər.

-Düzünü deyim ki, yerdəki yaşam yorub məni. Ruhum hər an dünyadan uzaqlaşmaq istəyir. Dünyanı bürüyən cəhalətdən, xəyanətdən, nifrətdən, müharibələrdən qaçmaq istəyirəm. Nəfsinə qul olan insanların günbəgün artdığı, ağlın, düşüncənin, insanlığın unudulduğu, qiymətdən düşdüyü bir cəmiyyətdə yaşamaq istəmirəm. Bəzən qəribə düşüncələr sarır məni. Elə bilirəm ruhum cismimə gələn yolda azıb. Neçə əsir sonra tapıb cismimi. Hərdən də elə bilirəm ruhum daha tez göndərilib bu dünyaya. Ona görə bu zamana yad kimiyəm. Heç uya bilmirəm bu dünyanın halına. Elə bil bu dünyada təkcə cismimdir gəzən. Ruhum qərib kimidir dünyada.

-Ruhunun ardınca get, Gülcə! O zaman çox şeyi dərk edəcəksən. Türk ruhunda kodlaşan çox bilgilər var. Araşdırsan təkcə yerdəki hadisələrdən deyil, həm də göylərdə nələrin baş verdiyindən xəbərdar olacaqsan.

-Həm göydə, həm yerdə baş verənlərdən xəbərdar olmaq, düşüncəli şəkildə təkrar etdi. Başını qaldırıb sual dolu nəzərlərlə adama baxaraq soruşdu:-Necə, hansı yolla? Belə bir şey ola bilərmi?

-Nədən olmasın? Əlbəttə olar. Bunu sənə mən deyirəm!

-Heç kim olduğunuzu, adınızı söyləmədiz?

-Səbirsiz olma, biləcəksən.

-Nə zaman?

-Qarşıda zamanımız çoxdur.

-Deməki, israrla soruşmaq mənasızdır. Nə deyirəm, siz deyən olsun. Amma yenə marağım mənə üstün gəldi. Çoxmu gözləməliyəm?

-Yaxın zamanda.

-Olsun.

Gülcə artıq israr etməyin mənasız olduğunu anlayaraq könülsüz də olsa razılaşdı və əlavə etdi:

-Siz çox səmimi, dürüst birinə oxşayırsız. Sizi yaxından tanımağı, kimliyinizi öyrənməyi çox istərdim. Söylədikləriniz haqqında da daha çox bilmək, öyrənmək istərdim. Səbrli olun söylədiniz, yəqin ki, indilik sizinlə vidalaşmalıyam.

Bunu deyib əlini qarşısında dayanan adama uzatdı və adam da mehribanlıqla onun əlini sıxdı.

Elə bu an çarpayıdan sıçrayışla qalxdı. Çaşqın nəzərlərlə ətrafına baxdı. İlahi, bu yuxu idimi? Axı əli hələ də isti idi. Səmimiyyətlə əlini sıxdığı, adını belə bilmədiyi, amma onu çoxdan tanıyan biri kimi "sən" deyə müraciət edən, onda doğmalıq duyğusu aşılayan qartal baxışlı adamın əlinin hərarətini hələ də əlində hiss edirdi. Adamın kəskin olduğu qədər də saf, səmimi, mehriban baxışları, uşaq məsumluğu yağan sifəti uzun müddət gözləri önündən getmədi.

Heç yuxuya oxşamırdı gördükləri. Çarpayının kənarında düşüncələr içində xeyli hərəkətsiz oturdu. Az əvvəl elə əynindəki geyimdə gəzirdi o gözəl yerləri. Yalnız indi fərqinə vardı, çox gec olduğundan və

yorğun olduğu üçün yatağına eləcə əynindəki yay geyimində uzanmışdı.

Kim idi bu adam, Ötüken haradır, niyə ona bu sözləri söyləyirdi, bu məlumatları verirdi?

Bəzən qəribə yuxular görərdi. Ən qəribəsi də o idi ki, hər dəfə belə yuxulardan sonra onun həyatında çox mühüm dəyişikliklər baş verirdi. İndi gördükləri isə tamam başqa idi. Elə bil real həyatda yaşamışdı olanları. Bu dəfə onu nə gözləyirdi?

Bədənindən bir üşütmə keçdi. Sanki ruhu titrədi. Hiss etdi ki, bu gördükləri də elə-belə deyil. Böyük bir dəyişikliyə işarədir...

## F Ə S İ L - 2

Adi günlərdən biri idi. Axşam yenicə düşmüşdü. Özünə bir stəkan çay süzüb televizorun qarşısına keçdi. Çox sevdiyi "Şauşenkdən qaçış" filmi nümayiş etdirilirdi. Hər dəfə bu filmə baxanda səbr və ağlın vəhdəti onu heyran edirdi. İnsanlar cani olsa belə düzgün yanaşma onların çoxunu doğru istiqamətə yönəldə bilər. İnsanın daxilindəki qaranlıqda gizlənən işığı yandırmaq, elmə maraq yaradaraq, qəddarlıqdan çəkindirmək olar. Səbr və ağılla istənilən gücə və şərə qalib gəlmək olar. Nəhayət, hansı mühitdə, hansı şəraitdə olursa-olsun, öz mənəviyyatını, şəxsiyyətini qorumaq üçün insan özündə güc tapa bilər.

Film tamaşaçıya bu mesajları verirdi. Baxdığı belə filmlərin təsirindən orada cərəyan edən hadisələr bir neçə gün də gözü qarşısında canlanar, təsirindən çıxa bilməzdi. Onun sevdiyi bir neçə belə film vardı. Hər dəfə televiziya ekranlarında bu filmlər nümayiş etdiriləndə hətta övladları da “ananın filmi başladı” deyərək, onunla zarafatlarından qalmazdlar. O da bu zarafatı təbəssümlə qarşılayar, övladlarına belə düşündürücu filmlərə baxmağı tövsiyyə edərdi. "Onun filmlərinin" televiziya kanallarında nümayişi gecikən zaman isə internet üzərindən axtarıb tapar və baxardı. Hər dəfə belə filmlərə baxanda yeni bir mənəvi güc alardı, düşüncəsi yenilənərdi. Belə filmləri izləmək məntiqlə düşünməyə, doğrü nəticə çıxarmağa kömək edərdi. Çünki, yaşadığı cəmiyyətdə, dünyada çox şey o qədər bayağı, süni, həqiqətlərdən, insanlıqdan, mənəviyyatdan uzaq idi ki, nəinki onun yaşadığı cəmiyyətdə, hətta dünyada baş verənlər onun qəlbini sıxırdı. Elə bil bu dünyada bir küncə sıxılıb qalmışdı.

Telefondan gələn səs onu düşüncələrdən ayırdı. Əlini uzadıb jurnal masasının üzərindəki mobil telefonunu götürdü və açdı. “Facebook”dan tanıdığı dostlarının birindən “messenger”ə bir mesaj daxil olmuşdu. Dostluqda olan bu şəxsi yalnız səhifəsindəki paylaşımlardan tanıyırdı. İlk dəfə idi ki, “messenger”dən yazırdı.

Mesajı açıb oxumağa başladı. Türkiyə türkcəsiylə yazılan yazını oxudu və çaşqın nəzərlərlə baxdığı ekrandan gözünü xeyli müddət çəkə bilmədi. Mesajı təkrar- təkrar oxudu. Yazı belə idi:

- "Hanım kardeşim, öğretmenim. Sadece bana söylenenleri size söylemeği kendime bir borç olarak biliyorum. Benim yazdığım yazının altında zaman-zaman "Çocuk" imzalı yazıları paylaşan kişi yeğenim (48 yaşında ve kendisi bir gazi-dervıştir). Bu gün eve gelir-gelmez: - Dayı o azerbaycanlı şair bayan hangi sayfada duruyor? O benim sayfamda sayfa arkadaşı olarak kayıtlı zaten deyince; Tamam o zaman sana yazdıracağım yazıyı bir şekilde onun da okuması lazım çünki. Dayıcım, belki sen de inanamazsın ama, Ahmet Cevattan ona selam var dedi. O yazıyla Azerbaycana mesaj, özellikle bir bölümü size yönelik olarak bu yüzden verildi. Manevi emanet üzerimde kalmasın bu şekilde iletmiş oldum. Milletimizin bir annesi olmanızdan ötürü, ben de yaştan değil, değerden dolayı kendi annem kibi sayqıyla ellerinizden öpüyorum. Bütün ailenize hürmetler, saygılar sunuyorum. Hayırlı geceler efendim."

Qəribə mesaj idi. Heç nə anlamadı. Çox sevdiyi türkçü, Turançı şair Əhməd Cavad çoxdan ölmüşdü, daha doğrusu öldürülmüşdü. Ona necə salam göndərə bilərdi? Heyrət içində idi. Demək "Facebook" dostunun səhifəsində də bu haqda yazı verilmişdi. Vaxt itirmədən tələsik onun səhifəsinə baxdı. Həqi-

qətən də səhifədə Azərbaycanın vətənpərvər, türkçü, istiqlal şairi Əhməd Cavad haqqında şairin bir şeirindən iki misra əlavə edilərək verilən yazı, "ruhlar belə salam göndərə bilir "cümləsi ilə bitirdi. Deməli, "Facebook" dostunun yazdığı kimi, bu yazı birbaşa ona ünvanlanmışdı.

Xeyli düşündü. Bu günə kimi ona nə belə bir məzmunda yazı ünvanlanmışdı, nə də belə bir xəbər eşitmişdi. Yazının təsirindən çıxa bilmirdi. Axı niyə məhz ona göndərilmişdi bu salam? Məqsəd, sirr nə idi? Bəs bu adamlar kim idi?

Heyrətdən boğazı qurumuşdu. Qalxıb masanın üzərindəki su qrafinini götürdü. Stəkanı əlinə alıb su süzdü. Stəkana süzülən suyun səsi sanki yaddaşını təzələdi. Sudan bir-iki qurtum içib qrafini və stəkanı yenidən masanın üzərinə qoydu.

Aylar öncə gördüyü yuxunu xatırladı. Nədənsə ona indi də elə gəlirdi ki, bütün bu yuxuda gördüklərini həyatda yaşamışdı. Bədənini soyuq tər basdı. Canından bir üşütmə keçdi. İlahi, bu xəbəri verən qazi-dərviş həmin adam olmasın? Göy Türklərindən və başqa yaranmışlardan danışan, "səbrli ol, sən hələ çox şey biləcəksən,"- deyən adam. Bu yazıda sözü çatdırılan qazi-dərviş də qeyb aləmindən salam gətirmişdi. Yuxusunun məzmunu ilə bu mesajda bir uyğunluq gördu. Deməli, həyatında onu yenə hansısa böyük dəyişiklik gözləyirdi.

Artıq sınaqlardan yorulmuşdu. Çünki, hər gördüyü belə qeyri-adi yuxu ona həyatında olacaq böyük dəyişiklik haqqında öncə göndərilmiş bir mesaj kimi idi. Belə yuxuların bəzisi həyatını alt -üst eləmiş, sonsuz əzab gətirmiş, bəzisindən sonra həyatı düzənə düşmüş, bəzisi yeni bir səhifə açmışdı. Gördüyü yuxuların onun həyatında bu qədər böyük dəyişikliklərin xəbərçisi olmasına bəzən özü belə inanmaq istəmirdi. Amma inanmasa belə düz çıxırdı yuxuları.

Bu dəfə isə mesaj təkcə yuxuda deyil, həm də sosial şəbəkə üzərindən verilmişdi.

## F Ə S İ L - 3

Telefona mesajın gəldiyini xəbər verən bildiriş səsini eşidən kimi əlində gördüyü işi bir kənara qoydu. Əlini uzadıb telefonu masadan qaldırdı, açdı və yenə aylar öncə də ona “messenger”dən yazan dostundan yeni mesajın gəldiyini gördü. Başqasından olsaydı bəlkə də işini qurtarmamış oxumazdı. Tez-tələsik mətbəx önlüyünü çıxardı, divardakı asılqandan asdı. Əllərini yuyub, kağız salfetlə quruladıqdan sonra masanın ətrafındakı stullardan birini çəkib əyləşdi. Buradan gələn ilk mesajı aylar keçsə də unutmamışdı. Bu mesaj onu çox düşündürmüşdü. İndi

isə uzun fasilədən sonra ikinci mesaj daxil olmuşdu. Mesajı oxumağa başladı. Yazı belə başlayırdı:

Parol: O I O (SIFIR BİR SIFIR). "Türk kadınının adı var. Türk hanımının adı Gulcedir". Və bir video göndərilmişdi.

"Gülce"- bu kəlməni oxuyan kimi yuxusunu xatırladı. Axı yuxusunda gördüyü adam da ona "sənin adın Gülcədir, Göy Türkləri səni bu adla tanıyır"- demişdi. Deməli, müraciət yenə də bir başa ona ünvanlanmışdi.

Daha sonra bir video görüntünün altında "Oktay Kaynarca - Gülce. Siir: Ömer Lütfi Mete. Seslendirme: Oktay Kaynarca" yazılmışdı. Videonu açdı, dinlədi. Dəfələrlə dinlədi. Ruhu yerindən oynadan bir səs yayılırdı ətrafa. İlahi, bu nə gözəl şeir, bu nə əfəndicəsinə öygü idi. Bir anda səsin və şeirin sehrinə düşdü:

Uçrumun kənarındayım Hızır
Ulu dilber kalesinin burcunda
Muhteşem belaya nazır
Topuklarım boşluğun avucunda
Kaldım barmaklarımın ucunda
Bir gamzelik rüzgar yetecek
Ha itti beni, ha itecek

Uçurumun kenarındayım Hızır
Cihan hazır
Divan hazır

Ferman hazır
Kurban hazır
Uçurumun kenarındayım, Hızır
Güzelligin zülme çaldlğı sınır
Başım döner, beynim bulanır
El etmez
Gel etmez
Gülce`m uzakdan dolanır.

Uçurumun kenarındayım, Hızır
Gülce bir devet
Mecaz değil
Maraz değil
Gülce bir afet
Peri değil
Huri değil
Gülce bir beyaz sihir
Gülce ölümcül naz
Buram buram zehir
Yar gözünde infaz
Bir qamzelik rüzgar yetecek
Ha itti beni, ha itecek
Güzelliğin zülme çaldığı sınır

Uçurumun kenarındayım hızır
Ben fakir
En hakir
Bin taksir

Ateşten
Kalleşten
Mızrakla gürzden
Dabbet-ül arz`dan
Deccal`dan, yedi düvelden
Korku nedir bilmeyen ben
Tir-tir titriyorum Gülce`den
Ödüm patliyor Gülce`ye
bakmakdan
Nutkum tutuluyor, ürperiyorum
Saniyeler gözlerinde birer can
Her saniyede bir can veriyorum...

Şeirin ardından ruhu oxşayan daha bir həzin müsiqi səslənirdi. Musiqini də dönə-dönə dinlədi və musiqi və şeirin təsiri altında dərin düçüncələrə daldı. Verilən dəyər çox böyük idi. Türk qadınının ruhları, qəlbləri yerindən oynadan hüsnə, gözəlliyə, ruha, mənəviyyata, güclü xarakterə sahib olmasına işarə idi. Anladı ki, bu göndərilən mesaj bir türk qadını kimi ona yönəlib. Ondan gözlənilən gözləntilər də çox böyükdür. Yuxusunu xatırladı. "Bu, sənin doğulduğun gündən görəvindir",- demişdi adam. Deməli, bunu yazan da həmin adam idi, bir daha əmin oldu.

Artıq Gülcə adıyla yola çıxarılmışdı. Bu yolu sona qədər getməli idi. Sona qədər! Bilinməyən həqiqətlər dəryasına baş vurmalı idi. Onu bu yola yönəl-

dən qüvvə bunu istəyirdi. Onu da başa düşürdü ki, çoxlarının anlaya bilməyəcəyi bir düşüncə, bir həqiqət aləminə düşmüşdü. Özündə, daha doğrusu düşüncəsində baş verən dəyişiklərə özü belə heyrətlənirdi. Ömründə şeir yazmayan, heç yazmağı belə düşünməyən, hətta şeir oxumağı da o qədər sevməyən Gülcə yaşının bu çağında, yalnız bir il bundan əvvəl birdən-birə sürəkli şeirlər yazmağa başlamışdı. Aldığı ilk qəribə mesajdan sonra hətta Türkiyə türkcəsiylə də şeirlər yazırdı. Sanki Əhməd Cavadın şair ruhu hopmuşdu onun ruhuna. Onun düşüncəsinəmi təsir edirdilər? Anlaya bilmirdi. Yazıb soruşmaq istəyirdi. Nələr baş verir? Axı bu dəyişikliklər açıq-aydındır. Özü- özünü dana bilməzdi axı! Bu qədər söz, düşüncə necə gəlirdi onun beyninə, fikrinə? Özü də həm Azərbaycan, həm də Türkiyə türkcəsiylə. Həm də şeir formasında. Son bir neçə ildə onun həyatında baş verənlər özünü də heyrətləndirirdi.

Barmaqlarını telefonun klavyaturasına toxundurdu. Özündə baş verən bu dəyişiklərinin səbəbini soruşmaq üçün cəsarətini toplayıb, yazdı.

Cavab da özünü çox gözlətmədi. Telefonun ekranında ona verilən cavabda yenidən " O I O (SIFIR BİR SIFIR)" parolunun yazıldığını gördü. Dərhal açıb oxudu:

-Hələ ki, bizdən bu haqda soruşma. Lazım olan anda sənin bilməli olduğun məlumatlar veriləcək. Yaxud səni, sənin olmağın lazım gələn məkana götü-

rəcəyik. Necə götürəcəyik? Onu bizə burax. Sən yalnız düşüncənin ardınca get. Türk düşüncəsinin ardınca...

Söhbət tamamlanmışdı. Yalnız parolun növbəti dəfə ekranda nə vaxt görünəcəyini gözləmək qalırdı.

## F Ə S İ L - 4

Həyatında inanılmaz dəyişiklikdən xəbər verən daha bir yuxunu üç il öncə-2015-ci il iyun ayının 15-də görmüşdü. Üç gün idi ki, anasını itirmişdi. Üç mərasimindən sonra bir günlük də olsa şəhərə dönməyə məcbur olmuşdu.

Anasının ölüm xəbərini başqa bir yas mərasimindən qayıdarkən, günortadan sonra, saat dördün yarısında almışdılar. Və evə çatmamış geri, kəndlərinə dönmüşdülər. Xəbər qəfil olduğundan ehtiyat geyim belə götürməmişdilər. Odur ki, üç mərasimindən sonra qardaşıyla belə qərara gəldilər ki, şəhərə qayıdıb özlərinə və uşaqlara pal-paltar, geyim götürüb, yenə səhər kəndə dönsünlər. Axşamüstü, gələn -gedən azalandan sonra hazırlaşıb kənddən çıxdılar.

Avtomobili oğlu idarə edirdi. Qardaşı qabaq oturacaqda, qardaşının həyat yoldaşı, qardaşının oğlu kiçik İsmayıl və özü isə arxa oturacaqda əyləşmişdilər. Maşın kəndin tozlu yolları ilə irəliləyirdi. Axşamçağının həzin mehi maşının açıq pəncərələrindən

içəri dolur, bir sərinlik, rahatlıq gətirirdi. Heç kəs sükutu pozmaq istəmirdi. Kim bilir, hər kəs ürəyində nələr düşünürdü. Hətta dil boğaza qoymayan, sualı sual dalınca yağdıran balaca İsmayıl da neçə günün yorğunluğunun təsirindən mürgüləyirdi. Danışmağa heyi qalmamışdı. Maşının təkərləri hərdən kəndin nahamar yollarındakı çala-çuxura düşərək onları atıb -tuturdu. Bu zaman İsmayıl yarıyuxulu gözlərini açaraq ətrafa baxır, yenə də yuxunun əlindən yaxasını qurtara bilməyərək mürgüləməyə davam edirdi.

Təxminən 40 dəqiqədən sonra maşın asfalt yola –"İpək yolu"na çıxdı. Sağa dönərək Bakıya doğru yol aldı. Arxada görünən, qürub edən Günəşin zəif şəfəqləri aşağıya doğru süzülürdü. Bu əsrarəngiz mənzərədə də bir hüzn vardı.

Üç gün öncə çox sevdiyi anasının da həyatı əbədilik qüruba enmişdi. Sanki, ömrünə qaranlıq çökmüsdü. Elə bil həyatının Günəşi sönmüşdü. Canından çox sevdiyi atasını itirdikdən sonra təsəllisi anası idi. Nur üzlü, şirin sözlü anası. Artıq o da həyatda yox idi. Necə, kimdən təsəlli alacaqdı? Fikirlər yaxasından əl çəkmək bilmirdi. Bu düşüncələr içində şəhərə qədər olan iki saatlıq yolu necə gəldiklərinin fərqinə belə varmadı.

Maşın yaşadıqları evin həyətində dayandı. Maşından yalnız o endi. Sabah səhər yenidən bir yerdə kəndə qayıdacaqları barədə qərarlaşdılar:

-Oğlum, sən də dayıngildə gecələ. Sabah səhər tezdən gələrsiz, məni də götürərsiz qayıdarıq kəndə. Vaxt itkisi olmasın.

-Yaxşı ana, necə məsləhətdir elə olsun.

Razılaşdılar. Sağollaşıb onlardan ayrıldı.

Evlərinə yaxınlaşaraq əl çantasından açarı çıxarıb qapını açaraq içəri keçdi. Dəhlizin işığını yandırdı. Əl çantasını asılqandan asdı, ayaqqabılarını çıxarıb ayaqqabı dolabına qoydu. Sonra asılqandan asdığı çantanı da götürüb birbaşa qonaq otağına keçərək divanda əyləşdi. Çox yorulmuşdu. Başında da neçə günün yorğunluğundan küt ağrı var idi. Başını əllərinin arasına alıb xeyli bu vəziyyətdə oturdu. Qalxıb çay qoymağa belə taqəti qalmamışdı. Amma yayın istisində yol gəldikləri üçün çox susamışdı. Yerindən qalxdı, ayaqlarını sürüyə-sürüyə mətbəxə keçərək qaz pilətəsini yandırıb çay qoydu. Sonra vanna otağına keçərək əl-üzünü yuyub bir az sərinləndi. Yenidən gəlib divanda əyləşdi.

Vaxt durmadan gedirdi. Sabah səhər yola çıxana kimi lazım olan əşyaları, geyimləri bir yerə toplamalı idi. Həvəssiz qalxıb işə başladı. Lazım olan paltarları bir yerə yığdı. Kitab dolabının ən üst bölməsinə qoyduğu Quran kitabını da götürməyi unutmadı. Həyatını fədakarcasına ailəsinə, övladlarına həsr etmiş, imanlı, inanclı anası Quranı dinləməyi çox sevərdi. Bəzən qızından Quran oxumasını xahiş edərdi. Oxunan Quranın sədaları altında gözlərini

yumar, səssizcə dinləyərdi. Anası illərin xəstəsi kimi yatağa məhkum olsa da, inamını, insanlığını, mərhəmətini bir an belə itirməmişdi. Həmişə şükr edərdi, dilindən dua əskik olmazdı. Çox güclü ruhu vardı anasının. Ömrünün son gününə kimi ondakı bu ruhun şahidi olmuşdu.

O özü də az sınaqlardan keçməmişdi. Elə bil anası ruhundan ona da pay vermişdi. Çox sınaqlara, çətinliklərə güclü ruhu sayəsində sinə gərə bilmişdi. Onu doğru yolundan heç bir çətinlik döndərə bilməmişdi.

Müasir düşüncəli bir qadın idi. Kitab oxumağı çox sevərdi. Müxtəlif mövzularda olan kitablar oxuyardı. Mütaliədən yorulmazdı. Dünyada baş verən bütün yeniliklərlə tanış olmağa çalışardı, gündəlik xəbərləri də izləməyi unutmazdı. Müasir fikirli olsa da, anası kimi Yaradanına çox bağlı idi. Allahını çox sevər, göndərdiyi Quranı sadəcə ərəbcə oxumaqla kifayətlənməzdi, həm də mənasını oxuyub, öyrənib, anlamağa çalışardı. İndi də Quran kitabını götürməkdə məqsədi anasının ruhu şad olsun deyə oxumaq idi. Sağ ikən olduğu kimi, anası bəlkə də ruhuyla da Quranı dinləyəcəkdi.

O, eyni zamanda klassik musiqiləri dinləməyi, baletə, operaya tamaşa etməyi də sevərdi. Muğam qədər caz musiqisini də eyni şövqlə dinləyərdi. Müxtəlif mövzularda çəkilmiş filmləri də izləməkdən yorulmazdı. Zövqlə geyinərdi. Bəzən ət-

rafdakılar onun həm dərin dini inancını, həm belə dəbli geyim tərzini və müasir düşüncəsini bir arada görənlər ona təəccüblə baxırdılar. Özü isə bu xüsüsiyyətlərinə adi, normal bir insan yaşamı, həyat tərzi kimi baxırdı.

O, həm də sosializmin hökm sürdüyü bir sistemdə, cəmiyyətdə doğulub, böyümüşdü. Kənd mühitində doğulmasına baxmayaraq, müasir düşüncəli bir ailədə tərbiyə almışdı. Eyni zamanda dini inancı çox olan bir ailədə. Acının, şiddətin nə olduğunu bilməmişdi. Uşaqlığında, gəncliyində qayğısız, xoşbəxt, sevgi ilə əhatə olunmuş bir həyat yaşamışdı. Həm müasirliyin, həm də dini inancın bir yerdə yaşandığı bir ailənin ruhunu daşıyırdı. Bu onun mənəviyyatına, yaşam tərzinə də çox böyük təsir etmişdi. Həm dini, həm müasir görüşləri bir düşüncədə, bir ruhda birləşmişdi. Ali təhsil almış, dövlət işində çalışırdı. Anası və anasının valideyinləri dini ruh daşıyıcıları olmuşdu. Atası və atasının valideynləri isə müasir fikirli, dövrünün öncülü, müasiri olan insanlar olmuşdu. O isə hər iki xarakteri özündə birləşdirmişdi. Gen yaddaşında kodlaşan xüsusiyyətlər, hər iki ailənin fərqli olan yaşam tərzi onun xarakterini formalaşdırmışdı. Çoxuna qəribə gələn, bir qədər fərqli xarakteri buradan qaynaqlanırdı.

Anasının nurlu siması gözü önündə canlandı, qeyri-ixtiyari olaraq gülümsədi. Sanki anası yenə də bu sözləri söyləyirdi:

-Mən sıradan bir ana deyiləm.

Onun bu sözlərinə övladları həmişə gülümsəyərdilər. Bəzən qucaqlayıb nurlu üzündən öpərdilər. Doğrudan da sıradan biri deyildi nur üzlü anası.

İlahi, bir daha onun nurlu üzünü görməyəcəkdimi? Bir daha ondan "can bala" kəliməsini eşitməyəcəkdimi? Bunları düşündükcə ürəyinə bir sıxıntı gəldi. Elə bil ürəyinin rahatlığı da anasıyla getmişdi.

Artıq caydan qaynamışdı. Çay dəmləyib, bir-iki stəkan içdikdən sonra susuzluğu ilə bərabər yorğunluğu da bir az keçdı.

Evdə tək olduğundan sakitliyi yalnız özü pozurdu. Tələbə olan qızı təhsil aldığı universitetdən müəllim və tələbə heyəti ilə birlikdə təcrübə üçün bir aylığa rayonların birinə getmişdi. Həyat yoldaşı isə işiylə əlaqədar olaraq iki-üç günlüyə başqa şəhərdə ezamiyyətdəydi. Oğlu isə dayısıgildə gecələyəcəkdi. Fikirlər içində gecəni yarı eləmişdi. Artıq yatmaq lazım idi. Sabah səhər yola çıxacaqdılar. Çox yorğun olduğundan heç əynindəki nazik yay paltarını belə dəyişmədi. Yatağın örtüyünü açmadan eləcə çarpayıya uzandı. Yorğunluğun təsirindən anındaca yuxuya getdi. Nə qədər yatdığının fərqinə varmadan göz yaşları içində yuxudan ayıldı. Anasını görürdü yuxusunda. Çox qəribə bir yuxu idi. Anası yenicə dünyaya gətirdiyi oğlan uşağını ona verdi. O isə anasının ona verdiyi körpəni alıb bağrına basdı. Və göz yaşları içində anasına baxdı.

İlahi, bu nə yuxu idi?!

Yuxunun təsirindən çıxa bilmirdi. Düşüncəli halda gözlərini tavana dikdi. Birdən gözləri önündə tavana yaxın, havada asılmıç halda dayanan qanadlı bir insanın ona çox ciddi nəzərlərlə baxdığını gördü. Yenəmi yuxu görürdü? Gözlərini yumub açdı. Gördüyü bu varlıq yenə də gözlərinin önündən getmədi. Yox, yuxudan ayılmışdı artıq. Yenidən gözünü tavana doğru çevirdi. Yenə gözü önündə idi həmin varlıq. Çox fərqli görkəmi olan bu varlıq həm də çox ciddi nəzərlərlə ona baxırdı. Bu qanadlı insanın üzündə sözlə ifadə olunmayacaq dərəcədə qəribə və ciddi bir ifadə vardı. Artıq qorxmağa başladı. Özündən ixtiyarsız, qışqıraraq yataqdan sıçrayışla qalxdı. Elə bu anda qanadlı insan gözləri önündən yox oldu.

Daha yatmaqmı olardı? Durub yatağında oturdu, düşüncələrə daldı. Bəlkə bir günlük də olsa Bakıya dönməsini anasının ruhu da duymuşdu. Axı indicə yuxusunda da onu görürdü. Bəlkə, indi gördüyü də elə anasının ruhuydu? Amma kişi simasındaydı gördüyü bu varlıq. Fikirləri qarışdı. Beynində yaranan suallara heç cür cavab tapa bilmədi.

Yaxınlıqdakı məsciddən verilən sübh azanının səsi onu düşüncələrdən ayırdı. Yenə gördüyü yuxudan sonra eşitdiyi azan səsi. İlahi, bu yuxu da nəyə isə işarədir. Amma nəyə?! Hələ ki, özünə ünvanladığı suala cavab verə bilmədi.

## F Ə Sİ L - 5

Bir yaz günüydü. Yaz olmasına baxmayaraq açıq pəncərədən içəri dolan soyuq külək tül pərdəni yellədir, hərdən də pərdəni onun üzünə, saçlarına toxunduraraq sanki sığal çəkirdi. Çox kövrəlmişdi. Amma səbəbini bilmədiyi bir kövrəklik idi bu. Ürəyi idi ağlayan. İllərdir ovuda bilmədiyi ürəyi. Ona həmdəm, həmdərd olan ürəyi. Çox dərdləşərdi ürəyiylə. Bu gün isə başqa idi duyğuları. Elə bil ürəyi onunla dərdləşmək rdi. Nə isə söyləmək istəyirdi. Ürəyinin hıçqırığı gözlərində yaşa dönub yanaqlarında açdığı cığırla aşağı yuvarlanmağa başladı. İxtiyarsız olaraq başını pəncərəyə söykədi. Gözlərindən süzülən yaş damlaları pəncərə önünə qoyulmuş dibçəkdəki bənövşənin açmış çiçəklərinin ləçəkləri üzərinə düşür və ləçəklərini isladırdı. Çiçəyin ləçəkləri sanki acı göz yaşlarından diksinərək yarpaqlara sığınır, qorunmağa çalışırdı. Onsuz da yaranışdan boyunları bükük olan bu zərif çiçəklər yəqin ki, bir daha dərdlə yüklənmək istəmirdilər. Əlinin arxası ilə göz yaşlarını sildi. Dərindən ah çəkib başını pəncərədən ayırdı. Baxışları uzaqlara dikildi. Bu gün onun da əhvalı çöldəki havaya bənzəyirdi. Ürəyi küləyin əsdirdiyi yarpaqlar kimi titrəyirdi.

Birdən sanki ürəyi dilə gəldi:

Hanı mənim gözəl anam?

Dərdlərimə candan yanan,

Sənsiz olub qəlbim viran,
Həyat dadsız, qəlb pərişan,
Anam, sənsiz həyat yalan!

Misralar süzülüb ürəyindən dodağına tökülür, pıçıltıya çevrilirdi. Anasının ruhunu yanında hiss etdi bir anlıq. Qarışıq duyğular içində çaşıb qaldı. Elə bil anasının ruhu onun bədəninə daxil olaraq ruhuna qarışdı. Birdən aylar öncə gördüyü yuxunu xatırladı. Anası vəfat etdikdən üç gün sonra görduyu bir yuxuda yenicə dünyaya gətirdiyi bir oğlan uşağını ona vermişdi. O da göz yaşları içində uşağı anasından alıb bağrına basmışdı. Aman Allah! Bu uşaq şeirmiydi?! İlk misralar da anasını axtarırdı elə bil. Beləydi, yuxunun mənası bu idi. Aylardır düşünüb durduğu, gördüyü yuxu çin olmuşdu.

O gündən sürəkli şeirlər yazmağa başladı. Bir gün bu sirri bacı-qardaşlarına açdı. Şeirlərindən bir neçəsini də onlara oxudu. Çox bəyənmişdilər onun şeirlərini. "Gözəl yazırsan" söyləmişdilər. Kiçik qardaşından təklif gəldi :

-Bacı, bəlkə sənə "Facebook"da bir profil açaq? Şeirlərini  paylaş.

Təklifi hamısı bəyənmişdi. Beləliklə, şeirlərini "Facebook" səhifəsindən paylaşdı və yavaş-yavaş yazdığı şeirlərlə maraqlanan insanların sayı artmağa başladı.

Bir gün isə onun mənəvi dünyasına böyuk təsir edən, düşüncəsinə yeni düşüncə qatan, ona Gülcə deyə müraciət edən "Çocuk" deyilən birinin "Facebook"dan ona ünvanlanan mesajını aldı.

Həyatının bu qısa kəsimində bütün bu yaşadıqları, yəqin ki, bu tanışlığa ciddi hazırlıq imiş. Həmişə ona da elə gəlirdi ki, sanki onun həyatı proqramlaşdırılmışdır və o da getdiyi həyat yolunda bu proqrama uyğun möhkəm addımlarla irəliləyir. Bundan sonra isə Çocuğun söylədiyi kimi həyat yoluna Gülcə adıyla davam edəcəkdi. Bu qədər təsadüf ola bilməzdi. Yaşadığı hadisələrin, başına gələnlərin də birindən digərinə keçid alması ona bunları düşünməyə əsas verirdi.

## F Ə S İ L - 6

Yenə düşüncələrə dalmışdı Gülcə. Qazi-dərviş! Gözləri önünə çiynində yalnız bir heybəsi olan, ulusbaulus, diyarbadiyar gəzən bir dərviş canlandı. Məmləkətini, millətini, soy-kökünü, kimliyini anladan bir dərviş. Söz yükünü daşıyan, rahatlığın, şəxsi həyatın nə olduğunu unutmuş, ömrünü türklüyə, millətinə, vətəninə, insanlığa həsr etmiş biri. Çoxlarının xəbərsiz olduğu bilgilərə sahib olan, bəlkə çoxlarının inanmayacağı dərəcədə hadisələrə təsir edən, yerlə göy arasında yolçu olan, bəlkə də kainatın çox sirrlərindən xəbərdar olan biri. Hələ yeni tanımağa

başladığı, "Çocuk" adıyla özünü ona təqdim edən bu adamın həyatını təsəvvür etməyə çalışırdı.

Dərvişlərin həyatının qeyri-adi olması, hətta əbədi həyata necə qovuşmağın sirrini belə bilmələri, əfsanələrə görə Xızır peyğəmbər kimi əbədi dirilik suyunun sirrlərindən belə agah olmaları haqda oxumuşdu. Deyilənə görə dərvişlərin dirilik suyunun sirrlərinə vaqif olmaları Makedoniyalı İsgəndəri belə vaxtilə rahat buraxmayıbmış. Əbədi həyatın sirrini öyrənmək üçün İsgəndər də o zamanlar Əhəmənilər imperiyasının hakimiyyəti altında olan indiki İran ərazisinə yürüş edir. O dövrdə bu ərazilərdə yaşayan, İskəndərin yürüşündən xəbər tutan dərvişlər sirrlərini verməmək üçün Hindistana qaçırlar. İsgəndər də əbədi həyatın sirrini özləriylə Hindistana aparan dərvişləri tapmaq ümidiylə Hindistana yürüş edir və bu sirrə vaqif olmamış, elə Hindistan səfərindən geri dönən zaman yolda vəfat edir. Bu gün də Hindistan ərazisində həmin dərvişlərin nəsil şəcərəsindən olan insanların yaşadığı söylənilməkdədir.

Dərvişlər haqqında düşünərkən Şəms Təbrizini də xatırladı Gülcə. O da zamanında Mövlanə Cəlaləddin Rumunin həyatını dəyişmişdi. Çox qəribə idi, həmişə dərvişlərin həyatı, düşüncəsi maraqlandırmışdı onu. Bəlkə də dərvişlər kimi çox inanclı olması, ruhən onlar kimi Tanrısına daha çox yaxınlaşmaq istəyindən doğurdu bu maraq. Çox oxumuşdu onların həyatından, inancından, qeyri-adi gücə, qabiliy-

yətə malik olduqlarından. Bu gün, XXI əsrdə isə bir qazi-dərviş sosial şəbəkə üzərindən, sanki qeyb aləmindən ona xəbərlər ünvanlayırdı. Nağıla bənzəsə də, danılmaz həqiqət idi bütün bunlar. Ona ünvanlanan xəbərlər əsasən "O I O (SIFIR BİR SIFIR)" paroluyla, bəzən "Çocukdan al haberi" başlığı ilə ünvanlanırdı. Ona ilk müraciəti ünvanlayan şəxsin səhifəsindən paylaşılırdı bu müraciətlər. "Çocukdan al haberi..." Çox sevərdi bu ifadəni. Bu iki insanı bir-birindən ayrı təsəvvür edə bilmirdi. Birinin fikri digərinin fikrini tamamlayırdı. Bu səhifədə paylaşılan düşüncələr, paylaşımlar çox fərqli idi. Fərqli olduğu qədər də diqqət çəkən idi. Müntəzəm olaraq bilgilər paylaşılırdı. Gülcə Göy Türklərinin başqa bir planetdə yaşamasını, bizim dünyaya zaman yolçuluğu etmələrini yalnız onun verdiyi məlumatlardan öyrənmişdi. Bu səhifədə paylaşılan bütün məlumatları oxuyardı. Onun üçün yeni bir aləm açılmışdı. Sanki, illərlə axtardığı, ruhunun gəzdiyi bir aləmə qovuşmuşdu. Fikrindən bəlkə də çoxlarında gülüş, bəlkə də onu anlamamaq səbəbindən təəccüb doğuracaq bir fikir keçdi: Nə qədər şanslıymış. İsgəndər axtardığı dərvişləri tapmamışdı. Amma gözləmədiyi halda bir qazi-dərviş onu tapmışdı. Özü də XXI əsrdə, müasir zamanda. Bu düşüncələr içində azca dodaqları qaçdı, öz-özünə məmnunluqla gülümsədi.

Bəlkə də qazi-dərvişin onun da həyatındakı qəribəliklərdən xəbərdar olduğu üçün idi bu rastlaşma.

Axı aylar öncə gördüyü yuxuda da “səni doğulduğun gündən tanıyırıq” deyirdi adam. Çünki ona göndərilən mesaja qədər dərvişlər kimi dünya nemətlərində gözü olmayan, Allahına sonsuz sevgi ilə bağlı olan, haqq yolçusu bir Şeyxin də onun həyatında böyük təsiri olmuşdu. Bütün çətin anlarında həyatdaykən nəsihəti, təsəllisi və dualarıyla, ölümündən sonra isə bu nurani, pirani adamın onu ruhuyla qoruduğunu həmişə hiss etmişdi. Vaxtilə çox sevdiyi, ölümündən sonra da həmişə hörmətlə xatırladığı bu insana “Şeyx Həmid baba” deyə müraciət edərdi. Kiçik yaşlarında da onun söhbətlərini çox dinləmişdi. Dərvişlərin qeyri adi həyatından, bacarığından bəhs edən söhbətləri indi də yaddaşındaydı. Dərvişlərin bir cam su, bir parça çörəklə qırx gün özünü və yaradanını dərk etmək üçün gizlinə çəkilmələrindən, bir anda çox böyük məsafə qət etmələrindən, bu bacarıqlarının ilahi bir qüvvə tərəfindən verilməsindən bəhs edən söhbətlər yaddaşına həkk olunmuşdu. Bir də el arasında onun qəribəlikləri, qeyri-adi bacarıqları haqqında söhbətlər dolaşardı.

Bir qış günü bir məclisdə olan Şeyx Həmid baba burada olan insanların içində ona inanmayanların da olduğunu hiss edir. Qış fəsli olduğundan odun sobası yanırmış. Şeyx Həmid baba sobanı açıb oradan yanar közü əliylə götürərək ağzına qoyur və odu ağzında söndürür. Nə əli, nə ağzı yanır. Sonra isə yalın ayaqlarla közün üzərinə çıxır. Yenə də ayaqlarına

heç bir şey olmur. Hər kəs heyrət içində ona baxarkən, məclisdəki adamlardan biri ona inanmadığını, bunu ona söyləmək istədiyini etiraf edir və gördüklərindən sonra Şeyx Həmid babanın necə biri olduğunun şahidi olur.

Hətta, sovet dönəmində belə dövlət adamları ona toxunmaqdan çəkinərmişlər.

Şeyx Həmid babanın zikrləri də dillərə düşmüşdü. Bəzən məsciddə səhərə kimi zikr söyləyən Şeyxin səsi cəmaya yüksələrmiş.

Belə bir dini inancı olan Şeyx Həmid baba həm də elmin, təhsilin tərəfdarı idi. Hətta qızların təhsil almasını da təqdir edərdi. Həm ona, həm də onun bacılarına oxuyun, təhsil alın, insanlığa xidmət edin, işinizin peşəkarı olun, elmli, təhsilli insanın Yaradanın, yaradılışın mahiyyətini dərk etməsi də cahillikdən uzaq, ağlın, düşüncənin sayəsində olar,-deyərdi. Təhsillərini davam etdirmək üçün ali məktəblərə üz tutanda da onları valideynləri ilə bərabər xeyir-dua ilə yola salan yenə elə Şeyx Həmid baba idi.

Bəlkə Gülcənin eşitdikləri, gördükləri və yaşadıqları idi onun marağını çəkən, bəlkə şüuraltı yaddaş idi onu bu sirli aləmə baş vurmağa sövq edən. Həmişə mistik, ruha yansan hadisələr, hekayələr marağını çəkər, hey nəyisə araşdırıb, axtarardı.

Həyatı da qəribəliklərlə dolu idi. Valideynləri onların dünyaya gəlişini on il gözləmişdilər. Həm də bu Şeyx ocağına bağlı olmuşdular, övladları dünya-

ya gələndən sonra bu ocağa bağlılıq daha da artmış, həmişə bu ocağı ziyarət etmişdilər. Heç vaxt bu ocaqla əlaqəni kəsməmişdilər. Həyatda çox çətinliklərlə qarşılaşan Gülcə də hər dəfə çətinə düşəndə bu insanın xeyir-duasına, məsləhətinə ehtiyac duymuş və hər ziyarətindən sonra qarşılaşdığı çətinlikləri dəf etmək üçün mənəvi güc almışdı.

İllər keçmiş, tale yenə də onu bir qazi-dərvişlə rastlaşdırmışdı. Və bu adam ona "biz səni də, səni dünyaya gətirən ananı da çox gözəl tanıyırıq" deyirdi. "Doğulan gündən sən türk ruhunun iziylə getməyə görəvlisən" deyirdi. Bu görəvi necə yerinə yetirəcəyini, onun həyatının səmtinin hansı tərəfə yönələcəyini isə heç özü də bilmirdi. Onun milli-mənəvi dəyərlərə, milli ruha bağlılığı çoxlarına məlum idi. Düşüncəsi, fəaliyyəti həmişə bu yönümdə olmuşdu. Bəlkə ona görə taleyi onu böyük türk ruhundan söz açan bu adamla qarşılaşdırmışdı. Tanrıya böyük inancıyla bərabər, milli türk ruhunun da güclü olmasından, vətəninə sonsuz sevgisindən xəbərdar idi rastlaşdığı adam. Türk ruhu eyni idi: istər Qafqazda yaşayan, istər Anadoluda yaşayan, istər Asiyada yaşayan türk olsun. Fərq etməzdi dünyanın harasında yaşayırsa yaşasın. Bundan sonra özündə güclü türk ruhunu daşıyan Gülcə kim bilir neçə min il öncədən-gələcəkdən, yaxud neçə əsr geridən-keçmişdən xəbərdar olacaqdı. Necə? Bunu zaman göstərəcəkdi. Bələdçisi olan qazi-dərviş, yəni Çocukla yolu artıq

bir idi. Və bu yolu getməyə artıq hazır idi. Həyatına, düşüncəsinə təsir edən bu qazi-dərviş də, kim bilir, onu türklük adına nələr yaratmağa sövq edəcəkdi. Yaradanına olan böyük inamdan, sevgidən, Şeyx Həmid babanın aşıladığı inancdan, ruhani fikirlərdən qaynaqlanan düşüncəsiylə artıq özündən sonra əsrlərlə qalacaq bir tikili abidə-minarə inşa etdirmişdi. Bəlkə bundan sonra yazılı abidə qoymaq da vardı qismətində. Bu düşüncələr içində ixtiyarsız olaraq baxışları  telefonun ekranına yönəldi. Onda maraq doli bir səbirsizlik yarandı. Həyatında çox qəribəliklər, nağıla bənzər həqiqətlər yaşamışdı. Yəqin ki, bu da həyatının növbəti həqiqəti idi. Buna əmindi. Səbrlə telefonuna parolla başlayan mesajın gəlməsini gözləmək qalırdı.

## F Ə S İ L - 7

Yenə cavab çox gözlətmədi. Telefona yeni mesaj daxil oldu. Açdı və "O I O (SIFIR BİR SIFIR)" parolu ilə başlayan yazını gördü.

-Artıq yola çıxmanın zamanıdır, Gülcə. Bizim sehirli iksirimiz inanmaqdır. Siz də inandığınız ücün bizdən xəbərdarsınız. Bundan sonra da inamınızı itirmədiyiniz müddətcə bizi yaxından tanıyıb, kimliyimizdən, yaşamımızdan, nə işlər gördüyümüzdən xəbərdar ola biləcəksiz, hətta bizimlə görüşə biləcək-

siz, bizimlə zaman yolçusu ola biləcəksiz. Sadəcə inananlar Göy Türk bəylərini və xanımlarını tanıya bilər.

Mesajı oxuyar-oxumaz telefona gələn görüntülü zəngdən sonra ekrandan ona baxıb gülümsəyən, eynilə yuxusunda gördüyü qartal baxışlı adam gözləri önündə dayandı. Elə bil özü də hadisələrin içində olduğu bir film izləyirdi. Lap 3D filmlərində olduğu kimi. Deyəsən, inamı, düşüncəsi zaman baryerini aşmışdı artıq. Ekran arxasında gördüyü Çocuğun yanında dayanan adamlardan biri:

-Könlü Rahat,-deyə səsləndi.

Çocuk həmən adama sarı döndü:

-Bilirəm, getmək zamanıdır.

Sonra Çocuk Gülcəyə tərəf dönərək:

-Sən də bizimlə gəl,- dedi və əlavə etdi:- Mənim Göy Türkcədə adımın qarşılığı Könlü Rahatdır.

Gülcə yenə də vermək istədiyi sualı səsləndirməyə imkan tapmamış cavabını almışdı.

Gülcə ekran arxasından onların bir anda havada uçar kimi sürətlə durduqları yerdən uzaqlaşdıqlarını gördü. Çocuk geri dönərək səsləndi:

-Düşüncənlə bizə çatmağa çalış, Gülcə. Sən bunu bacaracaqsan. Mən sənə Göy Türklərin yaşam tərzini anladacam,- söyləyərək bir anda telefonun ekranının arxasında Gülcənin gözləri önündə yox oldular.

Az sonra Gülcəyə telefonla belə bir yazı göndərildi. Yenə də eyni parolla göndərilmişdi. Yazi belə idi :

-Göy Türklərində yaşam bu günə görə çox bəsit və sıxıcı gələ bilər. Biz içərisində yaşadığımız zaman diliminin və məkan parçasının vasitəsi və razılığı ilə sosiallaşaraq yaşayırıq. Biz sülhsevərik. Amma savaşmaqdan da çəkinmərik. Bizim savaşımız dirənişimizdir. Düşmənlərə qarşı, haqsızlığa qarşı dirənişdir. Biz dirənməklə qazanarıq.

Bizdə ailə həyatı törəyə görədir. Dişi ünsürlər, ya da erkək ünsürlərin həyatı alış-veriş olaraq deyil, paylaşmaq taxtında oturduqları üçündür. Bizdə bölünərək yox olmaq yerinə, yaşayaraq və yaşadaraq birlikdə var olmaq təməli əsasdır. Bizdə pul-para yoxdur. Bizlər alıb satmarıq. Yəni bizdə ticarətlə keçinən bir sinif yoxdur. Bizdə sosial cəmiyyət piramida şəklində deyil, əsirlik bir çinarın həlqələri kimi, üzü tək bir mərkəzə dönmüş tavaf vəziyyətindədir. Bizim fiziki həyatdakı rolumuz, mövqeyimiz ləyaqətimizə görədir. Hər Göy Türkü əsgər doğular. Fərq etməz, qadın ya kişi olsun. Bizim planetimizdəki və zamanımızdakı yaşadığımız yerlər təbiətdən bir ot qoparmadan və bir mismar vurmadan inşa edilmişdir. Bizim evlərin divarları yoxdur. Buna baxmayaraq bizlər bir-birimizin divarsız evlərinin içini görmərik. Bu bizim əxlaqa ziddir. Bizdə oğurluq yoxdur. Bizim cəmiyyətdə günahkara cəza yerinə günahın dərəcəsinə görə cəza kəsərik. Amma biz günahkarı deyil, onu bu günaha sövq edən səbəbləri aradan qaldırmağa çalışarıq. Qiymətli Gülcə, bizim ya-

şadığımız yaşam və zamanda hər şey hürr iradə, yaşama sevinci və ən önəmlisi ağıl ilə "siratül-müstəqim"*[1]də var olmaq üçün çalışmaqdır.

Göy Türk bəyiylə rastlaşmağı və onunla eyni dalğa tezliyinə köklənməyi sən özünün düşüncə gücünlə bacardın. Biz bir sual verdik, sən də cavab verdin. Bizi bir araya gətirən tilsim, damarlarımızdakı əsil qanda gizlidir. Göy Türkləri damarlarında axan qanda daşıdıqları gücü lazım olduqda istifadə etmək bacarığına sahibdirlər. Bizim fiziki halımız indiki zaman və yer kürəsi ölçülərinə görə dünya şərtlərinin qızıl qaydasına tam uyğundur. Yəni, qaşımız, gözümüz, əlimiz, qolumuz, boyumuz dünya insanına uyğundur. Hər hərəkətimiz, davranışımız ölçülü zamanın, məkanın şərtlərinə uyğundur. Bəs bizim fərqimiz nədir?

Məsələn, sən uçurumdan atıldığın zaman mən də arxanca atılaram. Səndən fərqli olaraq biz uçmağı bilirik. Amma "mənə də uçmağı öyrədə bilərsinizmi?" kimi fikrə qapılma. Mənim səni uçurmama ehtiyac yoxdur. Biz bilirik ki, sən lazım gəldikdə inam və düşüncə gücüylə uça bilirsən. Bizim zaman qatları içərisində nələri dəyişdirə bildiyimizi bilmək istəyirsənsə, gərək dünya tarixinin son doqquz min illik tarixindəki bizim həqiqətlərdən xəbərdar olasan. Bizlər Türk Millətinin var olacağının şahidləriyik. Sizə belə

[1] doğru yol

anladım, biz sabah lazım gələrsə, bu dunyanı istənilən birinin əlindən alarıq. Amma biz insana düşmən deyilik. Bizim işimiz insanları qorumaqdır.

Dəyərli Gülcə, bunlardan xəbərdar olmanı istədik. Səninlə ilk tanışlığımız da, sonrakı görüşmələrimiz də təfəkkürlə oldu. Unutmayın, siz daşıdığınız ruha, xarakterə malik olmasaydınız bir araya gəlmək mümkün olmazdı. Yeri gəlmişkən onu da deyim ki, Göy Türklərində danışıq dili yoxdur, düşüncə dili vardır. Hər kəs bir- birinin beynindən keçənləri bildiyi üçün onlar arasında gizli, qapalı bir şey olmaz.

Gülcə elə bil az öncə içində olduğu başqa bir zaman dilimindən geri döndü. Və bu dünyada yaşayan bir türk insanı kimi yenidən Çocuğun söylədikləri məlumatları təxəyyülündə canlandıraraq turk millətinin kimliyini daha dərindən dərk etməyə çalışdı.

Bu dünyada yaşadığı ömür kəsimində özünün də dünya, buradakı yaşam haqqında düşüncəsi artıq formalaşmışdı. Çocukla rastlaşdıqdan sonra əldə etdiyi biliklər tamamilə yeni idi. Dünyaya başqa rakursdan baxmağa başlamışdı. Gülcə beynində, düşüncəsində, yaddaşında bu fərqli iki dünyanın sintezindən yeni bir dünya yaratmağa çalışırdı. Və düşüncələr içində birdən çox sevdiyi, dönməz iradəyə malik olmuş, dünyanın öyrənməyə çalışdığı filosof şair İmadəddin Nəsimini xatırladı. Hətta ürəyinin dərinliklərində bir fəxarət hissi də duydu. Axı o da

Nəsimin yurdu, Azərbaycan ədəbiyyatının beşiyi sayılan, Şamaxı şəhərinin də yerləşdiyi Şirvan bölgəsində doğulub boya-başa çatmışdı.

Nəsiminin dillər əzbəri olan "Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam" misraları da bəlkə özünə laməkan deyən şairin də Göy Türkləriylə eyni ruhu daşıdığının xəbərçisi imiş. Sufilik cərəyanının bir qolu olan Hürufilik cərəyanı dərviş düşüncə tərzini də özündə daşıyır axı. Özünə laməkan deyən şair də bəlkə Göy Türkləri kimi zamanın istənilən anında, qalaktikanın istənilən nöqtəsində özünə məkan seçə bilməsinə işarə edirmiş. Bəlkə də, türklərin yaşadığı hər iki məkandan xəbərdar olduğuna işarədir bu misralar.

## F Ə S İ L - 8

Çocuk da iki dünyanın adamı idi. Bizim yaşadığımız dünyanın –Yer kürəsinin və türklərin əzəli yurdu olan, hal-hazırda Göy Türklərinin yaşadığı Ötükenin. Bizim dünyamızdan 5500 il zaman məsafəsi olan gələcəyə, artıq min illərlə bizdən uzaqlaşmış keçmişə gedib-gələ bilən biri idi. Həm də Ayın qaranlıq üzü də bizimdir, yəni Göy Türklərinin ixtiyarındadır,-söyləyirdi.

Gülcə bir Yer adamı kimi marağını heç cür gizlədə bilmirdi. Odur ki, soruşmadan, tez-tez suallar vermədən dura bilmirdi.

Yenə Çocuğa növbəti sualını ünvanladı:

-Necə olur ki, bizdən 5500 il zaman məsafəsində olan gələcəyə gedib-gələ bilirsiz, ya da bizim yaşadığımız zamandan keçmişə gedə bilirsiz; uça bilirsiz, görünməz ola bilirsiz, yaxud başqa bir formaya keçə bilirsiz? Bir də nədən məhz "O I O (SIFIR BİR SIFIR)" parolu?

Bəlkə də suallarıyla yorurdu Çocuğu. Amma gələn cavabları görəndə sevindi. Suallara cavab, daha doğrusu suallara cavab tapmağın yolu göstərilmişdi.

-Gülcə, bunları sənə anlatmaq mənimçün bir qədər çətindir. Bizim fəaliyyətimizi, fəaliyyət dairəmizi açıqlayacaq, göstərəcək texnalogiyanı bu dünya adamları hələ əldə etməyib. Biz işıq sürətindən sürətlə hərəkət edirik. An etibarı ilə görünməz ola bilirik. Biz bunu söyləsək də çoxu inanmayacaq. Bunu bilirik. Amma buna baxmayaraq biz varıq. Məsələn, sən iki yüz il geriyə, yəni keçmişə getsəydin və əlində bir smartfon telefon tutaraq söyləsəydin ki, mən bu cihazla dünyanın istənilən yerində olan biri ilə istənilən anda görüntülü danışa bilərəm, yaxud yazışa bilərəm, sənə inanardılarmı? Əlbəttə inanmazdılar. Amma bu gün bu bir reallıqdır və hər kəs bu gün texnalogiyanın bütün imkanlarından gündəlik həya-

tında istifadə edir. Bizi anlamaq üçün ən azı "Kvant fizikası"nı bilmən lazımdir. Bu bizim doğruluğumuzun, varlığımızın bu dünya insanları üçün elmi isbatıdır.

O ki, qaldı “O I O (SIFIR BİR SIFIR)” paroluna, onun da mənasını zamanı gələndə öyrənəcəksən. Səbrli ol, hələ qarşıda zamanımız çoxdur.

Sonda bir video görüntü də göndərmişdi:"Yıldırımlar Yaratan Bir ırkın Ahfadıyız". Və sən də 5500 il sonrakı tarixdə yaşayan biri kimi dinlə və təxəyyül et,- deyə yazmışdı.

Gülcə vaxt itirmədən videonu izlədi və burada səslənən möhtəşəm bir musiqini dinlədi.

Türkiyə türkcəsində oxunan bu musiqinin sözləri də, musiqisi də insanın ruhunu titrədirdi:

Yıldırımlar yaratan bir ırkin ahfadıyız,
Tufanları gösteren, tarihlerin yadıyız,
Kanla, irfanla kurduk biz bu Cumhuriyeti,
Cehennemler kudursa, ölmez nigahbanıyız.

Yaşa var ol Harbiye, yıkılmaz sadvetinle,
Göklerden gelen bir ses sana ne diyor, dinle:
Türk vatanı üstünde sönmez güneşsin sen,
Kartal yuvalarında, hürdür millet sesinle.

Yüz senedir Harbiye bu orduya şan verir,
Çıkardığı dehalar semalara yükselir,

Baştan başa tarihdir mektebin her zerresi,
Sarsılmayan azminle çelik kalalar erir.

Şahikalar üstündə meydan okur bu erler,
Yaklaşacak düşmana mezar olur bu yerler,
Bağlayamaz bir kuvvet bu kasırğa milleti,
Tarihlere sorun ki, bize "Ölmez Türk" derler.

Gülcə marşı dinləyən zaman bunları düşünürdü: deməli, hər tərəfdən düşmənlərin göz tikdiyi türk torpaqları Göy Türklərinin qoruması altındadır. Yeni tanımağa başladığı Göy Türklərinin varlığını anlamaq üçün bir də Kvant fizikasını araşdırmaq lazım idi. Gülcə böyük maraqla araşdırmalara başladı. Göy Türkü olan və bu gün onunla əlaqə quran adamın zaman yolçuluqlarının sirrlərinin elmi əsasını öyrənmək üçün bu araşdırma mütləq lazım idi.

Fizika elmindən məlumatlı olan Gülcə fizikanın bu sahəsini yenidən ciddi-cəhdlə araşdırmağa başladı. Artıq neçə gün idi ki, yorulmadan oxuyub araşdırırdı. Və elmi bilikləri əldə etdikcə heyrətlənməyə bilmirdi. Çocuğun söylədiklərinin sübutu doğrudan da Kvant fizikasındaydı. Həqiqətən onun dostu 5500 il öncəyə-gələcəyə və neçə min illər geriyə- keçmişə gedib-gələn biri imiş.

Gülcə tanınmış fiziklərin elmi işlərini araşdırarkən bu elmi biliklərlə rastlaşdı:

Kvant fizikasının son kəşfləri materializmi elmi cəhətdən yox etmişdir.

XIX-ci əsrə qədər öz aktuallığını saxlayan ənənəvi Nyuton fizikası işığın zərrəcik yığını olduğunu söyləyirdi. XIX əsr alimi Ceyms Klerk Maksvel isə işığın dalğa xüsusiyyətli olduğunu irəli sürürdü. 1905 ci ildə isə Albert Eynşteyn işığın kvantlara, yəni foton adlanan enerji paketlərinə malik olduğu iddiasını irəli sürdü. Belə ki, işıq dalğa və zərrəcik arasında bir keçiddir. Enerji və maddə eynidir. Sadəcə işıq sürətinin altında olan kütlə bizlərə maddə kimi görünür. İşıq sürətinin üzərində olanlar isə enerji formasında görünür. Maddə və enerji eyni şeyin sadəcə iki fərqli təzahürüdür, iki fərqli üzüdür. Sən makrokosmosdan baxdıqda o maddə kimi görünür. Təməlinə vardıqda o bir enerji titrəşimidir. Eynşteyn kütlə və enerji ekvivalentliyini belə bir düsturla ifadə etmişdi:

$E=mc^2$

Yəni cismin enerjisi, cismin kütləsi ilə işıq sürətinin kvadratı hasilinə bərabərdir-ekvivalentdir.

Bunu alman alimi Maks Plank da öz tədqiqatlarıyla sübut edirdi. Yəni foton kosmosda hərəkət edən vaxt dalğa kimi, önünə maneə çıxdiqda isə zərrəcik kimi hərəkət edə bilir. İşiq selindən qum dənəsinə bənzəyən zərrəciyə çevrilə bilir. Hətta işıq dalğa kimi göründüyü an, eyni anda iki və daha çox olma qabiliyyətinə malikdir. Elm adamları artıq maddənin

cansız, kor və anlaşılmayan zərrəcik olduğuna inanmırdılar. Kvant fizikası materializm mənası daşımır artıq.

Kvant mexanikləri obyektiv dünyanın bir illüziya olduğunu söyləyirlər. Maddə hər nədirsə, maddədən meydana gətirilməyib.

Bizim qavradığımız maddi dünya yalnız bizim beynimizdəki məlumatlar sayəsində mövcud olur. Yəni xarici aləmdəki maddənin əsli ilə heç vaxt təmasda ola bilmirik.

Fizik Con Arçibald Uilerin dediyinə görə "Heç bir hadisə müşahidə edilmədən baş vermir".

Gülcə məşhur Kvant nəzəriyyəsiylə dərindən tanış olduqca heyrətini gizlədə bilmirdi. Edilən yeni kəşfləri öyrəndikcə Çocuğu daha gözəl anlayırdı. Gülcə yorulmadan oxuyur, öyrənirdi.

Ay da kvant obyektidir. Biz ona baxdığımız vaxt dalğa dərhal yox olur və dalğa artıq zaman-məkan anlayışı çərçivəsində olmur. Əgər ona baxan şüurlu insan yoxdursa, zaman-məkan anlayışı içində heç bir obyekt yoxdur. Əlbəttə ki, bizim qavraya biləcəyimiz çərçivədədir. Xarici aləmdə Ayın olduğu aydındır. Lakin biz Aya baxdığımız zaman ancaq öz qavrayışımızdakı Ayın varlığı ilə qarşılaşırıq.

Kvant fizikası maddi aləmdə dünyanın tam görüntüsünün verilməsinin mümkünsüz olduğunu sübut edir.

Obyektləri meydana gətirən daha çox obyekt deyil, obyektləri meydana gətirən fikirlər, anlayışlar, məlumatlardır.

Bir çox alimlərə Nobel mükafatı qazandıran Kvant nəzəriyyəsinə dair aparılan təcrübənin verdiyi nəticəyə dair əks fikir yoxdur. Bu mütləq maddə anlayışını yox edib.

Müasir elmdəki heç bir kəşf insan düşüncəsində kvant nəzəriyyəsinin kəşfindən daha dərin iz qoya bilməyib. Əsrlər boyu meydana çıxan düşüncə qəliblərindən əziyyət çəkən bir nəsil əvvəlki fikirlərlərdən fərqli, yeni metafizik düşüncəni qəbul etmək məcburiyyətində qalıb. Bu yeni istiqamətlənmənin gətirdiyi çətinlik dövrümüzədək davam edib. Fiziklər ciddi itki ilə üzləşiblər, bu da yeni həqiqətlərin meydana çıxmasının nəticəsi idi.

Gülcənin araşdırdığı bu yeni elmi fikirlər və kəşflər artıq Çocuğun söylədiklərinin sübutu idi. Yəni işıq dalğasından maddəyə keçə bilmək və əksinə. Bizim gördüyümüz, dünyanın tam maddi görüntüsü deyilmiş. Deməli, bizim görə bilmədiyimiz, qavraya bilmədiyimiz, fəqət mövcud olan çox şey var. Çocuğun söylədiyi kimi...

## FƏSİL - 9

Göy Türklərinə olan maraq yenə də Gülcənin düşüncəsinə hakim kəsilmişdi. O, yeni məlumatlar əldə etməyə səbirsizlənirdi. Onların yaşamında ailə anlamının necə olması marağı da neçə gün idi ki, Gülcəni tərk etmirdi. Odur ki, yenidən yazıb soruşmaq qərarına gəldi. Suallarını "Facebook" üzərindən dostuna unvanladı.

Yəqin cavab özünü çox gözlətməyəcəkdi. Çocuğun adətən O I O (SIFIR BİR SIFIR) parolu ilə başlayan mesajları çox zaman "bu günlük bu qədər, Gülcə" cümləsi ilə bitərdi. Bu günə kimi yeni tanıdığı bu insandan özü üçün yeni olan xeyli məlumatlar öyrənmişdi.

Telefonu əlindən bir tərəfə qoyub ev işlərini bitirmək üçün qalxdı. İş görərkən bəzən mahnılar da zümzümə edərdi. Yenə də çox sevdiyi xalq mahnılarından birini oxuya-oxuya mətbəxə keçdi.

Gözəlim sənsən,
Başımın tacı,
Gözümün nuru,
Dərdim əlacı.

Uca dağ başında,
Ceyran yol eylər,
Ürəyim başında,
Tikan kol eylər.

Örpəyin sarı,
Gəl mənə sarı,
Tikanı yox eylə,
Yaramı sarı.

Yaralıyam dəymə,
Dəymə, dəymə, dəymə.
Könlümün budağın əymə!
Əymə, əymə.

Çox sevərdi bu xalq mahnısını, həm də vaxtilə xalqının mədəniyyətini, musiqisini dünyada layiqincə təmsil etmiş məşhur müğənni Rəşid Behbudovun ifasında. Dinlədikcə düşüncələrə dalardı. İlahi, necə incə ruhu var türk millətinin. Dünyanın hansı yerində yaşamasından asılı olmayaraq ruh eynidir. Mahnını zümzümə etdikcə düşünürdü: nə gözəl nəğmələrimız var. Ruha toxunan, könülləri dilləndirən. Görəsən Göy Türkləri də bizim kimi mahnılar oxuyurlarmı? Ümumiyyətlə, musiqiləri, musiqi alətləri varmı? Bəs görəsən onların ailə modeli necədir? Sevib-sevilmək varmı? Ailə hansı prinsiplərə, hansı dəyərlərə əsasən qurulur? Onlarda hansı adətlər var? Bəs doğum, ölüm necədir? Cəmiyyətdə münasibətlər necədir? Təlim-tərbiyə, təhsil necədir?

Düşüncələrinə özlüyündə güldü. Yer insanı olduğum bəllidir. Hər şeyi öyrənmək istəyi rahat buraxmır... Xislətimizdədir. Gərək bunları da soruşam.

Öz-özünə pıçıldadı: lap müəllliminə suallar verməyə hazırlaşan şagirdə bənzədim. Amma özünə hardasa haqq da qazandırdı. Çocuğun gedə bildiyi uzaq gələcəkdə yaşayışın necə olduğundan xəbərsiz idi axı. Gələcəkdən gələn adam onu tanısa da, o həmin adamı yenicə tanımışdı. Onun haqqında, Göy Türklərinin yaşadığı məkan haqqında bilgilər verəcək adam isə yalnız elə Çocuğun özü idi. Bu vaxta qədər Göy Türkləri haqqında əldə etdiyi məlumatları da elə Çocukdan öyrənmişdi.

Düşüncələr içində nəhayət ki, işlərini bitirdi. Yenə bir başqa mahnı zümzümə edə-edə özünə bir fincan pürrəngi çay süzdü.

Maraq dünyası başqa idi Gülcənin. Çocukdan öyrəndiyi yeni məlumatlar isə onun maraq dünyasını daha da genişləndirmişdi. Məhz ona məxsus olan dünyasında ruhunu rahatlayan yeni bir səhifə açılmışdı.

Süzdüyü çayı bəh-bəhlə içdi. Ev işlərini bitirmişdi. "Bir özümü də səliqəyə salım" düşüncəsiylə güzgünün önünə keçdi. Elə bil özünü uzun müddət idi görməmişdi. Diqqətlə güzgüdən ona baxan qadını süzdü. İllər onun da simasını dəyişmişdi. Hər kəsin ilk baxışdan bəyəndiyi gözləri əvvəlki həyat eşqi ilə gülümsəmirdi daha. Siması qayğılı idi. Dəniz dalğası kimi qara, qıvrım saçlarına artıq ağlar düşmüşdü. İncə bədəni xeyli kilo almışdı.

-İllər nə tez keçir,- deyərək köks ötürdü. Həvəssiz güzgünün önündəki darağı əlinə alıb saçlarını daradı və boynunun arxasında yığıb dəstələdi. Saçını arxaya darayıb topladığından sifət cizgiləri daha aydın nəzərə çarpdı. Güzgüdə özünə baxıb gülümsədi. Kaş ki, keçmişinə dönə biləydi, yenidən gəncliyinin xoşbəxt, qayğısız günlərinə qayıtmaq mümkün olaydı. Kaş ki, zamanı saxlaya biləydi. Yadına Çocuğun sözləri düşdü. Göy Türkləri gələcəkdən gəlib keçmişə gedə bilir. O, belə söyləmişdi. Dünya qəribəliklərlə doludur. Onun və onun kimi milyonlarla yer sakininin bilmədiyi, xəbərsiz olduğu hələ bəlkə daha heyrətamiz hadisələrin baş verdiyi, yaşamın olduğu neçə-neçə planetlər var.

Gülcənin düşüncəsi yenə Göy Türklərinə yönəldi. Onların biri-birinə və ətrafa münasibəti görən necədir? Bəs amansız müharibələr necə? Onlardamı bir-birinə qənim kəsiliblər? Bəs nə ilə qidalanırlar? Onlardamı bu qədər israf edirlər? Onlardamı ətrafında yüzlərlə ac adam varkən bölüşmək isrəmirlər?

Yəqin ki, dostundan bütün bu suallara cavab alacaqdı. Növbəti söhbət üçün artıq bu qədər sual hazır idi. Dostunun böyük bir missiya daşıdığını təxmin etmişdi. Bəzən günlərlə səsi-sədası gəlməzdi. Buna baxmayaraq, ona vaxt ayırdığına sevinirdi və dostuqlarından məmnun idi. Yeni məlumatlarla dolu mesajları səbirsizliklə gözləyirdi.

Aradan iki gün keçdi. Çocukdan hələ də xəbər yox idi. Gülcənin də başı gündəlik qayğılara qarışmışdı. Amma araşdırmağı, yazmağı da yaddan çıxarmırdı. Yazmaqdan yorulmaz, əksinə bu zaman bütün yorğunluğu çıxardı. Şeirlər, hekayələr yazmağa başlamışdı. Çocukdan öyrəndiklərini də yazmaqda qərarlı idi. Yazmağı ona gözəl dostlar da qazandırmışdı. Onlardan biri də yaxın vaxtlarda tanıdığı bir yazıçı xanım idi. Çox səmimi, mehriban biri idi. İlk gündən çox sevmişdi bu incə ruhlu xanımı. Gülcə tez-tez bu yazıçı rəfiqəsiylə görüşərdi. Birlikdə konsertlərə, ədəbi tədbirlərə gedər, şəhəri gəzərdilər. Hər ikisinin ən çox sevdiyi məkan isə İçərişəhər idi. Tez-tez Bakının bu qədim, tarixi məkanının dolanbac küçələrində dolaşar, memarlıq incilərindən olan qədim abidələrə tamaşa edər, bu qədim şəhər haqqında oxuduqları, eşitdikləri məlumatlardan söhbət açar, fikir bölüşər, dükanlara baş çəkər, orada satılan qədim əşyalara heyranlıqla baxardılar. İnsanı xəyalların qanadında keçmişə aparırdı bi qədim məkan. Şəhər içində bir şəhər idi İçərişəhər. Keçmişdən gələcəyə boylanan bir şəhər modern şəhər olan Bakının qoynunda gizlənmişdi. Bakının keçmişini bu günə kimi daşımışdı özüylə. Şəhərin bu yeri keçmiş ilə bu günün vəhdəti idi. Bu vəhdət sanki Gülcənin gündəlik həyatına da yansımışdı. Avtomobil idarə etməyə fobiyası olduğundan ictimai nəqliyyatdan istifadə edərdi. Hər gün səsli-küylü müasir Bakının küçələ-

rindən keçərək İçərişəhərin qala divarları yanındakı "İçərişəhər" metrostansiyasına daxil olar, nəhayət, şəhərin o biri başından, yenə şəhərin ən son salınmış qəsəbəsində yerləşən iş yerinə yollanardı. Getdiyi bu yol sanki bir zaman tuneli idi: Müasir dünya-keçmiş-müasir dünya. Gündəlik həyatında cızdığı bi yol trayektoriyasında bəyənmədiyi yeganə obyekt "İçərişəhər" metro stansiyasinin ətrafındakı binaların qədim memarlıq üslubuna uymayan piramida formasında olan giriş tikilisi idi. Qədim qala divarıyla əhatə olunan, İşərişəhərin lap yaxınlığında, beş-on metrlik məsafədə yerləşən bu tikili dəmir konstruksiyadan qurulmuş, üzərinə şüşə örtük çəkilmişdi. Son illərdə dünyanın çox yerində rast gəlinən şüşə piramidaları heç sevməzdi.

Bu kiçik, qədim şəhərin dar küçələrində gəzərkən xəyalən keçmişə gedirdisə, Çocuk vasitəsilə aldığı yeni məlumatlar isə onu xəyalən uzaq gələcəyə aparırdı. Taleyin ona bəxş etdiyi bir qismət, bir ərməğan, bir yol idi bütün bunlar. İstər bu qədim şəhər, istər rəfiqəsi, istər Göy Türkü Çocuk. Gülcənin həyatına, düşüncəsinə rəng qatırdı onların varlığı.

Rəfiqəsinin səsi onu düşüncələrdən ayırdı.

- Bax, qədim çıraqdır. Əlində tutduğu qədim çirağı göstərdi.

Çox orjinal forması vardı çırağın. Bəlkə də neçələrinin evini, neçələrinin yolunu işiqlandırmışdı bu çıraq. Bəlkə bu qədim çırağı alarsa onun çıxdığı yeni

yolu da işıqlandıracaqdı. Ürəyində ani olaraq yaratdığı fantaziyaya güldü. Axı onun tanıdığı, 5500 il sonrakı gələcəyə gedə bilən, oradan xəbər verən adam da fantaziya kimi gələrdi kimə söyləsəydi. İnanmazdılar ona. Heç rəfiqəsi də inanmazdı. Amma bu bir həqiqət idi. Nağıla bənzəsə də həqiqət idi. Fikir bölüşdüyü, bilgilər əldə etdiyi biri idi gələcəyə və geçmişə gedə bilən bu adam.

Rəfiqəsinin səsi onu düşüncədən ayirdı.

-Deyəsən çıraq səni çox keçmişə apardı.

Daha deyə bilmədi ki, nəinki keçmişə, həm də gələcəyə apardı.

-Belə görürəm çox xoşuna gəldi bu çiraq. Bəlkə alasan?

Bayaqdan onları sakitşə seyr edən satıcı oğlan da müştərisini itirməmək üçün həvəslə söhbətə qarışdı. Axı yerli alıcılar az maraqlanırdılar belə qədim əşyalarla. Fürsəti əldən vermək istəməyərək gənc satıcı sözə başladı :

-Alsanız, peşiman olmazsız, qiyməti yoxdur belə qədim əşyaların. Hamısını xarici turistlər alıb daşıyır. Biri də sizdə qalsa daha yaxşı olmazmı? İllər sonra əldə çıraqla axtarılacaq belə qədim əşyalar. Qiyməti olmayacaq, xanım.

Gülcə bir anlıq özünü keçmişimizdən bu günümüzə miras qalan dəyərlərimizdən birini xilas edən xilaskar kimi təsəvvür etdi.

-Qoy bizdə qalsın bu çıraq,- deyərək satıcının sözünə qüvvət verdi. Alıram bu çırağı.

Satıcı heç qiymətini razılaşdırmamış tez-tələsik çirağı bukub Gülcəyə uzatdı. Hiss edilirdi ki, Gülcənin fikrini dəyişəcəyindən ehtiyat edir.

-Buyurun, xanım.

Gülcə qiyməti soruşanda xeyli baha olduğunu anladı. Buna baxmayaraq geri qaytarmağı düşünmədi. Deyilən məbləği verib çirağı aldı və əl çantasına yerləşdirdi. Bəlkə yoluma çıraq oldu, keçmişdən gələcəyə gedən yola simvolik  çıraq da  ola bilər,-deyə düşündü.

Rəfiqəsiylə dükandan çıxıb dənizə gözəl mənzərənin açıldığı bir küçəyə döndülər. Qədim Şirvanşahlar sarayının yanından keçib küçənin sonundakı daş hörgüyə doğru getdilər. Hər dəfə bura gələndə həmin daşların üzərində oturar, Günəşin şəfəqlərinin bərq vurduğu qədim türklərin Quzğun dənizi adlandırdığı mavi dalğalı Xəzəri uzun-uzadı seyr edərdi. Xəzər türklərin dənizidir. Yəni ta qədimdən Xəzər sahillərində yaşayanların hamısının soy-kökü türk mənşəli olub. Bu gün də istər Türkmənistan, Qazaxıstan, Azərbaycan kimi türk dövlətlərində, istərsə də Xəzərin bu gün İrana, Rusiyaya aid olan sahilində yaşayanlar da türk soy-kökünə mənsub olan əhalidir. İndiki avar türklərinin əcdadı olan Xəzər türklərinin adının da məhz Xəzər dənizi ilə bağlı olduğu söylənilir.

Vaxtilə divarını, daşını Xəzərin suları yuyan qədim tikili olan Qız qalası isə şəhərin mənzərəsinə xüsusi gözəllik qatır.

Oturduqları yerdən şəhərə açılan mənzərə də bir başqadır. İnsanı əsrlərcə geriyə- keçmiş zamana götürür. Qədim tikililər: Şirvanşahlar Sarayı, məscidlər, minarələr, türbələr, karvansaraylar, hamamlar, gözəlliyi göz oxşayan qədim yaşayış binaları. Gördüyü mənzərələr Gülcəni xəyalən sevimli şəhəri olan Bakının qədim tarixinə aparırdı. Tarix gözlərinin qarşısında vərəqlənirdi.

Xəzərin sularının yuduğu sahildə yerləşən bu qədim liman şəhərində vaxtilə 22 məscid, bir kilsə fəaliyyət gösrərirmiş. Məscidlər də fəaliyyət dairəsinə görə dörd qrupa bölünürmüş: cami məscidləri, məhəllə məscidləri, mədrəsə-məscidlər, təkyələr. Onların gözləri önündə dayanan, hazırda da fəaliyyət göstərən cami-məscid tarixi mənbələrin verdiyi məlumata görə 1378-1379 cu illərdə bir atəşgah məbədinin yerində tikilmişdi. Qədimdə Bakı həm də atəşpərəstlərin axın-axın ziyarət etdiyi bir müqəddəs məkan idi. Deyilənə görə, qədimdə Bakıda neft nəinki Xəzərin sahilindəki torpaqdan çıxırmış, həm də dənizin dərin qatlarından suyun üzünə çıxan neft, bəzən alışaraq  yanar su mənzərəsi yaradarmış. Fransız səyyahı Aleksand Dümanın  "Qafqaza səyahət" əsərində bu hadisə haqqında da məlumat verilmişdir . Qədim yaşayış məskəni olan Azərbaycan torpaqları-

nın bu özəlliyi atəşpərəstləri özünə cəlb etmiş, hətta onlar çox uzaq uzaq məsafələri qət edərək Bakının bu günkü Suraxanı rayonunda yerləşən, günümüzə kimi gəlib çixmış "Atəşgah" məbədini ziyarət etməyə gələrmişlər. Hətta, Bakı şəhərinin yerləşdiyi Abşeron yarımadasının ən yüksək yeri sayılan bir ərazidə, dünyanın nadir hadisələrindən biri olan, əbədi alovlanan Yanardağ var. Nə zamandan bəri alovlandığı məlum deyil. Amma eramızdan əvvəl belə ziyarət edildiyi deyilir. Bakıya Xəzər dənizindən yaxınlaşanda uzaqdan üç alovun yandığı görünərmiş. Bakı şəhərinin gerbində də üç alov simvolu öz yerini tapmışdır. Azərbaycan adındakı "Azər"sözünün mənası da od-alov deməkdir.

Tarixin sərt rüzgarları İçərişəhərin tikililərində də yan keçməmişdir. Şirvanşahlar türbəsinin yanında yerləşən Şah məscidinin 22 metr hündürlüyündə olan minarəsi 1723-cü ildə Pyotrun qoşunları Bakını dənizdən topa tutanda Şimal-Şərq fasadı ziyan çəkir. 1918-ci ilin mart qırğinlarında isə məscidin minarəsi top atəşi nəticəsində zədələnir. Bakı çox hadisələrə şahidlik edib, qoynunda çox sirlər gizlədib, çox bilgiləri bu günümüzə daşıyıb...

Onların oturduğu yerdən azca aşağıda Seyid Yəhya Bakuvinin türbəsi də görünürdü. Mənşəcə Azərbaycan türkü olan, Şamaxıda doğulan, 1457 ci ildə vəfat edən  tanınmış filosof, alim, şair, xəlvətilik

təriqətinin yaradıcılarından biri olan Bakuvi burada uyuyur.

Təsəvvüf və ya sufilik islam aləmində geniş yayılmış dini-fəlsəfi cərəyandır. Məqsədi isə insanın nəfsinin tərbiyəsinin, zahirdən uzaqlaşıb batinə yaxınlaşmasının yolunu aramaq olmuşdur. Sufilərin yetə biləcəyi ən son nöqtə həqqəl-yəqin dərəcəsi sayılırdı.

Gülcənin bu mövzuda xeyli məlumatı vardı. Ümumiyyətlə, tarixi keçmişi araşdırmaqda, öyrənməkdə Gülcə çox maraqlı idi. Bu gün rəfiqəsiylə söhbətdə bildiklərini, öyrəndiklərini onunla həvəslə bölüşür, müzakirə edirdi.

Hər bir abidəyə baxdıqca, tanış olduqca rəfiqəsiylə aralarında olan söhbətin də mövzusu dəyişir, mövzudan-mövzuya keçid alırdılar. Vaxtın necə keçdiyini bilmədilər. Bir də baxdılar ki, artıq Günəş dəniz üzərindən qüruba enir. Həm söhbətləri, həm də dənizi doyunca seyr etməsi ruhunu şox sakitləşdirmişdi Gülcənin. Nə sevimli rəfiqəsiylə şirin söhbətdən, nə də sevimli Xəzərin sahilində yerləşən İçərişəhərdən heç ayrılmaq istəmirdi. Elə bu an Gülcənin şair ruhu dilə gəldi:

Hər abidən əfsanə,
Hər daşın bir xatirə,
Şöhrətin düşüb dilə,
Bakının tacı şəhər,
İçərişəhər!

Qız qalası vüqarlı,
Sınıq qala misallı,
Səbayeldən soraqlı,
Bakının varı şəhər,
İçərişəhər!

Tarixlərdən silinməz,
Düşmənlərə yenilməz,
Yaşın neçə bilinməz,
Danışır daşın səhər,
İçərişəhər!

Sənin tarixin qədim,
Türk yurdusan, bu, yəqin!
Fəth etmisən ürəyin,
Milyonların yarı şəhər,
İçərişəhər!

İçərişəhərdə gəzinti çox maraqlı idi. Amma insanlar həyatını, gündəlik işlərini zaman deyilən bir məhfumla nizamlamağa məcburdur. Ayağa qalxıb Qoşa Qala qapısina -İçərişəhərdən bayır şəhərə-modern Bakıya keçid olan darvazaya doğru yol aldılar. Darvaza önündə xüdahafizləşib ayrıldılar.

Rəfiqəsindən yeni ayrılmışdı ki, telefonuna gələn mesajın bildiriş səsi eşidildi. Tez çantasını açıb te-

lefonu çıxardı. Və qeyri-ixtiyari gülümsədi. O idi, gələcəkdən xəbər verən adam...

## F Ə S İ L – 10

Evə tələsdi. Axı Çocukdan öyrənmək istədiyi çox şey vardı. Yol boyu verəcəyi sualları ürəyində təkrar-təkrar götür-qoy etdi. Evə dönərkən artıq hava qaralmışdı. Yol boyu yolların işıqlandırılması üçün quraşdırılan işıq dirəklərindəki lampalar da artıq yanırdı. İşığa qərq olmuş Bakının axşam vaxtı bir başqa mənzərəsi vardı. İçərişəhərdən ayrılıb üzbəüz küçə ilə yuxarıya- Alov qullələrinə doğru qalxmağa başladı. Alov qüllələrinə yaxın yaşayırdı. Binanın yanından keçib evə doğru yol aldı. Alov dilimlərini xatırladan bu binalar şəhərə xüsusi gözəllik verirdi. Müasir Bakının simvollarından sayılırdı bu üç möhtəşəm tikili. Nəhayət, evə çatdı. Evə girər-girməz çantasınından telefonunu çıxardı. Gələn mesajı açıb oxudu:

Parol: O I O (SIFIR BİR SIFIR).

-Hanımefendi, sizin merak etdiyiniz Gök Türklerinin nerede, nasıl yaşamasıdır. Size tüm bilgiler iletilecek.

Təəccüblə telefonun ekranındakı yazıya baxdı. Çocuk yenə də onu qabaqlamışdı. Deməli, hazırladığı bütün suallardan, düşüncəsindən xəbardar idi.

Göy Türk bəyi yazırdı:

-Göy Türklərinin yaşamı bu dünyadakı yaşamdan fərqlidir. Bir dəfə də mən sənə bu barədə qısa da olsa məlumat vermişdim. İndi isə daha geniş məlumat verəcəm.

Göy Türk ailəsində hər yaranan uşaq hələ həyata gəlməzdən əvvəl  müqəddəs bir varlıq olduğunu bilir və özüylə "o aləm" arasında bir anlaşma imzalayaraq gəldiyini bilərək yaşayar. Ailə qurub, övlad dünyaya gətirməyi və yetişdirməyi sözdə deyil, özdə çox müqəddəs bilərək, həm vicdanlı, həm qanuni bir məcburiyyət olaraq yaşayarlar. Ötüken planetində yaşayan Göy Türkləri övlad sahibi olmaq üçün çox ciddi təhsil və tədris almaq məcburiyyətindədirlər. Belə ki, evlənib uşaq sahibi olmaq, onları yetişdirmək üçün qadın və kişinin mütləq akademik səviyyədə təhsili və diplomu olmalıdır. Bunun üçün beş il müddətində yüksək öyrətim sistemində fasiləsiz oxumaq məcburiyyətindədirlər. Yalnız təhsili bitirib diplom aldıqdan sonra uşaq dunyaya gətirə bilərlər. Bu təhsilin məqsədi cəmiyyət üçün dəyərli bir insan tərbiyə etməkdir. Bu təhsil cinsiyyət, fiziki, seksoloji bilgilər verən bir təhsil deyil. Yəni, Göy Türklərdə uşaq sahibi olmaq ən yüksək vəzifədir. Hər ana, hər ata sadəcə öz cəmiyyətlərindən öyrəndiklərini  deyil, qədim kainat bilgilərini də öz uşaqlarına ötürə bilir və ötürməlidir. Onlarda ən önəmli məslək təlim-tərbiyə işləridir. Övlad dünyaya gətirən ailələr ömürlə-

rinin sonuna qədər uşaqları özəl yetişdirmə xaricində heç bir işlə məşğul olmazlar. Valideyinlərin işləri yalnız övladlarının tərbiyəsidir. Göy Türklərində ayrı bir işdə çalışmaq evlənənlərə deyil, uşaq sahibi olanlara qadağandır. Hər kəs uşaq sahibi olmaq diplomu almadığı üçün Göy Türklərin sayı da həndəsi silsilə ilə artmır. Yəni əhali nüfuzu sürətlə artmaz. Odur ki, bütün Göy Türkləri valideyn olanlara uşaqların yetişdirilməsində yardımçı olmağa çalışırlar. Göy Türklərində soy birdir, soy dəyişməz. Başqa soydan olanlarla evlənməzlər.

Onların əsas məktəbi bütün kainatdır. Öyrənmək heç bitməz. Göy Türkklərin "Uzay Akademiyaları" dediyi məktəblər dünyada olduğu kimi dörd divar arasındakı məktəblər kimi deyildir. Sinif və şagird qrupları da yoxdur. Bizlərdə sizin kimi kitab-dəftəri çantaya qoyub məktəbə getmək də yoxdur. Bilgilər təfəkkürlə ötürülər. Məsələn, tarix dərsində öyrəniləcək tarixi, tarixin həmin zamanına gedilərək həmin hadisələri görməklə öyrənirlər. Göy türklərində bizim bildiyimiz anlamda kitabxanalar da yoxdur. Hətta bilgiləri saxlamaq üçün komputerdən də istifadə edilmir. Hər insana, yaradılmışa və hadisəyə aid məlumatlar, bilgilər düzənli olaraq "arxiv rəflərində" ( əlbəttə, sizin bildiyiniz kitab rəfləri kimi deyil ) səs və görüntü olaraq durur və zaman-zaman yeniləri qeyd olunur. Bütün zamanların ən gerçək tarixi və bilgisi, hər anıyla, hər sözüylə, hər düşüncə-

siylə orada qeyd olunur. Düşüncə gücüylə beyində kəlimələri deyil, kəlimələrin mənasını hiss edərək yaşayan Göy Türkləri hər olduğu yerdə ehtiyacı olan məlumatı, bilgini düşüncə istəyi ilə alır, oxuyur, istifadə edir.

Oralarda nə para-pul, nə də kapitalizm sistemi var. Cinayət işləyən olmadığı üçün, həbsxanalar da yoxdur. Nə əxlaqsızlıq, nə günah, nə də yalançılıq yoxdur. Televiziya, radio kimi cihazlar da yoxdur. Əgər nəyəsə baxmağa ehtiyac duyularsa, həmin hadisə, yaxud məlumat sadəcə əlin bir işarəsi ilə havada görünən ekranda görüntülənər.

Ötüken sakinləri istədiklərini istehsal edə bilərlər. Belə ki, anında istədikləri qarşılarına gələr. Qidalanma problemi, dolanışıq dərdi də yoxdur.

Hər tərəf yaşıllıqlar içindədir. Orada yetişən bir çiçəyi, otu, hər hansı bir bitkini özündən icazə almadan qoparıb dərməzlər. Ürəyi istəyərsə soruşar, icazə verilməzsə toxunmazlar.

Ötüken sakinləri danışmaqla deyil, düşüncəylə bir-birilərini anlayırlar. Çox irəli bir zamanda yaşamalarına baxmayaraq Göy Türkləri bu günümüzə gəlib-gedə bilirlər. Bu gün baş verən xoşagəlməz hadisələrin gələcəyə təsir edəcəyini bildikləri üçün bugünkü hadisələrə müdaxilə edə bilir, gələcəyə təsirinin qarşısını ala bilmək gücləri var. Onların hazırda yaşadıqları zamanda şeytana xidmət edən sürüngənlər, onurğasızlar onları var edən səbəblər aradan qal-

dırıldığı üçün yoxdur. Bir sözlə, gələcəkdə onlar yoxdurlar. Ona görə də Göy Türklərinin yaşadığı zamanda nə pislik, nə əxlaqsızlıq, nə də yalan var.

Göy Türklərinin hər biri istəsələr günümüzə və keçmişin istədikləri zamanına gəlib baxa bilərlər. Amma hamısının müdaxilə etmək izni yoxdur. Buna Göy Türklərindən yalnız xüsusi bir qrupa icazə verilir.

Sevimli Gülcə, bütün bu söylədiklərimiz sadəcə Ötükendə- Qütb ulduzunda yaşayan Göy Türklərinə aid olan bir yaşamdır.

Kainatdakı digər Göy Türklərinin yaşam şərtlərində isə az da olsa dəyişikliklər vardır. Göy Türklərindən bu dünyada doğulan, amma sonradan bizim dünyamızdakı türklər tərəfindən deyil, Göy türklərinin əzəli məskəni olan Ötükendə yaşayan türklər tərəfindən görəvləndirilən Göy Türkləri də var. Bizim kimi. Sizlərin Çocuk deyə tanıdığınız Göy Türkü kimi. Amma əsas yaşam tərzi söylədiyim kimidir. Göy Türklərində ən ağır cəza cəmiyyətdəki hər kəs tərəfindən birdəfəlik yox sayılmaqdır.

Göy Türklərində sizin bildiyiniz heç bir xəstəlik də yoxdur. Eynək taxmaq ehtiyacı da yoxdur.

Biz gözəl nə varsa sevərik. Məsələn, siz düşünün ki, bizdə bundan 5500 il sonraya qədər yaranacaq musiqilər də daxil olmaqla, on dörd min illik musiqi arxivimiz var. Və musiqini böyük zövqlə dinlərik.

Gülcə, bu günlük məncə bu qədər yetərlidir.

Gülcə Çocuk tərəfindən göndərilən məlumatları oxuyaraq telefonu bir kənara qoyub düşüncələrə daldı...

Nə gözəl bir yaşamdır. Nə pislik var, nə zülm var, nə zillət...

## F Ə S İ L - 11

Bu dünyanın yaşam mənzərəsi isə tamam başqa idi. Ömrün bu qədər qısa olduğunu bilə-bilə. Bu dünyadan heç bir şey apara bilməyəcəklərini bilə-bilə. Niyə insanların düşüncəsi belədir?

Gülcənin dünyanın gedişatından çıxardığı nəticə, gəldiyi qənaət belə idi: bu dünyada sanki iki qüvvə bir-biri ilə üz-üzə dayanıb. Bu dünyanı qan gölünə döndərən, cəhənnəmə çevirən qüvvələr. Hansı ki, nəyin bahasına olursa-olsun, hegemonluğu əldən vermək istəməyən, istədiyi hər şeyə yiyələnməyə çalışan qüvvələr. Bunları şər qüvvələr idarə edir. Şər qüvvələrə tabe olan, onun diktəsi ilə məkrli istəklərinə çatmaq istəyən qüvvələrdir bunlar. Heç bir yaranmışa acımayanlar. Ağıla gəlməyən, məntiqə sığmayan hər imkandan, fürsətdən yararlanmağa çalışaraq insanları öz məqsədləri üçün istifadə edənlər. Son texnologiyaların yaratdığı imkanları da öz məqsədləri, təbliğatları üçün istifadə edənlər. Zaman-zaman dünyanı yenidən bölüşdürmək fikrinə düşənlər bəlkə də məqsədlərinə çatmaq üçün hətta şeytanın özü-

nü belə köməyə çağıranlar. Və bir də onlara qarşı olan, onların planlarını pozmağa çalışan rəhmani qüvvələr. Çoxlarının xəbərsiz olduğu, Gülcənin də varlıqlarından yenicə xəbərdağ olduğu Göy Türkləri və onların görəvləndirib yerə göndərdiyi, bu görəvi yerinə yetirən qüvvələr.

Gülcə dünyada olub-bitənlərin mahiyyətini artıq anlamağa başlamışdı. Bu günkü dünyanın mənzərəsi çox vahiməli idi. Dünya gücləri demək olar ki, üçüncü dünya savaşını başlatmışdılar. Və bu dəfə hədəf əsasən müsəlman ölkələri və türklərdir. Təkcə dünya güclərinin göndərdiyi hərbçilərinin əli ilə deyil, sözdə müsəlman olan, daha doğrusu, müsəlman donu geyinən, şərə xidmət edən, müsəlmana qənim kəsilənlər tərəfindən də acımasızcasına müsəlman qanı, türk qanı axıdılırdı. Qədim sivilizasiyaların beşiyi olan bu ölkələrin mədəniyyətləti, milli dəyərləri bilərəkdən din adı altında məhv edilirdi. Qədim Mesopotamiyada, Babilistan ərazisində, Dəclə və Fərat çaylarının axdığı ərazilərdə ta Şumerlərdən bu yana yaradılmış qədim abidələrin çoxu demək olar ki, artıq yerlə-yeksan edilmişdi. Bir çox maddi-mədəni sərvətlər isə talanıb, sümürgən dövlətlər tərəfindən ölkələrinə aparılmışdı. Dünya mədəniyyətinə qarşı qəsd idi bütün bunlar. Hətta dini yaşam adı altında İslam ölkələrinin  inkişafının qarşısını almaq üçün bu ölkələrə "şəriət dini" gətirərək geriyə sürükləmək, əsl İslamın mahiyyətini anlamaq düşün-

cəsini boğmaq idi məqsəd. Çünki savadsız, düşüncəsiz kütləni istismar etmək, istədiyi fikri qəbul etdirmək, istədiyi kimi idarə etmək daha asandır. Onların bu istiqamətdəki planları dünya sivilizasiyasına böyük töhfələr vermiş türk millətindən, demokratik Türkiyə dövlətindən də yan keçməmişdir. Həmin güclər bölgədə çirkin məqsədlərinə çatmaq üçün bu istiqamətdə davam edən fəaliyyətlərinə böyük maneə kimi demokratik, dünyəvi dövlət olan Türkiyə Cumhuriyyətını görürlər. Məqsədlərindən biri də hansı yolla olursa-olsun bu dövləti xaricdən və daxildən zəiflətmək, bölgədə təsir gücünü azaltmaq və bəlkə də bir dövlət kimi yer üzündən silməkdir. Buna görə istənilən yola əl atmaqda qərarlıdırlar. Bir neçə il bundan əvvəl dövlət çevrilişinə olan cəhd də bunu göstərir. Tarix boyu türklərin yaratdığı qüdrətli dövlətlər, imperiyalar dünya güclərinə məlumdur və həmişə bunu özlərinə təhdid bilmişlər.

Tarixdə də belə cəhdlər çox olmuşdu. Qərbin fitnələri ilə tarixin müxtəlif dönəmlərində Səfəvilər imperiyası ilə Osmanlı imperiyası, Teymurilər impeyiyası ilə Osmanlı imperiyası arasındakı savaşlar bu böyük türk imperiyalarını zəiflətdi və nəhayət süqut etməsinə təkan verdi. Məqsədlərinə nail oldular da.

Bütün bu düşüncələr Gülcəni narahat edir, ruhunu sıxırdı. Amma türk millətinin gücü, sarsılmaz əzmi ilə də tanış idi. Hətta düşmənlərin özləri də eti-

raf edirdi bu həqiqətləri. Hər dəfə məhv etməyə çalışdıqları türk dövlətlərindən sonra yenidən bir türk dövləti yaranırdı. Bu bir tarixi həqiqət idi. Göylərdə də bu milləti qoruyan bir gözəgörünməz güc vardı. Və türkün çətin anında Göy Türkləri yerə enərək yerdəki soydaşlarına yardımçı olurdular.

Çanaqqala döyuşlərində dünya bir daha buna şahid olmuşdu. Türkiyə dövlətinin qurucusu Atatürk də "İstiqbal göylərdədir" deyirdi. Bu düşünülmədən deyilən bir söz deyildi.

Çanaqqalada hətta güllələrin, gilizlərin havada bir-birinə kilidləndiyi döyüşlərdə, canlı qüvvə və hərbi texnikanın sayca üstünlüyünün düşmən tərəfində olmasına baxmayaraq, düşmənlər Türk millətini yenə bilməmiş, nəhayət məğlubiyyəti qəbil etmişdilər. Türkə qarşı savaş açanlara qarşı türkün dirənişinə bütün dünya şahid olmuşdu.

Bu döyüşlərin qəhrəmanlarından biri, adını qəhrəmanlığı ilə tarixə yazdıran onbaşı Seyid Əliyə hər biri 275 kq ağırlığında olan üç ədəd mərmini təkbaşına qaldıraraq topa qoyub atmasına və Britaniya zirehli gəmisi olan "Quşen"gəmisini sıradan çıxararaq Qara dənizdə müharibənin gedişini Türklərin xeyirinə dəyişməsinə təsir edən, yardım edən gözə görünməz bir qüvvə vardı. Deyilənə görə həmin döyüşdən sonra Seyid Əli nə qədər cəhd etsə də, həmin top mərmisindən eynisini heç yerindən belə qaldıra bilməmişdi.

Gülcə Çocuk vasitəsilə Göy Türklərinin varlığından xəbərdar olduqdan sonra onların hadisələrin gedişinə təsirinin mümkünlüyü həqiqətinə inanırdı.

Dünyanın diqqətini çəkən daha bir tarixi Çanaqqala hadisəsi bu gün də danışılmaqdadır. Ağılasığmaz bu hadisə Göy Türklərinin türkün çətin anında hadisələrin gedişatına müdaxilə etdiklərinin bir daha sübutu idi. Belə ki, Çanaqqala savaşında ingilis komandiri Hamilton vəziyyətin getdikcə çətinləşdiyini, məğlubiyyətin qaçılmaz olduğunu görərək, yeni kömək gəlməsini istəyir. Bu istəyə cavab olaraq Norfolk alayının əsgərləri gəmi ilə Çanaqqalaya göndərilir. Və bu alay 1915 -ci ilin avqust ayında Çanaqqalaya çatır. Hamilton yeni gələn hərbi alaya çox güvənirdi. Komandir Hamilton iki gün sonra, gecə hücumu təşkil etmək qərarına gəlir. O, əgər bu əməliyyat uğurlu olarsa, cəbhədə vəziyyət onların xeyirinə dəyişəcəyini düşünürdü. Beləliklə, 267 nəfərdən ibarət alay Təkkə və Kavak təpələrinə doğru irəliləməyə başlayır. Bu təpələrdən daha hündür olan bir təpədə isə Yeni Zellandiyanın Səhra birliyi yerləşmişdi. Norfolk alayı onların gözləri önündə üzərini açıq-boz rəngli buludlar almış təpələrə dırmanırdı. Əsgərlər yuxari qalxdıqca buludların içində görünməz olurdu. Son iki-üç əsgər də buludlar örtmüş yüksəkliyə qalxdıqdan sonra, təpələrin üzərini almış buludlar gözlənilmədən səmaya qalxmağa başladı. Və bu zaman tarixə keçən qəribə hadisə baş ver-

di. Küləyin əks istiqamətinə hərəkət edən bulud çəkilib getdikdən sonra təpələrin zirvəsi aydın görünsə də, bir nəfər də olsun əsgər gözə dəymədi. Hadisəni izləyən Yeni Zellandiya əsgərləri heyrət içində donmuşdular.

İngiltərəni məğlubiyyətə uğradan bu hadisə barədə, hadisənin şahidi olan Yeni Zellandiya əsgərləri imzalarıyla təsdiq edilən yazılı məlumat vermişdilər. Və o gündən sonra bu tabordan heç bir məlumat alına bilmədi. Taborun əsgərləri İngilis hərbi qüvvələri tərəfindən itkin düşmüş elan edildi.

1918-ci il türk torpaqlarının işğalından sonra ingilislər türklərdən bu taboru geri verməyi tələb etdilər. Türklər isə belə bir taborun olmasından xəbərsiz olduğunu bildirdilər.

Bu günə kimi səbəbi açıqlana bilməyən bu olay barədə Hamilton gündəliyində belə yazacaqdı: "Onlara Allah yardım edirdi".

Çocuk isə Çanaqqalada türklərə, həlledici məqamda türkləri tək buraxmayan, yaradanın təqdiri ilə Göy Türklərinin yardım etdiyini söyləmişdi. Rəhmanilər adlanan, Tanrılarına yaxın olan Göy Türklərinə "Tap və yox et" izni verilmişdi.

Gülcə artıq öyrənmişdi ki, Göy Türkləri dünyanın dəyişmək üzrə olan çağında çoxlarının anlamayacağı, gələcəyə hesablanmış, türklük adına çox işlər görmüşdülər. O zaman süquta uğramaqda olan Osmanlı İmperiyası bir dövlət kimi elmi və hərbi texno-

logiyada çox geri qalmaqdaydı. Fiziki türk dövləti ilə yanaşı, mənəvi türk dövləti də Birinci Dünya Müharibəsi və arxasından Çanaqqala savaşından sonra çox zəifləmişdi. Hərbi kadrlar da haradasa tükənmək üzrə idi. Bir kiçik yaşlı uşağa özəl təhsil vermək, kamıl hala gətirərək yetişdirmək  üçün isə uzun illər lazım idi. Bu işdə də Göy Türkləri kənarda qalmayaraq dünya və kainat çapında, hər iki aləmi bilən çox böyük biliyə sahib müdrük insanlar, ixtisaslı kadrlar yetişdirdilər.

Dünyada isə çoxlarından xəbərsiz şeytani və rəhmani çağlar mövsümlər kimi bir-birini əvəz edir. XXI əsrdə isə şeytani çağ rəhmani çağa keçid alacaqdır. Və rəhmanilərin-Göy Türklərinin çağı başlayacaqdır. Bunu bilən sürüngənlər, onurğasızlar öz gücləri tamamilə tükənmədən, pulun və şeytanın yardımı ilə əllərindən nə gəlirsə vaxt itirmədən, tələsgənliklə etməkdədirlər. Göy Türkləri tərəfindən yetişdirilən Böyük Türk müdrikləri isə kainatın düzənli qeyd və şərtlərinin zaman dilimində, şeytanilik təməlindən rəhmaniliyə keçəcək zamana qədər gözləməyin vacib olduğunu bilirdilər. O zamana qədər yox olmadan ayaqda qalmaq belə nəaliyyət idi.

Türk hakimiyyəti çağının təkrar gələcəyi zaman şərtlərinə qədər bu qüvvələrin başlarını qatmağa ehtiyac var idi. Birinci Dünya müharibəsi, Çanaqqala, Anadolu savaşlarında yaranmış mənəvi boşluqları

Göy Türklərinin düşüncə yoluyla bilgilər göndərərək hazırladıqları müdriklərlə tamamlamış olacaqdılar.

Amma hüquqi imtiyazın, iznin verilməsinə ehtiyac vardı. Bu imtiyaz isə "bax, artıq zamanı gəldi!" deyilən anda yaradan tərəfindən verilən "La qılıncı" olacaqdı. Fiziki Türk ordusu böyük sarsıntı keçirsə də, metafizik Türk ordusu bütün dünya qarşısında sağlam, dik duruşuyla dayanmışdı. Yer və Göy Türklərinin, türk millətinin işğalçı qüvvələrə qarşı belə bir çətin mübarizəsi və dirənişindən sonra demokratik bir dövlət quran Atatürk və türk milləti onlara düşmən olanların xəyallarını puç etdi. Sovetlər Birliyinin çöküşü isə bu ərazidə yeni müstəqil türk dövlətlərin yaranmasına şərait yaratdı. Avropada da sosializm sisteminin tarixin arxivinə göndərilməsi və yeni dövlətlərin yaranması, Müsəlman Şərqində başlayan müharibələr, Türkiyənin təhdid edilməsi Göy Türklərinin də diqqətindən kənarda qalmamışdı.

Gülcənin hər dəfə Göy Türkləri haqqında əldə etdiyi, ona yeni olan məlumatlar onu düşünməyə vadar edir, bu məlumatları gündəlik sosial şəbəkələrdən, informasiya mənbələrindən əldə etdiyi məlumatlarla müqayisə edir, bu da onda yeni fikirlər formalaşdırırdı. Teleekranlarda da mütəmadi olaraq onun marağını çəkən mövzuda verilişləri izləyirdi. Gülcə yenə televizoru işə salıb, pultu əlinə aldı, maraqlı bir veriliş tapmaq məqsədilə kanalları bir-bir çevirməyə başladı. Artıq son illərdə onun marağını

cəlb edən elə bir veriliş də yox idi. O, məlumat xarakterli verilişlərə baxmağa üstünlük verirdi. Kanalların birində xəbərlər proqramında dünyada baş verən son hadisələrdən xəbərlər oxunurdu. Təbii ki, başda siyasi xəbərlər idi. Dünyada baş verən son siyasi yeniliklərdən danışılırdı. Gülcə istər-istəməz düşündü:-Bir dünya nə qədər bölünər axı? Nə istəyirlər bu dünyadan? Axı özlərinin də yaşaması üçün yaradılan bu dünyanı niyə məhv etdiklərinin fərqində deyillər?

Aparıcı xəbərləri oxumağa davam edirdi. Yenə də ölkədə baş verən kriminal hadisələr, artıq gündəlik mövzu olan məişət mövzuları "aktual" mövzu kimi tamaşaçıya sırınırdı. Bəzən günlərlə mədəni tədbirlərdən söhbət açılmırdı. Xüsusən özəl telekanallar məişət səviyyəsində olan verilişlərlə baş qatırdılar. Reytinq xəstəliyi baş alıb gedirdi. Bu gün dünyanın və Gülcənin yaşadığı məmləkətin mənzərəsi bu idi. Hamı bu axına qoşulub gedirdi. İpi qırılaraq dağılan muncuq kimi cəmiyyət də sanki dağılmışdı. Cəmiyyətin çox hissəsi hara  getdiyini, nə üçün getdiyini düşünmədən xaos içində idi. Bütün bunları gördükcə, Gülcə bəzən ümidsizliyə qapılırdı. Amma içindən bir səs belə getməz deyirdi. İlahi ədalətin  bu axına, bu şərə "dur!" deyəcəyinə inanırdı. Axı Çocuk da, Yer kürəsində baş verən bütün hadisələrdən xəbərdarıq,- deyirdi. Yəqin ki, dünyadakı bu təlatümün bir sonu olacaqdı.

Bütün bu düşüncələrin də onu xeyli yorduğunun hiss etdi. Televizoru elektrik şəbəkəsindən ayırdı. Qızı, həyat yoldaşı hələ evə dönməmişdi. Bu gün piyada çox gəzdiyindən ayaqları sızıldayırdı. Başını divanın üzərindəki kiçik balışa qoycaq yorğun vaxtlarında olduğu kimi həmən anda yuxuya getdi.

Qapının zəng səsinə oyandı. Gözləri qeyri-ixtiyari divardan asılmış saata zilləndi. Nə az, nə çox düz iki saat yatmışdı. Yerindən qalxaraq ağır addımlarla qapıya doğru getdi. Qapını açdı. Gələn qızı idi. Salam verib içəri keçdi:

-Ana, deyəsən yenə çox yorğun gəlib yatmısan. Xeyli vaxtdır qapının zəngini çalıram,- deyərək təbəssümlə anasının üzünə baxdı və əlavə etdi:

-Yəqin yenə də yemək yeməmiş yatmısan.

Yüngülcə əli ilə anasının yanağına toxundu.

-Eybi yoxdur, bir yerdə yeyərik. Mən də yaman acmışam.

Gülcənin də üzünə təbəssüm qondu. Çox sevirdi övladlarını. Ailəsinə bağlı biri idi. Qızı onu hər kəsdən yaxşı anlayırdı. Çox vaxt iki rəfiqə kimi dərdləşərdilər.

Bu gün də birlikdə mətbəxə keçdilər. Süfrə arxasında həmişə olduğu kimi hər kəs gün ərzində gördüklərindən, gündəlik təəssüratlarından söhbət açdı. Ev telefonuna gələn zəng onları söhbətdən ayırdı. Gülcə zəngə cavab vermək üçün qalxıb qonaq

otağına keçdi. Zəng edən həyat yoldaşı idi. Danışığı çox qısa çəkdi.

-Bəli. Gec gələrsən? Yaxşı.

Telefonu kənara qoyub elə otaqdan səsləndi:

- Atan idi. Deyir gec gələcəm. Məni gözləməyin. Siz yeməyinizi yeyin. Yəqin qardaşın da gec gələr. Deyəsən şam yeməyini elə ikilikdə yeməli olacağıq.

Şam yeməyindən sonra Gülcə yarımçıq qalmış yazılarına nəzər yetirmək üçün yenə də kompüterin qarşısına keçdi.

## F Ə S İ L - 12

Gülcənin ən yaxşı həmsöhbəti, fikir bölüşdüyü həm də özü idi. Hara getsə, nə iş görsə onun fikir dünyasında biri vardı. Ağlı kəsəndən mənəvi dünyasının sadiq dostu-içində yaşatdığı "Mən" onunla idi. Gün boyu onunla bir yerdə idi, gördüklərini, eşitdiklərini, yaranan yeni düşüncə və fikirlərini məhz daxilində daşıdığı, içində yaşatdığı "həmsöhbətilə" müzakirə edərdi. Bəzən bu müzakirələr yeni fikirlər doğurur, "həmsöhbəti" bəzən onunla razılaşır, bəzən də onu fikrindən daşındırırdı. Amma çox zaman fikirləri üst-üstə düşürdü.

Gülcə nəqliyyatla uzaq yol getməyi, tənha bir guşəyə çəkilməyi də çox sevirdi. Çünki bu zaman onu düşüncələrdən, "həmsöhbət"indən ayıran olmazdı. Yaxşıca fikir mübadiləsi edə bilirdilər. Bu za-

man yeni düşüncələr, yeni fikirlər yaranırdı. Onlar uzun illər idi ki, beləcə birlikdə yol gəlirdi. Gəldikləri yolda gördükləri də çox olmuşdu. Kimlərlə, nələrlə qarşılaşmamışdılar?! Çətinlikləri, problemləri bir-birinə sığınaraq, ürək-dirək verərək, məsləhətləşərək, doğru çıxış yolu axtararaq aşmışdılar. Hər ikisinin son sözünü, birlikdə gəldikləri qərarı, fikirləri söyləmək missiyası isə dünyada onları bir vücudda təmsil edən Gülcənin üzərinə düşürdü. Onların bu dünyada danışan dili Gülcə idi. Zahirdəki və daxildəki mənin dünya təmsilçisi-Gülcə. Son günlər isə Çocuk adlı daha bir dost da gəlmişdi yalnız onların ikisinə məxsus dünyasına. Gəlişiylə yeni düşüncə, yeni mövzular yaranmışdı söhbət üçün. İndi dünyaya daha fərqli bir baxışla baxırdılar.

Son zamanlar Gülcə dünya gündəmində olanları gördükcə, eşitdikcə düşünürdü: yaranan gündən insana qənim kəsilən şeytan hər vəchlə dünyanın insan üçün yaradıldığını ona unutdurmaq istəyir. İnsanı insanın öz əliylə məhv etməyə, kimliyini unutdurmağa, dünyasını məhv etməyə çalışır. Bu gün dünyanın mənzərəsi də bunu düşünməyə əsas verir. İnsan əliylə tökülən insan qanı, doğma, yad bilmədən insanın insan canına qıyması bunu sərgiləyir. Dünyada qoyub gedəcəkləri var-dövlət üstündə bu nə qovğa, bu nə savaşdı?- deyə çox düşünürdü Gülcə. İnsan onun yaşamı üçün yaradılan dünyanı

məhv etməkdən çəkinmir, məsul olduğunu düşünmədən onunla istədiyi kimi davranır.

Birdən Gülcənin var gücüylə bağırmağı gəldi:

-Sən insan övladısan axı! Özünə, insanlığına dön!

Bu dünyada insan kimi yaşamaq istəyən və hər kəsi də belə görmək istəyən birinin harayının, fəryadının səsi idi bu səs. İçindəki fəryadı sanki bütün dünyaya yayılaraq əks-səda verdi. Gözləri önündə yaddaşı əlindən alınmış, dünyaca məşhur qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər "romanınında bəhs edilən manqurtlaşdırılmış gənc Yolaman canlandı. Gülcəyə elə gəldi ki, iç dünyasını titrədən bu səs manqurtlaşdırılmış oğlu tərəfindən oxla vurulan zaman baş örtüyü açılıb səmaya uçan və o gündən bu günə kimi bir ağ quşa çevrilərək daima bu sözlərlə ötən Nayman ananın səsinə qarışdı:

-"Yadına sal kimlərdənsən? Adın nədir? Sənin atan Donenbaydır! Donenbay! Donenbay!"

Bu səs insanın yaddaşını itirərək tarixi keçmişindən, milli kimliyindən, soy-kökündən uzaqlaşmağının faciəsi, harayı idi.

Gülcə əsərdən daha bir epizodu da xatırladı.

Manqurtlaşdırılmış türk gənci Yolamanın anası ona "kiminlə danışırsan?"sualını verəndə onun cavabı belə olmuşdu:

-Ayla danışıram. Ancaq biz bir-birimizi eşitmirik. Orda kimsə oturub,-deyə cavab vermişdi.

Gülcə düşündü ki, bəlkə də Yolamanın dilindən səslənən bu sözlərlə yazıçı Ay planeti ilə türklərin bir bağlılığı olduğunu, amma bu bağlılığın unudulduğunu deмək istəmişdi. Çocuk da, "Ayın qaranlıq üzündə biz varız",-deyirdi. O, gördüyü yuxuda Çocuğun ona söylədiyi sözləri də xatırladı:

-"Ruhunun ardınca get, Gülcə! O zaman çox şeyi dərk edəcəksən. Türk ruhunda kodlaşan çox bilgilər var. Araşdırsan, həm göydə, həm yerdə baş vermiş və baş verəcək çox hadisələrdən xəbərdar olacaqsan".

Çocuk da Gülcəni milli kimliyinə, milli ruhuna dönməyə çağırırdı.

Gülcəyə elə gəldi ki, Çocuğun söylədiyi kəlmələr də hələ də səmalarda dolaşan Nayman ananın səsinə qarışdı:

-Yadına sal kimlərdənsən? Sənin adın nədir?

Bu çağırı kimliyi, hansı soydan gəldiyi unutdurulmağa çalışılan türk millətinə idi.

Qırğız yazıçısı Çingiz Aytmatov əsərində bəhs etdiyi bu anaya Nayman adını da yəqin ki, təsadüfi verməmişdi. Çünki, Nayman bir türk boyunun - düşməninə qarşı mübariz, bir vaxtlar Çingiz xanın belə çox çətinliklə məğlub edə bildiyi döyüşkən bir türk boyunun adıdır. Bu türk boyundan olanlar bu gün də Orta Asiya və Monqolustanın qərb tərəfində yaşamaqdadırlar.

Gülcə araşdırmalar zamanı sovet kosmonavtlarının Aya səyahətindən bəhs edən bir video görüntü ilə də qarşılaşmışdı. Bu video görüntüdə kosmonavtların iki mumyalanmış insan cəsədi ilə rastlaşdıqları və geri dönən zaman özləriylə gətirdikləri görüntülənirdi. Nümayiş etdirilən qadın cəsədi, bədən forması heç pozulmamış, çəkisi 60-65kq, boyu 165 sm, qara saçlı, qıyıq gözlü, uzaq şərq insanına bənzəyirdi. Mumiyanın görkəmi eyniylə yer insanlarına bənzəyirdi. Bu mumiyanın üz quruluşuna baxdıqda qədim türk daş heykəllərində təsvir edilən üz quruluşlarıyla eyni olduğu qənaətinə gəlmək olurdu.

Videoda eyni zamanda kosmonavtların eynilə insana bənzər canlı bir varlıqla qarşılaşdığı da aydın görünürdü. Diqqətlə qulaq asdıqda kosmonavtların qeydə aldığı səslər də eşidilirdi. Gülcə bu səslər içində bir səs də eşitdi. Bu "hu" kəlməsinə bənzər səs idi. O, bu səsi eşidəndə qədimdə "Dəlilər" deyilən türk döyüşçulərinin döyüşə "hu" deyərək atılmasını xatırladı. Bu döyüşçulərin qoşunun ön sıralarında döyüşdüyü, heybətli görkəmə, qeyri-adi gücə, cəsarətə malik olduqları da tarixdən məlumdur.

Çocuğun sözlərini bir daha xatırladı: -"Ayın qaranlıq üzündə biz varız". Gülcəyə də düşüncələri, araşdırmaları və əldə etdiyi məlumatlar bu qənaətə gəlməyə əsas verirdi. Ayın qaranlıq üzündə olan varlıqlar məhz türklərdir-Göy Türkləridir.

## F Ə S İ L - 13

Gülcə Göy Türkləri haqqında yaranan düşüncələrdən heç bir vəchlə qurtula bilmirdi.Yenə də Çingiz Aytmatovun bəlkə də Göy Türklərin varlığından xəbərdar olduğu fikri düşüncəsinə hakim kəsildi. Kim bilir, bəlkə Göy Türkləri elə Çingiz Aytmatovla da zamanında əlaqə qurmuşdular. O zamankı sovet rejimində bu mövzuda söhbət açmaq mümkün olmadığından yazıçı əsərdə bəhs etdiyi bu hekayə ilə Ayda da türklərin-Göy Türklərin yaşadığı mesajını vermək istəmişdi. Onsuz da sovet dönəmində türk xalqları basqı altında idi. Bu nəinki Rusiya Federativ Respublikası ərazisində mövcud olan türkdilli Muxtar respublikalarda, Muxtar Vilayətlərdə, həm də Sovet İttifaqınını tərkibinə daxil olan türkdilli Respublikalarda da belə idi. Buna görə bu mövzuda söhbət açmaq, məlumat vermək mümkün deyildi. Kimliklərini unutdurmaq üçün türk millətindən olanlara öz əzəli türk adıyla çağırmaq, milli kimliyini söyləmək qadağan olunmuşdu. Türküstan deyilən bir ərazidə yaşayan türk dilli xalqlar müxtəlif adlarla çağırılmağa başladı, yaradılan respublikaların adı ilə çağırıldı. Özbək, qazax, qırğız, türkmən adlandırıldı. Hətta Qafqazda yaşayan Azərbaycan türkləri azərilər, yaxud milli kimlikləri rəsmi olaraq yaşadıqları məkanın adıyla azərbaycanlı adlandırılırdı. Türk adı artıq

yasaq edilmişdi. Türk olduğunu qurduğu dövlətin adında bəyan edən bir Türkiyə Cümhuriyyəti qalmışdı. Bu türk dövlətinin varlığı da Sovet İttifaqının tərkibinə qatılmış türk respublikalarının əhalisinə ciddi-cəhdlə unutdurulmağa çalışılırdı. Türklük məhfumunu beyinlərdən, yaddaşlardan silmək üçün hətta tarix belə təhrif olunur, yeni nəslə sovet siyasətinə uyğun tarix öyrədilirdi. İllər sonra bu siyasət artıq öz nəticəsini verməyə başlamışdı. Belə ki, Sovet Sosialist Respublikaları İttifaqı adlanan, əslində isə imperiya dövləti olan bu dövlətdə yaşayan türkdilli respublikaların əhalisi türk dilində bir-birini anlamaz hala gəlmişdi. Onlar bir -biri ilə yalnız rus dili vasitəsilə təmas qura bilirdilər. Artıq bəzi turkdilli respublikalarda öz ana dilində danışa bilməyən bir nəsil formalaşmışdı. Türk kimliyini, keçmişini xatırladanlara isə pantürkist damğası vurulur, onlar ya ölüm cəzası ilə cəzalandırılır, ya da gedər-gəlməz yerlərə - uzaq Sibirə, yaxud yaşayış üçün çox əlverişsiz olan digər ərazilərə sürgün edilirdi. Yazıçı Çingiz Aytmatovun ailəsi də bu təqiblərdən can qurtara bilməmişdi, atası 1937- ci ildə həbs olunaraq 1938- ci ildə güllələnmişdi. Repressiya dalğası bu türk ailəsinə də ağır zərbə vurmuşdu. Bütün bu təqiblər, işgəncələr  türk ruhunda, türk yaddaşında kodlaşmış məlumatları isə silə bilməmişdi. Sovet dönəmində yaşasa da, yazıçı əsərində Manqurt əfsanəsiylə türk millətinə kimliyini xatırlamağa çalışırdı.

Çingiz Aytmatov "Gün var əsrə bərabər" romanında sovet kosmonavtlarının sivilizasiyanın olduğu başqa bir planetə getdiyindən də yazırdı. Amma bu Ay planeti deyildi. Tamamilə başqa bir planet idi. Yazıçı iki kosmonavtın yaşayışın olduğu başqa bir planetlə əlaqə qurmaları və razılaşaraq onların kosmosa gəldiyi gəmiylə onlarla birlikdə Yer kürəsinə nisbətən daha inkişaf etmiş bir sivilizasiyanın olduğu planetə getmələrindən söz açmışdı. Gələnlərin kosmik nəqliyyatı da daha modern idi. Görkəmlərindən yer insanına bənzəyirdilər. Dilləri isə başqa idi. Kosmonavtlarla isə onlarla ingilis və rus dilinin qarışığı olan dildə danışırmışlar. Və onlar on bir saat sonra Günəş sistemindən çıxaraq başqa bir ulduz sisteminə yol almışdılar. Nəhayət, sonsuz bir işıq aləminə gətirilmişdilər. Bu işıq seli isə daha böyük bir Günəşdən gəlirdi. Onların planetində bir sutka iyirmi səkkiz saat idi. Planetə yaxınlaşmağa beş-altı min metr qalmış gələn kosmonavtlar tanış olsun deyə planetin ətrafına xüsusi dövrə vurmuşdular. Buradan onların görmədiyi gözəllik aləmi, yaşıllıq içində olan təpələr, dağlar, yamaclar görünürdü. Onların arasından axan çaylar, göllər, dənizlər də görünürdü. Bunları oxuduqca, Gülcə gördüyü yuxunu xatırladı. Axı Çocuğun bura Ötükendir dediyi yer də eynilə Çingiz Aytmatovun təsvir etdiyi mənzərəni, təbiəti xatırladırdı.

Əsərdə yazılırdı: Planetin əhalisi uzunömürlü idi. Buna baxmayaraq ömrün üzadılması haqda düşünürdülər. Günəşdən, gecə və gündüzün temperatur fərqindən enerji əldə edirdilər. Dövlət quruluşunun, müharibənin, silahın nə olduğunu bilmirdilər.

Onlarda Ay olmasa da Aydan xəbərdar idilər. Ayda da olduqlarını söyləyirdilər. Yer planetindən də xəbərdar idilər. Və yer ilə təmasa girmək istədiklərini söyləyirdilər. İşıq sürətiylə uçan nəqliyyatları olduğundan Yer planetinə də gələ bilərdilər. Amma icazəsiz Yer planetinə soxulmaq fikirləri yox idi. Dəvət gözləyirdilər.

Gələn qonaqları isə səmimiyyətlə qarşılamışdılar. Orbital stansiyadan gələn hər iki kosmonavtı sensasyon bir tərzdə təqdim etmişdilər. Böyük bayramlarda istifadə etdikləri qlobal telekontakt sistemləri efirə buraxılmışdı. Və bu texnalogiya ilə minlərlə kilometr uzaqlıqda olan adamları yanlarındaymış kimi görür, qarşılıqlı əlaqə yarada bilir, danışa, əl görüşə bilirdilər. Müxtəlif etnik qruplardan olan bu adamlar çox yaraşıqlı idilər. Saçlarının rəngləri isə göy rəngin müxtəlif çalarlarında idi.

Onlar bir daha Yer planetinə gəlmək arzularını, bu planetin sakinləri ilə əlaqə qurmaq arzularını bildirdilər. Yer kürəsindən gələn kosmonavtlar bu arzularını yaşadıqları Yer planetinin sakinlərinə, daha doğrusu öz dövlətlərini idarə edənlərə çatdıracaqla-

rına söz versələr də, bunun qəbul edilməyəcəyini bilirdilər.

Nəhayət, kosmonavtlar yerə qayıtdıqdan sonra xoşməramlı yad planetlilərin təkliflərini Yer planetindəki əməkdaşlara çatdırdılar. Yerdə isə kosmonavtların təxmin etdiyi kimi buna qəti etiraz etdilər. İstənilən formada əlaqəni rədd etdilər. Və stansiyada bütün tədqiqat işləri təxirə salındı. Təxirə salınmanın əsl səbəbi də gizlədildi. Yer sakinləri Yer kürəsindən başqa planetlərdə canlıların yaşadığından, sivilizasiyanın olmasından xəbər tutmamalıydı.

Yazıçı əsərdə başqa bir planetdə olan yaşayışdan söhbət açır. Onların yer kürəsinə gəlmək istəyini, xoşməramlı, sülhsevər olduqlarını qələminin diliylə oxucusuna çatdırır. Bir başa söylənməsinin o zaman mümkün olmadığını nəzərə alaraq bir türk əfsanəsiylə Ayda da yaşayışın olduğuna, buranın sakinlərinin isə türk olduğuna, Nayman-ananın dili ilə soy-kökünü unutmasın deyə türk millətinə çağırış etmiş, mesaj göndərmişdi. Kosmonovtların Yer kürəsinə məlum olmayan səyahətini canlandırmaqla yüksək sivilizasiyanın olduğu başqa planetlərin də olduğunu oxucusuna çatdırmışdı.

Gülcə o zaman əsərdə bəhs edilən hadisələrin mahiyyətini tam anlamasa da. İndi yazıçının nədən bəhs etdilini yaxşı anlatırdı.

Yazıçı vətəndən tərikliyimiz-Türklüyümüz deyirdi, yəni əzəli yurdumuzu tərk etməyimizdən yazırdı.

Yer planetində yaşayanlar arasında ün(səs) eşidənlərin yox dərəcəsində oldundan söhbət açırdı.

"Ehtirasla dolmuş beyinlər həqiqət işığını qəbul edə bilməz," söyləyirdi İsa Muğanna.

Yazıçı oxucusuna bu məlumatları ötürməyə çalışırdı ki, lazım olanda Təriklərin-türklərin əcdadları yerə enirlər,"İşıq Gəmiləri"deyilən planetlərarası gəmilər ilə. Və burada onlara verilən tapşırıqları yerinə yetirirlər.

Yerdə əzab-əziyyətə dözüb, doğru yoldan dönməyənlərin ünü onlara çatır.

Vahid kainat və on səkkiz min "Aləm"var. Yer də bu aləmlərdən biridir.

Gülcənin bütün bu oxuduğu fikirləri İsa Muğanna sovet dönəmində yazmışdı. Deməli, yazıçı da bir türk kimi Göy Türklərindən xəbərdar imiş. Muğanna bəlkə də "İdeal" əsəri ilə həm türk dünyasını həm də bütün dünyanı bundan xəbərdar etmək istəyib.

Vaxtı ilə sirr kimi saxlanılan, bi gün dünyaya açıq olan, hər kəsin əldə edə bildiyi başqa məlumatlarla da tanış olduqca Gülcə gəldiyi qənaəti özlüyündə bir daha təsdiqləyirdi. Bu gün məlum olan bilgilər yeni fikirlər, yeni düşüncələr doğururdu Gülcədə. Bilgilərsə yetərincə idi.

Hələ 1937 -ci ildə İosif Stalin Ayın mənimsənilməsi üçün bir proqram hazırlamağa tapşırıq veribmiş. Bu gizli proqram üç ilə hazırlanmalı idi. Bu üç il

müddətində bir çox işlər görülmüşdü. Bu işlər Kiyev-17 adlanan yerdə aparılırdı. Bu indiki Çernobul ərazisi idi. Ayda yerləşdirmək üçün qurğular və onları daşımaq üçün nəqliyyat texnikaları burada hazırlanırdı. İkinci Dünya müharibəsinin başlaması bu işləri yarımçıq qoydu. İşlər dayandırıldı. Alman qoşunlarının irəliləməsini və Ukraynaya yaxınlaşdığını görən Sovet dövləti gizli proqramdan kimsənin xəbər tutmaması üçün dərhal qurulmuş müəssisəni dağıtmağı əmr etdi.

Müharibənin sonunda Almaniyanın taleyini həll etmək üçün 1945-ci ilin avqustunda Berlin Potstam konfransına yığışan Antihitler dövlətlərinin liderləri bir araya gəldi. Gizli keçən bu konfransda Almaniya ilə əlaqəli məsələlər həll olunduqdan sonra gözlənilmədən Stalin əsas payın sovetlərə verilməsi şərtiylə Ayın bölüşdürülməsi təklifini irəli sürmüşdü. İlk başdan anlamayanlar təkrar sual verdikdə Stalin: "Ayın bölüşdürülməsindən bəhs edirəm"- demişdi.

Onun məqsədi Ayı  hərbi məqsədlər üçün istifadə etmək idi. 1968-ci ildən bu proqram yenidən həyata keçirilməyə başladı. Aya uçmaq proyektləri ABŞ-da da hazırlanırdı. Bu, artıq iki ölkə arasında bir yarışmaya çevrilmişdi.

Nəhayət, uzun hazırlıqlardan sonra Amerikalı astronavtların aya enişi canlı yayınlanırdı. Lakin iki dəqiqə sonra canlı yayın kəsilmişdi. Canlı yayının

kəsilmə səbəbi isə yalnız qırx il sonra açıqlandı. Yayın o zaman bilərəkdən uçuş mərkəzinin təlimatı ilə kəsilmişdi. Çünki astronavtlar aya endiyi zaman inanılmaz bir şeylə qarşılaşmışdılar. Bu heç bir məntiqlə izah edilməsi mümkün olmayan bir hal idi. Aya enən astronavtları izləyən, parlaq, göz qamaşdıran işıqlar saçan uçan obyektlərin olduğu görünür. Daha sonra onlar işıq saçan dairələrin onlara yaxınlaşdığını idarəetmə mərkəzinə bildirirlər. Daha sonrakı səyahətlərin birində isə Apollo-12 Ay üzərinə eniş modulunu buraxdığı andan başlayaraq Ayda bir titrəşim əmələ gəlmişdi. Bu titrəşim Yerdən fərqli olaraq çox uzun sürmüşdü. Cihazlar bu titrəşimin 3 saat 20 dəqiqə sürdüyünü qeydə almışdılar. Bundan sonra ayın içinin boş ola biləcəyi fikri yarandı. Bu isə ayın təbii bir planet olmadığı fikrini meydana çıxardı. Bu da ayın planetlərarası bir stansiya qurğusu kimi qəbul edilməsi fikrinə keçid verdi. Bu sübut ediləcəyi təqdirdə insanın qalaktikada tək olmadığı hipotezinə yol açılacaqdı. Bu isə astronavtların başqalarının yaşadığı bir bölgəni zəbt etməsi fikrinə gəlməyə əsas verəcəkdi. Eyni zamanda Aya enən astronavtlar onların izlənildiklərini hiss etdiklərini söyləyirdilər. Əslində bu məlumatlardan sonra dünyadan gizlədilsə də dünyadan kənarda yaşayan ağıllı varlıqların olması inkar edilmirdi. Sonradan isə uzaylı mədəniyyətlərinin olmasından danışılmağa başlandı.

1972 -ci ildə isə Apollo -17 Aya endi. Rəsmi açıqlamalara görə bu Aya axırıncı eniş idi. Daha öyrəniləcək bir şey qalmayıb,- deyə açıqlama verildi. 15 ilə nəzərdə tutulmuş Ay proqramı 3 ilə başa çatdırıldı. Bəs bu proqramın dayandırılmasının, yarımçıq qoyulmasının əsl səbəb nə idi? Astronavtlar onları üst ağıla sahib varlıqların təqib etdiyini və onların Ayda olmasından heç də məmnun olmadığını söyləyirdilər.

Bütün bunlar sual ardınca sual doğururdu. Əslində, Ay nədir? Ayda heyrətləndirici bir şeylərin olduğunu insanlar təxmin edirdi. Astronavtlar burada hərəkətli və hərəkətsiz, gah azalıb, gah çoxalan işıq topalarının, gah görünüb, gah yox olan, qaranlığı bıçaq kimi kəsən obyektlərin görünməsindən xəbər verirdi. Bu bilinməyən bir güç tərəfindən nəzarət edilən bir işıqlanmaya bənzəyirdi.

Bilgilər bununla bitmirdi. Hələ 1958-ci ildə alim Kozerev isə Ayda qəribə qırmızı rəngli bir bulud müşahidə etmişdi. Bu bir vulkan partlaması idimi? Ayda belə bir şey olması məlum bilgilərə əsasən mümkünsüz sayılırdı. Çunki Aydakı vulkanik aktivliklər üç milyard il bundan öncə sona yetmişdi. Və oradaki vulkanlar zamanı lavalar yerdəki vulkanlardan fərqli olaraq partlayışlarla deyil, sakit bir atışla səthə çıxar. Deməli, bu bir vulkan ola bilməzdi. O zaman bu nə ola bilərdi? Kozerev o zamankı elmi biliklərlə buna açıqlama gətirə bilməmişdi. Buradan

belə bir qənaətə gəlinirdi ki, ayın mənşəyi çox fərqlidir. Ayın təxminən dörd milyon yarım il bundan öncə yarandığı qəbul edilməkdədir. Amma Ayın bu günkü məlum olan səth təbəqəsinin tərkibi, quruluşu və təbəqənin qalınlığı bu fikri inkar edir. Ay daha sonralar yaranmışdı. Bəlkə də yaradılmışdı. Bu inandırıcı olmasa belə, Ay üzərindəki maskonlar-qəribə lavalar bu fikri irəli sürməyə əsas verirdi. Bu bütün Ayı əhatə edə bilir. Əgər belədirsə, Ay düzəldilmiş bir kosmik gəmi də ola bilər. Bəlkə də hər hansı bir fəlakət zamanı Nuhun gəmisi kimi istifadə edilə bilmək üçün, ya da bir laboratoriya kimi istifadə üçün yaradılmışdı. Belədirsə Ay bir gün yerdən uzaqlaşaraq, gedə bilər. Günəşi heç bir planet qapaya bilmədiyi halda, yalnız Ay qapaya bilir (Günəş tutulması deyilən bu hadisə dəqiq olaraq 100 ildə 63 dəfə gerçəkləşir. Ayın yerdən olan məsafəsi Günəşə nisbətən 400 dəfə az olduğu halda, Yerdən baxdıqda təxminən Ay da Günəş böyüklüyündə görünür. Ay Yerdən dəqiq bir məsafədə durur. Bu dəyişməz, dəqiq məsafə olmasaydı Ay heç vaxt Günəş tutulmaları zamanı Günəşi tam örtə bilməzdi. Qalaktikada baş verən heç bir təbiət hadisəsi buna təsir edərək dəyişə bilmir).

Ayın öz oxu ətrafında tam bir dövr etməsi, Yer kürəsi ətrafındakı tam bir dövr etməsiylə sinxronluq təşkil edir. Bu səbəbdən Dünyadan Ayın həmişə eyni üzü görünür. Ayın qaranlıq üzü deyilən üzü görün-

mür. Bu isə elm adamlarına Ayın yüksək bir ağıl tərəfindən idarə olunduğu fikrinə gəlməyə əsas verir.

Ay səthində yeddi müxtəlif yerlərdə rast gələn antenə bənzər qurğular da kosmonavtların diqqətini cəlb etmiş, "sanki bir kosmik gəmiyə yerləşdirilmiş ötürücü antenlərdir" deyə qeyd etmişlər. Bəzi araşdırıcılar bu qurğuların yer planetinə yönəldiyi fikrini irəli sürür. Bu antenlər Misir vadisindəki pramidalara yönəldilib fikrini irəli sürənlər də vardır. Piramid araşdırıcıları da piramidaların içini tədqiq etdikdə orada istifadə edilən qranitlərin tərkibi olan kristallar enerji çevirən, məlumatları depolayan bir özəlliyə malik olduğunu açıqlamışlar. Bəlkə də minlərlə ton qranitin uzaq yerlərdən bu vadiyə daşınaraq piramidaların tikintisində istifadəsi təsadüf deyildi. Bu siqnal ötürücüsü ola bilərdi. Əfsanəyə görə bu pramidaların üzərində siqnal qurğuları da varmış. Və bu qurğulardan kosmosa tanrılarla əlaqə yaratmaq üçün siqnallar göndərilirmiş.

Yapon araşdırmaçılar tərəfindən isə Aydakı Marius təpələri yaxınlığında çox böyuk, yüzlərcə kilometr diametri, 85 metrə yaxın dərinliyi olan tunellər olduğu bildirildi. Bu tunellərin sayı çoxdur. Alimlər bunların metiorit çarpmaların qarşısını almaq üçün açıldığını təxmin edirlər. Və Ayın içində yaşayanlar varsa bu tunellərlə ayın səthinə çıxıb, təkrar geri gedə bilərlər.

Başqa bir tədqiqatçılar qrupu isə həmin tunellərin birinin yaxınlığından 20 km ölçülü qara bir kölgənin uçduğunu qeydə almışdılar. Bu qara kölgə iki saniyədə 400 km məsafə qət etmişdi. Yenidən bir fikir doğurdu. Ay təbii bir planet deyil, yaradılmış bir planetdir. Əgər belədirsə, bu planet necə və nə zaman Yer ətrafına yerləşdirilib? Və kimlər yerləşdirib? Nədən yerləşdirib?

Bəzi fərziyələrə görə isə belə bir fikir yarandı. Yerin ikinçi bir peykimi var imiş? Belədirsə, digər peykimizə nə oldu? Belə fərziyyə irəli sürülür ki, o biri peykimiz Aya çırpılaraq dağılmış, qalıqların bir hissəsi isə ayın qaranlıq üzündə qalmaqdadır. Ayın iki üzü var və bir-birindən fərqlənir.

Türk xalqlarının bayraqlarında, simvollarında ay rəsminin çox olması da bəlkə onların Ayla əlaqəli olmasından qaynaqlanır.

Bütün bu məlumatları oxuyub öyrəndikcə Gülçənin marağı daha da artırdı. O, yenidən "Gun var əsrə bərabər "romanındakı hadisələri fikrində analiz etdikcə, həm də Ay barədə əldə etdiyi digər məlumatları öyrəndikcə Çocuğun “Ayın qaranlıq üzündə biz varız” fikrinin doğruluğunu özlüyündə təsdiqləyirdi.

# F Ə S İ L - 14

Gülcə yenidən Çocukla danışmaq, başqa mənbələrdən araşdırıb öyrəndiyi məlumatlar haqqında fikrini bölüşmək qərarına gəldi. Amma bu gün çox yorulmuşdu. Bəlkə heç Çocuğun da vaxtı yox idi. Çünki bu günlərdə dünyada, o cümlədən türk dünyasında baş verən hadisələr o qədər sürətlə dəyişirdi ki, yəqin dostu da çox məşğul idi.

Çox yorulanda, fikirləri qarışanda, darıxanda dibçəklərdə yetişdirdiyi çiçəkləriylə danışardı Gülcə. O, elə bil yaxın bir qəlb sirdaşıyla dərdləşirdi. Onlarla söhbət edər, ləçəklərini, çiçəklərini, yarpaqlarını nəvazişlə oxşayar, əzizləyərdi. Çiçəklərə qəribə sevgisi, bağlılığı vardı Gülcənin. Çiçəklərə nə qədər baxsa da yorulmaz, usanmazdı. Ruhuyla, qəlbiylə oxşardı çiçəklərini. Bu zaman bütün dərdlərini, yorğunluğunu unudardı. Bəlkə də ona görə gördüyü yuxuda da Çocuk ona sənin adın Gülcədir, Göy Türkləri səni Gülcə kimi tanıyır deyəndə, "gül" sözündən yaranan bu adı sevincək, sanki doğulduğu gündən bu adı daşıyırmış kimi tərəddüd etmədən qəbul etmişdi.

Çiçəkləri ilə "söhbət"dən sonra yenə otağa keçdi. Xeyli rahatlaşmış, yorğunluğunu atmışdı. Telefonunu götürüb Çocuğa mesaj göndərərək, suallarını ünvanladı.

Artıq neçə saat keçməsinə baxmayaraq hələ göndərilən mesaj oxunmamışdı.

Yəqin ki, yenə də ciddi bir işi var,-deyə düşündü. Çocuğun dünyada baş verən hadisələrə müdaxilə edə bilməsi, dünyanın hər yerindən xəbərdar olması əvvəllər Gülcəni çox təəccübləndirirdi. Onunla tanışlıqdan müəyyən vaxt keçdikdən sonra isə hətta fikrində tutduğu, soruşmaq istədiyi hər hansı bir sualın cavabının soruşmazdan əvvəl cavab verməsinə daha alışmışdı. Çocuğun "Biz düşüncə dili ilə danışırıq" deməsinin sübutuydu bu. Gülcəyə səbrlə gözləmək qalırdı. Bilirdi ki, yenə cavablar sualdan əvvəl veriləcək. Neçə gün idi ki, araşdırıb oxuduqları onda bir çox suallar doğurmuşdu. Onlara cavab almağa səbirsizlənirdi. Amma carə yox idi. Səbrlə O I O (SIFIR BİR SIFIR) parolu ilə başlayan mesajın gəlməsini gözləmək lazım idı.

Artıq gün başa çatmış, gecə keçmiş, Gülcə üçün də adi, növbəti iş günlərindən biri başlamışdı. Ailədə hamı erkən qalxmışdı. Hər kəs işə getmək üçün hazırlaşırdı. Demək olar ki, iş günləri bir-birindən fərqlənmir, eyni qayda ilə başlayardı. Hər kəs erkən qalxar, iş hazırlıqlarını edəndən sonra yemək masası arxasına keçər, səhər yeməyindən sonra işə yollanardılar.

Bu gün də səhər yeməyini yeyib masa arxasından qalxdılar. Gülcə tələsik süfrəni yığışdırıb masanı səliqəyə saldı. Artıq alışmışdı, sanki gündəlik görəcəyi işlər beynində proqlamlaşmışdı. İşlərini özü görməyi sevərdi. Ona görə özünə ayırmağa az vaxtı qalardı. Hətta Çocuk belə neçə dəfə özünə vaxt ayır

demişdi. Bu vaxta qədər sən başqaları üçün yaşamısan, xəbərin varmı? -deyərdi. Gülcə də fərqindəydi. Çox illəri, çox şansları əldən vermişdi. Bəlkə indi tamam başqa bir Gülcə olardı. Həyatda daha çox şey əldə edər, karyera qura bilərdi. Kim bilir, bəlkə itirdiklərinin yerini bundan sonra doldura biləcəkdi? Ona açılan yeni həyat səhifəsi bəlkə böyük uğurların başlanğıcıydı?

Belə düşüncələr içində qapıya tərəf yönəldi. Həyat yoldaşıyla qızı onu həyətdə gözləyirdi. Açarları əl çantasından çıxarıb qapını bağladı. Qaçaraq həyətə çıxıb avtomobilə əyləşdi. Bu zaman telefona mesaj daxil olduğunu bildirən səs eşidildi. Maşından tez enəcəyini nəzərə alıb mesajın kimdən gəldiyinə baxmadı.

Təxminən beş dəqiqədən sonra metro stansiyasının yaxınlığında avtomobili idarə edən həyat yoldaşı və qızıyla sağollaşaraq avtomobildən endi.

Bir müddət sonra artıq işdə idi. Bu gün işləri çox olduğundan başı işə elə qarışdı ki, vaxtın necə gəlib keçdiyinin fərqinə belə varmadı. İşinin çoxluğundan heç telefona gələn mesajlara da baxa bilməmişdı. Yalnız  gələn vacib zənglərə cavab vermişdi. Bir də baxdı ki, iş günü başa çatıb. Yığışıb iş otağından çıxdı.

Evə dönəndə artıq hava qaralmaq üzrə idi. Metrodan çıxaraq yorğun addımlarla evlərinə tərəf yollandı. Bakının isti havasına Xəzərdən əsən külək sərinlik gətirirdi. Hərdən güclənən külək dalğalı saçla-

rını qarışdıraraq havada uçururdu. Saçlarını arxaya yığmağa cəhd etsə də, mənasız idi. Bakının küləyiylə bacarmaq çətin idi. Amma küləyin yayın isti havasına qatdığı sərinliyin bir başqa ləzzəti vardı. Düşüncələr içində bir də baxdı artıq evə çatıb. Evə hər kəsdən birinci döndüyü üçün qapını döymədən açarları çantasından çıxarıb qapını açdı, içəri keçib ayaqqabılarını çıxardı. Çantasından telefonunu çıxararaq çantanı bir kənara qoydu. Evə dönərkən birinci olaraq telefona baxmaq artıq vərdiş halını almışdı. Bu dəfə də adətinə xilaf çıxmadı. Otağa keçən kimi telefonuna gələn mesajlara baxdı. Gələn mesajlar arasında Çocukdan gələn mesaj da var idi. Mesaj səhər yazılmışdı. Yenə də eyni parolla başlayırdı. Ardınca yazılan yazı isə belə idi:

-Salam, sevimli Gülcə. Sənin düşüncələrindən xəbərdaram. Odur ki, birbaşa düşüncəndə olan sualları cavablandırıram. Və sonra uzun bir yazı yazılmışdı. Gülcə yazıya nəzər saldı. Bütövlükdə Göy Türklərindən bəhs edirdi.

Yazının mətni belə idi:

"Göy Türkləri dünyaya ilk dəfə iyirmi dörd min il əvvəl kosmik adı "Uzay Mekiği" olan "Duran" adlı kiçik bir kosmik nəqliyyatla gəlmişlər. O zamana qədər Göy Türkləri Şimal Qütb ulduzuna bağlı olan Ötüken planetində yaşamışlar. Cənnət kimi bir yer olan Ötükendə onurğasızlar deyilən, DNT və RNT - si bizimlə eyni olan, motorik həzm sisteminə sahib

olan varlıqlarla birgə yaşayırdılar. Zaman-zaman etdikləri pisliklərdən əl çəkməyən bu onurğasızlara nəhayət, Göy Türkləri tərəfindən ciddi xəbərdarlıq edildi. Əməllərindən əl çəkməsələr ağir cəza veriləcəyi söyləndi. Onlar bir daha pislik etməyəcəklərinə söz verib, bağişlanmaqlarını istədilər.

Bir gün Göy Türkləri ilə aralarında heç bir münaqişə, savaş olmadığı halda yenə bəd əmələ əl atdılar. Anidən Ötüken planetini dağıdaraq məhv etdilər. Göy Türkləri son anda xilas ola bildi. Böyük kosmik gəmiləriylə oradan uzaqlaşa bildilər. Onlar da cavabsız qalmayaraq onuğasızların sıx yaşadığı, onlara aid olan planeti atomlarına qədər parçalayaraq məhv etdilər. Bundan sonra Göy Türkləri yaşamaq üçün yeni məskən axtarmağa başladılar. Bu məqsədlə bir çox planetlərə, o cümlədən adına dünya deyilən Yer planetinə də yaxınlaşdılar. Burada böyük meşələrin, yaşıllıqların olduğu geniş bir bölgəyə gəldilər və burada məskunlaşdılar. Göy Tutkləri yerə enəndə artıq yer planetində kiçik qruplar şəklində insanlar yaşamaqdaydı. Amma hələ ibtidai bir yaşam formasında idilər. Belə ki, əkinçiliyi bilməyən, əşyalardan, alətlərdən, metallardan məlumatları olmayan sakinlər idi. Göy Türkləri isə yüksək texnologiyaya, mədəniyyətə sahib idilər. Və yerə gəlişləriylə buradakı yaşayışa da təsir etmiş oldular, inkişafa təkan verdilər. Bu gün uyğur türkləri ilə eyni coğrafiyanı bölüşən çinlilər "Bizə millət olmağı türklər öy-

rətdi" deyə etiraf edirlər. Hazırkı Çin ərazisində olan piramidaların da Ötükendən gələn türklərin inşa etmələri ehtimalı güclüdür. Hətta türklərin kurqan adlandırdığı bu piramidalardan birinin içində, divarda bu sözlər yazılıb: "Türklər, Günəşin batmasına yaxın bir zamanda, orduları ilə buralara təkrar gələcəklər, Şərqə, Asiyaya və dünyaya hakim olacaqlar".

Göy Türkləri burada yaşamaqla bərabər min illər ərzində dəfələrlə geri dönərək, malik olduqları üstün bilik və texnika sayəsində əvvəl yaşadıqları planetlərinin boş qalan yerinə ora ən yaxın olan bir planeti çəkib gətirərək yerləşdirdilər. Sonra özlərinin yeni planetini uzun bir zaman içərisində çalışaraq cənnət kimi bir yerə çevirdilər. Və bundan sonra çoxu yenə geri dönərək yeni planetdə məskunlaşdılar. Bu günə kimi də orada yaşamaqdadırlar. Bir qismi isə geri qayıtmayaraq Yer kürəsində qaldılar. Onurğasızlar da dünyanın başqa yerində, kükürdlü və bol vulkanlı qaranlıq və soyuq torpaqlarda yaşamağa qərar verdilər.

Göy Türklərinin Yer kürəsində ilk dəfə məskən saldıqları yer Şərqi Türküstanda Ötüken adı verdikləri yerdir. İlk dəfə bu yerin cənub-şərqində Turfan bölgəsinə ayaq basdılar. Turfan Şərqi Türkistanda, 2003- cü il əhalinin siyahıya alınmasına görə əhalisinin sayı 570 000 olan, indiki baş şəhər Urumçinin cənub-şərqində bir çox bölgələri(rayonları) özündə birləşdirən bir şəhərdir.

Ötükeni onurğasızlar məhv edən zaman kürə şəkilli, diametri 1000 km olan Mu-Gul adlanan (Muğlu, yəni üzgün, hüzünlü mənası verən) böyük uzay gəmisində xilas olan Göy Türklərdən kiçik bir dəstə kiçik "Duran" adlanan gəmi ilə bu ana uzay gəmisindən çıxaraq Yer kürəsinə endilər. Doqquz nəfərlik bir heyətin yalnız yeddi nəfəri Göy Türkü idi, iki nəfər isə onurğasızlardan idi. İki nəfərin onurğasız olması ilk baxışdan anlaşılmaz görünsə də, savaşı heç sevməyən, sülhsevər olan Göy Türkləri düşmən olsa belə yaradan tərəfindən canlı olaraq yaradılana həmişə rəhm etmiş, onlardan güclü olsalar belə, son ana qədər mərhəmətlə, səbrlə davranmışlar. Aman diləyənə, əfv diləyənə şans vermişlər. Ötükeni məhv etdikdən sonra buna cavab olaraq onurğasızların da yaşadığı planet Göy Türkləri tərəfindən məhv edilmişdi. Onların da yaşayış yerləri, istər Göy Türkləri ilə birgə yaşadıqları Ötüken, istərsə də öz planetləri məhv olmuşdu. Necə deyərlər, hirs, xəyanət sonda onların özlərini də yersiz, yurdsuz qoymuşdu. Belə bir vəziyyətdə olan onurğasızlar yenə də Göy Türklərinin mərhəmətindən yararlanmışdılar. Göy Türkləri Yaradanın yaşadanı sevdiyini yaxşı bilirdi. Odur ki, zahiri görünüşcə onlara bənzəyən iki onurğasızı da özləriylə götürmüşdülər. Qanunlar isə bəsit idi. Hər kəs hürr iradə səbəbiylə lazım olan hər şeyi etməkdə sərbəst idi. Tək bir şərtlə, onurğalılarla, onurğasızlar heç bir zaman bərabər yemək yeməyəcəklər,

bərabər yatmayacaqlardı. Getdikləri planetin imkan və qaynaqları özlərinin əvvəlki planetindəki kimi olmadığı üçün bütün günü tozun, palçığın içində gündəlik ruzilərini qazanmaq üçün çalışmaq məcburiyyətində idilər. Gəldikləri yeni planetdə isə hələ ki, şərtlər özlərinin çox inkişaf etmiş texnologiyalarından istifadə etməyə imkan vermirdi.

Onuğasızlarla onurğalıların görkəmi nə qədər bir-birinə bənzəsə də, yaradılışlarındakı fərq səbəbiylə xarakterləri də fərqli idi. Belə ki, Göy Türklərinin onurğası torpaqdan yaradıldığı halda onlarınkı nuklear materialdan yaradılmışdı.

Fərqi anlamaq üçün düşünün ki, bir insan təbiəti heç çirkləndirmək istəmir. Onlara yetər ki, sülh olsun, insanlar xoşbəxt olsun, yaşamaq və yaratmaq olsun. Bir də başqa bir insan düşünün ki, ruzisini heç özünü yormadan, çalışmadan əldə etsin, lüks həyat yaşasın. Onlarla Göy Türklərinin əhval-ruhiyyə, yaşam anlayışı başqadır. Buna baxmayaraq, Göy Türkləri onurğasızların  yaradılış biçiminə hörmətlə yanaşdıqları üçün eyni planetdə yaşaya bilir. Dünyada məskunlaşdıqdan sonra da bir-birlərinin işinə qarışmadan uzun müddət sülh içində yaşamağa davam etdilər. O zamana qədər ki, Göy Türklərindən bir dişi qoyulan qanunları, qadağaları  pozaraq, marağına hakim ola bilməyib onurğasızlarla yeyib, onlarla yatana qədər. Və bundan sonra onurğalı və onurğasızların nəsli bir-birinə qarışdı. Artıq yeni yaranan bu

qarışıq nəsillər təkcə əcdadlarının deyil, onurğasızların də genlərini daşımağa başladılar. Beləliklə, dünya sakinləri arasında münaqişələrin, müharibələrin təməli qoyuldu. Onurğalılar deyilən Göy Türklərinin geni artıq onurğasızlarla qarışmışdı. Onurğasızların ruhunu daşıyan yeni nəsil də yaranmışdı. Bunlar zahirən öz əcdadlarına oxşasalar da, ruhən onurğasızlara bənzəyirdilər. Təmiz Göy Türkü ruhunu daşıyanlar isə getdikcə azalırdı. Onların bugünkü dünyamızda qalan az qismini bəlkə də yalnız gələcəkdən gələn Göy Türkləri tanıyırlar. Bu gün onlarla əlaqə qurmağa çalışırlar. Təkcə yerdəki türk millətini deyil, təmiz ruhlu insanları, dünyanı qorumaq üçün.

Bu gün sayı otuz iki milyon olan soy-kökü təmiz olan Göy Türkləri Ötükendə yaşayır. Bununla yanaşı başqa planetlərdə də Göy Türkləri yaşamaqdadırlar. Vaxtilə xilas olan Göy Türkləri nəhəng Mu-Gul gəmisi vasitəsilə qalaktikanın bir çox planetlərinə daşınmış və ayrı-ayrı planetlərdə məskunlaşmağa məcbur olmuşlar. Bu gün kainatın müxtəlif planetlərinə səpələnmiş Göy Türklərinin qalaktikada "Qalaktik Federasiya"ları var. Bu federasiya türk birliyi olan Turandır. Bu federasiyanı "Gök Türkleri Evrensel Konseyi" yönəldir.

Bu gün türklərlə bərabər yer kürəsinin digər sakinlərinin də yaşadığı Samanyolu qalaktikasından fərqli olaraq, Göy Türklərinin yaşadığı yeni Ötüken (onurğasızlar tərəfindən dağıdılmış Ötükenin yerin-

də üstün bilik və texnalogiya ilə min illər ərzində Göy türklərinin bərpa etdiyi yeni Ötüken) Şimal (Dəmirkazık) ulduzu, başqa sözlə Şimal (Dəmirkazık) günəşinin də bağlı olduğu ayrı qalaktikaları var. Bütün qalaktikalar dünyanın və Günəşin davamlı dövr etməsi kimi, bir bütün olaraq onlar da davamlı dönməkdədir.

Göy Türkləri dünyaya yerləşmədən öncə Ayda yerləşmişlər. Belə ki, yaşadıqları planet onurğasizlar tərəfindən dağıdıldığından ana uzay gəmisi Mu-Gul ilə dünya dediyimiz Yer planetinin ətrafında gözləmişlər. 1000 km diametri olan kürə şəkilli bu nəhəng gəmi işıq sürəti ilə deyil, uzay zamanında sıçramalarla yol alırdı. Ancaq dayandığı zaman kiçik bir göy cismi kimi hərəkət edirdi. Öncə yer kürəsinin peyki olan Aya yaxınlaşdılar və burada bir ön bilgi stansiyası qurdular. Ay planetinin içini oyub, qaranlıq üzündə yaşayış sahəsi inşa etdilər. Göy Türklər burada yerləşdirildikdən bir müddət sonra isə nəhəng Mu-Gul gəmisi artıq onları burada qoyaraq digərlərini yerləşdirmək üçün başqa səmtə yollandı.

Sevimli Gülcə, biz lazım gəldikdə internetə bağlanan kimi hər hansı bir insanın beyninin düşüncələrinə bağlanaraq, paralel düşünsel bağ qurub, bilinc altına baxa bilirik. Bunun üçün danışmağa, ya da yanında olmağa gərək yoxdur. Odur ki, sən sual verməsəydin belə mən düşüncəndən bu sualları oxumuşdum. Və cavabını da verdim. Amma onu da

qeyd edim ki, biz insanlara yalnız lazım olanda belə yanaşma edərik. Kefimiz istədiyində deyil. Bu dünyaya da zövq üçün endirilmədik. Biz "Çocuk"lar çox ciddi biriləriyik. Bu hal Göy Türklərinin ən böyük əxlaq qanunudur və sırf zövq üçün "mən nə istəsəm edə bilərəm" anlamına gəlməməlidir.

Göy Türkləri heş vaxt kin saxlamazlar. Qədərə hökm etməyə çalışmazlar. Bu bizim baxışımıza görə lazımsız bir şeydir. Ara kainatlar yaradaraq hər bir kəsin niyyəti nə olursa olsun, özü verdiyi qərarların nəticəsini görməyə imkan verərlər.

Bunları söyləməkdə  məqsəd təkcə sənin deyil, hər kəsin Göy Türklərinin necə biriləri olmasını bilmələrini qəsd etməkdir. Göy Türklərinin üstün imkanları çoxdur. Kosmik və zaman ölçüsündə titrəyiş tezliyimizi dəyişərək işıqdan çox-çox sürətlə yer dəyişdirə bilirlər. Və insanların anidən qarşısına çıxa bilərlər. Sənin də Gülcə. İnamı böyük olanlar Göy Türklərini görə bilər və  bilgilər ala bilər".

Gülcə Göy Türk bəyinin bu yazısını birnəfəsə oxudu. O, bu məlumatlar sayəsində getdikcə Göy Türklərini daha yaxından tanımağa başlamışdı. Deməli, yerdəki türklər heç də onlar tərəfindənköməksiz buraxılmayıb, unudulmayıblar. Vaxtilə kiçik "Duran" hava gəmisiylə Yer kürəsinə gələrək burada yerləşən, artıb-çoxalan, artıq yerdə yer türkləri kimi məskunlaşan türklər, əcdadları tərəfindən unudulmayıb. Onların çətin anlarında görünməz bir əl kimi

onların köməyinə yetişir, məhv olmağa, yer üzündən silinməyə imkan vermirlər. Zaman-zaman tarix bunun şahidi olub.

Atatürkünün Osmanlı İmperiyasının süqutundan sonra yenidən bir türk dövləti olan Türkiyə Cümhuriyyəti qurması buna misaldır. Gülcə Çocukdan özü üçün yeni olan çox qəribə bir məlumatı da öyrənmişdi. Sən demə, Göy Türkləri yeni nəsillərə Ata deyirlər. Bu səbəbdən də Qazi Mustafa Kamala Atatürk adı verilmişdir. Yəni gələcəkdən bu günə gələn bir türk üçün buradakı türk övladları atadır. Atatürk kimi.

Bu gün də Çocuk bir Goy Türkü olaraq türklərin varlığını qorumaq üçün dünyamızdadır. Və təkcə türklüyü deyil, insanlığı, dünyanı şər qüvvələrin, onurğasızların, sürüngənlərin pis əməllərindən, məkrli niyyətlərindən qorumaq üçün aramızdadır.

## F Ə S İ L – 15

Çocuk onurğasızlara yaxşı bələd idi. Onların bütün əcdadını, növünü tanıyırdı. Nələrə qadir olduqlarından, nə işlər görə biləcəklərindən, nə şəklə düşə biləcəklərindən xəbərdar idi.

Gələcəkdə artıq onurğasızlar yoxdur. Çunki Göy Türkləri artıq onların gələcək nəsillərini kəsməyə nail olmuşlar. Uzaq keşmişdə də yer üzünü onur-

ğasızlardan təmizləmişdilər. Bu varlıqlardan Göy Türklərin əllərindən qaçıb qurtara bilənlərin bir qismi qalaktikanın daha dərinliklərinə çəkilmiş, bir qismi isə yerin dərinliklərinə çəkilərək gizlənə bilmişdilər. Yalnız şumerlər zamanı yenidən artıb çoxalmağa fürsət tapdılar. Və şumerlər öz hakimiyyərləri dövründə onlardan işçi qüvvəsi kimi istifadə etmişdilər.

Bəs Göy Türklərinin yaxşı tanıdığı varlıqlar olan, bizim görə bilmədiyimiz, görünsələr də müxtəlif şəklə düşə bilən, əsl simalarını gizləyə bilən reptilyanlar, annunakilər necə varlıqlardır?

Onurğasızlar insan kimi hərəkət edə bilirlər, yəni sürətli deyillər. Ona görə hərəkət etmək üçün nəqliyyata ehtiyacları var. Lazım olan uzaq məsafələri bizim "uçan boşqablar" dediyimiz nəqliyyat vasitələri ilə qət edirlər. Yəni işıq sürətiylə yalnız nəqliyyat vasitəsi ilə uça bilirlər.

Onurğasızların bəzi növləri isə şəkil dəyişdirə bilirlər. Onlar ağıllı və bilikli varlıqlardır. İnsanlardan qat-qat çox yaşayırlar.

Bütün bunları çox yaxşı bilən, bu varlıqları yaxşı tanıyan Göy Türkləri insanları xəbərdar etmək üçün kinomatoqrafiya sahəsində öndə olan, texniki imkanları daha müasir olan dünya kinomotoqrafçılarına bu haqda düşüncə yoluyla bilgilər ötürmüşlər. Bu bilgilər əsasında filmlər çəkilmiş, tamaşaçılara

onların necə bir varlıqlar olduğu təqdim olunmuşdur.

Seytanın əmrində olan sürüngənlərin də ordusu var. Onlardan heç kim şeytanın əmrindən çıxa bilməz. Hətta ən güclü olanları belə şeytanın əmrinə tabedirlər.

Günümüzdə bunlarla bərabər bu varlıqlara yaxşı bələd olan Göy Türkləri də yaşamaqdadır. Bu günkü dünyada bizlərlə bərabər yaşayan Göy Türkləri bizim kimi bir vucuda malik olsalar da, 5500 il sonrakı gələcəkdə yaşayanlar daha mükəmməl, təkamül etmiş vücuda malikdirlər. Bizim dünyamıza işıq sürətindən 400 dəfə daha cox sürətlə gəlib gedə bilirlər. Həm bu günkü dünya insanı kimi, həm də nurdan olan bir işığa çevrilərək çox sürətlə yer dəyişə bilirlər.

Gökbörulər deyilən Kainat mühafizəçiləri də çox sürətlə hərəkət edirlər. İnsanların bəzən səmada parlayan işıq kimi, bəzən anında bir neçə parlaq işığa ayrıldığını gördükləri Gökbörülərdir. Onlar yenidən dünyanı sürüngənlərdən, onurğasızlardan təmizləmək, yerdəki türk millətini qorumaq üçün buradadırlar. Çünki bu gün onların həm niyyətlərindən, həm əməllərindən xəbərdardırlar. Onlar insanların fikrinə, düşüncəsinə, dövlətlərin sərvətinə hakim olmaq istəyirlər.

Bütün bunlardan xəbərdat olan Göy Türklərinə isə artıq yaradan tərəfindən ilahi ədalət, haqq yolun-

da " La qılıncı"ndan istifadəyə icazə verilmişdir. Bu dəfə yer üzərində yaşayan bütün sürüngənlər məhv edilməyənə qədər "La qılıncı" qınına qoyulmayacaq. Görəv yerinə yetirilməyənə qədər Göy Türkləri geri dönməyəcəklər.

## F Ə S İ L - 16

Kainat mühafizəçilərindən biri olan, Gülcənin Çocuk adıyla tanıdığı bu adam başqalarından fərqli olaraq seçilmiş, görəvli bir Göy Türk bəyi idi. Amma nə görkəmi, nə də davranışı ilə dünyamızda yaşayan başqa insanlardan seçilmirdi. Hamı kimi yaşadıqca yaşı üstünə yaş gəlirdi. Əslində isə bizim zamandan neçə min il gələcəyə, yaxud keçmişə gedə bilən, həm də bizim zamanda yaşayan Göy Türkü idi. O bizim dünyamızda seçilmiş bir anadan doğurulmuşdu( biz bu dünyada doğurulmuşuq,- deyərdi Göy Türk bəyi).

Bu gecə isə Çocuk növbəti tapşırıq üçün göydələnləri ilə tanınan məşhur şəhərlərdən birində idi. Əvvəllər də Göy Türklərinin insanlığa qənim kəsilənlərin planlarını pozaraq, toplandıqları yerlərin altını-üstünə çevirdkləri vaxtlar çox olmuşdu. Bu gün də Göy Türklərindən biri olan Çocuk növbəti həmləni etmək üçün gözləməkdəydi. O bir daha fikrində necə hərəkət edəcəyini götür-qoy etdi və özlüyündə son qərarı verdi.

Bu gecə də hər il olduğu kimi yeni il gəlməzdən əvvəl, köhnə ilin son bazar gecəsi saat 00:00-01:00 arası bir göydələn binanın təpəsində inşa edilmiş, şüşə və neondan olan piramidada bütün dünyadakı rahiblərin metafizik mənada diqqətlə izlədiyi növbəti toplantı başlamalı idi.

Çocuk bu toplantının çaşqınlıqdan doğan bir toplantı olduğunu yaxşı bilirdi. Artıq min illər idi ki, Göy Türkləri sürüngənlərə, onurğasızlara qarşı dirənirdı. Onların Dəmir qübbə kimi güvəndikləri görəvliləri tərəfindən qorunan və gizli saxlanılan planları Göy Türkləri tərəfindən pozularaq onların öz başına yıxıldığı gündən sürüngənlər, onurğasızlar dəliyə dönmüşdülər. Ona görə də bu qədər çaşqınlıq içində idilər.

Çox səbirsizlənirdi Çocuk. Onların həyatına son qoymağın zamanı gəlmişdi. Son dəfə Türklərin istiqlal mücadiləsi verdiyi günlərdə, işğal birliklərinin üst adamının həyatına da "La qılıncı" ilə son qoyulmuşdu. Bu gün də Göy Türk bəyi növbəti həmlə üçün bütün hazırlıqları tamamlayıb, verilən tapşırığı yerinə yetirmək üçün onların toplantısının başlamasını gözləyirdi. Yanında isə "Eloğlu" deyə müraciət etdiyi biri vardı. Onun üçün hər bir türk oğlu Eloğluydu, yəni türk elinin oğluydu. Oğuz türklərindən olan bu gənc də Çocuğun ətrafında olan qorxunun nə olduğunu bilməyən neçə-neçə türk gəncləri kimi onunla birlikdə çox yerlərdən, çox ölkələrdən keçmişdi.

Eloğlunun doğulub böyüdüyü Qafqaz bölgəsindən başlayaraq Ərəbistana qədər uzanırdı bu yol. Hətta onunla zaman yolçuluğuna da çıxmışdı. Çocuğun inanıb, təqdir etdiyi qorxmaz, türk ruhlu bir gənc idi. Bu gün də xüsusi bir əməliyyat olan tapşırığı yerinə yetirməyə onunla birlikdə gəlmişdi. Bu gün Eloğluyla bir-birlərini çox yaxşı anlayırdılar. Amma bu yerlərə gəlib çıxana qədər, onu öz gücünə, güclü ruhuna inandırana qədər çox əmək sərf etmişdi Çocuk.

Hələ həmlə ediləcək vaxta vardı. Hər ikisi sakitcə oturub gözləyirdi. Çocuk Eloğluna baxaraq Gülcəni xatırladı. Bir vaxtlar Eloğlunu öz gücünə inandıra bilmədiyi kimi, Gülcəni də öz gücünə hələ də tam inandıra bilməmişdi. Buna görə müəyyən zamanın keçməsini gözləmək lazım idi.

O, Gülcəni  yaxşı tanımasına baxmayaraq, Gülcə hələ də onu tam mənada anlamamışdı. Çocuk ehtiyat edirdi. Gülcə çıxacağı yolun çətin və ağır olduğunu görüb geri çəkilə bilərdi. Buna baxmayaraq, Gülcənin nəyə qadir olduğunu, çox şey bacara biləcəyini də yaxşı bilirdi. Ona ancaq içində sıxılıb qaldığı qlafı dağıdıb çıxmaq lazım idi. O zaman onun nələrə qadir olduğunu hər kəs görəcəkdi. Çünki Gülcədə olan türk ruhu, vətən sevgisi çox güclüydü. Nədənsə, Gülcə tərəddüd edir, bəlkə də gücünün yetməyəcəyindən ehtiyatlanırdı. Onun bu narahatlığının nədən qaynaqlandığı Çocuğa məlum idi. Həyat onu çox yormuşdu. Yaşananlar canını üzmüşdü. Hə-

yatın ona vurduğu zərbələrərdən hər dəfə büdrəyib yıxılsa da güçlü, inadcıl ruhu sayəsində yenidən qalxıb yoluna davam etməyə özündə güc tapmışdi. Bu günə kimi keçdiyi həyat yolunda haqsızlığa, şərə baş əymədən addımlaya bilmişdi. Ona görə Çocuk ona israrla, "ruhunun ardınca get",-deyirdi. İndi isə onunla necə söhbət aparacığını düşünürdü. Gülcənin çox həssas biri olduğunu da bilirdi. Onun son zamanlar Çocuğa ünvanladığı suallardan, öyrənmək istədiklərindən artıq səmtinin bu yola yönəldiyini bilirdi. Çocuk sakit səslə danışmağa başladı:

- Deyəsən, gen yaddaşı Gülcəyə özünün həqiqətini anlamağa kömək edəcək. Nəhayət ki, yaxınlarda getməli olduğu yola çıxacaq. Artıq onunla birbaşa danışmağın zamanı yetişib.

Eloğlu maraqla Çocuğa baxdı.

-Kiminlə danışırsan?

Çocuk gülümsədi.

-Gülcəni hələ də öz gücünə inandıra bilməmişəm. Sən də beləydin əvvəl. Xatırlayırsan, elə deyilmi?

Eloğlu təsdiqedici hərəkətlə başını tərpədərək gülümsədi.

Çocuk yenə sakit səslə davam etdi:

-O da çox fərqli, başqalarına bənzəməyən biridir. Çox fərqli dünyası var. İncə, təmiz, güclü ruhu var. Vətənpərvərdir, doğru, dürüst biridir. Dünyanın çirkablarından özünü qorumağı bacaran biridir. Onunçün itirmək istəmirəm Gülcəni. Sən mənə necə

əziz birisənsə, o da mənə elə əzizdir. Nələrə qadir olduğunun fərqindəyəm. Başını bulayaraq qayğılı halda əlavə etdi:

- Allah mənə səbr versin.

Söhbəti sakitcə bitirib yerindən qalxaraq özünə əmr edirmiş kimi əlavə etdi:

- Haydı, qalx! İndi cəng vaxtıdır!

Artıq şeytanın əmrində olanlar dəyirmi masanın arxasında əyləşmişdilər. Dəyirmi masanın ortasına tanınmış bir markanın istehsalı olan büllur şüşədən hazırlanmış bir kürə qoyulmuşdu. Büllur kürənin üzərinə isə fərqli simvollar vardı. Simvollar masanın arxasında oturan hər bir rahibə doğru yönəldilmiş şəkildə dayanmışdı. Toplantı masasının ətrafında isə on iki döyüşçü rahib dayanmışdı. Hərəkətsiz vəziyyətdə dayanan bu döyüşçü rahiblərin təkcə ətrafa diqqətlə baxan gözləri hərəkət edirdi.

Otaqda hökm sürən sakitlik bir anda pozuldu. Qarşılarında birdən-birə peyda olanları görcək salondakılar çaşıb qaldılar. Elə bil yerə mıxlandılar. Tərpənməyə belə cəsarət etmədilər. Otağın giriş-çıxışına nəzarət edən rahib də özünü itirdi. Çox ciddi nəzarət edilən bu göydələnə bu iki adam necə daxil ola bilmişdi? Hamı heyrət içində çağırılmamış qonaqlara baxırdı. Bu qonaqlar heç kəsin ürəyincə deyildi. Hamısının ürəyi titrəyirdi. Sifətlərində isə vahimə qarışıq donuq bir ifadə vardı. Hər kəsin gözləri bu iki adama dikilmişdi. Kim ola biləcəkləri haqqında isə

yaddaşlarını ələk-vələk etsələr də, qaranlıq yaddaşlarından bir şey tapa bilmirdilər.

Otaqdakı səssizliyi amiranə bir səs pozdu:

-Yaradanın salamıyla gəldik! Fəqət, sizlərin elçiyə ziyan yetirəcək qədər ləyaqətsiz olduğunuzu da bilirik. Odur ki, başdan sizinlə necə rəftar edəcəyimizi söyləyim. Sizlərdən yalnız iki nəfər sağ buraxılacaq. Bu iki nəfərin kim olacağını sizin ixtiyarınıza buraxırıq. Seçim sizindir.

İndi isə sizə özümüzü təqdim edim. Mənə Könlü Rahat deyərlər(Göy Türkləri onu belə çağırırdılar). Gördüyünüz bu gənc isə Eloğludur. İndi hüzurunda olduğunuz baş rahibiniz belə bizim kimliyimizi tam mənası ilə dərk etmək iqtidarında deyil. Sizə sonuncu dəfə deyirəm:

- Sizlərdən sağ buraxılacaq iki nəfər üçün öz aranızda qərar verin!

Hamı bir-birinin üzünə baxırdı. Ölümü özlərinə yaxın buraxmayan, öləcəklərini heç düşünməyən, şeytana biət edənlərin ölümün adını eşitcək qorxudan sanki dilləri tutulmuşdu. Hər kəsin ağlına gələn, qurtarılası ilk adam isə özü idi. Hər biri özlərini qurtarmaq üçün başqasını qurban verməyə hazır idi. Odur ki, səslərini çıxarmadan gözlərini döyərək Könlü Rahata baxırdılar. Çocuğun isə çox gözləmək fikri yox idi. Artıq qərar verilmiş, "La qılıncı" çəkilmişdi.

-Demək, qərara gələ bilmədiz. O zaman qərarı "La qılıncı" verəcək!

Nə baş verdiyini anlayana qədər artıq döyüşçü rahiblərdən biri özünü başqa bir otağın ortasında dayanmış gördü. Bir az özünə gələndən sonra ətrafına boylandı. Birdən gözləri ona kəskin qartal baxışlarıyla baxan Çocuğa sataşdı. Təlaşla və titrək səslə astadan soruşdu:

-Bəs siz iki nəfəri sağ buraxacağınızı demişdiniz. Belə görünür yaşamaq şansı verilən tək mənəm.

Çocuğun yenə amiranə səsi eşidildi:

-Biz boş yerə heç vaxt söz danışmarıq. Verdiyimiz sözdən də heç vaxt qaçmarıq. Sağ qalan rahiblərinizdən birini bayılmış halda toplantı otağında qoyub gəldik. Özünə gələndə olub keçənlər barədə lazımı yerlərə məlumat versin deyə. Qalanları isə gedər-gəlməzə göndərdik.

Rahib nə baş verdiyini yalnız indi anladı. Başını aşağı salıb sakitcə dayandı. Gözaltı ətrafı nəzərdən keçirdi. Səliqəli və sadə bir otaq idi. Otaq dəhlizə açılırdı. Dəhlizdən otağa daxil olan danışıq səsləri onlardan başqa da burada adam olduğundan xəbər verirdi. Sonra baxışlarını dəhlizdən ayırıb pəncərədən çölə yönəltdi. Ətraf sıx ağaclarla əhatə olunmuşdu. Başqa bir şey görə bilmədi. Fikri uzaqlara getdi. Əfsanə və nağıllardan Avropanın qaranlıq və nəmli meşələrində Bozqurdların yaşadığını çox dinləmişdi. Sanki qulağına qurd ulamasının səsi gəldi. Onların

varlığı haqqında yalnız əfsanə və nağıllarda danışıldığını düşünərək özünə təsəlli verdi. Baxışlarını pəncərədən ayırıb yenə otağa yönəltdi. Bir anda otaqda peyda olan, iki qurd baxışlı gənc adamı görcək baxışlarını onlardan qaçırmağa çalışdı. Sanki qarşısında kəskin baxışlı iki Bozqurd dayanmışdı. Bədənindən qorxudan doğan üşütmə keçdi. Dodağının altında "Qurdlar pis deyil, əslində pis olan, şeytana uyan bizlərik" - deyə mızıldandı. Ona bu etirafı etdirən əslində ölüm qorxusu idi. Bu dünyada əziyyət çəkmədən yaşamaq üçün, şeytanla anlaşaraq başqalarına əziyyət verərək yaşayan özü idi. Şeytana xidmət edənlərin öndə gedənlərindən idi.

Gözləmədiyi halda artıq ölümün astanasında olduğunu hiss edirdi. O isə uzun bir ömür yaşayacağı xəyalında idi. Başqalarını kölə etmək istəyənlərin əmrlərini yerinə yetirmək üçün isə hər cür çirkin yola əl atmışdı. Dünya həvəsinə qapılan rahib bir gün belə bir aqibətlə qarşılaşacağını xəyalından belə keçirməmişdi. Amma bu gün əməllərinin bədəlini ödəmək zamanı gəlmişdi.

Çarəsizlik içində olsa da, yenə də canını qurtarmaq üçün çarələr düşünür, yollar axtarırdı.

Bu düşüncə ilə qarşısında dayanan, onu bura gətirən Göy Türk bəyinə və Eloğlu kimi təqdim edilən gəncə baxdı. Ayağa qalxmaq istəyəndə qurd baxışlı iki gənc bir anda başının üstünü aldı. Qeyri-ixtiyarı rahib əliylə üzünü qapadı. Barmaqları arasından

qarşısında dayanan gənclərə qorxaq bir nəzər saldı. Aman,- dedi, yenəmi Bozqurdlar gəldi? Baxışlarını onlardan çəkə bilmədi. Bir anda gözlərinə Bozqurd kimi görünən gənclər, yenidən onun başının üstünü alan iki gəncə çevrildi. Artıq boğazı qurumuşdu. Deyəsən eşitdiyi əfsanə gözləri önündə həqiqətə çevrilirdi. Bu günə kimi Bozqurd - Gökbörü deyilən kainat mühafizlərini əfsanə sayan rahib bu gün onlarla qarşı-qarşıya dayanmışdı. Onu bir anın içində alıb bura gətirənlər də onlardan idi.

Qarşısında dayanan Göy Türk bəyi dilləndi:

-Bundan sonra kainat mühaflərinin nəzarəti altında olacaqsınız. Ruhunuzu hər nə qədər şeytana satmış olsanız da, ədalətlə və yaradılış haqqlarına dayanaraq mühakimə olunacaqsınız.

Bu sözləri eşidəndən sonra düşmən bildiyi Göy Türk bəyi rahibin gözlərində yüksəldi. Onun ədaləti, insanlığı qarşısında sanki əridi. Və üzünü Çocuğa tutaraq:

-Bundan sonra sizinlə anlaşa bilsək, sizlərin söylədiyi hər sözü yerinə yetirəcəyəm. Bu yolda sizin sisteminizə uyğunlaşmağa çalışacağam. Mənim adım Miltondur. Dəyirmi masa və kristal piramid pilləsində yüksək rütbəli bir döyüşçü rahibəm. Sizin hər sualınızı cavablandıracağam. Məndən nə istəsəniz yerinə yetirəcəyəm.

-Sizlərin xasləti də elə budur,-deyə Çocuk dilləndi. Özünüzü qurtarmaq üçün işbirliyi qurduğunuz şeytanı belə satarsız.

-İnsan insan olduğuna şükür etməlidir. Mənim mərhəmətsizliyim və düşmənçiliyim insana deyil, şeytanadır,- deyə Milton əlavə etdi.

Rahibin bu sözlərini eşidən Çocuk şeytana uyaraq ona xidmət edənlərin zavallı halını görüb acı təbəssümlə gülümsədi:

-Şeytana xidmət edənlərin qüruru, ləyaqəti, sədaqəti olmaz. Bu gün sizə daha bir xəbərdarlıq edildi. Hamınızın sonu, aqibəti belə olacaq. Bunu birdəfəlik bilməniz lazımdır. Bu günlük bu qədər kifayətdir. Sabah mühakiməyə davam edərik. Mən yenidən bura dönənə kimi sən nəzarət altında burada qalacaqsan. Onu da bilin ki, "La qılıncı"nın sizə qarşı istifadə edilməsinə səbəb, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq bəd əməllərinizdən əl çəkməmənizdir.

Bunu deyən Çocuk rahibin gözü qarşısında bir anda işınlanaraq göz qamaşdıran nura çevrilərək yox oldu.

## F Ə S İ L-17

Çocuk artıq evdə idi. Kirayələdiyi ev şəhər kənarında, yaşıllıqlarla əhatə olunmuş bir ərazidə yerləşirdi. Təbiəti, yaşıllığı çox sevən Çocuk mənzili də belə bir yerdə seçmişdi. İki mərtəbəli, dam örtüyü

qırmızı kirəmitdən olan bu ev görənlərdə xoş ovqat yaradırdı. Birinci mərtəbəsi ağ əhənglə rənglənmiş evin ikinci mərtəbəsi kərpic rəngindəydi. Rəngini sanki təbiətdən almışdı. Ətrafla xoş bir harmoniya yaradırdı. Hər tərəfə açılan pəncərələrdən, ikinci mərtəbəsindəki önə çıxan balkonlardan ətrafın gözəlliyini seyr etmək xüsusi zövq verirdi. Giriş qapısına qalxan pilləkənlərin yanında, evin divarına yaxın bitən, sarmaşıqların sardığı bir ağac da bu gözəlliyə gözəllik qatırdı.

Giriş qapısıyla üzbəüz də bir neçə sıx əkilmiş ağac vardı. Bu ağaclar elə bil evdən çıxanları salamlamaq üçün bir-birinin yanında sıralanmışdı. Evin həyətində saxsı qablara əkilmiş bibər, pomidor da görmək olardı. Müxtəlif tərəvəzlər yetişdirməyi çox sevərdi Çocuk. Çiçəklərə, ağaclara qulluq etməyi də. Vəfalı iti Fıstık da həyətdə olarkən onun yanından ayrılmazdı. Göl kənarına gəzintiyə gedən zaman da çox vaxt onu da özü ilə götürərdi.

Özü kimi yaşadığı mənzilin içi də sadə idi. Mənzildə lazım olandan artıq heç bir əşya yox idi. İsrafı heç sevməzdi. Nə geyimdə, nə yeməkdə. Yalnız lazım olan geyimi alar, çox az, yaşamaq üçün lazım olan qədər yeyərdi. Ümumiyyətlə, çox az yeyərdi. İşləyərək, halal yolla qazanıb, halal yeyən biri idi. Əşyanı, pulu, geyimi sadəcə yaşamaq üçün bir vasitə hesab edirdi. "Dərvişin nəyi varsa heybəsindədir" deyimi onunçün deyilmişdi. Evinə gələn, dost seçdi-

yi insanlar da onun kimi sadə və yüksək mənəviyyata sahib idilər.

Bu gün evə növbəti tapşırığı yerinə yetirəndən sonra dönmüşdü. Çox yorulmuşdu. Tək yaşadığından özünə qulluq etməyə məcbur idi. Qalxıb mətbəxə keçdi. Mətbəxin işığını yandırdı. Pəncərəsindən süzülən işıq seli pəncərənin ətrafını da işıqlandırdı. Həyətdən baxdıqda pəncərənin pərdəsi arxasında Çocuğun hərəkət edən silueti görünürdü. Evə yaxınlaşan Perihanın da diqqətini ilk olaraq cəlb edən elə bu oldu. Xəbər vermədən gəldiyi üçün bəlkə evdə deyil,- deyə düşünmüşdü. Pərdə arxasında Çocuğun siluetini görcək,- evdədir deyə məmnunluq duyğusu keçirdi. Yaxınlaşıb evin giriş qapısından içəri daxil oldu.

Çocuk qəflətən gələn səsə diqqət kəsildi. Pəncərənin pərdəsini kənara çəkib həyətə, səs gələn tərəfə baxdı. Bir şey görə bilmədi. Amma səsin evin giriş qapısı tərəfdən gəldiyinə əmindi. Odur ki, cəld hərəkətlə qapıya tərəf getdi. Dəhlizdə başını qabaq pəncələrinin üzərinə qoyaraq yatmış Fıstık da taqqıltı səsinə ayılaraq, sahibindən əvvəl qapıya cumdu. Arxa pəncələri üzərinə qalxaraq ön pəncələri ilə qapının dəstəyindən tutub açmağa çalışdı.

Çocuk cəld qapını açıb pilləkənlərlə aşağı enmək istərkən pilləkənlərın üzərində hərəkətsiz halda düşüb qalmış, başı pilləkənin sürahisinə söykənmiş Perihanı gördü. Perihanın belə vəziyyətdə pilləkənləri qalxa bilməyəcəyini anlayaraq onun mənzilin ikin-

ci mərtəbəsinə qalxmasına yardım etdi. Sahibinin yanından ayrılmayan, həyacanla ora-bura vurnuxan Fıstık da quyruğunu yelləyərək onların arxasınca özünü qapıdan içəri saldı. Nəyin baş verdiyini anlayırmış kimi sıx, bozumtul tüklərinin arasından qara, iri muncuğa bənzər gözləriylə baxışını gah sahibinin, gah da qonağın üzərində gəzdirərək çarəsizcəsinə zingildəyir, cəzb olmuş kimi quyruğunu qaldıraraq həyəcanla Çocuğun ətrafında fırlanırdı. Çocuksa qonağın divanda əyləşməsinə yardım etdi. Amma Perihan yenə özündə deyildi. Bir-iki dəfə yüksəkdən "Perihan, Perihan!"- deyə səslədi. Cavab verməyə halının olmadığını görüb hava daxil olması üçün cəld hərəkətlə otağın pəncərəsini açdı. Sonra Perihanın boynuna doladığı şarfı bir qədər boşaldaraq, payız fəslinə uyğun olan nazik gödəkcəsinin də yaxasını açdı. Daha sonra tez mətbəxə keçərək əlində bir fincan soyuq su ilə qayıtdı. Gətirdiyi soyuq su ilə çox halsız, hərəkətsiz oturmuş qonağın alnını, üzünü, boynunu islatdı. Soyuq su deyəsən işə yaramışdı. Perihanın göz qapaqları xəfifcə səyriyərək, kirpikləri titrədi. Yavaş-yavaş gözlərini açdı. Ağ bənizi bir az da ağarmışdı. Sudan islanmış saçları alnına, üzünə yapışmışdı.

Çocuk Perihanın dağınıq, islaq saçlarını barmaqlarıyla yavaşca üzündən kənara daraqladı. Və sakitcə soruşdu:

-Çoxmu möhkəm yıxıldın?

Qonaq göz qapaqlarını bir-birinə sıxaraq, başının təsdiqedici hərəkətiylə Çocuğun sualını cavablandırmağa çalışdı. Gözlərini xeyli bir nöqtəyə dikərək sakit, halsız vəziyyətdə qaldı. Sonra sakit səslə:

-Heç özüm də bilmədim necə oldu. Elə bil kimsə məni itələyərək pilləkənlərin üzərinə yıxdı. Gerisi yadımda deyil. Deyəsən, bərk dəymişəm.

-Qorxutdun bizi,- deyərək, Çocuk gözüylə onların yanında dayanan Fıstığa işarə etdi. Başında ağrı çoxdurmu?

-Yəqin keçər.

Bunu deyib, Perihan özünü ələ almağa çalışdı.

Onun halının heç də yaxşı olmadığını hiss edən Çocuk:

-Bir az dincəlsən yaxşı olar, başının da ağrısı azalar.

Bunu deyib kiçik balışı divanın bir tərəfində rahatladı.

-Bir az uzan, dincəl.

Onsuz da Perihanın oturmağa halı yox idi. Odur ki, sakitcə başını balışa qoyub gözlərini yumdu.

Çocuk yenə mətbəxə keçdi. Təmiz bir dəsmalı soyuq su ilə isladıb geri döndü. Perihanın başından zədə aldığı yerə qoydu.

-Soyuq ağrılarını azaldar.

Fıstık isə gözlərini Perihana zilləyib divanın yanında oturdu. Elə bil halı heç də yaxşı olmayan qonağın keşiyini çəkirdi.

Artıq neçə saat keçmişdi. Perihan deyəsən özünə gəlirdi. Göz qapaqlarını sakitcə qaldırdı. Yanında üzündə qayğılı ifadə olan Çocuk və sakitcə döşəmədə oturaraq  gözlərini onlara zilləyən Fıstığı gördü.

-İndi necəsən? Ağrıların azaldımı?

-İndi bir az yaxşıyam.

-Bəlkə bir fincan isti çay içək?

Bunu deyib mətbəxə keçdi. Az sonra Çocuk əlində iki fincan çay geri döndü. Divanın yanında iç-içə keçirilmiş kiçik masalardan birini divanın önünə çəkdi. Fincanları onun üzərinə qoydu.

Sükutu Perihan pozdu.

-Bu gün heç əhval-ruhiyyəm yerində deyildi. Ona görə bura gəlib səninlə bir az söhbət etmək, fikrimi dağıtmaq istədim. O da belə alındı.

-Sən heç narahat olma. Bir az da özünə gəl, yenə söhbət edərik. Yaxşı ki, qolun-qıçın sınmayıb. Yaxşı qurtarmısan,- deyərək Çocuk gülümsədi.

-Elədir, şükr edim. Yenə yaxşı qurtardım.

O da təbəssümlə cavab verdi.

-Fıstık da bizdən az həyacan keçirmədi.

Hər ikisi güldü. Elə bil ondan söz edildiyini bilirmiş kimi Fıstık yaxın gələrək sahibinin ayaqları yanında oturdu. Çocuk əliylə vəfalı itinin başını tumarlayaraq bir daha gülümsədi:

-Mənim vəfalı, ağıllı Fıstığım.

-Doğrudan da çox ağıllı itdir, Perihan da əlavə etdi.

-Çaylar soyuyur.

Bunu söyləyib Çocuk daha bir balışı Perihanın başının altına qoydu. Belə daha rahat olar səninçün. Fincanın birini ona doğru uzatdı. Birini özü götürdü.

-Bu gün mən də çox yorulmuşam, çətin bir tapşırıq üçün getmişdim.

Fincanı qaldırıb çayını içərək boş fincanı yenidən masaya qoydu.

Perihanın da çayını içib qurtarmasını gözlədi. Sonra onun da fincanını alıb masadakı fincanin yanına qoydu.

-Sən bir az da dincəl. Qalxma. Sənə indi sakitlik lazımdır.

Perihan çarəsiz razılaşdı. Onsuz da qalxmağa halı yox idi.

Çocuk stulu çəkib Perihana yaxın oturdu. Bu gün çox yorulmuşdu. Həm bu günkü əməliyyat yormuşdu, həm də çox sevdiyi dostunun yıxılaraq zədələnməsi dilxor etmişdi onu.

Dostlarına çox önəm verərdi. Onların üzülməsinə dayana bilməzdi. Uşaq kimi məsum, heç bir qarşılıq gözləməyən, sevgi dolu, mərhəmətli bir ürəyi vardı. Çox vaxt ona toxuna bilmədiklərindən dostlarını incidərdilər. Bu da onu çox üzərdi. Bir uşaq səmimiyyətiylə bağlı idi dostlarına. Nəinki yaxınlıqda olan, hətta Gülcə kimi, Ceyhan kimi uzaqda yaşayan neçə-neçə dostlarını da çox sevərdi. Könlü sevgiylə, şəfqətlə dolu biriydi Göy Türk bəyi. O, həm də Göy

Türklərinin öndə gedənlərindən, öncüllərindən idi. Çocuk bir Akınçı bəyi idi. Yaradanına, yaradanın yaratdıqlarına, insanlara, dostlara, təbiətə, türk yurdlarına, millətinə olan sevgi, istək yerləşəcək qədər böyük ürəyi vardı. Şeytana biət edib, insanlığa qarşı olanlara qarşı inadlı duruşu, dirənişi bundan qaynaqlanırdı. Bu günkü əməliyyat da bu cavabdehlikdən irəli gəlmişdi. Nə qədər sülhsevər olsalar da da bəzən güc tətbiq etməyə məcbur buraxılırdı Göy Türkləri.

Görüləsi işlər hələ çox idi. Göy Türklərinin böyük görəv verdiyi bir  Göy Türk Akınçı bəyi nəyi nə zaman edəcəyini çox gözəl bilirdi. Zamanın dəyərini bilərdi və dostlarına da bunu tövsiyyə edərdi. İşlərində çox ciddi biri idi. Çünki bu dünyadakı işlərini hazırda yaşadığı bu dünyanın zamanına sığdırmaq məcburiyyətində idi.  Sabah yenə Miltonun mühakiməsini davam etdirəcəkdi. Onlara ya diz çökəcəklərini, ya da qan qusacaqlarını bir daha xatırladacaqdı. Bu düşüncələr içində xeyli vaxt eyni  vəziyyətdə əyləşdi. Fıstık da səssizcə döşəmənin üzərində uzanaraq gözlərini sahibindən çəkmirdi. Çocuk dostundan nigaran qaldığı üçün tez-tez Perihana baxırdı. Aldığı zədənin ciddiliyini və bu zərbəni haradan aldığını bir Göy Türk bəyi kimi həmən anda anlamışdı. Odur ki, ona verilən bilgi və bacarıqdan istifadə edərək Perihana dəyən zərbənin təsir gücünü azaltmışdı və onun sakit yuxuya getdiyini görüb buna bir daha

əmin olduqdan sonra düşüncələrə daldı. Sabahkı işlərini planlaşdırdı.

Yenidən qalxıb mətbəxə keçdi. Yeməyə heç həvəsi qalmamışdı. Bir fincan su içib otağa qayıtdı. Çox zaman yemək yeməz, elə su ilə kifayətlənərdi. Mətbəxdən otağa daxil olduqda dostunun qalxıb divanda əyləşdiyini görüb sevindi.

-Özünü yaxşı hiss edirsən, deyilmi?

-Yaxşıyam, başımın ağrısı xeyli azalıb. Daha gecdir, mən gedim.

-Belə gedə bilməzsən. Bəlkə, qalasan?

-Yox, getsəm yaxşıdır. Başqa vaxt gələrəm.

-Getməkdə israr etmə. Belə vəziyyətdə gedə bilməzsən. Həm də tək yaşayırsan. Bir narahatlığın olsa sənə çətin olar.

Perihan çarəsiz razılaşdı. Həm də Çocuk boşuna israr etməzdi. Bildiyi bir şey var,- deyə düşündü.

-Sabaha qədər səbr elə. Sabah səhər işə gedərkən səni də yolüstü evinə apararam. Onsuz da sabaha bir şey qalmayıb. Sən yat dincəl. Gecən xeyrə qalsın.

Bunu söyləyib, Çocuk yan otağa keçdi.

Artıq səhər açılmışdı. Gecəni heç yatmayan Çocuk sakitcə mətbəxə keçib çay qoydu. Sahibinin yanından əl çəkməyən Fıstık da onunla mətbəxə keçdi. Sakit-sakit sahibinə baxaraq yerə çökdü. O da səhər yeməyini gözləyirdi.

Perihan da artıq oyanmışdı. Hiss etdi ki, başındakı ağrı xeyli azalıb. Doğan günəşin şəfəqləri pən-

cərədən otağa süzülərək rəngarəng işıq selinə çevrilir, qarşıdakı divara yansırdı. Perihan bu mənzərəni maraqla xeyli seyr etdi. Sonra qalxıb pəncərəyə yaxınlaşdı. Payız olmasına baxmayaraq çöldə xoş bir hava vardı. Gördüyü mənzərə ruhunu rahatlatdı. Başındakı ağrını bir anlığa unutdurdu.

Pəncərədən ayrılıb özünü səliqəyə salaraq dəhlizə çıxdı. Mətbəxin işığı yanırdı. Gələn səsdən artıq Çocuğun mətbəxdə olduğunu anladı. Mətbəxin açıq qapısına yaxınlaşdı. Çocuk artıq qəhvəaltı hazırlayırdı.

-Günaydın. Sən məndən də tez oyanmısan ki?

-Elədir. Çox yatmağı xoşlamıram. Gəl əyləş. Qəhvəaltı edək. De görüm, indi necəsən?

-Bir az küt ağrı qalıb başımda. O da keçər.

-Mən işə gedəndə yolüstü səni də evinə apararam. İndi isə bir-iki tikə yemək yeyək, sonra çıxarıq.

Qəhvəaltı etdikdən sonra süfrə arxasından qalxaraq birlikdə evdən çıxdılar. Ağıllı Fıstığı isə bu gün də sahibi evə dönənə kimi həyətdə qalacaqdı. Görəcəyi işlər, baş çəkəcəyi yerlər çox idi. Fıstığa doğru əyilərək:

-Dostum, işlərimi bitirim birlikdə gölün kənarında gəzərik. Bu gün işlərim çoxdur. Evə gec dönəcəm. Odur ki, bu gün də mən qayıdana kimi həyətdə qalmalı olacaqsan. Çocuk danışdıqca gözlərini ona zilləyən Fıstık deyilənləri başa düşürmüş kimi gözünü sahibindən çəkmədi. Sonra sakitcə kənara çəkildi. Qapıdan çıxanlara yol verdi. Çocuk Perihandan son-

ra mənzildən çıxdı. Fıstık da cəld hərəkətlə sahibinin ardınca çıxdı. Bundan sonra Çocuk qapını arxasınca örtərək Perihanın qolundan tutub pilləkənləri enməkdə ona yardım etdi. Həyətdə saxladığı BMV-nin arxa qapısını açaraq Perihanın əyləşməsinə yardım etdi. Qapını bağlayıb, ona sarı dönərək:

-İki-üç dəqiqəyə gəlirəm,-deyərək maşından uzaqlaşdı. Cəld hərəkətlə Fıstık üçün alınmış qidadan həmişə onun üçün yemək qoyduğu qaba tökərək həyətin bir tərəfinə qoydu. Su qabını da doldurub Fıstığın yeməyinin yanına qoydu. Bayaqdan yanında dolaşan Fıstığın başına tumarlayaraq:

-Mən getdim dostum, ev sənə əmanət,- deyərək avtomobilin qapısını açaraq sükan arxasında əyləşdi. BMV-ni işə salaraq həyətdən çıxdı və kənardan avtomatik idarə olunan darvazanı bağladı.

Adətən, avtomobili çox sürətlə idarə etməsinə baxmayaraq bu gün Perihanın vəziyyətini nəzərə alaraq sürəti çox qaldırmadı. On beş dəqiqədən sonra artıq mənzil başına çatmışdılar.

Yenə Perihanın avtomobildən enməsinə kömək etdi. Mənzilinə qədər müşayət edərək, bir də vəziyyətini soruşdu. Perihanın bu aralar tək olduğunu bilirdi. Onun oğlu başqa şəhərdə təhsil alırdı. Həyat yoldaşını isə çoxdan itirmişdi. Ona görə Perihan da çox vaxt onun kimi tək yaşamağa məcbur idi.

Perihan:

-Narahat olma, özümü yaxşı hiss edirəm, -deyərək Çocuğu arxayın etdi. Bir narahatlıq olsa zəng edərəm. Onsuz da sənin qayğıların başından aşır. Məndən nigaran qalma.

-Yaxşı, mən getdim. Allaha əmanət ol.

-Hər şey üçün çox sağ ol.

Çocuk sürətli addımlarla pilləkənləri endi. Avtomobilini işə salıb sürətlə oradan uzaqlaşdı. Bir an içində dünyanın istədiyi yerinə gedə biləcəyi halda bu dünyanın halına uymağa, bu dünyanın yaşamına uyğun həyat tərzi keçirməyə məcbur idi.

Həm də ona verilən belə qabiliyyət və imkanlardan yeri gəldi-gəlmədi istifadə etməzdi.

## F Ə S İ L - 18

Perihan çox sevdiyi dostunu yola salandan sonra yenə də çox vaxt olduğu kimi özüylə baş-başa qaldı. Pəncərəyə yaxın qoyulmuş yelləncək kresloya əyləşdi. Burada əyləşərək yaşıllıqlar arasında olan binanın ona məxsus olan mənzilinin pəncərəsindən ətrafı seyr etməyi xoşlayardı. Amma hələ də başının ağrısı tam keçmədiyindən bu dəfə heç pəncərənin pərdəsini belə açmadı. Eləcə sakitcə əyləşib kreslonu yavaş-yavaş yelləyərək gözlərini tavana dikdi. Elə bil tavana baxan gözləriylə həyatının hansısa yaşanmış bir səhifəsini oxuyurdu. Bu baxışlar əslində yaddaşına

yazılmış "Çocuk" adlı hekayənin səhifələri üzərində gəzirdi.

Ürəyində Allahına dönə-dönə şükr etdi. Nə yaxşı ki, onu belə bir insanla qarşılaşdırıb. O olmasaydı, bəlkə də həyat yolu qaranlıq bir dalana dirənərdi. Çocukla Tunçay bəyin evində rastlaşmışdı. Tunçay abi,- deyə müraciət etdiyi yaşlı adamı neçə illər idi tanıyırdı. Bir-birinə yaxın yaşayırdılar. Tanışlıqları onların yaşadıqları evləri ayıran istirahət parkından başlamışdı. Hər ikisi gəzmək, dincəlmək üçün tez-tez parka gedər, saatlarla vaxtlarını parkda keçirər, gəzərdilər.

Bir gün yenə parkdakı oturacaqların birində əyləşən Perihan çantasından çıxardığı siqaret qutusundan bir siqaret çıxarıb alışdırdı. Barmaqları arasında saxladığı siqareti ağzına yaxınlaşdırdı. Siqaretin tüstüsünü ciyərlərinə çəkib, digər əliylə burularaq ağzından və burunundan çıxan siqara tüstüsünü qovmağa çalışirdı. Çox düşüncəli görünürdü. Onun bu halı qarşı oturacaqda əyləşmiş yaşlı adamın da nəzərindən qaçmamışdı. Qalxıb, sakitcə onun oturduğu oturacağa yaxınlaşmışdı:

-Qızım, sənin nə dərdin var?- Birbaşa sual vermişdi.

Perihan səsə başını qaldıranda qarşısında dayanan yaşlı adamın mehriban baxışlarla ona baxdığını gördü.

-İcazə verirsənmi yanında əyləşim?

Perihan buyurun,- deyərək kənara çəkilmiş, yaşlı adam onun yanında əyləşmiş və söhbətə davam etmişdi:

-Bir müddətdir bəzən səninlə bu parkda rastlaşıram. Fikirli dolaşırsan. Çox vaxt da siqaret çəkdiyini görürəm. Dərdini mənə söyləyə bilərsən.

Vətəndən uzaqda bu yaşlı adamın belə mehribanlıqla ona yanaşması Perihanı kövrəltmişdi.

-Mən də istərdim çəkməyim. Artıq neçə illərin bu zərərli vərdişimdən əl çəkə bilmirəm.

-Cavansan, qızım. Sağlamlığının qədrini bil.

Perihan əlində saxladığı siqareti söndürüb oturacağın yanındakı zibil qutusuna atdı.

-Doğru deyirsiz. Kaş ki, bacara biləm.

-Çalış tərgidəsən, qızım.

Yaşlı adam söhbəti dəyişdi.

-Deyəsən, bura yaxın yaşayırsan. Səninlə bu parkda tez-tez rastlaşıram.

-Elədir. Bəs siz?

-Mənim yaşadığım ev də yaxınlıqdadır.

Əliylə parkın yaxınlığında yerləşən, ağacların arasından görünən binanı göstərək söhbətə davam etdi:

-Deməli, yaşadığımız binaları park ayırır. Mən də əks tərəfdə, parka yaxın qalıram.

-Siz yerli deyilsiz deyilmi? Yoxsa, mən yanılıram,- deyə, yaşlı adam əlavə etdi.

-Elədir, türkəm. İllər öncə gəlib bu qədim şəhərdə məskunlaşmışıq.

Yaşlı adamın gözlərində sevinc parladı.

-Mən də türkəm. Sənin kimi Türkiyədən gələrək buranı özünə məskən seçənlərdənəm. Mən də çoxdan gəlmişəm. Uzun illər burada bir firmada çalışmışam. Həm də musiqiçiyəm. İndi artıq təqaüddəyəm. Tək yaşayıram. Adım Tunçaydır.

-Çox gözəl. Məmnun oldum tanışlığımıza. Mənim də adım Perihandır. Mən də tək yaşayıram. Bir oğlum var. O da başqa şəhərdə təhsil alır.

-Qızım nə vaxt gəlmək istəsən qapım açıqdır, artıq evimin yaxında olduğunu da bildin. Nə problemin, dərdin olsa çəkinmə. Özün də az fikir elə. Bu siqareti də çalış ki, atasan,- ərkyana əlavə etdi. İndi isə mən gedim.

Yaşlı adam qalxarkən yaşadığı mənzilin dəqiq ünvanını da söylədi. Sonra yavaş addımlarla ağacların arasından görünən binaya tərəf gedərək gözdən itdi.

Perihan çox yaxşı xatırlayırdı bi söhbəti. O gündən çox dostlaşmışdı bu yaşlı adamla. Bu adamı çox sevirdi. Özünə çox yaxın bilirdi. Ona tez-tez baş çəkərdi. Bəzən saatlarla söhbət edər, dərdləşərdilər. Bu qərib ölkədə özünə həmdəm tapmışdı Perihan. Abi dediyi Tunçay bəy də ailəsinin bir üzvü kimi sevərdi onu. "Sən artıq bu evin qizisan,"- deyərdi.

Çocukla tanışlığı da Tunçay bəyin evindən başlamışdı.

İndiki kimi dəqiq xatırlayırdı. Qapının zəngini çalanda ona qapını ev sahibi açmışdı. Salam verib

içəri keçəndə evdə daha bir qonağın olduğunu görmüşdü. Bu qonağa 40-45 arası yaş vermək olardı. Mehriban siması olan bu adam Perihanı görcək qalxmış və ona salam verərək "xoş gəldin" demişdi.

Ev yiyəsi isə, -tanış ol, bu da mənim evimin əziz adamıdır-deyə, təqdim etmişdi Çocuğu.

-Çox məmnun oldum.

Perihan görüşmək üçün əlini qonağa uzadanda heyrətdə qalmışdı. Bu adam yuxusunda gördüyü adamın eynisi idi. Onu görən kimi gördüyü qəribə yuxunu xatırlamışdı.

-Çox qəribədir. Elə bilirəm mən sizi yuxumda görmüşəm. Gördüyüm yuxunu bu günə kimi çox yaxşı xatırlayıram.

Qonaq isə yuxu dediyi hadisəni olduğu kimi ona danışmışdı. Perihanın heyrətlə baxdığını gördükdə:

- Biz ikimiz də eyni yuxunu, eyni vaxtda görə bilmərik,- demişdi, adam.

Yuxu bildiyi hadisə isə beləydi:

Perihan bir yaz axşamında otağın pəncərəsinin qarşısına qoyduğu yelləncəkli kresloda əyləşərək ətrafı seyr edirdi. Bəzən mürgüləyir, bəzən ayıq nəzərlərlə pəncərədən çölə baxaraq düşünürdü. Son aylar isə artıq səbri tükənmişdi. Yaşadığı xoşagəlməz hadisələr həyatını alt-üst etmişdi. Nədən bu qədər əzab-əziyyəti yaşamalıydı ki? Bu düşüncələr içində yenidən göz yaşlarına sahib ola bilmədi və ağlamağa baş-

ladı. Göz yaşları içində xeyli müddət hərəkətsiz oturaraq yenidən fikrə getdi. Birdən balkona sanki bir işıq, nur selinin düşdüyünü hiss etdi. Düşən işıq seli getdikcə insan siluetinə bənzər forma almağa başladı. Perihan qalxıb balkona yaxınlaşdı. O yaxınlaşdıqca işığın çəkidiyini hiss etdi. Bir şey anlamayıb yenidən otağa keçdi. Bəlkə yuxulamışam, gördüyüm də yəqin yuxudur,- deyə düşündü və yenidən keçib kresloda əyləşdi. Bu hal yenidən təkrar olundu. Bu dəfə gördüyü işıq gözləri önündə insana çevrildi. Yenə də özünü bunun yuxu olduğuna inandırmağa çalışdı. Başqa nə ola bilərdi ki? Bu fikirlər içindəykən gözü önündəki insan:

-Bir daha ağlama, biz səni çarəsiz, göz yaşları içində görmək istəmirik,- deyə sözə başladı. Biz baxdıqda qarşımızda hər hansı cinsin nümayəndəsini deyil, insanı görərik. Artıq göz yaşları axıtmanıza son verin. Göylərdən gələn bir qərar var. Biz ona görə sizlərə göründük. Bizim varlığımızı belə biçimdə yenidən görmə ehtimalınız çox azdır. Qorxmayın. Görün biz kimə bənzəyirik, kim ola bilərik?

Bunları söylədiyində sanki onu yerdən başqa bir aləmə götürmüşdülər. Qarşısındakı adam sözünü bitirər-bitirməz o yenidən yerə endiyini hiss etmişdi. Elə bu zaman qarşısındakı adam yox olmuşdu.

Perihan bunu yuxu bilərək, bəlkə də ani yuxuya getmişəm,- deyə düşündü. Bu fikirlər içində bir siqaret yandıraraq ciyərlərinə çəkdi. Ətrafa yayılan siqa-

ret tüstüsünün təsirindən öskürməyə başlayan Perihan təmiz hava almaq üçün qalxaraq balkona çıxdı. Və yenidən gördüyü yuxunu xatırladı.

O, yuxu bildiyi bu hadisəni sonralar da tez-tez xatırlayırdı.

Perihan ilk dəfə rastlaşdığı bu adamdan gördüyünün yuxu olmadığını, həmin adamın hal-hazırda qarşısında dayandığını görüb daha da heyrətlənmişdi.

-Sənin sağlıq problemlərin var, orqanizmin çox su itirib, sənə indi bioenerji nəql edəcəm və bütün metobalizmin yenilənəcək.

Bunu deyib, adam mətbəxə keçmiş və əlində bir fincan su ilə qayıtmışdı. Fincanı ona uzadaraq:

-Öncə sən bu fincandakı suyu iç.

Perihan suyu içdikdən sonra sümük iliyinə qədər orqanizmində qəribə bir dəyişikliyin baş verdiyini hiss etdi.

İlk dəfə tanış olduqları o gündən başlayaraq davamlı olaraq Çocuk apardığı söhbətlərlə onu sağlam həyat yaşamağa sövq etmişdi. Və ondan sonra həyatında sanki yeni üfüqlər açılmışdı. Otuz ilə yaxın bir müddətdə çəkdiyi siqareti dörd-beş ay içərisində atmışdı. İllərlə əziyyət çəkdiyi astma xəstəliyindən qurtulmuşdu. Ağ ciyərlərinin təkrar rentgen şəklini çəkən həkim belə heyrətini gizlədə bilməmişdi. Çocuk onu sağlam həyat tərzinə alışdırmış, sağlamlığına qovuşmuşdu.

Çocuk deyirdi:

-Yer sakinləri elə bilirlər onlar dünyaya nə gəldi, necə gəldi yemək, necə istəsələr elə yaşamaq üçün gəliblər. Onların bu dünyaya enən zaman necə yaşadıqları artıq yaddaşlarından min illərdir silinib. Amma biz unutmamışıq, bu qaydalara əməl edirik. İnsan sağlam yaşamalıdır. Biz insanları sağlam düşüncəli, sağlam ruhlu, sağlam bədənli görmək istəyirik. Onların unutqanlığını biz bilirik. Bizim varlığımızın hətta türk insanları tərəfindən də qəbul edilməməsinin səbəbi də bu unutqanlıqdır. Ona görə Yer kürəsində yaşayan soydaşlarımıza cox ehtiyatla yaxınlaşırıq. Yalnız sizin kimi təmiz qəlbli, güclü ruh daşıyan, vətəninə, torpağına sonsuz sevgisi olan güclü insanlar bizləri anlayıb inana bilər. Biz də həm bu dünyada yaşayan bir insan kimi normal şəkildə, həm də lazım gəldikdə dünyanın harasında olurlarsa-olsunlar, işınlanaraq bu məsafəni bir anda qət edib onlarla birbaşa təmas qururuq.

Perihan bu gün də yaddaşına həkk etdiyi bu söhbətləri olduğu kimi məmnunluq və minnətdarlıq hissi ilə xatırlayırdı. Bu gecə də pilləkəndə yıxılaraq başını zədələyəndə onun necə qayğıkeş bir dost olduğunu bir daha hiss etmişdi. Çocuk bir ona qarşı deyil, bütün dostlarına qarşı qayğıkeş və səmimi idi. Onu tanıdığından, bu adamın bir dost kimi həyatında olmağından çox məmnun idi.

Perihan bu düşüncələr, xatirələr içində xeyli səssiz oturdu. Nəhayət, yelləncək kreslodan qalxaraq otaqda gəzişməyə başladı. Bir də baxdı düşüncələr içində günü başa vurub. Erkən yatmağa qərar verdi. Yatağına girdikdən az sonra yuxuya getdi.

## F Ə S İ L – 19

Çocuk artıq işdən evə dönmüşdü. Avtomobilini həyətdə saxlayıb cəld hərəkətlə qapını açıb yerə endi. Onu görən kimi Fıstık qaçaraq yanına gəldi. Başını sahibinin ayaqlarına sürtərək sanki darıxdığını göstərmək istəyirdi. Çocuk vəfalı itinin başına sığal çəkərək onunla bərabər evə qalxdı. Görüləsi işlər, çözüləsi məsələlər çox idi. Perihana da baş çəkməli idi. Gündüz bir neçə dəfə telefon açıb xəbər tutsa da nigaran qalmışdı. Yenidən onun nömrəsini yığdı. Cavab almadıqda erkən yatdığını düşünərək bir daha nömrəni yığıb narahat etmədi. Həm də sabah erkən qalxmaq lazım idi. Həftəiçi günlər olduğundan işə də getməli idi. Çox vaxt işə gedərkən yolüstü "dayı" deyə müraciət etdiyi, çox sevdiyi və önəm verdiyi, illərdir fikir birliyində olduğu və yorulmadan Göy Türklərini tanıtmağa çalışan bu vəfalı insana baş çəkmədən dura bilməzdi. Səhər işə gedərkən yolüstü əvvəl Perihana, sonra isəTunçay bəyə baş çəkməyi qərara aldı.

-Hə, Fıstık, sənə gəzinti söz vermişdim. Əvvəlcə gedək səninlə gəzək.

Bunu deyib tünd yaşıl rəngli gödəkcəsini asılqandan götürərək geyindi. İdmançı çəldliyi ilə ayaqqabı dolabından götürdüyü ayaqqabılarını da bir anda geyinib bağlarını çəkərək bağladı. Fıstığın da dəridən olan xaltasını boynuna keçirdi.

-Gedək Fıstık,- deyərək qapını açdı. Pilləkənlərdən enərək həyətdə saxladığı avtomobilinə yaxınlaşdı. Boz BMV-nin qapısını açan kimi onunla birlikdə həyətə enən Fıstık bir anda sıçrayaraq arxa oturacaqda oturdu. Qapı bağlanan kimi də qabaq pəncələrini arxa qapıya söykəyərək pəncərədən o tərəf bu tərəfə hərəkət edən qara muncuq gözləriylə ətrafı seyr etməyə başladı. Çocuk da sükan arxasına keçərək avtomobilini işə saldı.

Artıq evdən xeyli uzaqlaşmışdılar. Çocuk avtomobili tez-tez gəldiyi, şəhər ətrafında yerləşən gölün kənarında saxladı. Qapını açan kimi Fıstık yerə atılaraq o yan-bu yana qaçmağa başladı.

Avropanın bu qədim şəhərində yerləşən yaşıllıqlarla əhatə olunmuş gölün sahilində gəzməyi çox sevərdi Çocuk. Bəzən kiçik gəmilərlə gəzinti turlarına da qatılardı. Gölün sahilində sevimli məkanı da vardı. Bu sıx ağaclıq olan bir yer idi. Həmin bu yerdə kiçik bir qaya parçası vardı. Elə bil bu qaya parçası bura göydən düşmüşdü. O, çox vaxt bura gələr, bardaş qurub bu qaya parçasının üzərində oturar, üzü-

nü səmaya tutar, uzun müddət, sakitcə ətrafı dinlər, düşüncələrə dalardl. Bəzən də sahil boyu dayanmadan kilometrlərlə gəzərdi. Sevimli Fıstığı da ona yoldaşlıq edərdi. Bu gün də növbəti gəzintilərdən biri idi.

Payız olmasına baxmayaraq, hava çox da soyuq deyildi. Çocuk gödəkcəsinin yaxasını açaraq yenə həmin qaya parçasının üzərində bardaş qurub oturaraq ətrafı xeyli dinlədi, düşüncələrə daldı. Sonra qaya parçasının üzərindən atlet çəldliyi ilə enərək xalı kimi sərilmiş xəzan yarpaqlarının üzərində yeriyərək gölün lap kənarına, suların yuduğu sahilə endi. Bayaqdan sakitcə bir tərəfdə uzanan Fıstık da qalxıb onunla birlikdə sahilə endi. Burada xeyli adam vardı. Fıstık da gəzintinin dadını çıxararaq sahil boyu orabura qaçırdı. Sahildəki adamların Fıstıkla rastlaşanda qorxduğunu görüb Çocuk fit səsiylə onu yanına çağırdı. Ağıllı it bir anda sahibinin yanına döndü. Gözlərini sahibinə zilləyərək sanki "məni niyə çağırdın?" demək istəyirdi.

-Çox uzağa olmaz!

Onu başa düşürmüş kimi Fıstık daha sahibinin yanından çox uzaqlaşmadı. Birlikdə sahil boyu addımlamağa başladılar.

Çocuk düşüncəli idi. Görünür, yenə nəyi isə götür-qoy edirdi. Dünyanın bu qarışıq vaxtında işləri heç bitmək bilmirdi. Onun düşüncəsi, amalı, üzərinə düşən məsuliyyət böyük idi. Onlar tərəfindən seçil-

miş insanları da bu amallar, ideyalar ətrafında birləşdirməyə çalışırdı. Dünyaya əyləncə üçün gəlmədiyini dəfələrlə onlara da söylərdi. Onun başlıca məqsədi insanlığa, vətəninin, millətinin varlığını qorumağa xidmət idi. Bu gün də düşüncəsində həmin qayğılar vardı. Fikri, xəyalı bir anda  bütün türk dünyasını dolandı. Görəvləndirilən bir əsgər kimi bütün türk dünyasının halından xəbər tutar, görülməli olan işləri görərdi. Hər bir türk yurdunu çox yaxşı tanıyırdı. Ruhunu bilirdi. Bir Göy Türk bəyi kimi həmişə o yerləri dolaşar, ayıq-sayıq keşikçi kimi olub-keçən hər şeydən xəbərdar olar, o yerlərdə Göy Türklərinin görəvləndirdiyi insanları da xəbərdar edərdi. Dünyanın bu günkü halı çox qarışdığından işlər də çox idi. Amma nə olursa olsun, görəvi layiqincə yerinə yetirməli idi. Beləcə, xeyli düşündü Çocuk. Bu gün Gülcə ilə də birbaşa görüşməkdə qərarlı idi. Nəhayət, ona verilən səlahiyyət və gücü Gülcəyə ötürməyin vaxtı çatmışdı. Bu düşüncələr içində vəfalı Fıstığı ilə adətinə xilaf çıxmayaraq kilometrlərlə gəzdilər.

Artıq növbəti gəzinti başa çatdı. Yenidən avtomobilini saxladığı yerə döndü. Fıstıkla bərabər maşınına əyləşərək evə doğru istiqamət aldı. Yaşıllıqlarla əhatə olunmuş hamar asfalt yol onu evə doğru aparırdı.

Az sonra artıq mənzil başına çatmışdılar. Evə qalxan Çocuk yenə də şam etməyərək çox vaxt olduğu kimi bir fincan su içməklə kifayətləndi. Bir az sonra isə yatağına uzanaraq  sabah üçün planladığı işləri

düşünürdü. Dünyada görəvləndirməli olduğu insanlar da vardı. Sabah Gülcə ilə də birbaşa görüşəcəkdi.

Fıstık da başını ön pəncələrinin üstünə qoyaraq döşəmədə uzanmışdı.

Çocuk səhərə yaxın yatağından qalxaraq bir anda işınlanaraq Gülcənin vətənində yenidən dünya insanı kimi göründü. Doğulduğu ata evində qonaq olan Gülcə yuxudan erkən qalxaraq payız səhərinin alatoranlığında evi əhatə edən bağda dolaşırdı. Birdən sübhün alatoranlığının səssizliyi içindən qarşısına çıxan adamı görüb anidən arxaya sıçradı. Çaşqınlıqla bir anda qarşısında peyda olan adama baxdı.

-Sakit ol, Gülcə. Mən Qəhrəman Qorxmazam. Sənin Çocuk kimi tanıdığın adamam.

Gülcə bir az sakitləşdi. Yuxusunda gördüyü, dəfələrlə O I O (SIFIR BİR SIFIR) paroluyla başlayan, Göy Türkləri haqqında bilgilərlə dolu mesajlar göndərən adamı tanıdı. O idi, Çocuk idi!

-Aramıza xoş gəldin, Gülcə! Hürr iradənlə gəlmişsin, inşallah!

-Siz də xoş gəldiniz. Mən də sizi həyatda birbaşa görməyimdən məmnun oldum.

Gülcənin qorxusu artıq keçmişdi.

Çocuk söhbətə davam etdi:

-Sizinlə birbaşa tanışlığımıza davam edək.

- O zaman mənim sizə soracağım bir çox suallar var.

-Dinləyirəm, Gülcə. İstədiyini soruşa bilərsən.

-Öncə bilmək istərdim ki, sizdən alacağım biliklər nəticəsində çıxacağımız yolda mənim insanlığa, türk soyunun mənfəətinə bir faydam, qatqım olacaqmı? Yoxsa vaxtımı boşuna xərcləmək fikrim yoxdur.

-Haqlısan, Gülcə. Mənim sənə verə biləcəyim cavab qısaca bu ola bilər: bilirsən ki, Göy Türkləri gələcəkdən bu ana və keçmişə hərəkət edə bilir. Əminəm ki, nəhayət, bu gün bizə qatılmaq üçün qəti qərarını verəcəksən. Belə olmasaydı sən Göy Türklərinin varlığı, kimliyi, hansı gücə malik olduğu haqqında heç bir şeydən xəbərsiz halda yaşamına davam edər, biz də bu gün burada olmazdıq. Gələcəkdə nələr olacağını indi sənə söyləyə bilmərəm. Amma edəcəklərinlə ilgili hər cür cəhdində sənə dəstək olacağıq, səni bilgilərlə təmin edəcəyik. Yalnız sənin hürr iradənlə etdiyin seçimlər anbaan bundan sonrakı həyat yolunun səmtini təyin edəcək. Bizlər sonradan belə olmadıq. Belə doğurulduq. Hər birimizin oyanış vaxtı yaşam müddətimizin fərqli anlarına rast gəlir. Səninki də bu ana təsadüf etdi. Yaşam təkcə yemək, gəzmək, nəfəs almaq deyil. Sənə nə olursa olsun mənsub olduğun soyun üçün savaşmağı öyrətmək üzrə vəzifələndirilmisən. Bu yolda lazım gəlsə sözün qılıncdan kəskin, yolun qıldan da incə olmalıdır. Almaq istədiyin hər şey sənindir. Sənin vermən lazım olan tək şey isə zamanın, vaxtındır. Bir də zatən yaradılış əsasın olan sarsılmaz iradənlə hərəkət etməndir. Bax Gülcə, doğuldun, yeridin, qaçdın, övladlar

dünyaya gətirdin, gələcəyə, var olmaq məqsədinə uyğun açıq və kəskin bir duruş göstərdin. İndi də Göy Türklərinin yer üzündəki təmsilçilərindən biri olmağa namızədsən. Türklük uğruna, insanlıq naminə sənə verilən vəzifəni yerinə yetirməlisən.

-Orası elədir. Amma niyə mən gənc ikən, məsələn, iyirmi beş yaşında olanda gəlmədiz? İndi zamanın və həyatın çətinliklərinin, sınaqlarının yorduğu bədənim və ruhum bu ağır fiziki və mənəvi təlimə və təhsilə dayana biləcəkmi?

-Dəyərli Gülcə, sizə o yaşınızda gəlindi. Amma o zaman  bu yola çıxmağa hələ hazır olmadığınızı gördüyümüz üçün, sizin həyatınıza müdaxilə edilmədən izlənib, qorunub, mühafizə edildiniz. Rahat olun, fiziki və sağlıq baxımından iyirmi beş-otuz yaşlar arasına gətiriləcəksiniz. Mən sadəcə mental və fiziki təlim və təhsilinizə cavabdehəm. Meydanda isə sizə Eloğlu yoldaşlıq edəcək.

Xanıməfəndi, bizlər hər mövzuda biliklərə, təcrübələrə sahib olsaq da hərəmizin ayrı-ayrı sahələrdə fərqli və çox üstün bacarığımız var. Hamımız görünməz ola bilirik. Bunun xaricində isə hər birimizin özünəməxsus bacarıqlarımız var. Siz indi fərqində olmasaz da, sizin də lazım gəldiyində məqsədə yetişmək üçün yüksək qiymətləndiriləcək xarakteriniz var.

-Hansı xarakterim?

-Bunu təlim və təhsiliniz zamanı bərabər öyrənəcəyik. İndi isə sizdən bir ricam olacaq. Gözlərinizi yumun.

Gülcə gözlərini yumar-yummaz bədənində kəskin ağrı hiss etdi. Sonra ağrı sızıltıya çevrilərək bütün bədəninə yayıldı. Gözlərini açdıqda özünü yerin cazibə qüvvəsi olmayan bir məkanda, alatoran bir boşluqda gördü.

-Bura haradır?

-Sus Gülcə! Bu andan etibarən sual vermə. Mən Qəhrəman Qorxmazam. Türk soyluyam. "Gök Türkleri Evrensel Konseyi"nin mənə verdiyi səlahiyyət və gücü sənə ötürməklə vəzifələndirilmişəm. Sən də artıq "Gök Türkleri Evrensel Konseyi"nin "Evren Mufafızlərı" komandasının yerüzü bölməsinin bir üzvü olmağa namizəd tələbəsən. Heç bir təsir altında qalmadan hürr iradən və vicdanından soruşuram:

-Hazırsanmı?

Gülcə bir anın içində yaşadığı bu inanılmaz və şok edici hadisəyə rəğmən, sanki heç bir şey olmamış kimi və hər şey çox təbii imiş kimi səsləndi:

-Hazıram!

-O zaman təlimin başladı! Rahat ol və gözlə.

Bir an sonra isə Gülcə yenə özünü az əvvəl Çoçukla söhbət etdiyi yerdə gördü. Çocuk isə artıq getmişdi.

Çocuk üzərinə düşən vəzifəni yerinə yetirərək yenidən öz evinə döndü. Adəti üzrə yüngül qəlyanaltı edib həyətə düşdü. Boz BMV-ni işə saldı. Yolüstü olaraq Perihana baş çəkmək üçün avtomobilini onun yaşadığı səmtə sürdü. Mənzil başına çatan Ço-

cuk avtomobildən enib iti addımlarla binaya daxil oldu və pillələri qalxdı. Qapının zəngini çaldı.

Perihan gələnin kim olduğunu soruşmadan qapını açdı. O, vəfalı dostunun ona baş çəkmədən işə getməyəcəyini bilirdi. Sabah erkən gələn isə yalnız o ola bilərdi.

-Sabahın xeyir. Necəsən? Başının ağrısı keçdimi?

-Salam. Yaxşıyam, sağ ol. Narahat olma. Belə erkən əziyyət çəkib gəlməsəydin. Onsuz da sənin işlərin çoxdur. Bir yandan da mən iş artırdım sənə. Bilmirəm necə oldu, pilləkənləri qalxanda ehtiyatsızlıq elədim.

-Bilirəm, səndən asılı olmayıb. Dünən demək istəmədim. Bizim qorumamız altında kimlərin olmasından şeytana biət edən sürüngənlərin də xəbəri var. Bizlərə təsir etmək gücləri olmadığından, qorumamız altında olanlara, doğru yolda olanlara xətər yetirməyə çalışırlar. Amma nə qədər bizlər varıq, sizlərə qarşı etdikləri bütün əməlləri boşa çıxacaq. Yenə şükürlər olsun, ucuz adlatdın. Artıq sənə də qazi-dərviş demək olar,- Çocuk gülümsəyərək əlavə etdi. Amma qorxma, sənə heç nə edə bilməzlər. Çünki biz varıq.

-Evə dəvət etməyi də unutdum.

-Onsuz da tələsirəm. Başqa vaxt gələrəm, ətraflı söhbət edərik. İndi isə mən gedim.

Çocuk xüdahafizləşib həyətə endi. Perihan isə bu vəfalı insanı tanıdığına bir daha şükr etdi.

Çocuk avtomobilini işə salıb yaxınlıqda yaşayan Tunçay bəyə də baş çəkmək üçün onun yaşadığı evə tərəf istiqamət aldı. Neçə gün idi dostuyla görüşə bilməmişdi. Bu insanı çox sevirdi. Tunçay bəyi yaxından tanıyan dostlarının da ona qarşı eyni hörməti və səmimi bir sevgisi var idi. Bu yaşlı adam özünü anlayandan bu günə kimi Dədə Qorqud sayağı sazıyla, sözüylə türk millətinin ruhunun, mədəniyyətinin, varlığının keşiyində bir əsgər sayağı dayanmışdı. Yorulmadan, usanmadan çıxdığı yolla irəliləyirdi. Onu da bu yola yönəldən daşıdığı güclü türk ruhu idi. Atası on beş yaşında ikən qurtuluş savaşına könüllü qatılanlardan biri biri. Süvari kimi orduda xidmətə başlayan bu adam çox gözəl at minərmiş. Komandiri ona çox gözəl at mindiyi üçün "Eruçar " soyadını vermişdi. Bandırmanın qurtarılması zamanı düşmənləri qovarkən şəhərə girən ilk atlı da onun atası olmuşdu. Bir türk kimi at üstündə böyümüş, yaşlanmış biri idi. Atası, hətta babası da türk ordusunun zabiti olmuş, babasının böyük qardaşı isə General – polkovnik rütbəsində, beşinci Baş Qərargah Rəisi olmuşdu. Qafqazdan köç edən Çərkəzlərin Kabardin boyundan olan bu türk insanları türk ordusunda sədaqətlə xidmət etmişdilər. Millətini, vətənini sevən insanlar kimi tanınmışdılar.

Ana tərəfdən isə o, orta Asiya türklərinə bağlı bir türk insanı idi. Fateh Sultan Mehmet xan zamanında Oğuz Türkləri olaraq dövlət tərəfindən Mani-

sada yerləşdirilmişdilər. Ana babası isə Makedonya Üsküpdən gələn türklərdən idi. Atatürklə də oradan tanış idi. Ankara məclisində də bərabər fəaliyyət göstərmişdilər. Böyük bir müəllim kimi Anadolunun təhsil sistemi onunla bağlıydı. Babasının daha bir qardaşı isə Atatürkün əmir zabiti olmuş və Sakaryada şəhid olmuşdu. Nəsil şəcərəsi türk ruhunu bu günə daşıyan bu böyük nəslin davamçılarından, övladlarından olan Tunçay bəy də bu günə qədər əlindən gəldiyi qədər biliyini, bacarığını türklük üçün, milləti, vətəni üçün əsirgəməyən biri idi. Bu gün də vaxtaşırı, yaşadığı Avropada yerləşən türk mədəniyyət mərkəzləri ilə əlaqə saxlayır, tədbirlərə qatılır, bir musiqiçi kimi, bilim adamı kimi burada yaşayan türk gənclərinə türk sazının sirrlərini öyrədir, türk ruhunu yaşatmağa çalışırdı. Bu yolda ona qoşulan dostlarını da bir bələdçi kimi getdiyi mübarək yolla aparırdı. Son illərdə isə Çocuk vasitəsilə xəbərdar olduğu Göy Türkləri, onların fəaliyyətləri haqqında da yorulmadan bildiklərini paylaşır, məlumatlar verirdi. Təki vətəninə, millətinə xidmət etmiş olsun.

Millətinə, vətəninə xidmət etməsi üçün ona doğru yol göstərsin deyə, Allahına çox dualar etmişdi. Nəhayət, Tanrı onu çox sevdiyi Çocukla qarşılaşdırmışdı. Dostlarına da "O, hamımızın, bütün türk insanlarının çocuğudur",-deyərdi.

Çocuk avtomobilini həyətdə saxlayıb iti addımlarla pilləkənləri qalxdı. Qapının zəngini çaldı və içəridən:

-Gəl, Çocuğum, -deyə Tunçay bəyin səsi eşidildi. Qapının zənginin neçə çalınmasından artıq gələnin Çocuk olduğunu bilirdi.

-Salam, dayıcan. Yenə səni görmədən keçə bilmədim. Necəsən? İşlər nə yerdədir? Bu aralar mənim başım bir az qarışıqdır. Bəzilərinə həddlərini bildirmək, dərs vermək lazım idi. Ona görə neçə gündür gələ bilmirəm. Dünən də Perihan mənə qonaq gələrkən pilləkənlərdə yıxılıb başını zədələyib. Səndən əvvəl ona baş çəkdim. Şükürlər olsun indi vəziyyəti yaxşıdır.

Bunu eşidən Tunçay bəy təlaşla soruşdu:

-Perihana nə olub? Zədəsi ciddidirmi?

-İndi yaxşıdır. Amma sən də vaxtın olsa bir hal-əhval tutarsan.

-Mütləq xəbər tutacam. Sən nigaran qalma, işinə get. Heç soruşmuram, Çocuğum, sənin işlərin necə gedir?

-Sağ ol, dayıcan. Həmişəki işlərdir. Bu yaxınlarda bizə qarşı olanların bir qrupunu da deşifrə etdik. İndi onun mühakiməsiylə məşğuluq.

-Hə, əsas olan sənin işlərindir. Dünya güclərinin caynaqlarıyla parçalamaq istədikləri vətənimizi, türk dünyasını qorumaq üçün kimin əlindən nə gəlirsə onu etməlidir. Millətimiz, vətənimiz qarşısında olan vəzifəmizdir. Mənim də, sənin də çalışdığımız bunun üçündür. Dostlara da bunu aşılamağa çalışıram. İstər öz fikirlərimlə, istərsə də sənin fikirlərinlə.

Çocuk dedi:

-Dayıcan, elədirsə, yaz! Bu dəfə göydən enən "Çocuk"lar Türk yurdlarını azad etməyincə, dünyanı şeytana biət edən sürüngənlərdən, onurğasızlardan təmizləməyincə geri dönməyəcəklər. Artıq Tanrının izni ilə "La qılıncı" çəkilmişdir. Ya hamısı diz çökəcək, ya da qan qusacaq! Bu gün şeytana biət edən Milton deyilən birinə də bir daha söylədim:

-Ya hamınız diz çökəcəksiz, ya da qan qusacaqsız.

Bu sözləri söyləyərək, xüdahafizləşib çıxdı. Tunçay bəy isə yeni yazısı üçün hazırlıqlara başladı.

## F Ə S İ L - 20

Tunçay bəyin də Çocukla olan hekayəsi bir başqa idi. Bir gün Gülcə ondan bu barədə soruşanda bunları demişdı:

-Sevimli Gülcəmiz, məndən bu haqda çox soruşan olub. Sən də artıq Göy Türklərindən xəbərdarsan. Xəbərdar olan hər kəsin də özünə aid bir "Göy Türk" hekayəsi var. Bu hekayələrin səhifələrini vərəqlədikcə düşünürsən: - Göy Türkləri gərəkli olan insanları dünyanın hər yerində arayıb, axtarıb seçirlər. Dağdakı çobandan tutmuş, elm, bilim adamına qədər. Ordu idarəetməsində olan məsul şəxslərdən tutmuş sadə bir ev xanımına qədər. "Bax bu!" dedikləri hər kəsə, hər sahədə çalışan kiçik işçidən tutmuş

ən böyüklərə qədər. Uşaqlardan tutmuş böyüklərə qədər. Qadın ya kişi fərq etməz. Bir həyat boyu müşahidə edərlər. Nəhayət, onlara özləriylə tanış olma imkanı verərək, fərqli-fərqli mövzularda lazım bildikləri qədər bilgi ötürərlər.

Düşüncə də səhərdən axşama qədər fiziki işdə çalışan bir insanın fəaliyyəti kimi bir əməyin məhsuludur. Bu baxımdan insan sarıldığı düşüncə və fikrə bəzən bir ömür boyu əmək sərf edir. Səhər, axşam bilmədən düşünür, nəyisə arayır, axtarır, beynində formalaşdırdığı fikrə, hədəfə yetməyə çalışır. Bu əzmin, çalışqanlığın, hələ bu xeyirli, xoşməramlı bir niyyətdirsə, bir gün mütləq mükafatı olacaqdır.

Hər insanın düşüncələri ağzından söz kimi tökülməsə də, beynindəki düşüncələr necə, nə üçün istifadə edildiyi halı ilə göy üzünə, atmosferə doğru bir işıq seli kimi, bir əl fənəri işığı kimi, əslində bioenerji halında, bir siqnal şimşəyi kimi uzanır. Bu işıq selinin uzunluğu və gurluğu o insanın mənliyindəki səmimiyyətin, qəlbindəki hərarətin və istəklərin təzahürü, ifadəsidir.

Bu görüntülü siqnallar nə qədər uzaqdan olursa olsun, önəminə və uyğunluğuna görə rəhmanilərdən olan görəvlinin normal fəaliyyət sferasına uyğun olaraq incələdiyi o duanı, istəyi həyata keçirmək münasibdirsə, rəhmanilər tərəfindən görülə bilir və uyğun görülürsə onlar tərəfindən seçilir. Əgər yaradan izn verərsə. Bundan sonra ürəyi insanlıq, vətənpərvərlik,

türkçülük, bayraq sevdasıyla dolu olan seçilmişlərə Göy Türk görəvliləri tərəfindən bilgilər ötürülür. Yoxsa mən də daxil, dünyadakı milyardlarla insanların içiərisində bizlər kimik ki? Üstəlik bizlər üçün bu qədər işləri arasında vaxt ayıraraq, bütün bunları fədakarlıqla edirlər.

Dünyada və kainatda bütün pisliklərə və pislərə meydan oxuyan bu Göy Türk insanları biz olmadan belə bütün bunları bacarmaq gücünə malikdirlər. Buna baxmayaraq bu bilgilər həm dünyanın, həm də bizlərin bilməsi məqsədilə verilir. Bəlkə bu tanışlıq "insanlar yer üzündə tənha buraxılmayıblar, türklər tək, arxasız deyillər" mesajını vermək üçündür. Bəlkə də haqqın, ədalətin bərpa olunacağı dünya çağı yaxınlaşır mesajını bildirsinlər deyə Yer kürəsində yaşayan insanlarla əlaqə qururlar. Şeytana qulluq edənlərin yaratdığı yenilməzlik mifini dağıtsınlar deyə, bütün bunları yer insanının bilməsinin artıq vaxtı yetişib deyə bizlərə görünürlər.

Bunu da söyləyim, Gülcə, mən bunun üçün yaşadığım həyatın son illərində çox dualar etmişdim. Etdiyim bu dualar insanlığı qurtarmaq, türk millətinin qurtuluşu adına edilən dualar idi.

Bu söylədiklərim də mənim hekayəmin, məhz mənim düşüncəmdən yazılan səhifələridir.

Gülcə diqqətlə oxumuşdu bu fədakar, çox səmimi olan insanın yazdıqlarını. Ona sevgisi, hörməti çox böyük idi. Dilə gətirdiyindən də böyük. Bunu

ifadə etməyə bəzən çətinlik çəkirdi. Bu yaşlı türk adamı, Çocukla zaman yolçuluğunda onları lokomotiv kimi irəli çəkən biri idi. Bu lokomotivin arxasınca çəkib apardığı neçə dost, neçə tanış insanın əl-ələ, çiyin-çiyinə irəlilədiyi yol da eyni idi. Fəqət, onları baş yola çıxaran cığırlar fərqli idi. Bu fərqliliyi yaradan isə hər birinin yaşadığı fərqli həyat, fərqli coğrafiya idi. Birləşdirən isə eyni məqsəd, eyni amal, eyni ruh idi.

Bu kiçik qrupun öndəri isə Göy Türk Akınçı bəyi idi. Onların hər birinin "Çocuk" deyərək çox sevdiyi, Göy Türklərini onlara tanıdan türk insanı idi.

Bəs Tunçay bəylə Çocuğun ilk qarşılaşması necə olmuşdu? Bu da ayrı bir hekayə idi. O, hekayəsinin bu bölümünü də Gülcəyə söyləmişdi:

-Bosniya qətliyamlarının yaşandığı ən şiddətli günlər idi. Elə həmin günlərdə Bosniya dağlarını aşaraq Berlinə qədər gələn bir neçə bosniyalı ilə tanış olmuşdum. Köhnə bir minibusları vardı. Gecə yarısı gələr, bizim Bosniyalı qaçqınlar üçün topladığımız ayaqqabi, paltar kimi geyim əşyalarını və digər yardım üçün toplanan ərzaqları götürüb gedərdilər. Bir gün, boyu uzun, amma çox zəif olan bir bosniyalıdan soruşmuşdum:

-Sizə orada yardım edən yoxdurmu?

-Yoxdur, -deyə cavab vermişdi.

-Türklərdəndəmi gələn yoxdur?

Bu sualımdan sonra uzun boylu adam bir az düşünmüşdü və cavabında:

-Var,- demişdi.

-Mülki, yoxsa əsgər idi?- deyə həyəcanla soruşmuşdum.

-Hər kəs ona Eloğlu deyir. İstədiyi vaxt gələr, görünər, gedər.

-Bəs özünü heç tanıtmadımı? Heç bir şey söyləmədimi?

-Bu qadınlar, qızlar sizin namusunuzdur, mən bir Eloğlu kimi gəlib sizin namusunuzu qoruyarkən, sizlər kənarda qala bilməzsiz,-dedi. Bundan sonra hər kəs onu Eloğlu kimi tanıdı.

Bu hadisələrdən on iki il keçmişdi. Oğlumu və qızımı çox kiçik yaşlarından on iki il müddətində tək başıma böyütmüşdüm. On iki il sonra anidən məndən birdəfəlik ayrılaraq analarının yanına getmişdilər. O zamandan yaşadığım evdən başqa bir səmtə, indi yaşadığım evə daşındım. Burada da təkbaşıma illərlə yaşadım. Həyatım boyu çox insanları yaxından tanımışdım. Yatılı məktəblərdə tələbə rəhbərliyi, əsgəri birliklərin təhsil mərkəzlərində, sonralar siyasi gənclik qruplarının içərisində, musiqi məktəblərində və sair yerlərdə istisnalar xaricində qarşılaşdığım bütün vəfasızlıqları, xəyanətləri gördükcə Yaradandan tək bir diləyim qalmışdı. Aylarla, illərlə qəlbimdə, düşüncəmdə yalnız bu istəyi daşımışdım:

-Yaşım altmış oldu, ey Allahım! Elə düzgün bir insan varsa, onu tanıyım artıq. Yoxsa, ümidimi itirərək deməli, dünya beləymiş,- deyəcəm.

Yenə günlər məzlumiyyət içində keçirdi. Ara-sıra "Facebook"da yazılar paylaşırdım. Beləliklə, fikrimi dağıdır, vaxtımı keçirirdim. Nəhayət, bir gün metro stansiyalarının birində bir adamla qarşılaşdım. Salam verib yanımda əyləşdi.

-Dayıcan, hara gedirsən?- deyə soruşdu.

-İki stansiya sonra bir yer var, ora baş çəkməliyəm.

-Yolumuz birdir ki...

Söhbətimiz xeyli uzandı. Çox ürəyimə yatmışdı bu adam. Çox fərqli idi həm də. Ayrılarkən telefon nömrəsini verdi. "İstəsən, zəng edərsən" -deyib, sağollaşdı mənimlə. Sonradan bu adamla dostlaşdıq. Mənim evimdə tez-tez görüşdük. Söhbətlər əsnasında "Eloğlu" sözünü eşidəndə, mən Çocuğun tam olaraq kim olduğunu bilmədiyim halda, o kəlmə ilə kim olduğunu həmən anladım. Həmin anda uzun illər etdiyim dualarımı da xatırladım...

Mənə söylədiyi ilk cümləsi bu olmuşdu:

-Əgər göründüyün kimi biri deyilsənsə, məndən sənə ziyan gələr.

-Çox haqlısan, fəqət sən də göründüyün kimi deyilsənsə, məndən də sənə ziyan gələr- dediyimdə, həmən an soruşmuşdu:

-Bu necə ola bilər?

-Belə ola bilər: Mən səni tanıya bilmək üçün yaradana çox dualar etmişəm. Eyni şəkildə sənin getməyin üçün də dua edərəm, gəldiyin kimi də gedərsən,-demişdim. Hər ikimiz çox gülmüşdük. Sanki bu cümlə ilə qarşılıqlı anlaşmışdıq.

İndi o, mənim dünyada ən sevdiyim kəsdir. O, məni dayı deyərək çox sevər, mən də  onu özümə hər kəsdən yaxın bilirəm, hər kəsdən çox sevirəm. Eyniylə sənin kimi bir kız kardeşimiz-bacımızın olmasıyla iftixar etdiyimiz kimi.

Çocukla ilk tanışlığımız eynilə belə olmuşdu sevgili, möhtəşəm Gülcə xanim kardeşimiz. Sən və ailənin hər bir üzvü mənim üçün bir Azərbaycan bayrağı kimisiniz. Hər birinizi çox sevirəm.

Tunçay bəyin söylədiyi bütün bu sözlərdən sonra Gülcə çox kövrəlmişdi. Sevinc hissləri ilə onu kövrəldən hisslər bir-birinə qarışmışdı. Bu insanı tanıdığına çox sevinmişdi və yaradanına şükür etmişdi. Nə yaxşı ki, belə insanlarla tanış olmaq qismət olmuşdu ona. Nə yaxşı ki, dünya belə insanlardan xali deyildi. Nə yaxşı ki, bir Göy Türk bəyi onları bir araya gətirmişdi. Fikir, düşüncə birliyində idilər. Bir-birlərini daha yaxından tanıdıqca arada olan məsafələr də əriyib itirdi. Bir gün həyatda da çox sevdiyi bu gözəl insanlarla bir araya gəlib doyunca söhbət edəcəkləri günün də uzaqda olmadığına inanırdı Gülcə. Hələ ki, onların hamısını ziyarət edə bilən Göy Türk bəyi idi-hamısının sevimli Çocuğu.

# FƏSİL - 21

Gülcənin də tanıdığı, Göy Türk bəyinin önəm verdiyi insanlardan biri də Ceyhan Yeloğlu idi. Göy türk bəyinin seçdiyi, "dəyərli bilgəm" dediyi, Gülcənin, Tuncay bəyin və Perihanın da tanıdığı vətənsevər bir türk qadını idi Ceyhan. Ümumiyyətlə, Göy Türkləri təmas qurduğu Yer türklərinin kimliyini çox yaxşı bilirdilər. Ceyhanın da vətənpərvər, millətinə, dövlətinə sadiq bir hərbçi ailəsində doğulduğunu çox yaxşı bilirdilər. O, belə bir ailədə çox ciddi tərbiyə almışdı. Ailənin ilk övladı olan Ceyhan atasına, anasına son dərəcə diqqət, qayğı göstərən, onlara bağlı olan, hörmətlərini saxlayan biri idi. Ata-anasının da Ceyhana olan sevgiləri bir başqaydı. Onun xarakterinin digər övladlarından fərqlənməsi də nəzərlərindən qaçmamışdı. Ondan gözləntiləri daha çox idi. Atası Muharrem Yeloğlu ona "gücümün, düşüncəmin davamı qızım,"-deyərdi. Hətta ona silah tutmağı, at çapmağı da öyrətmişdi.

Vətəninin, dövlətinin əmrinə hazır bir komandan idi atası. Hərb sənətinin sirrlərini yaxşı mənimsəyən, peşəkar hərbçi olan baş leytenant M.Yeloğlu bütün tapşırıqları, peşəkarcasına, tərəddüdsüz yerinə yetirərdi. Peşəkar hərbçi olsa da bəzən keçdiyi hərb yolunu, həyat yolunu duyğusal qəlbindən süzülən şeirləriylə dilə gətirərdi:

Karşı siperler yüzüyor bu akşam
Sisler içinde...
Ve; harpadamı gezmekte yorgun
Ateş elinde
Ben;

Cebimde yar mektubu; yürekte Vatan aşkı
Dehşetlere gülmek için.
Tanrısızlar ülkesine girmek için
Emir bekliyorum...

Taşın kara, suyun kara olduğu şu anda
Barut kokusu kan kokusu duyuyorum.

Siz misiniz kardeşlerim yanımda?
Ufuklar neden böyle gülüyor?
Oh...sen misin sancağım, dalğalanan başımda?
Siz misiniz kahramanlar elleri göklerde olan?

Ne bu nal sesleri? Yeni bir akın mı var?
Bulutların altından geçiyor gürül gürül
Maviciklerin çocukları
Hücum var bu akşam hücum...

Xidməti müddətində göstərdiyi bir qəhrəmanlıqdan sonra Baş Leytenant Muharrem Yeloğluna çoxlu mükafatlar verilir, təltiflər edilir. O isə ona ən böyük mükafatın Tanrı tərəfindən verilən, doğuldu-

ğu gündən damarlarında axan əsil qanın olduğunu söyləyir. O, bir əsil türk oğlu kimi həm övladlarına, həm də ətrafındakı gənclərə həmişə haramlardan uzaq olmaq, qorxmazlıq, mərdlik, mübarizlik, vətənpərvərlik hissi aşılayardı.

Ceyhan da atasını həmişə belə, minnətlə, rəhmətlə xatırlayırdı. Atalı günləri üçmərtəbəli apartmanın son mərtəbəsində yerləşən mənzildə keçmişdi. Mənzillərinin balkonundan göy üzü çox aydın görünərdi. Buradan gecələr səmanı seyr etməyi, düşüncələrə dalmağı çox sevərdi. Bu kiçik balkon onun rahatlıq tapdığı bir guşə idi. O, başqa peşənin sahibi olsa da, çox gözəl rəssamlıq qabiliyyətinin də olmasında, bəlkə də bu kiçik balkondan səmanı, ətrafı saatlarla maraqla seyr etməsinin də rolu olmuşdur. Peşəkar rəssam olmasa da, çox gözəl rəsm əsərləri çəkirdi. Tez-tez sərgi salonlarını ziyarət edər, bəzən onun da yaratdığı rəsm əsərləri salonlarda sərgilənərdi.

Bu günlər də onun əsərləri bir sərgi salonunda nümayiş olunurdu. Sərgi salonunu hər gün xeyli tamaşaçı ziyarət edirdi. Bu gün sərgiyə gələnlər arasında onun iş yoldaşları da vardı. Ceyhan yenicə salona daxil olmuş iş yoldaşlarını qarşılayaraq onlarla birlikdə sərgi salonunu gəzir, sərgilənən əsərləri haqqında məlumatlar veriridi. Elə bu zaman yağlı boya ilə işlədiyi Atatürkün portretinin qarşısında neçə illər öncə təsadüfən rastlaşdığı, kimliyini bilməsə də yaddaşında dərin iz buraxan, "Bilgə adam" adlandırıb,

həmişə də bu adla xatırladığı adamın dayandığını gördü. O idi. Yanılmırdı. Bilgə adam idi. Tez iş yoldaşlarına üzrxahlıq edərək onlardan ayrıldı və iti addımlarla portretə diqqətlə tamaşa edən adama yaxınlaşdı.

-Salam. Sizi burada görəcəyimi xəyalımdan belə keçirməzdim. Nə gözəl təsadüf.

Adam gözlərini portretdən ayırıb ona sarı dönərək salamı aldı:

-Salam. Təsadüf deyilən bir şey yoxdur. Deməli, sizinlə yenidən rastlaşmağımız lazım imiş,- deyərək gülümsədi.

Sonra yenidən sözünə davam etdi:

-Mən nə demişdim? Sonsuz yolçuluqda olan biriyəm. Bu gün də yolum buradan düşüb. Sizi yenidən görmək üçün.

-Məni?

-Bəli, sizi. Bunu siz istəmisiz. Odur ki, mən sizi təkrar ziyarətə gəlmişəm. Qeyd edim ki, Cumhuriyyətimizin banisi Qazi Mustafa Kamal Atatürkün yağlı boya ilə çəkdiyiniz portretini çox bəyəndim. Amma mən indi getməliyəm. Mənim kimliyimi yaxından öyrənmək üçün səni məni tanıyan insanlarla tanış edəcəm. Bilgə adam bir telefon nömrəsi yazılan kiçik vərəqi ona uzatdı.

-Bu nömrəyə zəng edərsiz. Hər şey sizə aydın olacaq. Bütün suallara cavab tapacaqsız. İndi isə mən gedim. Zəng etməyi unutmayın!

Ceyhan əlində nömrə yazılmış kiçik kağız parçası, heyrətlə Bilgə adamın arxasınca xeyli baxdı. Daha sual vermək imkanı da yox idi. Adam artıq salonu tərk etmişdi. O, nömrə yazılmış kağız parçasını bərk-bərk ovcunda sıxaraq iş yoldaşlarının yanına döndü. Artıq rəsm əsərlərinin sərgilənmə vaxtı da başa çatmaq üzrə idi. Sərgiyə təşrif buyurmuş sonuncu tamaşaçılar da salonu tərk etdikdən sonra özü də evə döndü.

Evə dönən kimi Bilgə adamın ona verdiyi telefon nömrəsini yığdı.

-Tunçay bəy eşidir sizi,- xəttin o başından səs gəldi.

Beləliklə, Ceyhan Yeloğlu da Göy Türk bəyinin təmas qurduğu bu insanların arasında bir dost kimi yerini aldı.

Ceyhan Bilgə adamla rastlaşdığı günü xatırladı. Onun söylədiyi kimi, Tanrıdan həmişə rastına özünün ruhuna, düşüncəsinə yaxın insanları çıxarmağı dilərdi. Və bir gün Yaradanı onu qarşısına "Bilgə adam" dediyi, bu gün Çocuk kimi tanıdığı Göy Türk bəyini çıxarmışdı. Onunla qarşılaşması isə belə olmuşdu:

Neçə il idi ki, atasını itirmişdi. Çox sevdiyi, artıq yaşlanmış anasını isə bir an gözündən kənarda qoymurdu. Anasına özü baxırdı. Özünün həmişə aradığı həqiqətə qovuşması üçün, onun necə biri olduğunu anlayacaq bir dostla rastlaşması üçün həmi-

şə dualar edərdi. Bəzən niyə məhz belə dua etməsini özü də anlamırdı. Amma daxili dünyasında bir boşluq olduğunu, bu boşluğu dolduracaq biri ilə hələ rastlaşmadığını hiss edirdi.

Neçə gün idi ki, anasının xəstəliyi şiddətləndiyi üçün onu xəstəxanaya yerləşdirmişdi. Səhər anasına baş çəkdikdən sonra iş dalınca Ankaradan xeyli uzağa getməyə məcbur olmuşdu. İndi isə geri dönürdü. Hava çox isti, yol uzaq olduğundan yolun kənarında dayanıb dincəlməyi qərara aldı. Dağ yolunun kənarında, yaşıllıqla əhatə olunmuş, kiçik bir bulağın axdığı yer idi bura. Avtomobilini kənara çəkərək qapısını açıb yerə endi. Günortadan xeyli keçməsinə baxmayaraq hava hələ də çox isti idi. Ətrafda kimsə gözə dəymirdi. Bulağa yaxınlaşıb doyunca su içdi və əl-üzünə su vuraraq sərinlədi. Bulağın kənarındakı bir daşın üzərində oturdu.

Elə bu zaman yoldan keçən avtomobillərdən biri onun yanında dayandı. Sürücü başını pəncərədən çıxararaq salam verdi.

-O da əleykümsalam,-deyərək salamı aldı.

-Bir problemmi var?- deyə soruşdu adam.

-Yox, eləcə isti olduğu üçün bir az dincəlmək istədim.

-Elədir. Hava çox istidir.

-Elə ona görə bulağı görcək dayandım. Çox sərin su axır bulaqdan.

Adam avtomobildən düşüb ona yaxınlaşdı.

-Suyun varlıq adəti budur- axmaq. Davamlı axması, arayana hər an hazır olmasıdır,- deyə əlavə etdi.

Uca boylu bu yolçuya 40-45 yaş vermək olardı. Həm də bu yolçu sıradan birinə bənzəmirdi.

-Siz haradan gəlib, hara gedirsiz? -deyə soruşmuşdu yolçudan.

-Sonsuz yolçuluqda olan bir insanam. Desəm ki, 5500 il sonradan, gələcəkdən bizim hazırda olduğumuz zamana, məkana gəlmişəm, inanarsızmı? Biz bura göylərdən endirildik. Ətə, sümüyə bürünərək seçilmiş analardan doğurulduq. Bu əsrlərdir belə davam edir. Amma endirildiyimiz yerdəki kimliyimiz, biliyimiz, bacarığımız, mövcudiyyətimiz bədənlə məhdudlaşmır. Zamanı və maddəni kiçik nano ölçülərdə də görə bilirik. Zamanın daxilində və xaricində sonsuz hərəkət qabiliyyətimiz var.

Bu sözləri eşidərkən daha maraqla baxmışdı yolçuya. Çox yavaşca soruşmuşdu:

-"Ölmək" bəs nə anlamdadır sizin düşüncənizdə?

-Bu planetin qanunu hər doğulanın bir gün öləcəyini diktə edir. Bizlər isə burada vəzifəmiz bitdikdən sonra, yəni vaxtı gələndə geri dönərik. Eyni yerə getməsək də bu həm bizim, həm sizin üçün yox olmaq deyil. Bir yuxudan, uyqu halından oyanmaq kimidir. Unutmayın, həqiqəti bilinməyən hər şey qorxuducudur. İnsanın qorxması təbiidir. Bilmədiyini bilənə qədər qorxar.

-Çox doğru söyləyirsiz. Bilmək, öyrənmək, oxumaq, dərk etmək lazımdır.

-Bu yetərli deyil,- demişdi yolçu. Oxuduğunu öyrənmək, öyrəndiyini yaşaya bilmək lazımdır. Sonra əlavə etmişdi:

-Nə istəsəniz soruşa bilərsiz.

Görünür, həmsöhbət olduğu qadının ona ünvanlanacaq suallarının çox olmasını anlamışdı. Ona görə belə söyləmişdi.

Onların söhbətləri xeyli davam etmişdi.

Söhbətin sonunda, -sizə "Bilgə adam" deyə bilərəmmi?- deyə soruşmuşdu yolda rastlaşdığı bu adamdan.

-Necə istəyirsiz.

Ceyhanda çox qəribə bir duyğu yaranmışdı. Bu adamın fərqli biri olduğunu anlamışdı. Deyəsən, Yaradan yanında duaları qəbul olunmuşdu. Bu adamı onun rastına çıxarmışdı. Çox məmnun qalmışdı. Həm onunla rastlaşmaqdan, həm də onunla söhbətdən.

Sağollaşıb ayrılmışdılar. Amma adını belə bilmədiyi bu qəribə adamla görüş onun yaddaşında dərin iz buraxmışdı. Sonralar bu adamın kimliyi barədə çox düşünmüşdü. Kim idi onunla rastlaşan bu qəribə adam?

Neçə illər bu suala cavab tapa bilməmişdi.

İllər sonra onu yenidən ziyarətə gələrək həm özünün, həm də bu gün tanıyıb sevdiyi dəyərli dost-

larının onun həyatında olmasına vəsilə olmuşdu Bilgə adam.

Çocukla tanışlıqdan illər keçmişdi. Ceyhan da sürətlə inkişaf edən, dəyişən dünya düzəninə alışmışdı. O da dünyamızın digər sakinləri kimi elmin texnalogiya sahəsindəki nailiyyətlərindən yararlanır, dünyada olanlardan xəbərdar olmaq üçün sosial şəbəkələrin imkanlarından istifadə edirdi. Həm də bu onun həyatına yeni rəng qatırdı. Neçə-neçə adamlarla tanış olmuşdu. Onlar arasında Göy Türk bəyini tanıyan dostları da vardı.

O da, digər seçilənlər kimi Göy Türklərinin bəzi özəlliklərinin şahidi idi. İşınlanaraq dünyanı dolaşan, Ötükenə gedib-gələn GöyTürklərinin bu halını görənlər sırasında idi.

Bir gün gözləri önündə parlaq bir işıq görmüşdü. Ona elə gəlmişdi ki, cismindən-bədənindən ayrılaraq işığa doğru gedir, yaxınlaşdıqca bu işığın ətrafında daha bir neçə işığın da olduğunu görmüşdü. Bu işıqlar yerə bir insan boyu qədər məsafədə asılaraq durmuşdular. Bu işıqların içində isə nura bürünmüş adamların olduğunu fərq etmişdi. Nura bürünmüş insan siluetlərinin üzlərindəki təbəssüm də aydın görünürdü. Bu nur adamlar sanki ona xoş gəldin deyirdilər. Bunlar sonsuz var oluşun görüntüləriydi. Və onlardan xəbərdar olan bir yer türkünu salamlamaq üçün enmişdilər. Sonra bir anda da gəldikləri

kimi işıq seli tək səmaya yüksəlib qeyb olmuşdular. O isə cisminə-bədəninə geri dönmüşdü.

Bu gün o da "Göksel bir yapının yer üzünə endirilmiş bir ünsürüyəm" deyən Bilgə adamın, türk dünyasının Çocuğu olan Göy Türk bəyinin türklüyə, Göy Türklərinə aid verdiyi bilgilərlə tanış idi. Dostları kimi Çocuk vasitəsilə Goy Türklərinin varlığından xəbərdar idi və onu tanıyan bir neçə insanla aralarında çox yaxın dostluq əlaqəsi də yaranmışdı. Bu insanlar Çocukdan yeni məlumatlar öyrənir, bir görəvli kimi öyrəndiklərini başqalarıyla da bölüşməyə çalışırdılar.

## F Ə S İ L - 22

Çocuğun hələ də Tunçay bəyin alışa bilmədiyi qəribəlikləri də vardi. Birdən sanki qeybə çəkilərdi. Səssiz-sədasız. O, belə vaxtlar çox darıxardı. Övladından nigaran qalan, xəbər tuta bilməyən valideyin kimi özünə yer tapmazdı. Çünki, çox bağlanmışdı ona. Çocuğun söhbətlərindən doymazdı. Verdiyi bilgiləri diqqətlə dinləyərdi.

Yenə də Çocukdan səs-səda yox idi. Xeyli vaxt idi bu yaşlı adamı nigaran qoymuşdu. Tənhalığa məhkum olmuş bu ixtiyar onu həyatına göndərilən bir ərmağan bilirdi. Uşaq saflığı, mərhəməti, fərqliliyi ilə onun ürəyinə yol tapan bu adam, onu yenidən həyata bağlamış, ömrünə məna qatmışdı. Əslində,

onu tanıyanların demək olar hamısında bu hisslər formalaşmışdı. Çocuk həyatına daxil olduğu hər kəs üçün, sanki Tanrının göndərdiyi mükafat idi.

Fikirli halda pəncərədən küçəylə, hərəkət edən adamlara baxan Tunçay bəy fikrini dağıtmaq üçün pəncərənin önündən ayrılaraq divara söykədiyi bağlama sazı əlinə aldı. Dizinin üstünə qoyub barmaqlarını simlərində gəzdirdi. Sazdan qəribə iniltili səs çıxdı. Sazı kökləyib qədim bir türk saz havasını ifa etməyə başladı. Sazın otağa yayılan həzin səsi bu qərib ölkədə onu özünə, soy- kökünə, milli düşüncəsinə qaytarırdı. Sazın sədaları altında çox şeyi xatırlayırdı. Xatırladıqca kövrəlirdi. Bu qərib diyarda türk kimliyini unutmamışdı heç vaxt. Əlindən gəldiyi qədər burada yaşayan türk gənclərinə də saz sənətini sevdirməyə çalışırdı. Onlara sazın bütün türk xalqlarına məxsus ümummilli bir çalğı aləti, bir mədəniyyət abidəsi olduğu fikrini də aşılayırdı.

Qapının döyülməsi Tuncay bəyi düşüncələrdən ayırdı. Bir anlıq səsə qulaq kəsildi. Yox, səhv etmirdi. Qapı döyülürdü.

Yerindən yaşına uyğun olmayan cəld bir sıçrayışla qalxıb, sazı divara söykəyərək qapıya tərəf getdi. Qapını açan zaman qarşısında Çocuğu görəndə sevincindən bir anlıq nə edəcəyini bilmədi.

-Salam, dayıcan. Bağışla, səni çox nigaran qoydum.

Tuncay bəy salam almağı belə unudaraq Çocuğuna sarıldı. Elə bil dünyanı ona bağışlamışdılar.

-Nə yaxşı gəldin, oğul! Çox darıxmışdım.

Sevincdən yaşaran gözləriylə Çocuğu bir daha süzdü:

-Haralardaydın,-deyə soruşmayacam. Bilirəm işlərin çoxdur. Gəl əvvəl bir fincan çay içək, sonra söhbət edərik. Bunu deyib Çocukla birlikdə qonaq otağına keçdi.

-Sən əyləş, mən də bir çay qoyum, gəlirəm.

Tələsik mətbəxə keçərək elektrikli çaydanı işə saldı. Yenidən qonaq otağına döndü. Stulu çəkərək Çocuğa yaxın əyləşdi.

-Dayını nigaran qoydun.Bu günlərin mənimçün necə keçdiyini bilmirəm sənə necə başa salım.

-Dayıcan, sən söyləməsən də bilirəm. Amma bəzən işlər uzanır, gec gəlməyim səbəbsiz deyil. Əsas odur ki, indi yanındayam. Mən də çox darıxmışam, həm səninçün, həm də sənin dəmlədiyin çay üçün.

Bu sözləri deyərək məsum baxışlarıyla Tuncay bəyə baxaraq gülümsədi.

-Bu saat çay hazır olacaq,- deyərək Tuncay bəy yenidən mətbəxə keçdi. Az sonra iki fincan çayla qayıtdı.

-Hə, indi içə bilərik.

Fincanlardakı çay bir az soyuyana kimi ordan-burdan söhbət etməyə başladılar.

-Dayıcan, daha nə var, nə yox? İnşallah ki, bir yaramazlıq yoxdur.

-Hər şey yolundadır, oğul. Çayını iç, soyutma.

Fincanı əlinə alan Çocuk çayı içə-içə söhbətə davam etdi:

-Öncə bir öyrənək görək Bayer-Beşiktaş oyunu necə oldu? Oyun neçə-neçə qurtardı?

-5-0.

-Kim qazandı?

-Almanlar. Amma oyunun əvvəlindən Beşiktaşlılar on nəfər qaldı. Yoxsa yeddi qol vura bilərdik,-deyərək gülümsədi yaşlı adam.

-Beşiktaşlı arkadaşın fikri nədir?

-Üzünə baxılası deyil. Çox üzgün. Əsəbindən oyundan sonra yatağa girərək yatmış. Sən mənə hər cür sual vermək sərbəstdir demişdin, elə deyilmi?

-Eyniylə, hər sual sərbəstdir, amma Beşiktaşın düşdüyü vəziyyətə çarə yoxdur,-deyərək Çocuk gülümsədi. Onu artıq Beşiktaşı yaradanlar düşünəcək, Göy Türkləri deyil. Bizim bu an məşğul olduğumuz mövzu lazım gələn yerlərdəki insanlara verəcəyimiz elmdir. Vacib olan futbol yarışları deyil, vacib olsa belə, çox çalışan qazanır. Buna müdaxiləyə gərək yoxdur. Önəmli olan lazım olan elmi əldə etməkdir, çox çalışmaqdır. "Çalışmadan, yorulmadan, istehsal etmədən rahat yaşamaq istəyən cəmiyyətlər əvvəlcə heysiyyətini, sonra hürriyyətini, daha sonra da istiq-

balını itirməyə məhkumdur". Bunu Mustafa Kamal Atatürk deyib.

Tunçay bəy üzündə razılıq ifadəsiylə Çocuğu maraqla dinləyirdi. Sual verməyi də artıq düşünmürdü. Yalnız söhbət əsnasında deyilənlərə diqqət kəsilmişdi. Çocuk isə yenə öz fərqli ampulasında idi. Dünyaya, dünyadakı yaşama, ətrafda baş verənlərə Göy Türk bilgisindən yanaşaraq qiymət verirdi. Tunçay bəy isə yenə eyni maraqla dinləyirdi. Çünki bu söhbətlər sonrakı paylaşımlar üçün bir növ hazırlıq idi.

Çocuk söhbətə davam etdi:

-Yaradılmış hər şey bizə görə müqəddəsdir. Özümüzü böyük sanaraq, köpəyi köpək olduğu üçün ittiham etmək bizə görə deyil. Əvvəla özümüzə, sonra ətrafımıza, yaradılanlara münasibətimiz doğru-düzgün olmadıqca dünyanın vəziyyəti bugünkü kimi acınacaqlı olacaq. Sonra da vəziyyəti belə görüncə göylərdən yardım gözləyirik.

Bəli, türk olmaq, türkə uyğun olmaq fərqlilikdir. Fəqət, bu fərqlilik bir avantaj deyil. Hətta dezavantajdır.

Bizim DNT-lərimiz zaman və məkan məcrasında müxtəlif istiqamətlərə hərəkət etməyə hələ hazır deyil. Dünya dediyimiz məcra sadəcə 12742 km və bu məsafənin gündəlik həyatımızda nə qədərində yaşadığımızı və bu məcranın faiz ölçüsüylə nə qədəri olduğunu təsəvvür etməni rica edirəm.

Bu bilgiləri oxuyan və anlayan hər kəs gündəlik həyatında bu 12742000 mm-lik ölçünün nə qədərində sərbəst gəzdiyini hesablasa, onunçün gözəl bir başlanğıc olar.

-Bura kimi verilən bilgilər ağlımıza batdısa öyrənməyə davam edək, yoxsa özümüzü yormayaq.

Çocuk bunu deyib Tunçay bəyə baxdı:

-Dayıcan, bunları bir düşün, sualın varsa soruş, yoxsa davam edimmi?

-Türklərdəki bu söz etdiyin dezavantaj başqa milltlərlərə nəzərən daha çox həssas olma məcburiyyətidirmi?

-Bəli. Mənim söylədiklərim, yəni sənin dinlədiklərin səndə nə fikir formalaşdırdı?

-Ay oğul, gerisi açıq sualdır hələ, gəl başlanğıc yerə baxaq.

-Necə?

-Belə ki, bu vəziyyət nə və necə etməklə əlaqəlidir. Eyni zamanda başqa insanlara və millətlərə də bağlı deyilmi bir az?

-Xeyir. Mən sənə izah edim. Biz istəsək zamana və məkana müdaxilə edə bilən və Türk soyuna aid bir gücdən bəhs edirik.

-Mən də onu demək istəyirdim, övladım. Əvvəlcə öz səhvlərimizi düzəltmək məcburiyyətindəyik.

-O söylədiyin "səhv" kəliməsi doğru deyil. Uyqu halıdır. Zatən şeytanın da istədiyi budur. Dünya neçə kilometrdir?

-40000 km.

-Ha-ha-ha. 12756 km.

-Niyə? Məktəblərdə elə öyrədiblər. Orta məktəbdən bilirəm ki, dünyanın çevrəsi 40000 km dir.

-Sual çevrə deyil ki? Dünyanın, yəni Yer kürəsinin diametridir. Bax gördünmü dayıcan, səninlə belə çox diqqətli əlaqə qurmaq lazımdır.

-Mən də ona görə paylaşdığım yazılarda çox diqqətli olmağa çalışıram. İki, üç məna verən sözlərdə doğru mənanı yazmağa çalışıram.

-İndi başqa sual. Günəşin diametri?

-Bilmirəm.

-1391400 km.

-Bəs iki misli olsaydı nə fərq edərdi? Bu haqda danış.

-Oldu. Buludsuz bir axşamüstü göy üzünə baxdığımız zaman, göy üzündə parlayan göy cisimlərini adi gözlə görmək mümkündür. Adi gözlə gördüyümüz bu göy cisimlərinin bir qismi ulduzlar, bir qismi də planetlər olub, böyük bir sistem içərisində, böyük bir tarazlıq içrə hərəkət etməkdədir. Qalaktika adlanan bu sistem kainatda Yer alan milyardlarla qalaktikadan sadəcə biridir. Kainatda təxmin edilən galaktika sayının yüz milyard olduğu təxmin edilir və bu təxmin edilən sayın sadəcə bizim kainatımıza aid olan say ifadəsi olduğu qeyd edilməkdədir. Bizim kainatımız deyirəm, bizim kainatımız kimi bir çox kainatlar var. Və bizim kainata paralel kainatlar da

mövcuddur. Bizim kainata aid olan və içərisində yer aldığımız Samanyolu dediyimiz qalaktikası isə 100 milyarda yaxın ulduzdan və bu ulduzlara aid planetlərdən ibarətdir. Samanyolu qalaktikasına yuxarıdan baxsaq disk şəklində olduğu və meredianlara ayrıldığı görünər. Qalaktikanın diametri 100000 işıq ilinə yaxın olub spiralvari bir quruluşa malikdir. Kainatın mərkəzində çox böyük bir enerji yumağının olduğu təxmin edilir. Qalaktikanın bir özəlliyi də canlıların yaşadığı dünyanın da ona aid olmasıdır.

Bu ana kimi aparılan araşdırmalar dünya ətrafındakı planetlərdə həyatın olmadığı və həyat üçün lazım olan şəraitin olmadığını qeyd edir.

Dünyanın da içərisində yer aldığı sistem isə "Günəş sistemi" adlanır. Günəş sistemi isə özünə bağlı 8 planet ilə bərabər Samanyolu qalaktikasında yer almaqdadır. Günəş Samanyolu Qalaktikasının mərkəzindən 30000 işıq ili məsafəsindədir. Qalaktikanın diametrinin 100000 işıq ili olduğu göz önünə gətirilirsə, radiusunun 50000 işıq ili olduğu ortaya çıxar. Bu da bizə Günəş ulduzunun Samanyolu qalaktikasının xarici hissəsinə daha yaxın olmasını göstərməkdədir. Planetlər ulduzların ətrafında necə dönürsə, ulduzlar da qalaktikanın mərkəzinin ətrafında dönməkdədir.

Günəş ulduzu da Samanyolu Qalaktikasının ətrafında dönməkdədir. Bir dövrünü 225000000 ildə tamamlayan Günəşin 19 dəfəyə yaxın Qalaktika ətra-

fında döndüyü təxmin edilməkdədir. Günəşə qonşu ulduzlar içində ən yaxın olanı "Promixa Centauri" 4,25 işıq ili uzaqlıqda yer almaqdadır. Onun xaricində isə digər qonşu ulduzlar yer almaqdadır. Bu ulduzlar isə Sirius ( 8,6 işıq ili ) , Epsilon Eridani ( 11 işıq ili ) , Tau Ceti ( 11işıq ili ) . Günəş sisteminin yaranması haqqında bir çox düşüncələr olmasına baxmayaraq, dəqiq bir fikrə gəlinməmişdir. Bu düşüncələri bu şəkildə sıralaya bilərik: Kant-Laplasa fərziyyəsi, Med-Cezir nəzəriyyəsi, Anafor (Girdap) nəzəriyyəsi, Kuiper nəzəriyyəsi... Ancaq bu ulduzlar bu qədər bir açıqlama ilə ifadə edilə bilməyəcək dərəcədə genişdir. Əsas olan isə ulduzlarda olan böyük bir müvazinətin var olduğu gerçəkliyi görməkdir.

Bir işıq ili-işığın bir ildə qət etdiyi məsafədir.

Dünya saatda 1670 km sürətlə öz oxu ətrafında fırlanır. Eyni zamanda saatda 108000 km sürətlə günəşin ətrafında fırlanmaqdadır. Dünya qərbdən şərq istiqamətə olmaqla öz oxu ətrafında 24 saat müddətində bir dövrü başa vurur.

Çocuk bayaqdan bir şagird müəllimini dinləyən kimi onu diqqətlə və heyranlıqla dinləyən Tunçay bəyə baxdı. Gülümsəyərək sözünə davam etdi:

-Dayıcan, məndən incimə, madam Göy Türklərini anladacağıq, bunlardan başlamalıyıq ki, sən də doğru anlayıb, anlada biləsən. Bir Göy Türkü bu və bu kimi bütün bilgiləri onsuz da bilir. Çalışmaq sözü mənə açar kimi gəlir. Çalışmaq önəmlidir, amma

əsas doğru yöndə çalışmaqdır, doğru yöndə oxumaqdır. O yolu, o istiqaməti bildirmək çox önəmlidir. Milyonlarla kitab və minlərcə uydurma və yanlış istiqamətdə kitablar və bilgilər var. Ehtiyac, doğru olan istiqamətə olan işarədir.

-Bu və bu kimi bilgiləri məlumatı olmayan birinə necə öyrədə biləcəksən?

-Çap(ölçü) nə, çəpər nə? Bunu bilmirik ki! Yol, yol, yol! Çap, tam ortadan batırılmış bir şiş kimi məsafə, çəpər isə yan divardır. Belə deyək, insan olaraq o çapın mərkəzi sənsən, çapın möhtəviyyatı isə bilgindir. Məsələn : -"Aaa, sən bu qədər dili, bu qədər bilgini nə zaman öyrəndin?" sualı.

-Mənim üçün ən güvəndiyim bilgi Göy Türklərindən gələnlərdir.

-Bax, həm də davamlı olaraq gəlir. İndi məkan və zaman sualını az da olsa anladıqmı?

-Sizi bu üzdən mən və ətrafımdakılar hərarətlə və maraqla təqib edirik.

-Bir də özümüzlə əlaqəli bilgilər var. Bu ana qədər söylədiklərim sadəcə içində olduğumuz qalaktikadan olan məlumatlar idi. Bir də öz vücudumuz içində mövcud olan qalaktika var. Hazırsanmı?

-Bəli, bütün mənliyimlə dinləməyə, anlamağa hazıram.

-O halda bir də bunları da eşitməlisən,- deyərək Çocuk yenidən sözə başladı:

-Beyin kütləsi bədən kütləsinin 2%-ini təşkil edir.

Beynin eninin orta ölçüsü təxminən 140 mm.

Beynin uzunluğunun orta ölçüsü təxminən 167 mm.

Beynin hündürlüyünün orta ölçüsü 93 mm.

İntrakraniyal tərkib 1700 ml.

Beyindəki neyronların sayı orta hesabla 100 milyard.

Beynin boz maddəsinin ağ maddəyə həcm nisbəti 20 yaşında 1:3 nisbətində.

Beynin boz maddəsinin ağ maddəyə həcm nisbəti 50 yaşında 1:1 nisbətində.

Beynin boz maddəsinin ağ maddəyə həcm nisbəti 100 yaşında 1:5 nisbətində.

Beynin istifadə etdiyi oksigenin 6% -i ağ maddənin payına düşür.

Beynin istifadə etdiyi oksigenin 94 %-i boz maddənin payına düşür.

Beynin qliya hüceyrəsinin sayı neyron sayının 10-50 qatı qədərdir.

Neokortikal neyron sayı qadınlarda 19,3 milyard.

Neokortikal neyron sayı kişilərdə 22,8 milyard.

Neokortikal neyronların itirilən sayı ildə 31 milyon.

Neokortikal neyronların itirilən sayı gündə 85 min.

Neokortikal neyronların itirilmə tezliyi saniyədə 1-dir.

Orta hesabla neokortikal qliya hüceyrəsinin sayı 39 milyard(gənc yetkin).

Orta hesabla neokortikal qliya hüceyrəsinin sayı 36 milyard(yaşlı yetkin).

Beyindəki mielin sinir liflərinin uzunluğu :150 000-180 000 km.

Korteksdəki sinaps sayı : 0,15katrilyon(150 milyon dəfə milyon).

Beyin yarımkürələrindəki neyron sayı fərqi: Sol yarımkürədə sağ yarımkürəyə nisbətən 186 milyon çoxdur.

Rəqəmlərə diqqət!

Kiçik bir çapın içindəki rəqəmsal böyüklük...

Düşüncə sürətini anlamaq və anlatmaq adına bu sadalananlara diqqət etmək kifayətdir.

Deyilənlərə diqqət kəsilən Tunçay bəy nəhayət, dilləndi:

-Bütün bu söylədiklərinə "İçimizdə kosmos var" demək doğru ifadə olar.

-Xeyr. İçimizdə kainatlar var! Kosmos nədir?! Kosmos qaranlıq maddədir. Onun da bir sərhədi var. Diqqət et, mən kainatlardan bəhs edirəm. Biz hələ Marsa gedə bilməmişik. Biz deyərkən nədən bəhs etdiyimi yəqin ki, bilirsən.

-Bəli. Dünya insanlarından.

-Göy Türkləri isə bilir ki, qaranlıq deyilən bir şey yoxdur. İndi sənə bir sual verim. Sənin əlində bir fənər var. Qaranlıqda önünü bu fənərlə görə bilərsən. Elə deyilmi?

-Bəli. Səni dinləyirəm.

-Biz qaranlıq nədir bilirik və qaranlıqda görürük. Yəni bir fərdin sadəcə verdiyi suallardan onun bilik səviyyəsinin, düşüncəsinin hansı səviyyədə, harada olduğunu bilirik. Bunu anlada bildimmi?

-Biz?...

Tuncay bəy bunu deyərək cümləsinin ardını gətirmədən susdu.

-Yuxarıda söylədiyimiz bilgilər işığında davam edəkmi? Yəni hansı yerdə olduğumuzu anladıq. İçimizdəki kainatı da anladıq.

-Bəli, davam edək.

Yaşlı adam bu kəlmələri böyük bir sevinclə söylədi.

-O halda indi sualını ver. Nəyi bilmək istəyirsən soruş, çəkinmə. Axmaq görünən bir sual olsa belə, soruşa bilərsən.

-Belə sual vermə imkanı çox gözəl olsa da, bilməyən insanın nəyi soruşa bilməsi çox çətindir.

Çocuk bu ixtiyar adama baxıb gülümsədi:

-Bu yaxşı xəbərdir. Yaxşı bir başlanğıcdır. Bilmədiyinin fərqində olmaq. İndi özünü sorğuladın! İndi isə nə istərsən soruş. Cavab verəcəyik.

Tunçay bəy gözlərində razılıq dolu bir ifadəylə Çocuğa baxdı.

-Nə yaxşı ki, səni tanımışam. Hələ bu söylədiklərini bir paylaşım. Əlbəttə, suallarım olacaq. İndi isə bir az dincəl. Mən də komputerin qarşısına keçim. Sənin verdiyin bu bilgiləri məmnuniyyətlə oxuyub öyrənmək istəyənləri nigaran qoymayım...

-Yox, mən gedim, dayıcan. Sən də rahatca yaz. Yaz, dayıcan, yaz, anlat!

-Bu gün səni heç yerə buraxan deyiləm. Məni bu dəfə çox intizarda qoydun. Sən yorğunsansa həmişəki kimi keç yan otaqda dincəl,-deyərək gülümsədi.

Çocuk da çox sevdiyi bu adamın sözünü yerə salmadı. Tunçay bəyin təklif etdiyi kimi dincəlmək üçün yan otağa keçib çarpayıda uzandı.

Tunçay bəy də Çocukdan eşitdiklərini yazmaq üçün kompüterin qarşısına keçdi. Onun söylədikləri fikirlərin, verdiyi bilgilərin bəzilərini anlamaqda çətinlik çəkirdi. Amma yorğun olan Çocuğu da yuxudan oyatmağa qıya bilmirdi. Gecə beşə qədər bu fikirlər içində çabaladı. Onu rahat buraxmayan dövlət, millət mövzusunda olan suallar idi.

Bir də başını qaldıranda Çocuğun yan otaqdan onun işlədiyi otağa keçərək yuxulu gözləriylə ona baxdığını gördü.

-Dayı, kağız-qələm götür yaz. Bir xəbər var.

Tunçay bəy də kağız-qələm götürərək :

-Söylə, Çocuğum,- dedi.

Çocuk bir neçə cümlə ilə demək istədiyini söylədi.

Tunçay bəy heyrətlə Çocuğa baxdı.

-Bu necə olur? Bu söylədiklərin mənim düşündüyüm mövzudur.

-Səni düşündürən bu sualların cavablarını bir də Göy Türkləri birbaşa söyləyəcəklər. Məni də sənin sualına cavab vermək üçün oyatdılar. Gəl, evin damına çıxaq.

Birlikdə evin yastı damına çıxdılar. Göy üzündə yanan qəribə işıqlar Göy Türklərinin gəldiyindən xəbər verirdi.

Tunçay bəy əlini yelləyərək onlara salam verdi. İşıqların yanib-sönməsindən Tunçay bəy onun salamını Göy Türklərinin aldığını anladı. O, cavab tapmaq istədiyi sualları hazırda özünün danışdığı türkcəylə Çocuk vasitəsilə Göy Türklərinə verirdi. Çocuk isə bu sualları düşüncə yoluyla Göy Türklərinə çatdırırdı. Göy Türkləri də cavabları düşüncə yolu ilə onlara göndərdi. Tunçay bəy başa düşmədiklərini Çocukdan soruşur, o da bunları geniş şəkildə ona izah edirdi. Söhbət bitəndən sonra göy üzündə asılı halda dayanmış, insan silueri kimi görünən Göy Türkləri yenidən işığa çevrilərək oradan uzaqlaşdılar. Çocukla Tunçay bəy də damdan endilər.

Çocuk yenidən yatağına girib yuxuya getdi. Tunçay bəy isə yenə də kompüterin qarşısında əylə-

şib Göy Türklərindən əldə etdiyi məlumatları yazmağa başladı.

Artıq səhər açılmışdı. Çocuk yuxudan oyanıb Tunçay bəyin olduğu otağa keçəndə onun hələ də kompüterdə yazı yazan gördü.

-Dayıcan, sən hələ yatmamısan?

-Mövzu məni elə tutdu ki, yazıb bitirmək istədim.

-Mən gedim dayıcan, sən də yaz bitir yazını.

-Bəlkə, birlikdə qəhvəaltı edərdik?

-Yox, səni işindən ayırmayım. Mənim də işlərim çoxdur.

-Heç doyunca söhbət edə bilmədik.

- Daha bu qədər gecikmərəm,- deyərək Çocuk gülümsədi.

-Məni çox intizarda qoyma. Bunu deyərək Tunçay bəy yerindən qalxdı və Çocukla bərabər onu yola salmaq üçün qapıya yaxınlaşdı. Sürətlə pilləkənləri enən Çocuğun addım səsləri itənə kimi açıq qapıya söykənib dinlədi. Sonra qapını örtərək yenidən gəlib kompüterin qarşısında əyləşdi.

## F Ə S İ L - 23

Çocuk konfranslara da dəvət alırdı. Hər bir dəvəti qəbul etməsə də, özünün əhəmiyyətli bildiyi mövzular olanda konfranslara qatılırdı. Bu günlərdə işlərinin çox olmasına baxmayaraq Avropanın məş-

hur şəhərlərindən birində keçirilən daha bir konfransa aldığı dəvəti qəbul etmişdi. Günün qlobal mövzularının yer aldığı bu konfransa müxtəlif sahələrdə çalışan insanlar qatılmışdı. Çocuğun da qatılacağı bu konfrans dünyada cərəyan edən hadisələrin ölkələrarası və ölkədaxili təsirinə aid mövzuları əhatə edirdi.

Konfransın keçirilməsi üçün şəhərin mərkəzində yerləşən məşhur bir otelin konfrans zalı seçilmişdi. Saat 11:00-a təyin edilmiş konfransa dəvət alanlar artıq binaya daxil olmağa başlamışdılar. Dəvətliləri qəbul etmək üçün təyin edilmiş xüsusi şəxslər qarşılayır və konfransın keçiriləcəyi zala qədər müşayət edirdilər. Çocuk da avtomobilini park etmək üçün ayrılan yerdə saxlayaraq binaya yaxınlaşdı. Avtomatik açılan qapıdan içəri daxil oldu. Onu da qarşılayaraq salamladılar və konfrans keçiriləcək zala kimi müşayət etdilər. Çocuk üçün burada gördüyü adamların çoxu təzə olsa da, tanış simalar da gözə dəyirdi. Tədbirin başlamasına hələ qalırdı. Odur ki, fürsətdən istifadə edərək hər kəs ya tanıdığı, ya da yaxınlıqda olan dəvətliylə söhbət etməklə konfransın başlamasına qədər olan vaxtı boş keçirmək istəmirdi. Çocuğun diqqətini postsovet dövlətlərinin birindən olan, çoxdan tanıdığı jurnalist və onunla söhbət edən uca boylu, çal saçlı adam cəlb etdi. Jurnalist də deyəsən onu görmüşdü. Söhbət etdiyi şəxsə Çocuğu göstərərək nə isə söylədi və başıyla Çocuğu salamladı. Uca boylu,

orta yaşlı, çal saçlı adam da dönüb ona baxdı və o da başını azacıq önə əyərək salam verdi. Çocuk da eyni qaydada onlarla salamlaşdı. Hər iki adam yavaş-yavaş ona yaxınlaşdı. Çocuk söhbət əsnasında tanıdığı, əslən Rusiyadan olan, amma siyasi baxışına görə Avropaya mühacirət etmiş jurnalistin yanındakı bu adamın da Avropada yaşadığını öyrəndi. İxtisasca hüquqşünas olan bu adam da vaxtilə Sovet İttifaqında yaşamışdı. O da sovetlər dağılandan sonra Avropaya mühacirət etmişdi. Çocuğun türk olduğunu bildikdə o da Azərbaycan türkü olduğunu bildirdi və özünü təqdim etdi:

-Adım Cəlaldır. Bakıda doğulmuşam. Amma iyirmi beş ildən artıqdır Avropada yaşayıram.

Söhbət zamanı Cəlalın Azərbaycan türkcəsində çox da yaxşı danışa bilməməsi, rus kəlmələrini tez-tez işlətməsi Çocuğun nəzərindən qaçmadı. Deməli, uzun müddət keçməsinə baxmayaraq rus təsirinin izləri hələ getməmişdi. Yəqin ki, Avropada da daha çox rusdilli insanlarla münasibət qurmuşdu.

-Kahraman Korkmaz.

Çocuk da rəsmi adıyla özünü təqdim etdi.

Konfransda bir çox aktual mövzular müzakirə olunacaqdı. Qloballaşmış dünyada müxtəlif dövlətlərin dünya iqtisadiyyatına təsir dairəsi, dünya yaşamına təsiri, hətta telepatik təsir etmə də müzakirə mövzusu idi.

Artıq konfrans başlamışdı. Çox şeydən xəbərdar olan, amma lazım olan yerdə, yalnız lazım olan qədər məlumat verən və ya təsir edən Çocuk da çıxış edənləri diqqətlə dinləyirdi. Konfransa qatılanlar arasında onun çıxışlarını, maraqlı fikir və proqnozlarını daha əvvəllər dinləyənlər də vardı. Onlar Çocuğun çıxışını böyük maraqla gözləyirdilər. Çünki onun hadisələrə yanaşması həmişə fərqli olurdu, verdiyi proqnozlar da özünü doğruldurdu.

Nəhayət, Çocuk da çıxış üçün xitabət kürsüsünə dəvət edildi. Atletik bədən quruluşuna malik Kahraman Korkmaz cəld addımlarla kürsüyə qalxdı. Çıxışa başlayar- başlamaz çoxlarının diqqətini özünə cəlb edə bildi. Aydın, səlis danışığı özünə güvəndiyini sərgiləyirdi. Dünyanın bu gedişlə çox getməyəcəyini, yanlışların çox olduğunu, dünyanın düzəninin yaxın zamanlarda dəyişəcəyini, kimsənin ağlına gəlməyəcək dəyişikliklərə məruz qalacağını, bəlkə də dünya insanının heç vaxt yaşamadığı bir yaşamla qarşılaşacağını söyləyirdi. Həm siyasi, həm iqtisadi dəyişiklərin gözlənilən olduğunu konfrans iştirakçılarının nəzərinə çatdırdı. Bəziləri bu söylənilənlərin mahiyyətinin dərinliyinə vara bilməsə də onu taniyanlar çox diqqət kəsilmişdi.

Konfransdan sonra da ona yaxınlaşıb söylədikləri fikirlərə dair sual ünvanlayanlar da oldu. Daha bilmirdilər ki, bütün bu deyilənlərin çox keçməyəcək özləri canlı şahidi olacaqlar və yaşayacaqlar.

Konfransda iştirak edənlər üçün, konfransın rəsmi hissəsindən sonra banket təşkil olunmuşdu. Qonaqlar masa arxasında tanıdıqları, yaxud burada tanış olduqları adamlara yaxın əyləşirdilər. Çocuk da Rusiyadan mühacirət etmiş jurnalist və əslən Bakıdan olan mühacirlə yanaşı əyləşdi.

Sükutu Çocuk pozdu. Cəlalın Avropaya gəlmə səbəbi, Azərbaycanla əlaqələrinin necə olduğu barədə maraqlandı. Söhbət əsnasında Cəlalın öz soy-kökündən uzaq düşdüyünü sezdi. Bir qədər təkəbbürlü olması, sovet mədəniyyətindən ağız dolusu danışması türk dünyasından uzaq olduğundan xəbər verirdi. Çocuk məyus olmuşdu. Axı onun tanıdığı neçə Azərbaycan türkü vardı ki, vətəninin həqiqətlərini dünyaya çatdırmaq üçün gecə-gündüz çalışır, əlindən gələn heç bir şeyi əsirgəmirdi. Həmsöhbətində isə sovet sistemində yaşamın təsiri açıq-aydın sezilirdi. Bu sistemin aşıladığı psixologiyadan qurtula bilməmişdi. Deməli, hələ görüləsi çox işlər vardı.

Onsuz da çox az yeyən Çocuk etika xatirinə nahar mərasiminin sonuna kimi masa arxasından qalxmadı. Amma söhbəti də davam etdirmədi. Daha doğrusu, davam etdirməkdə bir məna görmədi.

Artıq mərasim başa çatmışdı. Qonaqlar iki-bir, üç-bir masa arxasından qalxmağa başlamışdı. Çocuk da qalxaraq masadan ayrıldı. Yanında əyləşmiş Cəlalın başı sol tərəfində əyləşən jurnalistlə söhbətə qarış-

mışdı. Buna baxmayaraq, onlarla xüdahafisləşmədən banket zalını tərk etmədi.

Masadan uzaqlaşaraq konfrans təşkilatçılarına dəvət üçün bir daha təşəkkür edərək, qapıya doğru getdi. Sürətli addımlarla pilləkənləri endi. Həyətə çıxaraq avtomobilinə yaxınlaşıb sükan arxasında əyləşdi. Avtomobilini işə salıb sürətlə oradan uzaqlaşdı.

Yol boyu yenə düşüncəsinə türk millətinin taleyi, türk dövlətlərinin birliyi məsələsi hakim kəsilmişdi. Neçə saat idi ki, yoldaydı. Evə çatmağına az qalırdı. Yol boyu düşüncələrdən ayrılmadı. Türklərin bir olması, Turanın qurulması mütləq zərurətdir. Bunun üçün həm dil birliyi, həm düşüncə birliyi lazımdır. İnteqrasiya etmək, Türk dövlətlərinin bir-birinə daha çox yaxınlaşması üçün ortaq əlifbanın da yaradılması mütləqdir. Çünki bu gün görüşdüyü Cəlal kimi türk kimliyindən qopmuş, yaxud qoparılmışlar çoxdur.

Artıq evə çatmışdı. Avtomobildən enib həyətə girər-girməz Fıstığın səsi eşidildi. Yenə də onu tək qoyub getmişdi. Belə hallarda adətən həyətdə qoyub gedərdi vəfalı itini. Fıstık isə sahibini görmək üçün səbirsizlənmişdi. Qaçaraq Çocuğun yanına gəldi və onunla bərabər evə qalxdı.

Fıstık sahibini görüb rahatlıq tapmışdı. Odur ki, sahibinə mane olmadan sakit nəzərlərlə ona baxırdı.

Televizoru işə salaraq qarşısında əyləşən Çocuk isə bu gün gündəmdə nələrin olduğunu, nələrin danışıldığını bilmək üçün yayımlanan xəbər verilişləri-

ni gözdən keçirirdi. Eyni zamanda görəcəyi işləri, baş çəkəcəyi yerləri də fikrində götür-qoy edirdi. Bugünkü konfransda rastlaşdığı Cəlalı xatırlayaraq, dünya türklərinin bir yerə gəlməsi, soy-kökündən uzaqlaşanların özünə dönməsi üçün xeyli zaman lazım olacağını düşündü. Dünən görüşmələrinə baxmayaraq, yenidən Tunçay bəyə baş çəkməyi qərara aldı. Təəssüratlarını onunla da bölüşmək istəyirdi.

Axşamdan xeyli keşməsinə baxmayaraq Tunçay bəyin çox gec yatdığını bildiyi üçün gödəkçəsini geyərək qapıdan çıxdı. İti addımlarla pilləkənləri enərək Tunçay bəyin yaşadığı səmtə yol aldı. Hava bir az küləkli idi. Odur ki, gödəkcəsinin yaxasını bağlayıb, yaxalığını qaldırdı. Əllərini gödəkcənin ciblərinə qoyaraq iti addımlarla yoluna davam etdi.

Artıq mənzil başına çatmışdı. Yüngül addımlarla pilləkənləri qalxıb qapını döydü. Qapının döyülməsindən gələnin kim olduğunu təxmin edən Tunçay bəy içəridən "gəl,"- deyə səsləndi.

Çocuk qapını açıb içəri daxil olaraq elə qapıdaca salam verdi:

-Salam, dayıcan.

Gödəkcəsini çıxarıb asılqana asaraq, ayaqqabılarını cəld hərəkətlə çıxarıb içəri keçdi. Otaqda Tunçay bəylə bərabər Perihanı da görcək, nə xoş təsadüf,- deyərək onunla da salamlaşdı. Birlikdə olmaları hər biri üçün xoş idi.

Bu gün Tunçay bəy də dəvət aldığı bir türk mədəniyyət ocağının keçirdiyi tədbirə Perihanla birlikdə qatılmışlər. Çox ölkələrdən nümayəndələr vardı. Həm rəsm sərgisi, həm kitab təqdimatları, həm musiqiçilərin ifası tədbirə rəng qatmış, böyük maraq doğurmuşdu. Tunçay bəy də iştirakçılara bir saz sənətçisi kimi bir neçə saz musiqisi təqdim etmişdi. Onun çıxışları çox bəyənilmiş, alqışlarla qarşılanmışdı.

Perihan da tədbirdən xoş təəssüratlarla dönmüşdü.

Hər üçü qatıldığı tədbirdən öz təəssüratlarını bölüşürdü. Tunçay bəy və Perihan qatıldıqları tədbirdən xoş təəssüratla danışsalar da, bunu Çocuk haqqında demək olmazdı.

Çocuk bu gün qatıldığı konfransdan, orada tanış olduğu Cəlaldan söz açaraq, türk dünyasında görüləsi işlərin hələ çox olduğunu bir daha vurğuladı. Ayrı düşmənin türk dünyasına vurduğu zərbəni bir daha xatırlatdı. O, türk dövlətləri arasında əlaqələr genişləndikcə öz milli kimliyini dərk edənlərin sayı artsa da, öz soy-kökündən ayrı düşənlərin də hələ çox olduğunu söylədi.

Gülcəni də yaddan çıxarmadılar. Bütün varlığıyla soy-kökünə bağlı olduğunu xatırladılar. Nə qədər uzaqda yaşasa da, ruhən onlara çox yaxın olmanın xoş duyğusu hər üçünün simasından oxunurdu.

Ceyhan da unudulmadı. Vətənini, millətini sevən biri kimi bu gecə dostları tərəfindən o da xatır-

landı. Gecədən xeyli keçsə də söhbətləri bitmək bilmirdi. Söhbət əsnasında Çocuk qarşıda dünyanı çətin günlərin gözlədiyinin anonsunu verdi. "Bunlara hazır olmalıyıq"- deyərək əlavə etdi. Şeytana biət edənlərin, sürüngənlərin yenə də fəallaşdığını, yeni planlarının olduğunu söylədi. Göy Türklərinin də sadəcə seyirçi qalmayacağını bildirdi:

-Dünya dəyişikliyin astanasındadır. Dünyanı əsir almaq istəyənlərin hələ də məkrli planlarından əl çəkmək fikirləri yoxdur. Deyəsən, olanlardan dərs almaq istəmirlər. Onlara yenidən dərs vermək lazım gələcək. Dünya sakinləri də bunların şahidi olacaq. Sadəcə səbr etmək, ağılla hərəkət etmək, dirənmək lazımdır. Türkiyəyə, türklüyə qarşı da məkrli planlar da bitmək bilməyir. Mübarizə durmadan davam edir,-dayıcan. Sən də bu olanları və olacaqları yaz anlat. Türkün dirənişi həmişə qalibiyyətlə sonlanıb. Onlar türkləri yalqız, gücsüz bilməsin. Çox ayaqlanırlar. Ağ dənizdə olanları görürsünüz. Amma nə Yunanıstan, nə Rusiya, nə Fransa, nə Almaniya, nə Amerika razılığa gələ bilməyəcək. Türkiyə bu bölgədəki zənginliyin öz dəniz sərhədləri daxilində sahibidir. Biz də dövlətimizin yanındayıq.

Söhbət bitmək bilmirdi. Amma daha gec olduğunu xatırladaraq Çocuk söhbəti tamamladı:

-Dayıcan, daha gecdir, biz gedək. Sən də yaz, dayıcan, yaz bunları, yaz anlat!

Onları yola salıb otağa qayıdan Tunçay bəy masanın üzərini səliqəyə salaraq, keçib kompüterin qarşısında əyləşdi. Və yenə lazım olan məlumatları bölüşmək üçün yazmağa başladı...

## F Ə S İ L - 24

Rahib gözləri önündə baş verənlərin təsirindən sanki yerində donmuşdu. Artıq Göy Türk bəyi otaqda yox idi. İşınlanaraq bir anda gözləri önündə yox olmuşdu. Sürüngənlərlə iş birliyindən çox şeylər öyrənmişdi. Amma belə bir hadisə ilə ilk dəfə idi qarşılaşırdı. Göy Türklərin varlığını öz gözləriylə görməsi, onların nələrə qadir olmasına şahid olması rahibə şok ardınca şok yaşadırdı. Bu gün onun önündə, şeytana biət edənlərin açdığı savaşa qarşı dirənən rəhmani dayanmışdı. Artıq bu həqiqəti qəbul etmək məcburiyyətindəydi. Deməli, onların etdiyi bəd əməllər, insanlığa qarşı etdiyi cinayətlər sonsuza qədər sürə bilməz. Hər şeyin bir sonu var. Onların da sonu yaxınlaşır. Rahib özünü necə qurtarmaq, necə xilas olmaq yolları barədə düşündü.

Milton ömrü boyu şərə xidmət etmişdi. İnsanlara şeytani fikirlər aşılamaqdan tutmuş, uşaq qətillərinə, insanı klonlaşdırmağa kimi etmədiyi əməl qalmamışdı. İnsan adıyla yaşasa da, əslində onurğasızlardan idi. İnsana, insanlığa qənim kəsilmişdi. İndi isə

ondan və xidmət etdiyi şeytani sistemdən xəbərdar olan bir Göy Türk bəyi onu mühakimə edirdi. Milton işin ciddi olduğunu, düşdüyü vəziyyətin çıxılmaz olduğunu anlayırdı. Bundan sonrakı planlar alt-üst ola bilərdi. Onu mühakimə edən adamın yenidən qayıdacığını düşündükcə böyük cüssəsi elə bil cılızlaşdı. Büzüşərək otağın bir küncünə çəkildi.

Gecə də Miltonun gözünə yuxu getmədi. Oturaq vəziyyətdə bundan sonra nələr olacağını düşünərək hərəkətsiz halda qaldı. Səhərin açılmasını, növbəti günlərin gəlməsini istəmirdi. Qarşısında yenidən rəhmani bir Göy Türkünün dayanaraq onu mühakimə etməsi qorxusu indidən onun varlığına qənim kəsilmişdi.

-Söhbətə qaldığımız yerdən davam edək, Milton!-deyən  Çocuğun səsi otağa yayıldı.

Milton səsi eşitcək başını qaldırdı. Gözləri önündə yenidən qartal baxışlı Göy Türk bəyini gördü. Nitqi tutulmuş kimi lal sükutla gözlərini döyərək Çocuğa  baxdı. Sükutu yenə Miltonun qarşısında dayanan Çocuk pozdu:

-Mühakimənə davam etməzdən öncə baxım görüm bizə necə xidmət edəcəksən? Bu vaxta kimi bizi deyəsən ciddi qəbul etmədiniz. Bu gündən sonra həm bizi yaxşı tanıyarsız, həm gücümüzün nələrə qadir olduğunu bilərsiz.

Milton dili topuq vura-vura cavab verdi:

-Bizə keçilən təlimə görə bizi aşağılayan, alçaldan vəziyyətlər də bizə zövq verməlidir. Ürəyində əlavə etdi: "Bu bizim məqsədlərimizə çatmaq üçün bir metoddur". Mən sizin evinizdə olsam da, indi sizə mən qulluq edəcəm.

Bunu deyərək, saatlardır tərpənməz halda qaldığı yerdən qalxıb türk qəhvəsi dəmləmək üçün getdi. Az sonra əlindəki bir sinidə iki qəhvə fincanı geri döndü. O gələnə kimi artıq masa arxasında əyləşmiş Göy Türk bəyinin qarşısında dayandı. Onun bu hərəkətini ona nəzarət edənlər də maraqla izləyirdi.

-Milton, sən illərlə içində olduğun şeytani sistemin cəhənnəminin dibini tapmağa çalışdın.

Bu sözləri eşidən Miltonun əlləri əsdi. Sinidəki fincanlar bir-birinə dəyərək cingildədi.

-Sən hələ qəhvələr dağılmadan əlindəki sinini masaya qoy.

Milton sinini masaya qoyaraq əli əlinin üstündə, başı azca önə əyilmiş halda, əmrə hazır bir vəziyyətdə azacıq geri çəkilərək masanın kənarında dayandı. Türklərə qənim kəsilsə də, türk qəhvəsini Milton da ləzzət alaraq içərdi.

-Yəqin ki, sizin toplantıya necə getdiyimizi bilmək sənin üçün də maraqlı olar. Mən böyüyünüzün gözünə sənin kimi görünərək toplantının harada, nə vaxt keçirilməsi haqda bütün məlumatları öyrəndim. Sizin illərlə vaxt sərf edərək öyrəndiyiniz klonlaşma, bizim üçün an məsələsidir. Sizin istifadə etdiyiniz

texnalogiyalar bizim üçün artıq çox köhnə sayılır. Texnologiyalarınız bizim istifadə etdiyimiz texnologiyadan yeddi min il geridədir. İstədiyinizi edə biləcəyinizi düşünürsünüzsə çox yanıldığınızı artıq anladın. Bir də ki, indi dünyanın yeni çağındayıq. Müharibələr təkcə hərbi texnika ilə cəbhələrdə aparılmır. Bunu siz də yaxşı bilirsiniz. Müharibələr həm yerdə, həm kosmosda, bir sözlə bütün kainatda gedir. Mən hələ enerji müharibələrini demirəm.

Sizin məqsədinizin Türkiyəni, türk dünyasını parçalamaq olduğunu çox yaxşı bilirik. Məqsədiniz türk adını unutdurmaq və çirkin məqsədləriniz üçün istifadə etməkdir.

Sizlər yeddi min il əvvəl də Şumer sivilizasiyasını çirkin əməllərinizlə məhv edərək Göy Türklərini Mesopatomiyadan çıxarmağa çalışmışdınız. O zaman biz sizin böyük bir qisminizi məhv etdik, bir qisminiz isə sürgün edildiniz.

Amma siz yenə Göy Türklərinin daha heç bir şeyə qarışmayacağı zənninə qapıldınız. Ötükenə gedə bilməyəcəyinizi bildiyiniz üçün zaman-zaman yerdəki türklərə hücum etdiniz. Siz sürüngənlər türkün gücündən, ruhundan həmişə qorxduğunuz üçün  türklərə savaş elan etdiniz. Yaratdığınız mavi qanlı yeni hibrid növ vasitəsilə insanların arasına soxularaq yenidən bəd əməllərinizi davam etdirdiniz. İnsanları kaloniyalara ayıraraq müharibələrlə, qanla, nifrətlə bəslədiniz. İnsanların böyük bir hissəsi mən-

fəət üçün sürüngənlərə, şeytana biət edənlərə kölə oldular, əllərində oyuncağa çevrildilər. Nəzərinə çatdırım ki, artıq hamısının bəslənmə qaynağı kəsiləcək. Bu dəfə də getdikləri bu yanlış yoldan dönməsələr, hamısı məhv ediləcək. Qul olanlar da, qulluq etdikləri də. Hətta, bu yolda sizin istifadə etdiyiniz, öz mənfəəti üçün köləliyi seçən zəif xarakterli zavallılar da. Sonun başlanğıcı gəlmişdir, Milton. Bunu hamınızın bilməsi lazımdır.

Çocuğun söylədiklərinə diqqət kəsilən Milton müticəsinə başını silkələdi.

-Sizin bütün bəd əməllərinizdən, planlarınızdan xəbərdarıq. 15 iyulda sınaqdan keçirilən çevriliş planlarından, bu plan baş tutmayanda nuklear başlıqlı raketlərdən istifadə etmək cəhdlərindən də xəbərdarıq. Amma göründüyü kimi istifadə edə bilmədilər, bilməyəcəklər də. Çünki Göy Türkləri tərəfindən ölkəmizə qarşı nuklear silahların istifadəsi dondurulmuşdur. Dünyanı vahimədə saxlamaq istəyən güclər bunu etiraf etməyə cəsarət edə bilmədilər, bundan sonra da cəsarət edə bilməzlər. Planları baş tutmayanda bu planı Türkiyədən sonra harada həyata keçirmək istəyəcəklərindən də xəbərdarıq. Gələcəkdə yeni müharibə ocaqlarının yaradılacağından, işğalların, zülmün artacağından da xəbərdarıq. Amma nə etsələr də, nə qədər çalışsalar da sonları məhvə məhkumdur. Bu onların türk çağının başlamasına qədər son çırpıntılarıdır. Bəlkə də, bu

dünya insanı üçün uzun bir zamandır. Amma bizim zaman ölçümüzlə bu o qədər də uzun bir zaman almayacaq. Sizi son dəfə xəbərdar edirəm. Nə qədər gec deyil, klonlarınızı da alıb Türk torpaqlarını tərk edin! Ümumiyyətlə, bütün bu torpaqlardan, Orta Şərqdən çəkilin!

Milton özünü heç vaxt bu qədər çarəsiz, yazıq hiss etməmişdi. Xüsusi agent təlimi alarkən belə, belə bir adamla qarşılaşacağı ehtimalı barədə heç bir məlumat verilməmişdi. Özü şeytana xidmətdə olsa da, qarşısındakı Göy Türk bəyinə hörmət qarışıq bir heyranlıqla baxırdı. Qartal baxışlı bu insanın bu qədər dürüst olması, insanlığa qarşı, yaradandan yana yaradılana qarşı bu qədər mərhəmətli olması onu Miltonun gözündə də ucaltmışdı.

Onlar Çocuğun söylədiyi kimi 15 iyulda şeytani hərb üsulunun bütün imkanlarından istifadə etməklə türk yurdunu işğal edərək, türkləri bacardıqları qədər məhv etməyi, qalanlarını isə istədikləri kimi idarə etməyi planlaşdırmışdılar. Bu həmlədə uduzduqlarını anlayaraq geri çəkilmişdilər. Amma anlamadıqları bir şey vardı. Yenildikləri hansı güc idi? Onların bu planlarını hansı gücün pozması hələ də onlara bir müəmma, bir sirr olaraq qalmışdı. Milton bu gün həmin güclə qarşı-qarşıya dayandığını anladı.

-Mən şərtlərimizi söyləyəcəm. Əgər sizinkilər razılaşarsa, səni onlara təslim edəcəyik. Bizim kimləri istəyəcəyimizi yəqin ki, gözəl bilirsən. İllərlə ölkə-

mizdə əsl məqsədini gizlədərək fəaliyyət göstərən, sizin planlarınızın baş tutması üçün sizin yardımınızla Türkiyədə illərlə kök salıb möhkəmlənərək sizə yardımçı olan, çevriliş planı baş tutmadıqda isə sizə sığınanları bizə qaytarmalısınız. Hətta qaytarmaqdan boyun qaçırsanız belə onlar məhvə məhkumdur. Əli bu millətin qanına batan, bu günə kimi deşifrə olunmayanlar da gec-tez aşkarlanaraq bu millətin qarşısında cavab verəcəklər. Bu oyunun bədəli çox ağır olacaq. Bizimlə kimsə oyun oynamaq xəyalına düşməsin. Sonunda özü oyuna gələr, bunu bilsin!

Miltonun razılaşmaqdan başqa çarəsi qalmamışdı. Odur ki, şərtləri çatdırmaq üçün ona imkan yaradılıb-yaradılmayacağını soruşdu.

-Sənə imkan yaradılacaq.

-Yəqin məni qaytarmaq üçün qoyduğunuz şərtlərlə razılaşarlar,- deyərək Milton mızıldandı. Sanki özlərinin xislətindən xəbərsiz idi. Bəlkə də bu özünə təsəllidən doğan bir ümid idi.

-Onu gələcək göstərəcək, Milton. Görək sənin dəyərin onların yanında nə qədərdir.

Çocuk bu sözləri söyləyərək yerindən qalxdı. Və oranı yenə də işınlanaraq bir anda tərk etdi. Milton gördüyü mənzərənin təsirindən yenə yumağa dönüb, otağın bir küncünə qısılaraq oturdu. Burada olduğu neçə gündə onu arayıb-axtarmaq uzun illər sədaqətlə xidmət etdiklərinin bəlkə də heç yadına düşməmişdi. Görəsən, göndərdiyi xəbərdən sonra

yuxarı təşkilat necə qərar verəcəkdi? Bəs onun taleyi necə olacaqdı? Yəqin ki, bu verilən qərardan asılı olacaqdı.

## F Ə S İ L - 25

Qoyulan şərtləri eşidən onurğasızlar bir yerə toplanaraq çarə axtarmağa başladılar. Bəlkə də ilk dəfə idi ki, bütün onurğasızlar məğlubiyyətlərinin çarəsizliyini yaşayırdılar. Axı planlaşdırdıqları məqsəd üçün illərlə qoyduqları sərmayə batmışdı. Odur ki, Okeanın o tayında yenidən təcili toplantı çağırmışdılar. Qatılanlar əsasən ölkənin ən nüfuzlu döyüşçü rahibləri idi. Toplantı hələ başlanmamışdı. Hər kəsin üzündə qəzəb qarışıq həyəcan vardı. Son toplantıda edilən həmləni, orada baş verənləri onurğasızlar heç cür həzm edə bilmirdilər. Milton da daxil olmaqla ötən toplantı iştirakçılarından yalnız bayılmış halda tapdıqları rahibdən başqa heç kimdən xəbər yox idi. Elə bil yer udmuşdu onları. Çox çalışsalar da onların harada olduqlarını öyrənə bilməmişdilər. Bayılmış halda buraxılan döyüşçü rahib olub keçənləri söyləmişdı. Ardınca hələ də xəbər tuta bilmədikləri digər rahiblərdən biri olan Miltonun Göy Türk bəyinin şərtlərini xəbər verməsi vəziyyəti daha da gərinləşdirmişdi. Onlardan bəlkə yarım əsrlik bir müddətdə hazırlanaraq, əsasən türk torpaqlarında və Türkiyənin böyük nüfuzu olan müsəlman torpaq-

larında yerləşdirdikləri və milyardlarla dollar pullar xərclədikləri, təşkilatlanmış bir "ordu"nun öndə olan ismini və ilk onluqda yer alanları təslim etməyi tələb edirdilər.

Bu qədər hazırlığa baxmayaraq planlarının fiaskoya uğrayacağını heç təxmin belə etməyən bu güclər bu gün planlarını alt-üst edən hansısa bir gücün qarşısında məğlub vəziyyətə düşmüşdülər. Bu gün, belə bir gücün varlığı onları qorxuya salmışdı. Əvvəlki toplantıda başlarına gələnlər də onlara ciddi bir xəbərdarlıq idi.

Bu günkü toplantıya necə hərəkət etmək, düşdükləri bu vəziyyətdən necə çıxmağın yollarını tapmaq üçün qatılmışdılar. Veriləcək qərarın nə olacağı toplantıdan sonra bilinəcəkdi.

Günortaya yaxın toplantı başladı. Hər kəs keçib masa arxasında yerini aldı.

Toplantını aparmaq bura toplaşanlar arasında xüsusi mövqeyi olan birinə həvalə edilmişdi. Yüksək vəzifə tutan bu adam birbaşa mətləbə keçdi:

-Cənablar, buraya yığışmamızın səbəbi hamımıza məlumdur. Bizdən kimləri tələb edirlər, məlumatınız var. Bu gün birlikdə qərar verməliyik. Vəziyyətin ciddiliyini yəqin ki, anlayırsınız. Qərar vermək çətin olacaq.

Sonra üzünü onunla qarşı-qarşıya oturan tanınmış döyüşçü rahiblərdən birinə tutaraq davam etdi:

-Cənab, bəlkə müzakirəyə sizin fikrinizi dinləməklə başlayaq? Buyurun, fikirlərinizi söyləyin.

Yaşı o qədər də az olmayan, çal saçları arxaya daranmış, səliqəli geyinmiş, gözündə qara çərçivəli eynək olan adam sözə başladı:

-Vəziyyət biz gözlədiyimizdən də ciddi bir hal alıb. Bizim gücümüzü yenə bilən bir güclə qarşı-qarşıya dayanmışıq. Dünyanı idarə etmək, hakimiyyətimiz altına almaq üçün illərlə hazırladığımız planımızın bir hissəsi olan Orta Şərqə aid planımız bir daha məğlubiyyətə uğradı. Hər dəfə olduğu kimi bu dəfə də dəniz dalğasının qayalara çırpılaraq dağıldığı kimi, bizim planlarımız da Türkiyə sərhədlərinə çırpılaraq param-parça oldu. Bundan sonra bizə qarşı duran, nəzərə almadığımız bu güclə döyüşmək məcburiyyətindəyik. Amma necə? Mən belə bunu bilmirəm.Yaşananlar bizim güvəndiyimiz şeytani ordulardan da çox üstün bir gücün olduğundan xəbər verir. Hər kəs fikrini söyləsin. Sonra birlikdə son qərarı verək.

Toplantını aparan şəxs ona təşəkkür edərək digər iştirakçıların da hər birinə söz verdi. Hər kəs fikrini söylədi. Sonda isə yekun sözü bütün dinlənilən fikirlərdən çıxarılan ümumi fikir əsasında yenə toplantını idarə edən adam səsləndirdi:

-Bəli, hörmətli toplantı iştirakçıları. Bizim gəldiyimiz son qərar budur:

-Əgər israrla bu adamların təslim edilməsini tələb edərlərsə, biz təslim etmək məcburiyyətində qalacağıq. Bu işə bizim məğlubiyyərimizi təsdiq etmək deməkdir.

Birinci söz verilən qara eynəkli adam yenidən söz alaraq əlavə etdi:

-Bəlkə, bu qərarı verənə qədər şeytani ordunun daha bir həmləsindən də faydalanaq. Bəlkə görüb fikirlərindən geri çəkilərlər. Əks halda bizim illərdir apardığımız müharibələrin, mübarizələrin son məqsədlərindən biri olan "Aralıq dənizi"planımızın da məhvi deməkdir. Bilirik ki, bu dənizdə ən çox su hövzəsinə malık Türkiyədir. Dəniz donanmalarının necə bir gücə malık olması da hamınıza məlumdur. Bu dənizdə neft-qaz rezervlərinin hansı səviyyədə olması, gələcək perspektivi də hər birimizə yaxşı məlumdur. Odur ki, hər yola əl atmalıyiq. Yoxsa gələcəyimiz məlumdur.

Hamı bu təkliflə razılaşdı. İrəli sürülən təklif Çarəsizliyin son həmləsi kimi görünürdü. Çünki dirəndikləri dalandan çıxış yolu görünmürdü. Ağıllarına gələn son plandan da istifadə etmək qərarına gəldilər. Məğlubiyyətin  zərbə dalğası hər birini yerindən oynatmışdı. Müvazinətlərini itirmiş vəziyyətdə idilər. Yenidən tarazlıq əldə etmək üşün atılan daha bir addım, verilən bu qərar məğlubiyyətin yaratdığı psixoloji vəziyyərdən çıxmağa hesablanmışdı.

Nəhayət, saatlarla davam edən toplantı başa çatdı. Alınan qərarı həyata keçirmək və nəticəsini gözləmək qalırdı.

## F Ə S İ L - 26

Aldıqları qərardan sonra birbaşa şeytani orduyla iş birliyinə keçdilər. Türkiyədə və onlara qarşı olan dövlətlərdə qorxu yaratmaq üçün ən son imkana belə əl atmaq qərarına gəldilər. Həm də Göy Türklərini daha ciddi qəbul etmək lazım idi. Odur ki, şeytani ordunun komandanlığından kömək istədilər.

Əlbəttə, şeytanın əmri altında olan ordu kömək etməyə hazır idi. Çünki onlara bu dünyada yaşamaq üçün qan tökülməsi lazım idi. Ona görə də min illər idi ki, tökülən qanlardan doymaq bilmirdilər. İnsan qanıyla bəslənənlər, yerdə də şeytanlaşan, nəfsinə uyan insanlardan böyük bir ordu yaratmağa nail olmuşdular. Hədəfləri isə onları yaxşı tanıyan, onlara bələd olan, Ötüken məhv edildikdən sonra "yaradana xatir yaradılan yaşamalıdır" prinsipinə sadiq qalaraq kiçik "Duran" gəmisiylə onları da özləriylə yaşadığımız dünyaya gətirən Göy Türklərinin sələflərinin bu gün yaşadığı ölkələrdir. Onlara yaşamaq şansı verənlərə qənim kəsilənlər əsrlər boyu istər Asiya, istər Amerika, istərsə də Avropada tökülən türk qanından doymaq bilmirdilər. Bu gün isə Türk dünyasının baş qalası olan Türkiyəyə həmlələr bitmək bil-

mirdi. Osmanlı İmperiyasını məhv etsələr də, yerində yenidən  Atatürk tərəfindən qurulan müstəqil türk dövləti - Türkiyə Cümhuriyyəti hələ də əl çəkmədikləri planlarına bir əngəl olaraq qalırdı. Cümhuriyyət qurulan zaman inanılmaz bir əzmlə onları yenən türk milləti bu gün də yenilməz bir qüvvə kimi yollarında dəf edə bilmədikləri bir maneəyə çevrilmişdi. Türk millətinin gücünə güc qatan qüvvənin Göy Türkləri olduğunu artıq yerdə olan sürüngənlər də anlamaqdaydı. Odur ki, bütün güclərini səfərbər edərək bu gücə qarşı yönəltmək qərarına gəlmişdilər.

Son zamanlar dünya gücləri həm də şərqi Ağ dənizdə qiyməti trilyon dollarla ölçülən təbii qazın, neftin, bor yataqlarının ola biləcəyi fikrindən xəbərdar idilər. Buna görə Anadolu torpaqlarına, onu əhatə edən dəniz sularına sahiblənmək üçün neçə-neçə planlar qurur, əllərində olan bütün imkanlardan istifadə etməkdən çəkinmirdilər. Orta Şərqi qan gölünə çevirib, neftinə, təbii sərvətlərinə əl qoyduqdan, qədim mədəniyyətini məhv etdikdən sonra növbə Anadolunun idi. Daha doğrusu bu coğrafiyada mövcud olan Türkiyə Cumhuriyyəti də hədəfdə idi. Birbaşa hücuma cəsarət etməsələr də, neçə illər idi ki, planlarına gizli hazırlıq görürdülər. Artıq bir dəfə çevriliş cəhdi də etmişdilər. Amma yenə vətənini canından artıq sevən türk millətinin əzmi, dirənişi və bu dövləti həmişə himayə edən, qoruyan Göy Türklərinin

gücü ilə qarşılaşmışdılar. Planları bu dəfə də fiyaskoya uğramışdı.

Onları yanıldan İraq, Misir, Liviya kimi ərəb dövlətlərini planlaşdırdıqları kimi ələ keçirmələri olmuşdu. İllərlə işlənmiş, həyata keçirilən planları bu ölkələrdə işə yaramışdı.

Türkiyədə də planlarının baş tutacağına əmin idilər. Amma hazırlayıb həyata keçirdikləri çevriliş planı baş tutmayanda yanıldıqlarını başa düşdülər. Ədalətin bayraqdarı olan türk millətinin torpağına, vətəninə olan sevgisini heç cür yenə bilmədilər.

Türk millətinin yaradanına, dininə olan böyük sevgisindən yararlanaraq, illərlə din adı altında hazırladıqları və məqsədləri üçün istifadə etdikləri adam da onları məqsədlərinə çatdıra bilməmişdi. Onun niyyətini həyata keçirmək üçün arxasında gizləndiyi din pərdəsi enmiş, oynadığı oyunun mahiyyəti ortaya çıxmışdı. Artıq havadarlarına pənah aparmışdı. Bu gün Göy Türkləri də məhz onu və onun əlaltılarını tələb edirdi. Milton bu məlumatı göndərmiş və hələ də cavab gözləməkdəydi.

Şeytani ordunun komandanlığından artıq razılıq verilmişdi. Bu dəfə UFO ilə həmlə ediləcəkdi. Çünki yer sakini olan türklərin hələ ki, bunun qarşısını alacaq texniki hərbi gücü yox idi.

Bu həmlənin vaxtı çevriliş cəhdindən 3 il sonra, yenə eyni aya, iyula təyin edildi.

Səmada görünən UFO insanların diqqətini cəlb etmişdi. Tez əllərindəki smartfon telefonların kameralarını işə salıb bu hadisəni telefonlarının yaddaşına köçürənlər artıq sosial şəbəkələrdə də paylaşımlar etmişdilər. Bu görüntüləri seyr edənləri daha çox təəccübləndirən isə UFO ilə eyni vaxtda onun dövrəsində hərəkət edən parlaq işığa bürünmüş obyektlər idi. Bu obyektlərdən ikisi ayrılaraq UFO-nun ətrafında bir-iki dəfə dövrə vurduqdan sonra ani hücumla UFO-nu yox edirlər.

Sosial şəbəkələrdə paylaşılan yeni məlumatları nəzərdən qaçırmayan Gülcənin bu mənzərəni görcək üzündə bir təbəssüm yarandı. Bu UFO–nu hansı qüvvələrin məhv etdiyini həmin anda təxmin etdi. Təkcə Gülcə deyil, Göy Türklərinin varlığından xəbərsiz olan milyonlar bu günlər çəkilən bu hadisəni izləyirdi. Bu görüntü Göy Türk bəyinin söylədiyi heç bir sözün bu günə kimi boşuna, söz demək xatirinə deyilmədiyinin daha bir sübutu idi. Göy Türklərin prinsipləri başqa idi. Onların duaları son ana qədər "La qılıncı"ndan istifadəyə gərək qalmaması üçün idi. Çünki onlar insana düşmənçilik etməzlər. Şeytana uyaraq onun yoluyla gedərək insana qarşı savaş açanlara son ana qədər dirəniş göstərərlər. Yalnız son anda, məcbur qaldıqda cavab verər və qazanarlar. Bu gün də "La qılıncı" məcburən endirilmişdi. Bir an içində dünya insanlarının gözləri önündə şeytani ordunun hava gəmisini bir həmlə ilə qalaktika-

nın min illərlə uzaq məsafədə olan dərinliklərinə, gedər-gəlməzə göndərmişdilər. Artıq Göy Türk çocukları beş min beş yüz il sonradan bu günümüzə gələrək türkə, insanlığa düşmən olanlara qarşı bir ordu kimi dayanmışdılar. Göy Türk savaşçılarına "Tap və yox et! " izni verilmişdi.

Aldıqları bu gözlənilməz, ağır zərbə şeytani ordunu və yerdə onlara xidmət edən sürüngənləri mat vəziyyətində qoymuşdu. Göy Türklərinin gücü onları heyrət içində buraxmışdı. Bu güc qarşısında duruş gətirmək mümkün olmayacaqdı. Necə, hansı çarəni axtarmaq barədə düşünsələr də bir fikrə gələ bilmirdilər. Qəbul etmək istəməsələr də, onlara qarşı olan bu qüvvənin yenilməz olduğunu artıq dərk etmişdilər.

Bundan sonra yeni taktika seçmək lazım idi. Okeanın o biri tayında yenidən məşvərət başlamışdı. Bir qismi Göy Türklərinin tələb etdikləri adamları verməyi, bir qismi Türkiyəyə embarqo qoymağı, bir qismi gözləmə mövqeyi tutmağı, bir qismi isə lazım gəlsə prezidenti belə qurban verməyi təklif edirdi. Fikirlər haçalandığından bir qərara gələ bilmədilər. Odur ki, yenidən başqa bir vaxtda toplaşmağa qərar verdilər. Daha ciddi düşünmək lazım idi.

Miltona isə çarəsizlik içində gözləmək qalırdı. Hələ ki, bir xəbər yox idi. Həmişə sədaqətlə qulluq etdiyi adamlar ya onun hazırda olduğu vəziyyəti o qədər də dərk etmirdilər, ya da dəyərləndirmək fik-

rində deyildilər. Miltonun onların yanındakı yüksək dəyəri barədə təxmini sabun köpüyü kimi yavaş-yavaş əriyib yox olurdu. Deyəsən, növbəti qurban elə o özü idi. Bunları düşünən Milton çarəsizlik içində udqundu. Başını yelləyərək baxışlarını bir nöqtəyə dikdi. Sanki düşüncələrini beynindən qovmaq istəyirdi. Axı onun necə sədaqətli bir döyüşçü olduğunu bağlı olduğu təşkilat, xidmət etdiyi adamlar çox yaxşı bilirdi. Bəlkə də, bu günə qədər həyatda qalmaq şansı da bu səbəbdən onun üzünə gülmüşdü. Gedər-gəlməzə göndərilənlərin arasında deyildi. Yenə ümidi vardı.

Milton yerindən qalxdı. Bura gətirildiyi gündən nəzarət altında saxlanıldığı evin ağaclığa açılan pəncərəsinə yaxınlaşdı. Buradan qurtarmağın mümkünsüzlüyünü bir daha dərk etdi. Quş quşluğuyla bu evin ətrafına dolana bilməzdi. Pəncərədən sıx ağaclarla əhatə olunmuş ətrafa boylandı. Gözünə ağacdan başqa bir şey dəymədi. İndi çarəsizlik içində çırpınan Milton, vaxtilə minlərlə adamı çarəsiz buraxmışdı.

## F Ə S İ L - 27

Sonuncu həmlənin də dəf edildiyini görən, özlərini məğlubedilməz sayan güclər ciddi düşünmək məcburiyyətində idilər. Dünyanın düzənini dəyişmək, yenidən bölüşmək üçün ağlagəlməz dərəcədə

böyük pullar xərclənmiş, dəfələrlə düşünülmüş planlar qurulmuşdu. Məqsədləri Böyük Orta Sərq Proyektini, nəyin bahasına olursa olsun, həyata keçirmək idi. Amma bu cəhdlərin sonunda ortalığa onların gözləmədiyi bir mənzərə çıxmışdı. Türkiyədə planları puç olmuşdu. Bu gün isə ilk növbədə Türkiyədə etdikləri əməllərə görə onlardan bu çirkin, baş tutmayan cəhd üçün əllərində oyuncaq olan adam və onun yanında yer alanlar tələb olunurdu. Vəziyyət yaman qarışmışdı. Çünki onlara bu işdə mane olan, çoxlarının görüb, bilmədiyi, lakin onların artıq güclərini qəbul etmək məcburiyyətində qaldıqları bir qüvvə var idi.

Neçə aylar idi ki, sükut hökm sürürdü. Təhdidlər də daha işə yaramırdı. Türkiyənin dirənişi, dik duruşu onları mülayim davranmağa, daha ehtiyatlı siyasət yürütməyə vadar edirdi.

Bir neçə gün öncəyə qədər tez-tez səsləndirilən embarqo məsələsi artıq gündəmdən düşmüşdü. Prezidentin bu təklifi təsdiqləmədiyi söylənirdi. Amma bunun əvəzində Türkiyəyə satılacaq müasir silahların da satışından imtina edilmişdi. Bu yolla Türkiyəni geri çəkilməyə məcbur etmək istəyirdilər.

Bölgədə möhkəmlənmək, iqtisadi və siyasi mübarizəni udmaq üçün Rusiya fəaliyyətə keçmiş, Türkiyəyə daha güclü silah satmağa razılıq vermişdi. Bu isə vəziyyətə yenidən baxmaq zərurəti yaratmışdı.

Dünya güclərinin mübarizəsi daha da gərginləşirdi. İqtisadi bazar uğrunda mübarizə daha da alovlanırdı. Mübarizənin mərkəzində olan dövlətlər bu mübarizədən daha az zərərlə çıxmağa çalışırdılar.

ABŞ ilə Çin Xalq Respublikası arasındakı iqtisadi bazar uğrundakı gərginlik daha da artmışdı. Digər tərəfdən ABŞ Türkiyənin Rusiyadan S-400 almasını heç cür qəbul edə bilmirdi. Bir yandan siyasi, bir yandan iqtisadi müharibələr dünyanın mənzərəsini çox dəyişmişdi. Bu gərginliyin mərkəzində olan dövlətlərdən biri, bəlkə də birincisi Türkiyə idi.

Həm Anadoluda Türk dövlətini bir güc kimi görmək istəməyənlərin, həm dünyanın neft-qaz resurslarına sahib olmaq istəyənlərin maraqları bu regionda toqquşurdu. Heç kim mövqeyindən geri çəkilmək fikrində deyildi.

Nə qədər hədə, güc dili ilə danışsalar da, nə qədər tez-tez mövqelərini dəyişsələr də Türkiyəni nə ABŞ, nə də Rusiya geri oturda bilmirdi. Əksinə, hər həmlədən sonra yenidən Türkiyə ilə ehtiyatlı davranmaları görünürdü.

Suriyada son hücumda Türkiyənin xeyli əsgəri şəhid edilmişdi. Hətta, bu hadisə Türkiyədə birmənalı qarşılanmamış, şəhidlərin çoxluğuna etiraz səsləri ucalmışdı. Lakin az keçmədən Türk ordusunun əks həmləsi ona qarşı olanları, xüsusən Rusiyanı təşvişə salmış, atəşkəs istənmiş, danışıqlar üçün müraciət edilmişdi. İtkilərin sayı gizlədilsə də, Suriya tərəfdə, əsasən də rus əsgərlərində olan itkilər daha çox idi. Rusiya bəlkə də tez ya gec bu bölgədəki möv-

qelərini əldən verəcəyini, uduzacağını anlamışdı. Buna baxmayaraq, yenə də bölgədə söz və güc sahibli kimi mövqeyini saxlamaq üçün bütün imkanlarından istifadə etməyə çalışırdı.

Rusiyadakı danışıqlardan sonra döyüşlər səngimiş, tərəflər razılığa gəlmiş, daha doğrusu Türkiyə ilə hesablaşmağa məcbur olmuşdular.

Türk millətini, türk dövlətini hər cür fəlakətlərdən qorumağa çalışan Göy Türkləri də gecə-gündüz ayıq-sayıq bir əsgər kimi hadisələrin gedişatını izləyir, həlledici anda lazım gəlsə müdaxilə edirdilər. Düşüncə yoluyla göndərdikləri bilgilərlə də Türkiyənin gücünə güc qatmağa çalışırdılar.

## F Ə S İ L - 28

Milton dəli kimi otaqda dolaşıb dururdu. Yorulanda isə yumaq kimi yığılaraq çarəsiz halda bir küncdə oturaraq saatlarla hərəkətsiz halda gözlərini bir nöqtəyə zilləyirdi. Ona göz qoyan Göy Türk mühafizəçisi əslində bunun çarəsizlik simptomu olduğunu yaxşı bilirdi. O, sakitcə Miltonu müşahidə edirdi.

Birdən Milton sıçrayışla yerindən qalxdı. Belə qəfil qalxmağından nə isə bir fikri olduğu bəlli idi. Narahat, mədət uman nəzərlərlə mühafizəçiyə baxdı. Yavaş addımlarla ona yaxınlaşdı.

-Daha bir nəfərə xəbər göndərə bilərəmmi?

-Gözləyin,-deyə mühafizəçi cavab verdi. İcazə verilərsə, mən sizə xəbər verəcəm. Bunu deyib yan otağa keçdi.

Milton daha bir söz demədi. Razılıq əlaməti olaraq başını tərpətdi və yenidən otağın bir küncünə çəkildi.

Milton daha kimlərə xəbər göndərə bilər, daha kimlərdən kömək istəyə bilər deyə çox düşünmüşdü. Bu düşüncələri ona illər öncə tanış olduğu, hətta eşq yaşadığı Sara adlı qadını xatırlatdı. Neçə illər birlikdə olsalar da, sonradan onunla yolları ayrılmışdı. Günahkar isə Miltonun özü idi. Səbəb onu bugünkü duruma gətirib çıxaran yolu seçməsi idi.

Sara onu çox sevirdi. Milton bunu yaxşı bilirdi. Amma var-dövlət hərisliyi onu şeytana biət edən sürüngənlərin toruna salmışdı. Özünün də varlanmaq həvəsi sevgiyə qalib gəlmiş, onu sevən Saradan belə ayırmışdı. Artıq zövq aldığı gözəl bir qadının sevgisi deyil, topladığı pul-para idi. İllər keçdikcə sevgiyə aid hisslərin yerini var-dövlət istəyi tutmuşdu.

Bu gün düşdüyü çıxılmaz vəziyyət isə tutduğu yolun yanlış olduğunun sübutu idi. Gec də olsa artıq özü də bunu anlayırdı.

Mühafizəçinin ayaq səsləri onu düşüncələrdən ayırdı. Əlində telefon tutmuş mühafizəçi yaxınlaşaraq telefonu ona uzatdı:

-Zəng edə bilərsiz. Amma danışığınız konkret, qısa olsun.

Sara vəfalı bir qadın idi. Ayrılmalarına baxmayaraq illərdir əlaqəni kəsməmiş, hərdən zəng edib hal-əhval tutar, bəzən də görüşərdilər. Miltonun gözlərində bir ümid işığı parladı. Telefonu alaraq titrəyən əlləriylə nömrəni yığdı. Bir-iki çağırı səsindən sonra Saranın səsi eşidildi.

-Bəli, eşidirəm.

-Salam Sara, Miltondu.

Xəttin o biri başından Saranın incik səsi eşidildi:

-Nə yaxşı xatırlanmışıq.

-Sara, incikliyin yeri deyil. Sənin köməyinə ehtiyacım var. Birlikdə yaşadığmız gözəl günlərin xatirinə xahişimi yerə salma. Eldeni tapa bilərsən? Mən elə bir yerdəyəm ki, əlim heç yerə çatmır. Doğrusu harada olduğumu da heç bilmirəm. Ona de məni xilas etsin.

Saranın səsi titrədi. Həyəcanlı və ciddi səslə soruşdu:

-Necə yəni harada olduğunu bilmirsən? Nə baş verib, Milton?

-Uzun söhbətdi. İndi danışa bilmərəm. Yəqin ki, Eldenin hadisələrdən xəbəri olmamış deyil. Sara, vaxt azdır, danışa bilmirəm.

-Yaxşı. Xəbər verərəm.

-Sağ ol, Sara. Kaş ki, vaxtında səni dinləyəydim.

Milton danışığı bitirdi və telefonu mühafizəçiyə qaytardı. Yenidən bir küncə çəkilərək xəyallara daldı. Sara ilə tanış olduğu günləri xatırladı.

Bir vaxtlar tanış olduğu Sara, adının mənası kimi qəlbinə sevinc gətirmişdi (Sara adının mənası "qəlbə sevinc gətirən" deməkdir). Bu sevincli günlərin isə yalnız xatirəsi qalmışdı. Xəyalən illər öncəyə getdi...

Bir payız günü kiçik bir kafedə rastlaşmışdılar. Milton bir fincan isti qəhvə içmək üçün bu kiçik kafeyə daxil olaraq bir masanın arxasında üzü qapıya tərəf əyləşmişdi. Sifariş etdiyi qəhvə gələnə kimi ətrafı sakitcə seyr edirdi ki, elə bu zaman kafenin qapısı açıldı və içəri bir gənc xanım daxil oldu. Sadə, lakin zövqlə geyinmiş bu qadın ilk baxışdan Miltonun diqqətini özünə cəlb etdi. Uzun müddət gözünü qadından çəkə bilmədi. Qadınınsa baxışları ətrafı dolaşırdı. Görünür hansı masada boş yer olduğunu bilmək istəyirdi. Hava soyuq və yağışlı olduğundan demək olar ki, bütün masalar tutulmuşdu. Bunu görən Milton oturduğu iki nəfərlik masadan qalxaraq qadına masasının ətrafındakı boş stulda oturmağı təklif etdi. Başqa boş yer olmadığınından qadının razılaşmaqdan başqa çarəsi qalmamışdı. Odur ki, təklif olunan masaya yaxınlaşdı. Təşəkkur edərək keçib təklif olunan yerdə əyləşdi. Sol qoluna keşirdiyi kiçik qəhvəyi rəngli çantasını sağ əliylə qolundan çıxararaq stolun kənarına qoydu. Dağınıq qara saçlarına əliylə daraq çəkərək sol çiyni üzərindən önə gətirdi. Saçından ayrılan bir-iki tel sağ qaşı üzərindən yanağına doğru axmışdı. Bu da onun gözəl simasını bir qədər də cazibədar edirdi. Qısa, qara gödəkçənin altından

görünən tünd bənövşəyi paltarını isə taxdığı bənövşəyi çalarlı ametist qaşları olan gümüş dəst tamamlayırdı.

Sara sıx, qara kirpiklərini qaldıraraq Miltonu bir daha süzdü. Sakit baxışlarında bir maraq da sezmək olardı.

Sükutu da elə Sara pozdu:

-Siz də deyəsən mənim kimi yağışlı, soyuq havadan qaçaraq buranı seçmisiz.

-Bəli, elədir. Sizə nə sifariş edim? Çay, ya qəhvə?

Onun bu təklifi Saraya bir az qəribə gəldi. Bu şəhərdə kiminsə təsadüfən bir masa arxasında əyləşən tanımadığı, ilk dəfə gördüyü bir adama nəsə sifariş etməsi çox az təsadüf edilən bir haldı. Odur ki, eyni masa arxasında oturduğu bu adama marağı bir az da artdı. Onun təklifini geri çevirmədi:

-Qəhvə istərdim.

Milton xidmət göstərən gənci çağıraraq daha bir qəhvə sifariş etdi.

Qəhvələr gələnə qədər Milton fürsətdən istifadə edərək Saranı daha yaxından tanımaq istəmişdi.

Sənətə dərziliklə başlayan, hazırda böyük bir tikiş otelyesi olan Milton qadının zövqlə geyimindən, davranışından incə ruhlu biri olduğunu da təxmin etmişdi.

Bu dəfə Milton sükutu pozdu:

-Geyim işləri ilə məşğul olduğumdan zövqünüzün gözəl olduğunu deyə bilərəm.

-Təşəkkür edirəm. Siz modelyersiniz?

-Elə demək olar. Adım Miltondur. Xüsusi müştərisi çox olan, belə müştərilərin sifarişi ilə şəxsən özümün məşğul olduğum böyük bir tikiş otelyem var. Bu gün də elə bir müştərimlə görüşüm vardı. İşimi bitirib dönərkən yağışa düşdüm, qorunmaq üçün yolüstü bura döndüm. Qismətdə sizinlə tanış olmaq var imiş.

Sara cavab verməyərək azacıq gülümsədi.

Elə bu zaman sifarişi qəbul edən gənc əlində fincanlar qoyulmuş sini ilə masaya yaxınlaşdı. Sakitcə fincanları masanın üzərinə qoyub uzaqlaşdı.

-Qəhvənizi soyutmayın.

Milton bu sözləri deyərək özü də fincanı əlinə alaraq söhbətə davam etdi:

-Mənim şəxsən rəhbərlik etdiyim otelye son dəbli kişi geyimlərinin hazırlanması ilə məşğuldur. Söylədiyim kimi xüsusi müştərilərimiz çoxdur. Gülümsəyərək əlavə etdi:

-Siz də onlardan biri ola bilərsiniz. Baxmayaraq ki, kişi geyimlərinin tikilişi ilə məşğuluq. Amma qadın geyimlərinin tikilişindən, dəbindən də xəbərsiz deyiləm.

-Təklifiniz üçün təşəkkür edirəm. Deyim ki, mən dəblə, həm də fərqli geyinməyi sevirəm.

-Mən bunu siz bura daxil olan kimi anladım. Zövqünüz çox gözəldir.

Sara bu cavabdan məmnun qalaraq gülümsədi.

Artıq fincanlar boşalmışdı. Milton taleyin onun qarşısına çıxardığı bu şansı əldən vermək istəmirdi. Odur ki, söhbəti davam etdirdi:

-İstədiyiniz vaxt gəlib, istədiyiniz geyimi sifariş verə bilərsiz. Sizin sifarişlərlə şəxsən özüm məşğul olaram.

Saranın simasında məmnunluq ifadəsi yarandı:

-Çox güman ki, sifariş verəcəm.

-Çox şad olaram. Adınızı bilmək olarmı?

-Adım Saradır. İndi isə mən getməliyəm.

-O zaman mən ünvanı sizə verim. Bunu deyərək cibindən vizit kartını çıxararaq Saraya tərəf uzatdı.

Sara vizit kartını alıb əl çantasına qoydu.

Hesabı ödəyən Milton Saraya sarı döndü:

-İndi çıxa bilərik, buyurun.

Birlikdə kafedən çıxdılar. Kafenin önündə vidalaşaraq Sara ondan ayrıldı.

Milton bunları xatırladıqca bu illər ərzində öz taleyi ilə oyun oynadığının fərqinə varır, bir insanı var-dövlət istəyinin necə məhv etdiyini öz aqibətində artıq anlayırdı. Bunları düşündükcə ürəyində Eldenlə rastlaşdığı günə lənət oxuyurdu. Onunla rastlaşmasaydı, bəlkə də həyatı tamam başqa olacaqdı. Bəlkə də gözəl ailəsi, hüzur dolu bir həyatı olacaqdı. Amma artıq heç nəyi geri döndərmək mümkün deyildi, bütün bu olanlar yaşanmışdı. Bəlkə də ömrü bitmək üzrəydi. Miltonun beynində yenə xatirələr canlanmağa başladı...

## F Ə S İ L – 29

Növbəti iş günlərindən biriydi. Milton təcili olan sifarişləri ayıraraq, vaxtında müştəriyə təhvil vermək üçün gənc və bacarıqlı işçisini yanına çağırdı. Ona sifarişlərin tez və keyfiyyətli şəkildə hazırlanması tapşırığını verdi.

Elə bu zaman qapı açıldı və köməkçisi yeni bir müştərinin onu görmək istədiyini söylədi.

-Gəlsin, -deyərək Milton cavab verdi.

Çox keçmədən içəri hündür boylu, səliqəli geyimdə bir nəfər daxil oldu. Yaxınlaşaraq salam verib özünü Miltona təqdim etdi:

-Elden.

-Buyurun,-deyərək Milton əyləşmək üçün müştəriyə yer göstərdi.

Elden keçib onunla qarşı-qarşıya əyləşdi.

-Dostlar mənə sizi məsləhət görüblər. Ziyafət geyimi sifariş verəcəm.

-Məmnuniyyətlə sifarişinizi qəbul edərik. Buyurun, istədiyiniz parçanı və modeli seçin. Milton səliqə ilə divar boyunca sıralanmış, göz oxşayan parşalara işarə etdi. Eyni zamanda son dövrün dəbli geyim rəsmləri olan nəfis şəkildə buraxılmış moda jurnallarını da masanın üzərinə, Eldenin qarşısına qoydu.

Elden istədiyi modeli, istədiyi parçanı seçdikdən sonra Milton ölçüləri götürərək, ona sifarişin nə vaxta hazır olacağını söylədi.

Elden sağollaşaraq otelyedən çıxdı.

Milton sifarişi qəbul etdikdən bir neçə gün sonra sifariş olunan paltarları tam hazır etməzdən əvvəl müştərisinin əyninə necə oturduğunu yoxlamaq üçün Eldenə zəng edərək, onu otelyeyə dəvət etdi.

Miltonun həm vaxtında işini görməsindən, həm də gördüyü işdən razı qalan Elden onun nə qədər dəqiq və punktual adam olduğu qənaətinə gəldi. Bu adam bizim işimizə yarayar,- deyə fikrindən keçirdi. Və niyyətini həyata keçirmək üçün sözə başladı:

-Görürəm, sifarişləriniz çoxdur. Amma buna baxmayaraq sifarişləri dəqiq və vaxtında yerinə yetirməyə çalışırsız. Sizin bu qabiliyyətiniz və dəqiqliyiniz sizə daha çox pul qazandıra bilər. Siz düşündüyünüzdən də çox. Böyük var-dövlət sahibi ola bilərsiz.

Milton maraq qarışıq sual dolu nəzərlərlə Eldenə baxdı.

Elden onun bu təklifə marağını Miltonun gözlərindən oxudu. Onu tora saldığına artıq əmin idi. Odur ki, söhbəti davam etdirdi:

-Siz bu işinizlə bərabər bizimlə də əməkdaşlıq edə bilərsiz. Əgər istəsəniz fikrinizi mənə deyərsiz. O zaman bu barədə ətraflı danışarıq. Onsuz da hazır olan sifarişi götürmək üçün bura gəlməliyəm.

Elden Miltonla xüdahafizləşib çıxdı.

Artıq hazır olan sifariş etdiyi geyimləri götürmək üçün otelyeyə gələn Elden təklifini bir daha xa-

tırladaraq Miltonla bu barədə ətraflı söhbət etdi. Söhbətin sonunda üzünü Miltona tutaraq:

-Onsuz da sizdə telefon nömrəm var. Bizimlə əməkdaşlıq etmək qərarına gəlsəniz xəbər edərsinin.

Elden gedəndən sonra bir an da olsun bu təklif Miltonu rahat buraxmadı. "Əlavə pul qazanmağın, milyonlara sahib olmağın nəyi pisdir?"-deyə fikirləşdi. Hələ düşünmək üçün vaxt var idi.

Beləliklə, əməkdaşlığa razılıq verən gündən Miltonun həyat yolunun istiqaməti dəyişməyə başladı. Bir də baxdı ki, böyük bir təşkilatın içindədir. Hətta tanınmış rahiblərlə bir sıradadır, özü də rahibdir.

Bu təşkilatdakı işləri onu getdikcə keçmişindən uzaqlaşdırmışdı. Artıq, vaxtilə həyatının bir parçasına çevrilmiş Sara ilə də ara-sıra görüşür, bəzən yalnız telefonla hal-əhval tutmaqla kifayətlənirdi.

Sara da bunun fərqindəydi. Tanış olduqları gündən əvvəllər demək olar ki, hər gün görüşərdilər. Miltonun hər zaman diqqətini, qayğısını hiss edərdi. Bir-birinin ardından zövqlə geyimlər tikilər və ona hədiyyə edilərdi. Sara xoşbəxt idi. Artıq ona dəyər verən biri vardı. Qadın xoşbəxtliyi üçün lazım olan hər şey vardı həyatında.

Amma bu xoşbəxtlik çox sürmədi. Miltonun həyat yolunu dəyişməsi onların da yollarını ayırdı.

Sonuncu dəfə, yenə Saranın yaşadığı evdə görüşmüşdülər. Bu evi almağa da ona Milton kömək

etmişdi. Artıq neçə il idi ki, bu evdə yaşayırdı. Milton da istədiyi vaxt onu görmək üçün bura gələrdi. Yenə bir gün işdən sonra Saranın yanına yollanmışdı.

Qapı zənginin səsini eşidən Sara qapıya yaxınlaşdı. Bu vaxt gələn Milton ola bilərdi. Yenə də hər ehtimala qarşı qapının gözlüyündən baxdı. Miltonun sakit halda qapının arxasında dayandığını görüb qapını açdı.

-Salam, Sara. Gəlmək olar?

-Salam. Keç içəri.

Nə verilən salam, nə də içəri keçmək üçün edilən dəvət əvvəlki kimi səmimi deyildi. Bunu hər ikisi yaxşı anlayırdı.

Əvvəllər Miltonun hər gəlişində Sara onun boynuna sarılar, öpüşlərə qərq edərdi. Milton da hər gəlişində qiymətli hədiyyələrlə onu sevindirərdi. Sonra şirin-şirin söhbət edər, hər kəs gördüyündən, eşitdiyindən danışardı.

Milton bəzi müştəriləri ilə baş verən qəribə əhvalatlardan danışar, Sara gülməkdən özünü saxlaya bilməzdi. Gülən zaman sədəf kimi parıldayan ağappaq, gözəl düzümlü dişləri simasını daha da gözəlləşdirərdi. Ağ əlləri ilə üzünə tökülən qara saçlarını xüsusi əda ilə kənara atar, bu zaman ağ qar kimi sinəsi görünərdi. Milton bu gözəlliyə baxmaqdan doymazdı. Çox zaman qollarını onun boynuna dolayar, beləcə söhbətə davam edərdilər. Sara ilə keçirdi-

yi hər gün, hər gecə isə onun ömrünə xoşbəxt anlar kimi yazılardı.

Artıq əvvəlki münasibətlər yox idi. Sara az-çox onun yeni işlərindən xəbərdar idi. Miltonun yeni əlaqələri getdikcə onu Saradan uzaqlaşdırırdı. Tam mənası ilə anlamasa da, onun da tanıdığı Eldenin Miltonu tamamilə başqa bir məcraya yönəltdiyini artıq anlamışdı.

Hər ikisi sakitcə otağa keçdi.

-Nə içəcəksən? Çay, yoxsa qəhvə?

-Çay olsa pis olmaz.

-Yaxşı, indi gətirərəm.

Bunu deyib Sara mətbəxə keçdi. Az sonra iki fincan çayla qayıtdı. Hər ikisi keçib masa arxasında əyləşdi. Çaylarını içənə qədər heç biri danışmadı. Sükutu Sara pozdu:

-Deyəsən, işlərin lap çoxdur. Daha mənə baş çəkməyə də vaxtın yoxdur.

-Elədir, işlərim son vaxtlar çox olur. Həm çox yoruluram, həm də vaxt olmur.

-Bilirəm. Eldenin işləridir hamısı. Xəbərin var ki, çox dəyişmisən? Sən əvvəlki Milton deyilsən. Səni itirmək istəmirəm. Amma belə görürəm buna hazır olmalıyam.

Milton sakitcə Saranı dinləyirdi. Ürəyində ona haqq qazandırırdı. Amma varlanmaq hərisliyi də onu rahat buraxmırdı.

-Həyatda daha vacib işlər var, Sara.

Sara bu cavabdan hər şeyi anlamışdı və taleyi ilə razılaşmaqdan başqa çarəsi qalmamışdı.

-Nə deyim. Gedəni zorla saxlamaq olmaz. Amma mən səninlə həyatımın ən gözəl günlərini yaşadım. Sənin haqqında da bunu demək olar. Yenə seçim sənindir. Nə edə bilərəm.

Bu söhbətdən sonra Milton xüdahafisləşib getmişdi. Sara isə göz yaşlarını içində onu yola salmışdı.

İllər sonra Milton ondan kömək umurdu. Eldeni tapıb onun barəsində xəbər verməsi üçün yalvarırdı. Onun nədən, nə üçün saxlanılmasını tam təfərrüatı ilə bilməsə də, çətin, çıxılmaz vəziyyətdə olduğunu danışığından anlamışdı. Əvvəllər ona qəzəbi tutsa da, nədənsə bu telefon danışığından sonra ona kömək etməyi düşünmüşdü. Ürəyinə dolan mərhəmət hissi bəlkə də keşmiş xatirələrin oyanmasından qaynaqlanırdı.

Sara üçün Eldeni tapmaq bir az çətin olsa da, nəhayət, ona xəbər verə bildi. Elden isə artıq söz söyləmədən "məşğul olaram" dedi.

Əslində, Elden Miltonun aqibətindən xəbərdar idi. Amma onun xilas yolu edilən təklifə verilən cavabdan keçirdi. Təklifə isə müsbət cavab verilmədiyini bilirdi. Belə olan halda onu xilas etmək mümkünsüz idi.

Milton isə günlərlə ümidlə gözlədi. Onu bu təşkilata cəlb edən Eldenin onu xilas etməyə çalışacağına ümid edirdi. Günlər keçdikcə bu ümidinin də bo-

şa çıxdığını anladı. Burada olduğu müddətdə onu ədalətlə mühakimə edən Göy Türk bəyinin ləyaqətinə, insanlığına yaranan heyranlıq hissi burada qaldığı müddət uzandıqca artıq yenidən nifrət hissinə çevrilirdi. Milton acı-acı düşünürdü. Gözə görünməyən bu qüvvənin üzündən heç bir planımız baş tutmadı. Heç bir cəhdimiz işə yaramadı. Bu türkləri məhv etmək mümkün deyil. Bu qədər xərclənən milyonlar, qurulan planlar da boşa getdi. Orta Şərq planlarımızın yolunda əngəl oldular. Dəmir Qübbəni başımıza uçurdular. Aqibətinə bax, Milton, axırın yaxınlaşır,- deyə düşünərək acı-acı gülümsədi. Deməк ki, kimsə yaxınlaşa bilmədi, ya da heç harada olduğumu öyrənə bilmədilər. Bəlkə də heç istəmədilər. Miltonu daha işlərinə yaramadığı üçün unutdular. Amma illər öncə öz məqsədləri üçün istifadə etməyə hazırladıqları Miltonu dərzilikdən milyonların sahibi olan birinə çevirmişdilər. İndi isə onların işinə yaramadığından növbəti qurbanlardan birinə çevirdilər. Ölümün yaxınlaşıb, Milton! Axırındır, bunu artıq qəbul et!- deyə öz-özünə söyləndi.

Artıq neçə gün idi ki, boğazından bir tikə yemək də keçmirdi. Eləcə sakitcə bir küncdə oturub gözlərini pəncərədən uzaqlara dikirdi. Hərdən aclığın yaratdığı qarabasmadan pəncərədən görünən sıx ağaclıqdan gözlərinə Bozqurdların kəskin baxışları görünürdü.

Səhər açılandan bəri mühafizəçi artıq neçə saatdan bəri Miltonun eyni vəziyyətdə üzü pəncərəyə baxaraq oturması diqqətini çəkdi. Heç tərpənmədiyini görüb ona yaxınlaşdı. Onun bir nöqtəyə zillənmiş hərəkətsiz gözlərini görcək tez biləyini əlinə alaraq nəbzini yoxladı. Nəbz hiss edilmirdi. Bədəni də soyuq idi. Tam əmin olmaq üçün cəld hərəkətlə əlini onun boynuna- yuxu arteriyasının üzərinə qoydu. Burada da nəbz hiss olunmurdu. Artıq Milton həyatda yox idi. Yalnız cansız cəsədi oturmuş vəziyyətdə, gözləri uzaqlara dikilmiş halda hərəkətsiz qalmışdı. Beləliklə, Milton da minlərlə insan kimi nəfsinin və dünyaya ağalıq etmək istəyənlərin məkirli siyasətinin qurbanı olmuşdu.

Var olduğundan bu günə kimi hürr, azad yaşamağa haqqı olan insanların çoxu nəfsinə uyaraq, yemək, ehtiras kimi vərdişlərə aludə olub şeytanın toruna düşərlər. Şeytana biət edənlərin yaratdıqları piramida sistemli bir quruluşun ən alt qatında yer alaraq yaşayarlar. Gecə-gündüz çalışaraq qazandıqlarını israfla eyş-işrətlərə, gərəksiz əşyalara xərclərlər. Qazananlar isə piramidanın üst təbəqəsində yer alanlar olar. Onların bu sisteminə xidmət edənlər isə Milton kimi milyonlarla insanlardır. Və çoxunun taleyi də Milton kimi sonlanmaqdadır.

# F Ə S İ L - 30

Çocuğa Miltonun artıq öldüyünü xəbər verdilər. Bu onun üçün heç də gözlənilməz bir xəbər olmadı. Çünki şeytana biət edən sürüngənləri yaxşı tanıyırdı, dəfələrlə onlara xidmət edənlərin öz mənafeləri üçün dar ayaqda köməksiz, çarəsiz buraxıldığının şahidi olmuşdu. Milton da növbəti bir qurban idi. İllər idi ki, bu ssenari davam edirdi. Dünyaya hakim olmaq xülyasına qapılan sürüngənlər bu yolda nələrə əl atmamışdılar. Son əsrlərdə böyük, qlobal münaqişələr, müharibələr onların məqsədlərinə çatmaq yolunda vasitələr idi. Ötən əsrdə dünyanı çalxalayan, milyonlarla insanın məhvinə səbəb olan iki dünya müharibəsi də onların planladığı insanlığa qarşı yönəlmiş hərbi müdaxilələr idi. Bu gün də bu planların həyata keçirilməsi davam etməkdədir. Orta Şərqdə alovlandırılan müharibə ocaqları da bundan xəbər verir.

Hələ informasiya müharibələri, sümürgən sistemin istifadə etdiyi “Google”, “Facebook” kimi sosial şəbəkələr, bütün kompuüter sistemləri, bütün simli, simsiz , ağıllı, ağılslz telefonlar, gəmilər, təyyarələr, peyklər, bir sözlə, nə varsa zamanı gəlincə çalışmaz hala gətirilə bilər. Bunu bacara bilən Göy Türkllərindən artıq sürüngənlərin də xəbəri var. Və bu gücün nə olduğunu anlayırlar. Bəs Göy Türklərinə bu güc,

qabiliyyət nədən ötrü verilib? Niyə onlar seçilən yaranmışlardır?

Ona görə ki, Göy Türkləri hər iki dünyalarında doğruluq, insanlıq, ədalət və haqq yolundan heç bir zaman ayrılmamışlar. Onlardakı ədalət bizlərin asanlıqla anlaya bildiyimiz ədalət deyildir.

Göy Türklərinin vəzifəsi sadəcə yer üzündə "Türk olsun da, kim olursa -olsun", yalnız onları qorumaq, haqsız yerə müdafiə etmək deyil, insanların doğru düşüncəyə yönəlmələrinə çalışmaq, irq, rəng, cins fərqi qoymadan hər kəsə doğru yolu tapmağa yardım etməkdir. Göy Türkləri insanlığın qoruyucusu, günahların təqibçisi, yaxşılığın mühafizəçiləridir. İntiqamın deyil, ədalətin izindədirlər. Onlar haqq olan nədirsə, ondan yanadırlar.

Etdikləri xətaya görə lazım olan cəzanı və cəzanın hansı formada olmasını, hər bir günahkarın zaman içərisində özlərinə yönəlmiş, onlar üçün "yaxşı olacaq" lardan yoxsul buraxılmalarıdır. Əslində, cəzanı və ya mükafatı insanlara, özlərinin etdikləri əməlləriylə özlərinə seçdirmiş olurlar.

Milton da belə bir seçimin, öz əməllərinin qurbanı olmuşdu. Çocuğun sürüngənlərin toplantısına müdaxiləsi də Göy Türklərinin qanunlarına uyğun olaraq edilmişdi. Göy Türk qanunlarına görə onların müdaxiləsində elə yüz faiz haqlı gerçəkliklər olmalıdır ki, müdaxilə etdikləri zaman, həm də heç bir şəkildə etiraz üçün heç kəsin bəhanəsi qalmamalıdır.

Bu toplantı da bir başa haqsız olaraq onurğasızlar tərəfindən Orta Şərqə, eyni zamanda bir türk dövlətinə qarşı olduğundan müdaxilə olunmuşdu. Suç ortağı olanların isə hürr iradəsi əlindən alınaraq cəza verilmişdi. Elə bir cəza ki, ölmək istəsələr də ölə bilməzlər.

Böyük imperiyanın çöküşündən sonra yaranan, dünyada təklənmiş, yetim kimi qalan türk dövlətinin haqqını isə yetimlərin haqqını qoruyan Tanrı və Tanrılarına sədaqəti, sevgisi ilə seçilən Göy Türkləri qoruyurlar. Göy Türkləri üçün maddiyyatın heç bir mənası olmadığı üçün, onlar günahkarları zehin həbsxanasına həbs edərlər. Günahını anlayanlar səhvlərini düzəltməyə çalışarlar. Göy Türklərinə görə buna Yaradanın izni vardır. Təcavüzün, oğurluğun olmadığı bir yaşam formasında ömür sürən Göy Türkləri dünyanın mənsub olduğu sivilizasiyanı, enerji çağını çoxdan keçmişlər. Onlar artıq düçüncə çağında yaşayırlar. Həmişə özləriylə "La qılıncı" daşıyarlar. Və "Yaradan heç çəkməyi nəsib etməsin",- deyə dua edərlər. Amma bəzən şeytana biət edənlər başqa çarə buraxmazlar. O zaman Göy Türklərinin çəkdiyi "La qılıncı" haqqı bərpa etməyincə qınına qoyulmaz. Bir Göy Türk deyimində söylənildiyi kimi: "Şaka kibidir, acıtınca anlarsın".

Bu günkü çağımızda da artıq "La qılıncı" çəkilmişdir. Çocuk da buna işarə edərək belə söyləyirdi:

-Ya susacaqlar, ya qan qusacaqlar!

Çocuk bunları da söyləyirdi:

-Hər kəs birilərindən qorxar. Bəziləri kürəsəl güclərdən qorxar. Şeytani kürəsəl güclər şeytandan qorxar. Şeytan və ona biət edənlər də Göy Türklərindən qorxar. Göy Türkləri isə sadəcə Yaradanın sevgisindən məhrum olmaqdan qorxarlar.

Sürüngəlnər qorxduqları qüvvə ilə üz-üzə olduqlarını bildikləri üçün, ilanın başı əzildiyi zaman ətrafa daha çox zəhər saçdığı kimi, onlar da dünyanı daha da qorxu altında saxlamağa çalışırlar.

Şeytana biət edənlər Göy Türklərini tanıdığı kimi, türk milləti də soy-kökləri olan Göy Türklərini artıq tanıyıb, bilməlidirlər.

Çocuk hər zaman olduğu kimi yenə də bütün bu olub keçənlərə rəğmən dayanmadan növbəti görüləsi işləri planlaşdırır və bəzən təkbaşına, bəzən Evren Mühafizəçiləri, bəzən Yer Türklərindən olan seçilmişlərlə birgə türk varlığının keşiyində durmağa davam etməkdədir. Dünyanın bu qarışıq vaxtında hadisələrin biri digərini əvəz etdiyi bir vaxtda Göy Türkləri də hadisələrə uyğun fəaliyyət göstərirlər.

Çocuk bu dəfə də Eloğlu adlandırdığı gənc və cəsur türk övladıyla Yer kürəsi sakinlərinə qarşı hazırlanmış, Türkiyədən başlaması nəzərdə tutulmuş qorxunc planı önləmək və ya özlərinə qarşı çevirmək üçün gedəcəkdi. Odur ki, Eloğlunu növbəti tapşırığa hazır olması üçün xəbərdar etdi.

-Bu dəfə yolumuz haradır? -deyə Eloğlu soruşduqda:

-Gedək, biləcəksən! Kimlərlə savaşdıqlarını göstərəcəyik. Bizi bilən bilir, bilməyən özü bilər. Lazım gəldikdə, lazım olanı bütün dünyaya göstərərik. Biz millətimiz üçün varıq. Bilsə də, bilməsə də.

Çocuk bir an nə düşündüsə telefonunu cibindən çıxardı. Və tələsik bir mesaj yazıb yenə telefonu cibinə qoydu. Eloğlunun onun bu hərəkətini maraqla izlədiyini görən Çocuk ona baxaraq gülümsədi:

-Dostlar heç vaxt yaddan çıxmaz. Bəzən çox yaxın dostları xəbərdar etmək vacibdir.

Eloğlu daha bir söz söyləmədi.

Hər ikisi bir-birinə baxaraq birlikdə Kürşat marşını oxuyaraq yola çıxdılar:

-Yufka yüreklerle çetin yollar aşılmaz,
Çünki bu yol kutludur, gider Tanrı dağına.
Moskoflardan, yankeden, masonlardan yılmayan
Ölümlerle eglenen tunç yürekli Türkleriz...

Artıq gecə düşmüşdü. Gülcəni yenə öz düşüncələri ağuşuna almışdı. Qadın olmasına, incə düyğulara sahib olmasına baxmayaraq, dünyanın bu günki siyasi mənzərəsi ilə də maraqlanardı. Fərqli xarakteri çox vaxt özünə də qəribə gəlirdi. Sanki bir neçə Gülcə yaşayırdı onda. Bir ruhda birləşən bir neçə qadın xarakteri...

Bəzən çox incə duyğuların, sevginin, eşqin əsirinə çevrilər, incə ruhlu şeirlər yaranardı ardı-ardına. Bəzən kükrəyib coşardı ürəyi. İnsanlığın, vətəninin dərdi, türk olmanın öygüsü, vətən sevgisi dillənərdi

dilində. Bəzən ruhu çox sevdiyi uca Allahına yol alardı. İlahi sevgidən qaynaqlanan misralarla mədh edərdi Yaradanını. Bəzən ruhundakı təlatüm dünyanın gedişatına, taleyin sərt sınaqlarına qarşı hayqırışa çevrilib daxili dünyasında əks-səda verərdi.

Telefona gələn mesaj Gülcəni düşüncələrdən ayırdı. Payızın sonu, soyuq bir gecə olduğundan çiyninə saldığı qalın yun şala bürünüb oturmuşdü. Sol əlini uzadıb yaxınlığına qoyduğu telefonunu götürdü. Açdı. Mesaj gəlmişdi, Parol: O I O (SİFIR BİR SIFIR). Çocukdan gəlmişdi mesaj. Açdı və oxudu: "Mühüm!",-deyə başlayırdı mesaj.

-Bir neçə aya dünyadakı yaşam tamamilə dəyişəcək. İnsanlar təcrübə predmetinə çevriləcək. Heç kimin xəyal belə edə bilmədiyi ağır günlər yaşanacaq. Əzizlərini, yaxınlarını yanında tutmağa çalış. Dünya iqtisadiyyatında da çöküş başlayacaq. Ailə büdcənizi ona görə idarə etməyə çalışın. Onu da nəzərə al ki, qızılın qiyməti də yaxın illərdə sürətlə qalxacaq.

Gülcənin sifəti bir anda ciddi ifadə aldı. Hələ ki, dünya sakit görünürdü. Soruşsa da çox məlumat verilməyəcəyini bilirdi. Amma gələn mesaj "Mühüm!" sözüylə başlayırdısa, bu vəziyyətin ciddiliyindən xəbər veririди. Dünya iqtisadiyyatında nisbi sakitlik görünsə də, deməli dünyanı bürüyəcək hansısa yeni fəlakət dalğası gəlirdi. Buna Gülcə əmin idi. Çünki bunu söyləyən son dərəcə ciddi bir adam idi. Çocuk-

la birbaşa tanışlıqdan sonra bütün məlumatları çox ciddi qəbul edirdi.

Gülcə düşüncələrə daldı. Onsuz da fəlakətlər, savaşlar əlindən inləyən dünyanı və sakinlərini görəsən daha hansı fəlakət gözləyirdi?

Çocuk isə Gülcəni xəbərdar etdikdən sonra növbəti görüləsi vacib işlər üçün getdi. Yenə Eloğlu yanında idi.

-Bu gün səfərimiz uzaqlaradır, həm də çox mühüm bir səfərdir. Türkiyə və bütün dünya təhlükədədir. Dünyanı istədikləri kimi idarə etmək istəyənlər bu işi Türkiyədən başlamağı planlaşdırıblar. Sən də bilirsən, biz qədərə qarışmarıq, amma söhbət dünya yaşamına edəcəkləri müdaxilə planının türk torpaqlarından başlanılmasından gedirsə, Göy Türkləri buna biganə qala bilməz. Onlar özlərinin hazırladıqları silahla vurulacaq. Bütün dünyanı atmaq istədikləri odun-alovun içində özləri də yanacaqlar. Planları insanları qul kimi idarə etməkdir. Məqsədləri insanların canına qəsd etməkdir. Yenə də şeytanla əlbir olub dünyanı cəhənnəmə çevirmək iddiasındadırlar. Deyəsən, Mesopatomiyadan necə qovulduqları gen yaddaşlarından silinib, unudulub. Bizimlə oyun oynayanın özünün oyuna gələcəyini də unudublar. Biz onlara xatırladarıq. Gedək, Eloğlu, gedək! Vaxt itirmək olmaz!

-Gedək!

Göy Türkləri üçün onsuz da məsafəni qət etmək çətinliyi olmadığını Eloğlu da bilirdi. Ona görə də haraya, necə gedəcəklərini soruşmadı.

Artıq Çində idilər. Müxtəlif elmi, hərbi laboratoriyaların yerləşdiyi Uhan şəhərinə, ciddi qoruma altında olan laboratoriyanın yerləşdiyi əraziyə yaxınlaşdılar. Laboratoriya P4 laboratoriyası kimi də tanınırdı. Potensial ölümcül virusların saxlanıldığı bu laboratoriya milli biotəhlükəsizlik laboratoriyasına aid idi. Yəni yüksək fərdi və ictimai riskə malik mikroorqanizmlər saxlanılan bir laboratoriya idi. Burada müxtəlif virusların 1500-ə qədər ştampı saxlanılırdı. Daşınacaq virus da 4-cü risk qrupuna aid olan virusların saxlanıldığı laboratoriyada idı. Burada saxlanılan patogen agent adətən, insanlarda və heyvanlarda xəstəlik törədir və xəstəlik başqasına birbaşa, yaxud dolayı yolla asan yoluxur. Effektiv müalicə və profilaktika tədbirləri çox hallarda mümkün olmur. 4-cü bioloji təhlükəsizlik səviyyəsində maksimum izolyasiya olunmuş belə laboratoriyalar xüsusi patogen agentlərlə işləmək üçün qurulur. Və bu patogen agentər uzun müddət burada saxlanıla bilir. Bu laboratoriyalarda xüsusi təhlükəsizlik tədbirləri görülür. Laboratoriyanın bütün işlərinə məsul olan direktorun icazəsi olmadan kimsə bura daxil ola bilməz. Necə deyərlər, bu ərazidən quş quşluğuyla uça bilməz. Belə laboratoriyanın işi, hətta binanın daxili quruluşu barədə yalnız əməkdaşlar məlumatlı olur.

Səhər saatları olduğundan hələ şəhərdə hərəkət yeni canlanırdı. Çocuk və Eloğlu isə artıq lazım olan yerdəydilər. Nəhayət, Elmi-Tədqiqat Mərkəzində çalışan işçilər də binanın həyətində görünməyə başladılar. Az keçmiş Elmi-Tədqiqat Mərkəzinin laboratoriyalarından birinin aparıcı elmi işçisi professor Li Jianyu da idarə etdiyi Nissan markalı avtomobili ilə binanın həyətinə daxil oldu. Avtomobili hər gün saxladığı Elmi –Tədqiqat Mərkəzinin işçilərinin avtomobil nömrələri ilə işarələnmiş, onun avtomobilinə məxsus nömrənin yazıldığı yerdə saxladı. Maşından enərək başqa işçilər kimi laboratoriya yerləşən binaya daxil oldu. Beləliklə, başqa iş günlərində olduğu kimi professor Li də bu günkü iş gününə başlamış oldu. İş günü ciddi yoxlanışdan keçməklə başlanırdı. İllərdir burada çalışan, tanınmiş elmi işçi olan professor Li də hər gün olduğu kimi bu gün də eyni qayda ilə iş yerinə daxil oldu. Onun çalışdığı laboratoriya xüsusi izolyasiya ilə ayrilan bir sahədə yerləşirdi. Li Jianyu uzun bir dəhlizi qət etdikdən sonra sola dönərək işlədiyi laboratoriyanın qapısına yaxınlaşdı. Xüsusi şifrəni yığaraq qapını açdı. Hər gün olduğu kimi ilk olaraq yan otağa keçdi. İş yerində çalışan zaman geyinməli olduğu xüsusi geyimini geyərək, əlinə əlcək, gözünə xüsusi təhlükəsizlik eynəyi taxtı. Bu gün xüsusi bir tapşırığı da yerinə yetirməli idi. 4-cü risk qrupuna daxil olan virus başqa yerə daşınmaq üçün hazırlanmalıydı. Bunu yalnız o və məxfi olaraq

əməkdaşlıq etdiyi təşkilat bilirdi. Odur ki, bugünkü işlərini bitirəndən sonra günün sonunda bu işi görməyi qərara aldı.

Artıq iş saatı başa çatmaq üzrəydi. Professor Li xüsusi soyuducuya yaxınlaşdı. Daşınma üçün istifadə ediləcək xüsusi daşınma çantasını soyuducuya yaxın olan masanın üzərinə qoydu. Virusun saxlanıldığı xüsusi soyuducunun qapısını açaraq, onun içindəki daha bir izolyasiya qapısını açdı. Burada nömrələnmiş çəkməcələrdə şüşə borular yerləşdirilmişdi. Ağzı xüsusi üsulla tam kip bağlanan bu boruların hər birində müxtəlif növ virus nümunələri saxlanılırdı. Şüşə borular da nömrələnmişdi. Professor Li çəkməcəni özünə doğru çəkdi. Orada yerləşdirilmiş süşə boruların üstünü oxuyaraq özünə lazım olanını götürdu. Daşınmaq üçün öncədən masanın üstünə qoyduğu daşınma çantasına yerləşdirmək üçün masaya yaxınlaşdı. Borunu ehtiyatla daşınma çantasına yerləşdirib, qapağını bağladı. Əvvəlcədən danışıldığı kimi rəhbərliyə başqa laboratoriyaya aparılacağı barəbə məlumat verdi. Çünki məlumatı həqiqiliyi yoxlanılmadan materialı laboratoriyadan çıxarmaq mümkünsüz idi. Professor Li bilirdi ki, əvvəlcə planlaşdırıldığı kimi sorğuya müsbət cavab veriləcəkdi və işbirliyində olduğu adamlarla bu işi sona qədər bacaracaqdılar.

Fikirləşdiyi kimi də oldu. Az keçmədən rəhbərlikdən icazə cavabı gəldi. Professor Li arxayınlıqla

daşınma çantasını götürərək binanın həyətində laboratoriyaya yaxın tərəfdə saxlanmış, laboratoriyanın xidmətində olan maşına doğru getdi. Elə hər şey də bu zaman baş verdi.

Ayrılmış xüsusi maşına yaxınlaşan zaman qəflətən ayağı bərk büdrədi, əli bir anda boşaldı və əlində olan xüsusi daşınma çantası zərblə yerə çırpıldı. Qapağının açılması ilə virusun saxlanıldığı süsə boru çantadan düşərək çiliklənib yerlə bir oldu. Sanki, bir görünməz əl borunu götürüb yerə çırpdı. O, heyrətlə yerə səpələnmiş süşə parçalarına baxırdı. Nə baş verdiyini düşünmək belə istəmirdi. Bu necə ola bilərdi? Daşınma çantasının qapağı necə açıla bilərdi? Amma bu artıq baş vermişdi. Şüşə sınmış, "cin" Çində şüşədən çıxmışdı. Təkrar onu geri qaytarmaq isə mümkünsüz idi. Artıq havaya yayılmış bu virusları nə avtoklavda, nə də başqa bir avadanlıqda dekontaminasiya (virusa bulaşmış əşyaları təmizləmək) etmək mümkün deyildi.

Bu qədər yüksək texnologiya ilə və dəqiqliklə işləyən laboratoriyada bu necə baş verə bilərdi? Axı o həmişə hər işində son dərəcə diqqətli idi. Necə oldu ki, belə bir hadisə baş verdi? Ətrafda da heç nə və heç kim gözə dəymirdi. Amma artıq olan olmuşdu. Daşınma zənciri qırılmışdı. Professor Li artıq nə edəcəyini də düşünə bilmirdi. Vaxt isə gedirdi. Gözəgörünməz silah gözlənilmədən partlamışdı. Amma lazım olan, nəzərdə tutulan yerdə deyil, məhz

onun əlində. O, tezliklə bunun ətrafa yayılacağını və insanları məhv edəcəyini anlayırdı. Baş verənləri gizləmək mümkün deyildi. Qəza barədə təcili lazımı yerə xəbər verməli idi. Li vaxt itirmədən geri dönərək həyəcan düyməsinə basdı.

-Bax belə, Eloğlu! İlk olaraq Türkiyəyə, İstanbula aparılıb, yayılaraq təcrübədən keçiriləcək virusun aqibətini və öz aqibətlərini görsünlər! Onsuz da bunu edəcəkdilər. Artıq qəti qərar verilmişdi. Amma bu bəla Türkiyədən deyil, Çindən dünyaya yayılacaq. Fərq budur. İlk olaraq özləri bunun necə bir dəhşət olduğunu görəcəklər. Bu virusu yaymaqda bir çox məqsədləri var. Dünyada insan nüfuzunu azaltmaq, insanları evlərə qapayaraq qorxu altında saxlamaq, insanları evdən çıxmadan alış-veriş etməyə, konfranslar keçirməyə, təhsil almağa alışdırmaq. İnsanları bir-birindən uzaqlaşdırmaq. Bir sözlə, məqsədləri insanları öz əsarətləri altında saxlamaq, istədiklərini diktə etməkdır. Görək bunu sona kimi bacara biləcəklərmi?

Oyunlar bununla da bitməyəcək. Tez-tələsik vaksin hazırladıqlarını da elan edəcəklər. Bəzi dövlətlər bilərəkdən, bəzi dövlətlər panikadan mahiyyətinə varmadan xəstəlikdən, alışmadıqları, məcbur olduqları bu yaşamdan, evə qapanmadan qurtulmaq üçün, yan təsirlərin nə ola biləcəyini düşünmədən peyvəndlənməni çıxış yolu biləcəklər. Halbuki, bir peyvəndin effektivliyinə ən azı beş illik elmi təcrü-

bədən sonra qərar vermək olar. Çoxları onların qurduğu tələyə düşəcəklər. Sonrakı fəsadlar isə bu işi başlayanlara külli miqdarda pullar qazandıracaq. Hətta RNT peyvəndi deyilən bir peyvəndin hazırlanması üçün də milyardlar xərclənir. Məqsədləri bunun vasitəsi ilə DNT- yə təsir edə bilməkdir. Bu yolla insan orqanizminə təsirə yol açmaq, xəstəlikləri idarə etməklə insan nüfuzunu bu yolla da sürətlə azaltmaq, dərmanlardan külli miqdarda gəlir əldə edə bilmək üçün çalışırlar. Amma insanları bir çox xəstəliklərin pəncəsindən də qurtarmaq olar. Yetər ki, məqsədin, niyyətin xoş məramlı olsun. Bunu isə onlardan gözləmək ağılsızlıqdır. Onlar zəkalarının gücü ilə ağıl və zəka sahibi insana qalib gəlmək, təsir altında saxlamaq, sürətlə artmaqda olan dünya əhalisinin sayını tənzimləmək istəyirlər. Amma bacara bilməyəcəklər. Ağıl sahibi insan bəlkə də bütün bunlardan öz həyatının düzənini yaxşılığa tərəf dəyişmək üçün istifadə edəcək. Türk insanı da Türk çağında daha çox uğurlar qazanacaq. Ona görə biz "Qorxma, dirən!" deyirik. Biz isə mesajımızı verdik. Bizə oyun oynayanın özü oyuna gələr.

Həyəcan siqnalının sədaları altında Çocuk və Eloğlu bir anda oradan uzaqlaşdılar.

Həyəcan siqnalı bütün elmi laboratoriya əməkdaşlarını səfərbər etdi. Həyacan siqnalına ilk cavab verən Elmi-Tədqiqat Mərkəzinin direktoru oldu. Əli-

ni düyməyə basaraq,- nə baş verir?- deyə soruşdu. Professor Li baş verənləri söylədi.

Təhlükənin aradan qaldırılması mümkün deyildi. Çünki  virus artiq havaya yayılmışdı.

Direktor isə onları nə gözlədiyini düşünməyərək yuxarı instansiyalara vaxt itirmədən xəbər vermək qərarına gəldi.

Gələn ilk cavab isə, "tədbirlər görülənə qədər bu gizli qalmalıdır" cavabı oldu. Təbii ki, bu virusun yayılmasının qarşısını almaq mümkünsüz idi. Xüsusi laboratoriya şəraitində hazırlanmış yüksək virulentliyə malik bu təhlükəli virus sürətlə yayılacaqdı. Yalnız vaxt qazanmaq lazım idi.

Lazımi instansiyalar xəstəliyin meydana çıxmasının labüdlüyünü bilirdilər. Odur ki, bu son dərəcə təhlükəli olan virusun yaratdığı xəstəliyin qarşısını maksimum almaq üşün təcili təxirəsalınmaz tədbirlər görmək lazım idi. Səhiyyə sistemi artıq fəaliyyətə keçmişdi. Xəstəxanaların rəhbərliyinə hər hansı bir virus xəstəliyinin yayıla biləcəyi barədə gizli saxlanılmaq şərti ilə xəbərdarlıq edilmişdi.

2019 –cu ilin dekabr ayının ortalarında Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərinin sakinlərində naməlum mənşəli pnevmoniya xəstəliyi yayılmağa başladı. Xəstələri təcili xəstəxanalara yerləşdirilməyə başladılar. Təmasda olanlar isə xüsusi karantinə götürülürdü. Tabe olmayanlar da zorla aparılırdı. Xəstəlik çox sürətlə yayılmağa başladı. Artıq bunu

gizlətməyin mümkün olmayacağını görüb, Çin hakimiyyəti tərəfindən COVID-19 adı verilən yeni tipli pnevmoniyanın yayılması barədə 31 dekadr 2019- cu ildə Ümumdünya Səhiyyə Təşkilatına(ÜST) məlumat verildi.

Sonradan, Çin alimləri yeni koronavirus-2019-un CoV virusuna bənzədiyini öyrənərək onun genomunun genetik ardıcıllığını təyin etdilər. Virus, kəskin tənəffüs sindromu yaradan SARS-CoV virusuna çox bənzədiyindən COVID-19 adlandırıldı. Yeni koronovirusun inkubasiya dövrü (infeksiya törədicisinin orqanizmə daxil olması anından xəstəliyin ilk kliniki əlamətlərinin görünməsinədək olan dövr) 2 gündən 10 günə qədər davam edir və xəstə xəstəliyin simptomları meydana çıxmazdan əvvəl yoluxucu olur.

2020 ci il, 22 yanvar tarixindən etibarən Uhanda karantin rejimi tətbiq edilməyə başladı. Ümumilikdə 14 şəhərdə giriş- çıxış məhdudlaşdırıldı.

Yanvarın 30-da isə UST-ün Fövqəladə Komitəsinin iclasında , yeni koronavirusun yayılması, beynəlxalq narahatlıq yaradan, ictimai səhiyyə təcili vəziyyəti kimi qəbul edildi.

## F Ə S İ L – 31

Uhandakı laboratoriyada bütün planlar alt-üst edilmişdi. Artıq bu işi planlayanların başı özlərinə qarışmış, bu işdən çıxış yolu axtarırdılar.

Çocukla Eloğlu vaxt itirmədən İstanbula gəldilər. Laboratoriyadan virusun birbaşa bura daşınacağını artıq bilirdilər. İndi isə işi başa çatdırmaq, burada bu iş üçün təlimatlandırılmış şəxsləri deşifrə etmək lazım idi. Yalnız bundan sonra əməliyyat başa çatmış hesab oluna bilərdi. Plan baş tutsaydı, dünya üçün böyük təhlükə və təhdid olan bu virus ilk olaraq türk insanının canını yaxacaqdı. Həm də İstanbula böyük turist axını olduğundan buradan dünyanın hər tərəfinə virus asanlıqla və sürətlə yayılacaqdı.

Çocuk bu adamların hansı yolla bura gəldiyindən və harada yerləşdiyindən xəbərdar idi. Onların burada görəcəyi iş, edəcəyi bəşəri cinayət Türkiyədən başlayaraq bütün dünya insanları üçün fəlakətə yol açacağını da qabaqcadan çox gözəl bilirdi. Ona görə də  bu dəfə də Eloğlu ilə birlikdə "tap və yox et!" prinsipi ilə hərəkət edirdilər.

Artıq gecədən xeyli keçmişdi. Səsli-küylü şəhər yatmaq bilmirdi. Yalnız insanlarla dolub-daşan küçələrdə bir az seyrəklik idi. Xırda küçə alveri ilə gündəlik çörək pulu qazanan sadə şəhər sakinləri bu məqsəd üçün işlətdikləri daşınma vasitələrini küçələrin kənarına, gediş- gəlişə mane olmayan yerlərə çəkir,

özləri isə yorğun-yorğun küçələrdən çəkilirdilər. Dükanları işlədənlər də qapının içəri tərəfindən asılmış lövhənin üzərində "bağlıdır" sözü yazılan tərəfini müştərilər oxusun deyə küçəyə tərəf çevirərək, bir-bir qapılarını bağlayırdılar. Heç kəsin ağlına da gəlmirdi ki, bir neçə aydan sonra bu qapılar aylarla bağlı qalacaq, satıcılar müştəri üzünə, küçələr insan izinə həsrət qalacaq. Hələlik isə həm İstanbul, həm də dünya yaxın gələcəkdə baş verəcək hadisələrdən xəbərsiz gündəlik həyatını yaşayırdı.

Türkiyədə belə bir deyim var: İstanbulu qazanan, Türkiyəni qazanar. Bu çirkin işə əl qoyanlar da öz çirkin əməllərini məhz İstanbuldan həyata keçirmək fikrində idilər. Odur ki, təlimatlandırılaraq İstanbula göndərilmiş şəxslər burada gözləyirdilər. Süni yolla Uhan laboratoriyalarının birində yetişdirilən virus ilk növbədə buradan dünyaya yayılmalı idi. Məqsəd isə həm türk xalqına çox zərər vermək, həm də lazım gələrsə Türkiyəni günahlandırmaq idi. Bütün bunlardan isə Çocuk və Göy Türkləri xəbərdar idi. Odur ki, bu virusun İstanbula gətirilməsinin qarşısı alınmalı idi.

Onurğasız hibridi olan təlimatlandırılmış iki şəxs artıq bir həftə idi ki, İstanbula yerləşmişdilər. Çindən göndərilən virus təlimata uyğun olaraq İstanbulun mərkəzindən, əhalinin sıx olan yerlərində yayılmalı idi. Belə yerlərin seçilməsi bu hazirlanan bakterioloji silahın insan sıxlığı çox olan yerlərdə da-

ha sürətli yayılmaq xüsusiyyətinə malık olması idi. Bu iki nəfər isə hadisələrin gedişatını izləməli, lazım olan yerə məlumat ötürməli idilər.

Nəzər-diqqəti cəlb etməmək üçün bu şəxslər kiçik, nisbətən ucuz oteldə yerləşmişdilər. Bunlardan biri orta yaşlı, ucaboylu, uzunsaçlı, kürən idi. İdman stilindəki qış geyimi görkəmini tamamlayırdı. Digəri isə orta boylu, dolu bədənli, qıvrım saçlı, nisbətən cavan biri idi. Əynində dəri gödəkcə vardı. Xarici görünüşcə fərqlənsələr də, niyyət, məqsəd bir idi. İstanbulda yerləşdikdən sonra şəhəri gəzmək üçün də xeyli vaxtları vardı. Düşüncələrinə görə beş-on gündən sonra bu şəhər ölü sükuta qərq olmuş şəhərə dönəcək, dünya xəbər tutana kimi ilk və daha çox qurban verən məhz bu yerlər olacaqdı. Odur ki, fürsəti əldən vermək istəməyən bu iki adam günün müəyyən saatında şəhəri gəzməyə çıxır, həm də hansı trayektoriya ilə hərəkət edəcəklərini bir daha dəqiqləşdirirdilər. Bu əsrarəngiz şəhəri və ölkəni heç cür məhv edə bilməyəcəklərini anladıqları üçün, ümumiyyətlə, dünyanı sıfırlayıb, yenidən başlatmaq məqsədiylə oynanılacaq oyuna buradan başlamağa qərar verilmişdi. Məqsədləri isə dünya nüfuzunu istədikləri səviyyəyə endirmək, qalanları isə özlərini bəsləmə qaynağı kimi istifadə etmək, insan nüfuzunu azaltmaq planlarını həyata keçirməklə istədikləri yerlərdə öz krallıqlarını qurmaqdır. İstanbulu isə mərkəz elan etməkdir. Düşüncələrində yaratdıqları

krallığın ən önəmli koordinatları isə tarixdən Mesopotamiya kimi tanınan özəl enerji və ley xətlərinin kəsişmə nöqtəsi olan coğrafiyadır. Yenidən Türklərə qarşı gəlsələr də vaxtilə necə məğlub olduqlarını unutmuşdular deyəsən. Az keçməyəcəkdi ki, planlarının pozulduğu bir daha onlara xatırladılacaqdı. Hələlik isə bu iki şəxs gəzintinin kefini çıxarırdı. Bu gün müştərilərə yüksək xidmətilə seçilən bir restoranda şam etməyi qərara aldılar. Restoranın pəncərələri arxasından İstanbulun Asiya hissəsi ilə Avropa hissəsini birləşdirən Bosfor boğazı üzərindən salınmış Boğaziçi körpüsü görünürdü. Sularda bərq vuran işıqlar boğaziçi sulara xüsusi rəng qatırdı. Üz-üzə əyləşmiş bu iki adam öz aləmlərində idilər. İstanbula gələn milyonlarla turistdən seçilməsələr də, bu gözəlliyi seyr etsələr də, bu onurğasızlardan törəyənlərin qəlbləri kinlə, nifrətlə dolu idi. Dünyanı cəhənnəmə çevirməyə hazırlaşanların buyruq qulu olan bu iki adam da ağaları kimi insan qanına susamışdı. İblis xislətli bu iki adam masa arxasında xeyli əyləşdilər. Gözəl türk təamlarından dadsalar da alçaq niyyətlərini bir an unutmadılar. Çünki onların zövq aldığı belə çirkin işlər idi. Zombiləşdirilmiş bu adamların kin, nifrət saçan gözləri bu gözəlliyi görsə də zövq ala bilməzdi.

Nəhayət, şam yeməyini bitirib masa arxasından qalxdılar və küçəyə çıxdılar. Otel çox da uzaqda de-

yildi. Piyada getsələr on-on beş dəqiqəlik bir yol idi. Odur ki, sahil boyu otelə doğru qalxmağa başladılar.

Bir az keçmiş artıq otelin qarşısında idilər. Gecədən xeyli keçməsinə baxmayaraq otelə girib-çıxan çox idi. Həmişə olduğu kimi dünyaca məşhur bu qədim şəhəri görməyə gələn insanların çoxluğundan otellərdə boş yer tapmaq müşkül idi. Amma onlar üçün öncədən yer rezerv edilmiş, hər şey plan üzrə təşkil olunmuşdu. Otelin önündə hərəyə bir siqaret yandırıb qapıya yaxın qoyulmuş oturacaqda əyləşdilər. Həm siqaretin tüstüsünü, həm şəhərin havasını ciyərlərinə çəkərək hər ikisi sakitcə ətrafı seyr edirdi. Burunlarından və ağızlarından çıxan burulğana bənzər siqaret tüstüsü isə şəhərin soyuq havasına qarışır, dağılaraq başları üzərində yox olurdu. Açıq havada xeyli oturdular. Nəhayət, otelə daxil olub foyenin sol tərəfindən, pilləkənlərlə qaldıqları otağa qalxdılar. İkinci mərtəbədə yerləşən 66 nömrəli iki adamlıq otağa yaxınlaşdılar. Kürən ciblərini xeyli axtarandan sonra acarı taparaq cibindən çıxardı. İçdikləri şərabın təsirindən başları hələ dumanlı idi. Odur ki, açarla qapını açmaq həmən mümkün olmadı. Sərxoş olan beyin əli sərbəst idarə edə bilmirdi. Nəhayət, kürən qapını açmağa nail oldu. Hər ikisi içəri keçdikdən sonra yenə də çətinliklə olsa belə açarı çıxarıb qapını itələyib bağladı.

Sərxoş kürən birtəhər çarpayıya yaxınlaşdı. Açarı çarpayının yanındakı gecə lampası qoyulmuş

tumbanın üzərinə, özünü isə çarpayının üzərinə atdı. Şərabın təsirindən süzülən gözlərini tavana dikdi.

Dolu bədənli adam isə gödəkcəsini çıxarıb çarpayının ayaq tərəfinə atdı, yana açdığı qollarının hərəkətiylə bir-iki dəfə yarım qövs cızdı. Sonra sakitcə gəlib çarpayıda uzandı.

Otaqda sakitlik hökm sürürdü. Gecənin qaranlığında otaqdakı stolüstü lampalardan süzülən işıq selinin əşyalarda sınaraq divarlara əks etdirdiyi böyük ölçülü kölgələr ürküdücü bir mənzərə yaradırdı.

Çox keçmədən bu mənzərəyə iki insan silueti də əlavə olundu. İlk baxışdan onların sərxoş beyinləri divardakı yeni görüntülərin mahiyyətini qavramaqda çətinlik çəkdi. Nə baş verdiyini anlamaq istəyən bu şəxslərin baxışları ilk növbədə qapıya dikildi. Qapı açılmamışdı, bağlı idi. Baxışlarını otağın pəncərəsinə tərəf yönəltdikdə, pəncərə önündə iki nəfərin onlara tuşlanmış sərt baxışlarıyla qarşılaşdılar. Bunlardan biri orta yaşlı, uca boylu, düz qamətli, qartal kimi kəskin baxışlı, o biri isə nisbətən gənc, orta boylu, qara saçlı idi. Otaqda özlərindən başqa daha iki nəfərin olduğunu deyəsən yavaş-yavaş anlayırdılar. Dumanlı beyinləri də artıq aydınlanırdı. Amma bu iki nəfərin otağa haradan və necə daxil olduqlarını heç cür anlaya bilmirdilər. Kürən adamla dolu bədənli adamın baxışları bir anlığa toqquşdu. Baxışlar bunlar kimdir, haradan peyda oldular?- deyirdi. Kəs-

kin baxışla onlara baxan adama isə sual verəcək halları yox idi.

-Sizi bura kimlərin göndərdiyini və nə üçün gəldiyinizi bilirik,- deyərək kəskin baxışlı adam sözə başladı. Amma daha gözləməyinizə lüzum qalmadı. Çünki gözlədiyinizi görə bilməyəcəksiz. Türkə düşmənlik etməsinlər, bu torpaqlardan artıq çəkilib getsinlər deyə biz onlara xəbərdarlıq etmişdik. Yenə nəticə çıxarmadılar. Nəinki bizə, bütün dünyaya oyun oynamağa qalxdılar. Bu oyun bizdən, buradan başlanmalı idi. Yenə kimə qarşı gəldiklərini unutdular. Artıq biz göydən yerə enmişiksə dünyanı düzənə salmayınca geri dönməyəcəyik. Bunu siz və sizi bura göndərənlər bilsin. Onlara bizim sözlərimizi çatdırın. Artıq onların çağı bitir. Sizə bir gün vaxt verilir. Gəldiyiniz kimi də geri dönün və buradan yox olun! Bu işi planlayanlara isə bizim sözlərimizi çatdırın. Artıq İstanbuldan başlatmaq istədikləri oyuna Çində start verildi. Kimin qalib olacağını zaman göstərəcək. Bu virusla dünyanı qorxu və xaos içində saxlamaq isdədiklərini yaxşı bilirik. Baxıb, görəcəyik. Saxlaya biləcəklərmi? Sonra dünyada iqtisadi çöküşdü hədəfləri. İnsanları yoxsulluq, aclıq içində buraxaraq özlərinə tabe etmək. Dünyanı yalnız özləri istədiyi kimi idarə etmək. Məqsədləri budur. Buyursunlar. Görək sonu onlar deyən kimi olacaqmı? Onların qarşısında dayanan güc də var. Bunu unutmasınlar. Elə düşünməsinlər ki, dünyanı insanlar üçün yaşanmaz hala gəti-

rərək özləri üçün dağlar altında hazırladıqları mağaralara çəkiləcəklər.

İndi isə yığışın! Sizə yalnız bir gün vaxt verilir. Geciksəniz, özünüzdən küsün! Yoxsa birdəfəlik həm həyatla, həm gəldiyiniz yerlə vidalaşacaqsız!

Nə kürənin, nə də dolu bədənlinin bir kəlimə belə deməyə cəsarətləri çatmadı. Elə bil hər ikisinin nitqi tutulmuşdu. Donuq nəzərlərlə bir-birinə baxaraq, bir kəlmə belə deməyə cəsarət etmədən susdular.

Hər iki çağırılmamış qonaq bir anda onların gözləri önündə yox oldu. Gəlişləri kimi gedişləri də müəmmalı oldu.

Amma bu həqiqət idi ki, onların bura gəlişlərinin məqsədindən xəbərdar idilər. Yoxsa qartal baxışlı adam Çindən söhbət açmazdı. Hər ikisinin artıq otaqda baş verənlərin təsirindən sərxoşluqları keçmişdi. Heyrət içində idilər.

Elə bu zaman hələ də baş verənlərin təsirindən çıxa bilməyən kürənin telefonu zəng çaldı. Gələn zəng okeanın o tayından idi. Kürən artıq onların da Çində olanlardan xəbərdar olduğunu təxmin etdi. Odur ki, həyəcanla və bir qədər də narahat halda telefonu açdı.

Zəng edən adam bir başa mətləbə keçdi:

-Bütün planlar alt-üst oldu. Uhandakı laboratoriyada qəza baş verib. Virus bizim planladığımız kimi Türkiyədən deyil, artıq Çindən dünyaya yayıl-

maqdadır. Sizin orada qalmağınıza daha ehtiyac yoxdur. Geri dönün.

Zəng edən adam bu sözləri deyib danışığı bitirsə də onun həyəcanlı səsi bir müddət qulaqlarından getmədi. Əsl həyəcan isə daha sonra, Uhanda və İstanbulda baş verən hadisələrin arxasındakı gerçəkləri öyrəndikdən sonra yaşanacaqdı.

Kürən onlara verilən möhlətin sabah bitdiyini xatırladı və dolu bədənli yoldaşına baxdı. O da az həyəcanlı deyildi. Baş verənlərə hələ də inana bilmirdilər. Çox gizli hazırlanmış bu plandan axı necə xəbər tuta bilərdilər. Bu adamlar kim idi? Necə olmuşdu ki, qəza baş vermişdi? Hələ ki, bütün bunlar müəmma olaraq qalırdı.

Artıq səhərin açılmasına az qalırdı. Onlara vaxt verən adam güzəştə gedənə oxşamırdı. Odur ki, şəhərdən tez çıxmaq lazım idi.

Aşağı enib otağın açarını təhvil verərək, taksi sifariş etdilər. Az sonra artıq taksi onları otelin qarşısında gözləyirdi. Taksiyə əyləşərək hava limanına doğru yol aldılar. Təxminən bir saatdan sonra hava limanında idilər. Hər ikisi taksidən enib hava limanında bilet satılan kassaya yaxınlaşdılar. Əllərindəki biletdəki uçuş vaxtına hələ bir neçə gün var idi. Odur ki, biletlərin vaxtının bu günkü reyslərdən birinə dəyişmək üçün müraciət etdilər və buna nail oldular. Biletləri beş saat sonrakı reysə  dəyişə bildilər.

Onlara yalnız reysi gözləmək qalırdı. Sonra nələr olacaqdı, onu okeanın o tayında biləcəkdilər.

Artıq təyyarə hava limanından okeanın o tayına istıqamət götürərək səmaya qalxmışdı. Hər iki sərnişin özlərinin acizliyini, cılızlığını içlərində boğaraq sakitcə təyyarənin salonunda, arxa sıralardan birində əyləşmişdi. Nə üçün gəlmişdilər və necə geri dönürdülər? Özləri belə olanlardan baş açmırdı. Uçuş müddətində bir an belə bu müəmma dolu fikirlər, anlaşılmazlıqlar onları tərk etmədi. Nəhayət, okeanın o tayındakı göydələnlər şəhərinə endilər. Və hava limanından birbaşa təlimat aldıqları yerə yollandılar. Başqa cür ola da bilməzdi. Çünki, tapşırığın nəticəsi barədə məruzə etməli idilər. Az sonra, günortadan xeyli keçmiş üz tutduqları məkana çatdılar.

Qapıda onları həmişə olduğu kimi cüssəli mühafizəçi qarşıladı. Gəlişlərinin səbəbini öyrənərək lazımi adamlara məlumat verdi. Cavab aldıqdan sonra :

-Keçə bilərsiniz,- deyərək əliylə qapını göstərdi.

Soldan birinci qapını döyən kimi,- içəridən gəlin- deyə səs eşidildi. Qapını açaraq hər ikisi içəri keçdi.

Masa arxasında amiranə baxışla onlara baxan yaşlı bir adam əyləşmişdi.

-Keçin əyləşin, deyə onlara səsləndi. Hələ də olanlara inanmağımız gəlmir. Planı olduğu kimi həyata keçirə bilmədik.

-Bizim də gördüklərimizə inanmağımız gəlmir, deyə kürən sözə başladı və baş verənləri olduğu kimi danışdı.

-Yenə də eyni güc. Eyni xəbərdarlıq. Bütün planlarımız ait-üst edilir. Sabah yenə məşvərət üçün bütün məsul olan şəxslər toplanacaq. Hansı qərara gələcəyik orada məlum olacaq. İndi isə gedin.

Hər ikisi qalxıb sakitcə otaqdan çıxdı. Son qərarı yenə məşvərət üzvləri verəcəkdi. Görünən o idi ki, hadisələr idarəolunmaz hal alırdı. Qarşılarında sipər olan qüvvə gözlədiklərindən də qat-qat güclü idi. Deyəsən, onlara edilən xəbərdarlıqda deyildiyi kimi artıq sonun başlanğıcı gəlmişdir. Və tamam başqa, yeni çağ başlayırdı.

## F Ə S İ L - 32

Baş verən hadisədən sonra bir neçə dəfə toplantı keçirsələr də konkret bir nəticəyə gələ bilməmişdilər. Növbəti toplantı isə bu günə təyin olunmuşdu. Səhər saat 10:00-da artıq toplantı iştirakçıları böyük dəyirmi masa arxasında öz yerlərini almışdı. Toplantını yenə də xüsusi mövqeyi olan adam idarə edirdi. Qara haşiyəli eynək taxan rahib, kürən və dolu bədənli adamla söhbət edən yaşlı adam da iştirakçılar arasında idi. Yenə təkrarlanan uğursuzluq müzakirə olunurdu. Onlara qarşı duran gücün qarşısında aciz idilər. Etiraf etmək istəməsələr belə, baş verənlər bunu deməyə əsas verirdi. Bu həmlələri də baş tutmamışdı. Dünyanı bürüyən qarşısıalınmaz hadisə baş vermişdi. Əvvəl təsadüf kimi bildikləri hadisə, Tür-

kiyəyə göndərilmiş iki şəxsin söylədiklərindən sonra təsadüf olmadığını, oynadıqları oyunun onlara qarşı çevrildiyini öyrənmişdilər. Hələ ki, dünya xəbərsiz idi. Xəbərdar olanlar isə Uhanda yerləşən laboratoriyanın əməkdaşları, onlar özü və planı pozan qüvvələr idi. Amma baş verən hadisənin qarşısını almaq mümkün deyildi. Virusun yayıldığı coğrafiya sürətlə genişlənməkdəydi. Vəziyyət çox ciddi idi. Bəlkə, özləri də bundan xilas ola bilməyəcəkdilər. Buna baxmayaraq məsuliyyətdən yayınaraq nə yolla olursa- olsun, məqsədlərini həyata keçirmək fikrində idilər.

Hələlik isə heç bir qərara gələ bilmirdilər. Artıq qarşılarındakı gücün də hansı səviyyədə olduğunu təxmin etmişdilər və bu onları vahiməyə salırdı.

Çində yeni bir virusun törətdiyi xəstəliyin yayılması özünü çox gözlətmədi. 2019-cu ilin sonunda dəhşətli bir virus infeksiyasının sürətlə yayılması xəbərləri gündəmi zəbt etdi. Yanvar ayında isə xəstəlik artıq okeanın o tayına da çatmışdı. Mart ayında isə artıq xəstələrin sayına görə onların ölkəsi digər ölkələri geridə qoymuşdu. Etmək istədikləri bumeranq kimi özlərinə dönmüşdü. Qitəni xaos bürümüş, həyat iflic olmuşdu. Çin günahlandırılırdı. Qarşı tərəf isə təkzib edirdi.

Əslində isə bu ideya elə okeanın o tayından gəlmişdi. Dünyanı bioloji silahla vurmaq. İnsan nüfuzunu, artımını minimuma endirmək. Planlaşdırdıqları üsulla insanları və dünyanı idarə etmək. İşlər burada

başladılsa da sonra gizli yolla Çinin laboratoriyalarından birinin əməkdaşı ilə razılığa gəlinmiş, ondan istifadə etmək qərarına gəlmişdilər. Sonda isə nə okeanın o tayındakıların, nə də Çinin düşündüyü olmuşdu. Bu oyun hər iki tərəf üçün üçüncü bir qüvvə tərəfindən pozulmuşdu. İndi isə günahı biri digərinin üzərinə atmağa çalışırdı. Üçüncü qüvvəyə təsir etmək imkanları isə yox idi. Bundan sonra onları nə gözlədiyini belə təxmin edə bilmirdilər. Qərbin düşündüyü kimi Çin iqtisadiyyatının inkişaf tempi duşsə də, özləri də bu bataqlıq içində çabalayırdılar. Nə zaman, necə, hansı yolla çıxacaqlarını isə hələ bilmirdilər.

Bu mövzu ətrafında müzakirə çox uzun çəkdi. Toplantı iştirakçıları nə bir nəticə çıxara bilir, nə bir qərara gələ bilirdilər. Odur ki, müzakirəni sabah davam etdirmək qərarına gəldilər.

İştirakçılar bir-bir otaqdan çıxmağa başladılar. Sonuncu çıxanlar isə qara haşiyəli eynək taxan rahib və yaşlı adam idi. Yaşlı adam ağır addımlarla pillələri enib onu gözləyən avtomobilə yaxınlaşdı. Sürücü oturacağı arxaya çəkərək yarı uzanmış halda mürgüləyirdi. Görünür gözləmək onu yormuşdu. Hava soyuq olduğu üçün pəncərə şüşələrini də bağladığından yaşlı adamın yaxınlaşdığını hiss etmədi. Yalnız yaşlı adam qatlanmış barmaqlarıyla bir neçə dəfə avtomobilin pəncərəsinin şüşəsini döyəcləyəndən sonra onun gəlişindən xəbərdar oldu. Tez qapını açaraq

aşağı endi. Cəld hərəkətlə ön oturacağı yenidən yerinə çəkib qapını bağladı. Sonra arxa qapını açıb yaşlı adamın avtomobilə əyləşməsini gözlədi. Onun əyləşərək yerini rahatladığından arxayın olduqdan sonra qapını bağlayaraq yenidən keçib sükan arxasında əyləşdi .

-Cənab, gedə bilərik?

Cavab çox qısa oldu.

-Evə sür!

-Oldu cənab.

Yol boyu səssizlik hökm sürürdü. Sürücü gözünü yola dikərək orta sürətlə avtomobili idarə edir, yaşlı adam isə düşüncəli görünürdü. Hərdən qaşlarının çatılması və üz cizgilərində yaranan gərginlik vəziyyətin heç də yaxşı olmamasından xəbər verirdi.

Onun yaşadığı ev isə toplantının keçirildiyi göydələndən xeyli uzaq olsa da yol boyu bir kəlmə belə danışmadı. Gözlərini məchul nöqtəyə dikib hey fikirləşirdi. Avtomobilin dayanması onu fikrindən ayırdı.

Artıq mənzil başına çatmışdılar.

Sürücü yenə cəld hərəkətlə düşüb avtomobilin arxa qapısını açdı:

-Buyurun, cənab.

Yaşlı adam avtomobildən enərək mənzilinə qalxmazdan əvvəl sürücüyə sarı dönərək:

-Sabah da həmişəki vaxtda burada ol.

-Oldu, cənab!

Sürücü yenidən avtomobili işə salaraq oradan uzaqlaşdı.

Ağır addımlarla binaya daxil olan yaşlı adam liftin düyməsini basdı. Heç gözləmək lazım gəlmədi. Birinci mərtəbədə dayanmış liftin qapısı taybatay açıldı. Liftə daxil olaraq 13-cü mərtəbəyə qalxmaq üçün düyməni basdı. Yaşadığı mərtəbədə dayanan liftin qapısı açılan kimi, liftdən çıxaraq mənzilinin qapısına yaxınlaşdı. Hələ liftdə cibindən çıxarıb əlində hazır tutduğu açarla qapını açaraq içəri daxil oldu.

Mənzildə tək yaşayırdı. Çox vaxt özüylə həmfikir yoldaşları da bu mənzilə gələr, məkrli niyyətləri üçün planlar cızar, uzun-uzadı müzakirələr aparardılar. Qaragüruh yuvası olan bu mənzil çox söhbətlərin şahidi olmuşdu. Bu gün isə mənzil sahibi tək idi. Yorğunluğunu çıxarmaq üçün vanna otağına keçərək duş qəbul etdi. Sonra keçib divanda əyləşdi. Televizoru işə salaraq kanalları bir-bir çevirərək nəhayət, xəbərlərin yayımlandığı kanalı izləməyə başladı. Yenə mövzu "COVID -19" idi. Dünyanın və özlərinin başına bəla olan bu mövzudan evdə də yaxa qurtara bilməmişdi, baş verənləri bir daha düşünüb əsəbləşdi.

-Hər şey məhv oldu, lənətə gələsiz!- deyərək dodağının altında mızıldandı.

Daha yataq otağına keçməyə də həvəsi qalmamışdı. Elə divanın üzərində olan kiçik balışı başının altına qoyaraq yuxuya getməyə çalışdı. Amma yuxusu ərşə çəkilmişdi. Heç çür yuxuya gedə bilmirdi. Bir

neçə dəfə o tərəf, bu tərəfə çevrilsə də yuxuya getməsi mümkün olmadı. Elə bu zaman mənzilin pəncərəsindən balkona işıq selinin düşdüyünü gördü. Gözləri önündə işıq seli süzülərək içəri doldu. Bir anda işıq topasının yox olduğunu, yerində sərt baxışlı, ciddi görkəmli birinin dayandığını gördü. Adam birbaşa sözə başladı:

-Biz sizə iki dəfə xəbərdarlıq etdik, yenə nəticə çıxarmadınız! Bu üçüncü və sonuncu xəbərdarlıqdır! Bundan sonra olacaqları görəcəksiz. Biz səbirliyik. Səbirli olduğumuz qədər də tədbirli və güclüyük. Siz, bütün insanlar və digər canlılar üçün məkan olan yer kürəsini istədiyiniz hala salmaq üçün, insanları istədiyiniz kimi idarə etmək üçün min cür plan düşündünüz. Elmi texnologiyadan istifadə edərək insanlara qəsd etmək planı qurdunuz, müharibələri alovlandırdınız. İnsanların canına qəsd etdiniz. Sağlamlığını əlindən aldınız, dərmanlardan asılı hala salaraq, sonra min bir adda dərmanlar satdınız. Məqsədiniz pandemiya oyununda həm "virusa qarşı vaksin hazırladıq" deyərək, oyunu davam etdirib milyonlar qazanmaq, həm də insanları kölələliyə öyrətmək, necə istəsəniz idarə etməkdir. Amma yandırdığınız kibritlə özünüz də yanacaqsız. Özünüzün də yandığınız pandemiya cəhənnəmindən qurtulmağın yollarını axtaracaqsız.

İnsanların mənəviyyatına təcavüzünüz də illərdir davam edir. Özü də mədəniyyət adı altında.

Sizin proyektiniz olan "tanınmış simalar" vasitəsilə əxlaqsızlıq, israf, şeytani duyğular təbliğ etdiniz. Gərəksiz olan, amma milyonlarla pul xərclənən geyim və yeyinti məhsulları satdınız. İnsanları belə yaşama alışdırdınız. Kreditlə alış-verişin sərfəli olduğuna inandıraraq insanları borclandırıb, özünüzdən asılı hala saldınız. Bütün bunları edərkən özünüzün əsl simanızı, kimliyinizi gizlətdiniz. Amma bizdən gizlənə bilməzsiz, əsl məqsədinizi də gizlədə bilməzsiz!

Etdiklərinizin fərqindəsiniz. Bütün bu etdiklərinizlə kifayətlənməyəcəyinizi də bilirik. İnsanları bir-birinə düşmən etdiniz. Dini ayrı-seçkilik yoluyla, iqtisadi tənəzzül yoluyla nifrət, eqo toxumu səpərək insanları bir-birinə qarşı qoydunuz.

İndi isə hədəfinizə yetmək üçün onları qorxu işində evlərə həbs etmək, ürəklərinə qorxu toxumu səpmək, özünüzə tabe etməkdir. Edə bildinizmi? Özünüzün də vəziyyətiniz qurbanlarınızdan fərqlənmir. Hər cür imkanınız olsa da yaşamaq üçün vacib olan havaya, dənizə, təbiət qoynunda vaxt keçirməyə siz də uzun müddət həsrət qalacaqsız.

İndi dünyanın pandemiya nəticəsində necə dəyişdiyinin çoxları fərqindədir. Dünyanın sivil, mədəni kimi tanıdığı ölkələrin də insanlarının panikadan doğan təlaşla marketlərə, mağazalara qaçaraq, gərəkli-gərəksiz, lazım olandan dəfələrlə çox məhsul almasının hər kəs şahidi oldu. İki-üc nəfərdən ibarət ailələrin on beş-iyirmi çörək, paketlərlə tualet kağızı

alması isə heç bir düşüncəyə sığmır. Panika məntiqlə düşünməyi arxa plana keçirdi. Sizlər insanları gülünc günə qoydunuz. "Ağıllı insan budurmu?" mesajini verdiniz. Ürəyi insana sevgi ilə dolu insanları isə heç vaxt qorxuda bilməyəcəksiz! Onların dirənişini siz də görəcəksiz. Zaman gələcək ki, onların sizin kimilərin toruna düşərək, siz qazanasız deyə insanları alışdırdığınız yaşam tərzinin lazımsız olduğunu anlamağa başladığlarının fərqində olacaqsız. Ağılagəlməz dərəcədə pullar xərcləndiyi geyimlərin, əşyaların, yüksək məbləğdə pul xərcləyib izlədikləri oyunların, eyş-işrət məclislərinin gərəksiz olduğunu anlayacaqlar. Keçici bir dünyada aza qane olaraq yaşamağı öyrənəcəklər bəlkə. Əslində, insan üçün qiymətli günəşin, dənizin, yağışın, bir sözlə Tanrının onlara bəxş etdiyi canlı təbiətin olduğunu anlayacaqlar.

Niyyətiniz baş tutmayacaq! Bunu bilin. Nə etsəniz də, nə düşünsəniz də insanları əsir ala bilməyəcəksiz. Şeytanın özü gəlsə belə, insanlığı bitirə bilməyəcəksiz. Çünki sizin güvəndiyiniz şeytani gücə qarşı rəhmani güc var. Bunu bir dəfəlik hamınız bilin. Onlar sizi bitirməyincə geri dönməyəcəklər. Bəlkə bu dava  bir qədər uzun çəkəcək. Bəlkə neçə on illiklər, bəlkə də bir neçə yüz il. Amma sizin sonunuz gələcək. Dünya hüzura, rifaha qovuşacaq. İnsanlar insan kimi, gözəl yaşayacaq. Artıq şeytani çağ bitir. Daha gözəl bir dünya yaşamının başlamasına az qaldı.

Rəhmani çağ başlamaqdadır. Göy Türkləri yerə endi artıq. Unutmayın, Türklər tarix boyu bir çağı bağlayıb, yeni bir çağ açan millətdir!

Bütün bu söylənilənləri yaşlı adam heyrət içində dinlədi. Cəsarət edib bir kəlmə belə deyə bilmədi. Artıq qarşısındakının kim olduğunu təxmin etmişdi. Çünki İstanbulda baş verənlərdən xəbərdar idi.

Qarşısındakı adam gəldiyi kimi də bir anda işınlanaraq yox oldu.

Yaşlı adam yerində donmuşdu. Demək, çox böyük güclə qarşı-qarşıyadırlar. Nə qədər elm, zəka işlətsələr də onlardan üstün ağıl var. Və onlardan min illərlə irəlidədirlər.

Yaşlı adamı soyuq tər basdı. Deməli, toplantı da artıq əbəsdir. Nə düşünüb nə etsələr də bu gücü yenə bilməyəcəklər.

## F Ə S İ L - 33

Gülcə son zamanlar evlərinə yaxın olan, yeni salınmış istirahər parkında gəzməyə tez-tez çıxardı. Zövqlə inşa edilmiş bu parkda gəzməyi çox sevərdi. Təbiətə bağlılığı böyük idi.

Səhər dan yeri sökülləndə Günəşin zərrin şəfəqləri Xəzərin mavi sularında bərq vurar, əsrarəngiz bir mənzərə yaradardı. Gülcə səhərlər Bakının bu istirahət parkında gəzintiyə çıxdığı zaman ilk gördüyü bu mənzərə idi. Seyr etdiyi bu gözəllikdən ruhu san-

ki göylərə çəkilər, oradan bu gözəl şəhərə, mavi Xəzərə heyranlıqla baxar, gördüyü gözəlliyin yaratdığı duyğular tez-tez dilində misralara çevrilərdi:

Günəşi topladım dəniz üstündən,
Zərrin şəfəqlərin saçıma səpdim,
Bir ovuc su alıb mavi Xəzərdən,
Dənizə qarışmış Xəzəri öpdüm.

Şəhərin mərkəzində yerləşən məhəllələrindən birindəki köhnə evlərdən çoxunun sökülərək yerində salınmış bu gözəl parkın bir özəlliyi də vardı. İstirahər parkı avtomobillərin hərəkət sıxlığı çox olan küçə ilə prospektin arasında yerləşməsinə baxmayaraq, parka keçidlər mükəmməl idi. Hər şey burada istirahət edəcək insanların rahatlığı üçün hesablanmışdı. Heç bir çətinlik çəkmədən yeraltı və yerüstü keçidlərdən parkın istənilən tərəfinə keçmək olurdu. Bu da Gülcənin çox xoşuna gəlirdi. O, şəhər içində təbiətin kiçik bir parçası olan bu yaşıllığa bürünmüş ərazini gəzərkən burada çalışan, bu gözəlliyi qoruyan sadə insanlara, onların gördüyü işlərə də tamaşa edərdi. İnsan əli necə gözəlliklər yaratmağa qadirdir. Elə bil kiçik bir cənnət idi bu park. Bu gün də parka qulluq edən yaşlı bir kişinin necə bir həvəslə çiçəklərin dibini alaq otlarından təmizlədiyini gördü. Yaxınlaşıb salam verdi. Yaşlı adam başını qaldıraraq razılıq hissiylə salamı aldı.

-Buralara necə gözəl baxırsınız, əlləriniz ağrımasın, dayıcan.

-Sağ ol, qızım. Allah razı olsun.

Yaşlı adam bu salamı bir fürsət bildi. Elə bil, adamın dərdi açıldı:

-Bilirsən qızım, insanlar çox dəyişib. Təbiətin, bizə bəxş edilən bu gözəlliyin qədrini, qiymətini bilmir. Çoxu yalnız qırıb-dağıtmaqla məşğuldir. Çəmənliyə tullanmış plastik butulkaları, kağız qırıntılarını bir yerə toplayaraq söhbətinə davam etdi:

-Məyər bunları zibil qutusuna atmaq olmazdı?

-Əlbəttə olardı, dayıcan.

-Amma çoxu bu adi təmizlik qaydalarına belə əməl etmir.

Gülcə yaşlı adamın yanında-çəmənlikdə əyləşdi. Özünü də günahkar kimi hiss etdi. Özü bunu etməsə də, bunu edənlərin hərəkətlərinə görə utanc hissi keçirdi. Torpaqda işləməkdən əllərinin dərisi kobudlaşmış bu yaşlı adamın ovuclarında, barmaqlarında yaranmış qabarlar da Gülcənin gözündən yayınmadı:

-Hər kəs təbiəti, ətrafı belə qorusaydı, qayğı göstərsəydi, dünya cənnət olardı, dayıcan.

-Elədir, qızım.

Amma Gülcənin yaşadığı dünya haqdan, həqiqətdən, səmimiyyətdən uzaq idi. Belə bir dünyada yalnız öz daxili aləminə çəkilərək rahatlıq tapırdı Gülcə. Son zamanlar onu üzən, ruhunu sıxan bir mü-

hitdən ayrılaraq, rahatlıq tapdığı, həmfikir olduğu dostlarıyla danışıb fikir bölüşdüyü virtual dünyası da vardi. Buradakı bir çox səmimi, düşüncələri üst-üstə düşən dostlarıyla fikir mübadiləsi edir, dünyada baş verən hadisələri müzakirə edirdilər. Dünya yaşamı əslində belə olmamalıydı. Yaradan bu gözəlliyi, təbii zənginliyi insan üçün yaratmışdı. İnsan da bu gözəlliyi qoruyaraq, dünya nemətlərindən doğru-düzgün istifadə edərək sevgi, hüzur, gözəllik içində yaşamalıydı. Bu gün dünyamız nə gündədir ilahi?! Torpaq da, hava da, su da, bir sözlə təbiət can üstədir. Bu qədər odun, alovun, çirkabın içində yaşam mücadiləsi verir.

Türk törəsində isə təbiətə sevgi, doğru yanaşma olub. Ağac, su müqəddəs sayılıb. Təbiəti, suyu çirkləndirməyiblər. Türk inancında ətrafa, təbiətə, cevrəndəki insanlara dua var. Çocuk da türk ruhunun iziylə get, orada kodlaşmış bilgilər var demişdi. Təkcə türklüyə deyil, insanlığa xidmət edən bəşəri düşüncələr var. Təbiətə bu düşüncə ilə yanaşma olsaydı, bəlkə də dünyada ekoloji vəziyyət belə fəlakət həddinə çatmazdı. Çocuk Göy Türklərinin məskəni olan Ötüken planetindən danışanda orada bir çiçək belə özündən izin alınmamış dərilməz deyirdi. Deməli, yer türklərindən, dünya insanlarından fərqli olaraq, Ötükendə yaşayan Göy Türkləri bu gün də öz törələri ilə yaşamağa davam edir. Bu da onların daha

çox inkişaf etməsinə təkan verib. Onlar yüksək ağılın, zəkanın köməyi ilə sahib olduqları texnalogiyalarla başqalarının torpağına, sərvətinə yiyələnmək üçün müharibələr aparmırlar. Əksinə, yaratdıqları texnalogiyalardan Tanrının onlara bəxş etdiklərini qorumaq, israf etməmək, doğru-düzgün istifadə etmək üçün istifadə etməkdədirlər.

Bunları düşünən Gülcənin ürəyindən onu qorxudan bu fikir keçdi: bir gün təbiət ona qarşı olan dünya insanlarını cəzalandırsa necə? Düşüncələr içində yenidən baxışları yaşlı adama doğru çevrildi. Adam yenə öz işində idi. Sanki hər çiçəyi, hər otu əzizləyir, kobudlaşmış əlləriylə onlara sığal çəkirdi.

-Nə yaxşı ki, sizin kimi insanlar var. Bəzi insanları başa salmaq çətindir. Bəlkə də təbiətdən çox uzaq düşüblər. Daha doğrusu sosial şəbəkə, virtual aləm insanları, xüsusən gəncləri təbiətdən, cəmiyyətdən çox uzaq salıb. Belə vəziyyətin yaranmasında bəlkə bizim nəslin də xətası var.

Bu sözləri deyərək Gülcə qalxıb yaşlı adamla sağollaşdı.

Yaşlı adam başını qaldıraraq:

-Sağ ol qızım, bu dünya hamımızındır. Gənclərimiz də yəqin ki, başa düşərlər. Yaşlı adam mərhəmət, ümid dolu baxışlarla Gülcəni yola saldı və yenə öz işinə davam etdi.

Gülcə də yoluna davam edərək evlərinə doğru yol aldı.

Bir neçə gün sonra isə Avstraliyada başlayan dəhşətli meşə yanğınlarının xəbəri ildırım sürətiylə bütün dünyaya yayılmağa başladı. Bütün qitə yanırdı. Bəlkə də bütün bunlar təbiətə düşmən kəsilən insanların əməllərinin nəticəsi idi.

Gülcə yenə də sağlam düşüncəli, mayası səmimiyyətlə, mərhəmətlə, Yaradana sevgiylə, Yaradana xatir yaradılana hörmətlə yoğrulmuş yer kürəsində yaşayan türklərin əcdadı olan Göy Türklərinin təbiətə olan yanaşmasını xatırladı. "Bəlkə, bir ağac bizdən daha ağıllıdır" deyirdi hər kəsə və təbiətə sayqılı olan, dəyər verən Göy Türk bəyi.

Dünyada bütün baş verən bu hadisələri düşündükcə dünyanı bürüyən ekoloji fəlakətin qloballığı, ciddiliyi Gülcəni çox narahat edirdi. Dünyanın aqibəti haqqında ciddi düşünmənin vaxtı çatmamışdımı?

Özünün oturduğu budağı kəsmənin, gəmidə oturub gəmiçiylə dava etmənin axırının necə qurtaracağını deyəsən heç kim düşünmək istəmirdi. Başına min bir oyun açdıqları dünyadan başqa onların yaşamağa başqa yerləri olmadığını hələ də anlamaq istəmirdilər. Belə fəlakətlər fonunda dünyada çox qəribə hadisələrin də baş verdiyi xəbərləri yayılırdı. Avstraliyada yanğınlardan sonra su qıtlığı yaranmışdı. Guya bu fəlakətin qarşısını almaq üçün dəvələri öldürməyə başlamışdılar. Bu acı gülüş doğuracaq bir qərar idi. Suya ən az tələbatı olan dəvələri öldürmək...

İnsan deyil, yaradanın diktəsi ilə təbiət bu hadisəyə qarşı gözlətmədən öz qərarını verdi. Yağan güclü yağış, qopan tufan nəticəsində Avstraliyanı su basdı. Və bu hadisə ilə təbiət tərəfindən düşünüb nəticə çıxarma zamanının gəldiyinə bir mesaj verildi.

Görəsən, belə bəd əməllər bu xəbərdarlıqla bitəcəkdimi?

Günlər sonra dünyanı bürüyən daha bir fəlakət dalğası hər şeyi arxa plana keçirdi. Gülcənin qorxduğu baş vermişdi. Bir fəlakət bitməmiş, daha böyük bir dəhşətli fəlakət dünyaya meydan oxumağa başladı. İlin əvvəlindən Çində yeni bir virusun yayıldığı xəbəri gündəm olmuşdu. Əslində, virusun yayılması artıq 2019 cu ilin dekabr ayından başlamışdı. Meydana çıxdığı Uhan bölgəsi qapalı bölgə elan edilmiş, insanların evdən çıxmasına belə qadağa qoyulmuşdu. Oradan verilən reportajlar sanki hansısa Hollivud filminin kadrları idi. Amma bu bir dünya həqiqəti idi.

Xəstəlik sürətlə artdığından bu bölgə qapalı zona elan edilmiş, bütün giriş, çıxışlar bağlanmışdı. Hər yer dezinfeksiya edilir, xəstəxanalar, tibbi ləvazımarlar çatmırdı. Ölüm halları da sürətlə artırdı. Artiq xəstəliyin ilkin simptomları görünən hər kəs ciddi karantin nəzarətinə götürülürdü. Hətta, getmək istəməyənlər zorla aparılaraq karantin nəzarəti üçün ayrılmış qapalı yerlərdə yerləşdirilirdi.

Xəstəliyin heyvanlar saxlanan bir məkandan yayıldığı deyilsə də xəstəliyin hansı yolla, hansı şərait-

də yayılması Çinə yaxşı məlum idi. Çin artıq şüşədən çıxmış cini tutub yenidən şüşəyə salmaqda aciz idi. Epidemiyanın pandemiyaya çevrilməsi təhlükəsi günü- gündən artırdı.

Dünya yeni ilə dünyanı vahiməyə salan xəbərlərlə başlamışdı. Yanvar ayından Gülcənin vətəninə qonşu olan İranda da xəstəlik durmadan artmağa başladı. Və İran da xəstəlik qarşısında aciz duruma düşdü. Kütləvi ölümlər və bu üzdən yaranan kütləvi məzarlıqlar artmağa başladı. Tibb də bu virus qarşısında hələ ki, aciz görünürdü. Görünməz düşmən dünyaya müharibə elan etmişdi. Bir-biri ilə münaqişə aparan, torpaq, sərvət iddiasında olanların cəbhəsi artıq dəyişmişdi. Hər kəsin başı görünməz düşmənlə mübarizəyə qarışmışdı. Görünənsə o idi ki, bu düşmən onlardan da amansız idi, getdikcə bütün dünyanı cənginə alırdı. Gündəlik həyat iflic olmuşdu. Bir-birinin ardınca sərhədlər bağlanır, hər ölkə öz sərhədləri daxilinə çəkilirdi.

Artıq Avropa da virusa təslim olmuşdu. Bir- birinin ardınca güc dövlətləri sürətlə yayılan bu yoluxucu xəstəliyə təslim olurdu. Çox keçmədən xəstəlik bütün dünyanı bürüdü. Nə xəstəxanalar, nə də tibbi ləvazımat çatırdı. Ölənlərin sayı sürətlə artırdı. Ölənlərin sayı çox olduğundan dəfn etmək belə müşkülə çevrilmişdi.

Gülcənin də vətəni xəstəliklə mübarizə aparanlar sırasında idi.

Gülcə aylar öncə Çocuğun yazdığı mesajı xatırladı. "Dünyanın düzəni çox dəyişəcək" yazmışdı. Dünyada nə baş verirdi? Kimlər, hansı fəlakətə sürükləyirdi dünyanı? Hələ ki, dünya sakinlərinin çoxu üçün bir müəmma idi bu hadisələr. Nə baş verirdi? Kürəsəl dünya gücləriydimi? Ya dünyanı əvvəlki qaydalarla idarə etmək istəyən ulusal güclər idimi? İnsanları köləmi etmək istəyirdilər? Ya dünyanı bir mərkəzdənmi idarə etmək istəyirdilər? Gülcə bütün bunlardan Göy Türklərin xəbərdar olduğunu yaxşı bilirdi. Hadisələr də buna sübut idi. Axı ona xəbərdarlıq edilmişdi. Və hadisələrin də gedişatı buna sübut idi.

Bu dəhşətli pandemiyanın yaranmasında kimin, yaxud nəyin günahkar olmasından asılı olmayaraq dünya bu hadisələri yaşayırdı, qaçıb can qurtarmağa başqa bir yer də yox idi. Hər ölkə doğru bildiyi addımı atır, bəzi ölkələr Çini vaxtında dünyanı xəbərdar etməməkdə günahlandırırdılar. Çox ölkələr daha ciddi tədbir görürdü. O cümlədən Gülcənin ölkəsi də. Hadisələrin gedişatına uyğun qərarlar çıxarılır, qadağalar sərtləşdirilirdi.

Gülcə bu gün səhər yuxudan küçədə səs gücləndiricilərlə verilən bir elanın sədaları altında oyandı. Hövlənək özünü pəncərənin önünə atdı. Tələsik pəncərəni açdı. Post Patrul Xidmətinin maşınından polislər şəhər sakinlərinə müraciət edirdilər:

- Zərurət olmadığı müddətcə evdən çıxmayın. 65 yaşdan yuxarı yaşlıların evdən çıxması qadağan olunur. Şəhərdə gəzərkən iki metrə məsafə saxlayın. Küçələrə çıxarkən qoruyucu maskalardan istifadə edin.

Yuxudan tam ayılmayan, hələ yarıyuxulu olan Çülcəyə elə gəldi ki, yuxu görür. Özünün də yaşadığı və çox sevdiyi bu şəhərdə nə baş verirdi? Şəhərdə sanki hərbi rejimə keçilirdi. Hətta, o belə vəziyyətin onun yaşadığı bu şəhərdə belə ciddi hal alacağını gözləmirdi. Gözəl bir aprel səhərində eşitdiyi və gördüyü bu mənzərə Gülcənin əhvalını pozdu. Vəziyyət ciddi hal alırdı.

Bütün dünya evlərə "həbs" olunmuşdu. Gülcənin ölkəsi də o cümlədən. Xəstəxanalar xəstəliyə yoluxanlarla dolub daşır, dünya insanı yaşam mücadiləsi verirdi. Neçə illər müharıbə meydanlarındakı həyat mücadiləsi indi səhiyyə sahəsinə keçmişdi. Hər kəs bu virusun əlində aciz qalmışdı. Bəlkə də, dünyanı idarə etmək istəyənlərin ağıl gücləri virusla bir təcrübə sınağı keçirirdi. Bu nə qorxulu film, nə də fantastik film idi. Yaşanan dünya həqiqəti idi. Son on ildə dünya terrorlarla təhdid edilirdisə, bu gün qansız, partlayışsız bir virus terroru insanları məhv edirdi.

Hələ ki, dünya hərəkətsizdi. Və hər kəs canını qurtarmağa çalışırdı və başı öz sağlıq probleminə qarışmış haldaydı.

Gülcə bu düşüncələrlə pəncərə önündən çəkildi. Artıq yuxusu qaçmış, düşüncəsi aydınlanmışdı. Yatağının yanından xalatını götürüb əyninə geydi. Xalatın yaxasını üst-üstə gətirərək belindən kəməriylə bağladı. Dağılmış saçlarını əlləri ilə daraqlayıb əlində saxladığı saç sancağı ilə arxada bir yerə bənd elədi. Ayaqlarını sürüyə-sürüyə, fikirli halda yataq otağından çıxdı. Bu gün istirahət günü olduğundan işə də getməyəcəkdi. Əl-üzünü yumaq üçün vanna otağına keçdi.

Az keçmiş, əl-üzünü yuyub qurulayaraq yenidən otağa qayıtdı. Əllərini üzünə, sonra saçlarına gəzdirərək bir daha özünü səliqəyə saldı. Adəti üzrə əllərini önə uzadaraq, barmaqlarını bir-biribə daraqlayaraq dartınmağı da unutmadı. Artıq çay qoymaq olardı. Mətbəxə keçib çaydanı su ilə doldurub alışdırdığı qaz sobasının  üzərinə qoydu. Adətən çay hazır olana kimi işə hazırlaşardı. Vaxt itirməzdi. Bu gün istirahər günü olduğundan, daha arxayınlıqla hərəkət edirdi. Odur ki, keçib divanda əyləşdi və televizoru işə saldı. Qarşısına çıxan ilk kanalda xəbər verilişi transliyasiya olunurdu. Gündəm isə "Korona" mövzusu idi. Çox bəyəndiyi aparıcı özünəməxsus, fərqli səs tonuyla danışır, gündəmdə olan hadisələrə öz yanaşmasından çıxış edərək fikir bildirirdi. Onun hadisələri bir qədər də özünün fəlsəfi düşüncə baxımından izah etməsi Gülcənin həmişə diqqətini cəlb edərdi. Bu aparıcı hadisələrə yaradıcı yanaşar,

sanki tamaşaçısıyla birbaşa fikir mübadiləsi aparardı. Hərdən əlləriylə alnına tökülən çal saçlarını arxaya darayar, qalın haşiyəli eynəyini sağ əli ilə düzəldərdi. Adama elə gəlirdi ki, ekran arxasından tamaşaçısını daha yaxşı görmək üçün belə edir. Gülcə də bu aparıcını dinlədikcə onun fikirlərini ya özlüyündə təsdiqləyər, ya da razılaşmazdı.

Bu gün də dünyanı bürüyən bu virus bəlası gündəm olduğundan verilişin vaxtı bir qədər də uzadılmışdı. Aparıcı isə durmadan dünyada gündəm olan hadisələrin şərhini verir, bir hadisədən o birinə keçid alırdı.

"Korona" virusu haqqında danışarkən isə aparıcı belə bir ifadə işlətdi: "Çində cin artıq şüşədən çıxdı". Aparıcı yenə də öz fərqli ampulasında idi. Gülcə bu ifadəyə gülümsəyərək yerindən qalxdı və mətbəxə keçdi. Çox qəribə idi, Gülcə də bu virusu şüşədən çıxmış cinə bənzədirdi. Bu gün sevimli teleaparıcısı da Çindən dünyaya yayılan virus haqqında danışanda bu ifadədən istifadə etmişdi. Mətbəxdə də xəbərlərə diqqət kəsildi. Çünki hadisələr o qədər dinamik inkişaf edirdi ki, hər dəqiqə yeni bir xəbər eşitmək mümkün idi.

Gülcə tələsik çayı dəmləyib səhər yeməyi üçün lazım olanları masaya düzməyə başladı. Və mətbəxdə televizoru işə salaraq verilişi buradan izləməyə davam etdi. Qonaq otağına keçərək orada işlək qalan

televizoru şəbəkədən ayırdı. Yenidən mətbəxə dönərək masanın arxasında, televizorla üzbəüz əyləşdi.

Aparıcı tamaşaçılara ölkə xəbərlərini çatdırırdı. Virusa yoluxanların hər gün sayının artdığını söyləyir, vəziyyətin getdikcə ciddi hal aldığını deyirdi.

Doğrudan da vəziyyər çox ciddi idi. Nəinki Gülcənin vətənini, bütün dünyanı virus kabusu bürümüşdü. Asiyadan baş qaldıran virus hücumu artıq Avropanı cənginə almış, indi də sürətlə Amerikada yayılmaqda idi. Tibb sistemi xəstə çoxluğundan, hələ ki, virusa qarşı dərmanın və peyvəndin məlum olmamasından çox ağır və çıxılmaz vəziyyətə düşmüşdü. Qoruyucu maskalar, dezinfeksiyaedici dərmanlar, tibbi əlcəklər çatışmırdı. Xəstəxanalarda çarpayılar, süni tənəffüs aparatları da çatışmırdı. Vəziyyət o yerə çatmışdı ki, artıq özünü humanist, demokratik, mədəni göstərən ölkələr belə birinin digərinə, hətta pulla satmaq istədiyi tibbi ləvazimatı mənimsəyirdi. Bu günlərdə bir çox ölkələrin iç üzü dünyaya məlum olurdu.

Çox qəribə idi. Xəstəliyin kliniki gedişində yuxarı tənəffüs yollarının mövsümi virus xəstəliklərindən fərqli olaraq çox sürətlə ağırlaşmalar yaranır, ağ ciyərlərdə “buzlu şüşə” sindromu meydana çıxırdı. Ağ çiyərin normal anatomik quruluşunda ciddi dəyişiklik –bronxiollar, xırda bronxlar, ağ ciyərlərin qan və limfa damarları boyunca saya əzələ lifləri şüşəyəbənzər forma alaraq ağ ciyərin normal funksiyasına

çox ciddi təsir göstərirdi. Bu da kəskin tənəffüs çatışmazlığına, boğulmaya səbəb olaraq sürətli ölümə yol açırdı. Bu səbəbdən bəzən xəstələri xəstəxanalara belə çatdırmaq olmur, elə yoldaca həyatla vidalaşırdılar. Xəstəxanaya çatdırılanlar isə əsasən ağır vəziyyətdə reanimasiya şöbələrinə yerləşdirilir, əksər halda süni tənəffüs aparatına bağlanırdı. Yoluxma sayı isə rekord həddə çatmışdı. Bəzən yaşlı xəstələr süni tənəffüs aparatlarının çatmaması səbəbiylə bu aparatlara qoşulmur və belə demək olarsa ölümə tərk edilirdi. Bu virus vaqeəsi Avropa dövlətlərinin hər şeyə qadir, güclü, yenilməz, yüksək mədəniyyətin beşiyi olduğu fikrinin bir mif olduğunu ortaya çıxardı.

Gülcənin yaşadığı cəmiyyətdə formalaşmış ailə adət-ənənəsindən fərqli olaraq Avropadakı ailələrin yaşam forması başqa idi. Əgər tək-tək istisnalar nəzərə alınmazsa, onun yaşadığı cəmiyyətdəki ailələrdə yaşlı insanlara qayğı böyük idi. Bəzən onların yaşından doğan kaprizləri olsa da yenə də ailənin böyüyü kimi hörmət qoyulur, xüsusi qayğı ilə əhatə olunurdu. Amma Avropada valideynlərin çoxu övladları böyüyüncə çox qayğı göstərmədikləri kimi onları tərk edən övladlar da valideyinləri taleyin ixtiyarına buraxmışdılar. Bəlkə də bu səbəbdən bu gün virusa yoluxan yaşlılar arasında ölüm faizi Avropada daha çox idi. Bəlkə də bilərəkdən bu virus laboratoriyada belə təsir mexanizmi ilə hazırlanmışdı. Bəl-

kə də bu işi başladanların məqsədlərindən biri də Avropa ailəsinə, cəmiyyətinə yük olan yaşlı təbəqəni aradan qaldırmaq idi.

Yaşadığımız dünya başqa bir yaşam moduna girmişdi. Dünənə qədər dolub daşan küçələr, şəhərlər, ticarət, istirahət mərkəzləri bu gün suyu qurumuş dəyirmana bənzəyirdi. Sakit, susqun, hərəkətsiz. Hətta, gecə-gündüz müsəlmanların dönərək təvaf etdikləri Kəbə evindəki hərəkət də durmuş, insanla dolub daşan dünyadakı bütün ibadət evləri də boş qalmışdı. Sanki bir gözəgörünməz əl "stop" düyməsini basmışdı. Dönən dünyada hərəkət dayanmışdı. Dünyanı bir xaos bürümüşdü. Gözəgörünməz düşmənlə necə mübarizə aparılacağı haqda hər ölkə bir taktika seçirdi. Kimi Ümumdünya Səhiyyə Təşkilatını, kimi Çini qınayırdı. Hər gün bir fikir, bir qərar gündəm olurdu. Hər ölkənin başı özünə qarışmışdı. Yaranan bu ağır vəziyyətə görə artıq ölkələrin çoxu Çini ittiham etməyə başlamışdılar, bilərəkdən virus barədə gec məlumat verməkdə günahlandırırdılar. Çin isə hələ ki, bu ittihamları təkzib edirdi.

## F Ə S İ L – 34

Çoxdan olmuşdu İstanbulda. İlk gördüyündən çox sevmişdi bu şəhəri. Əslində o zaman səfəri Türkiyənin tamam başqa bir səmtinə idi. Yolüstü də olsa

İstanbulu görmək həvəsiylə təyyarə biletini Bakı-İstanbul reysinə almışdı.

Bakıdan İstanbula yol alan təyyarə artıq enmək üzrə idi. Təyyarə havada bir neçə dəfə dövrə vursa da hələ də Atatürk hava limanına enə bilmirdi. Bəzi sərnişinlər artıq narahat olmağa başlamışdı. Xüsusən də ilk dəfə təyyarə ilə səfər edənlər. Dünyanın hər yerindən turistlərin bu şəhərə maraq göstərməsi, axın-axın gəlməsi, bu şəhəri gəzmək, görmək istəməsi, buraya edilən təyyarə reyslərin sayını artırdığından, bəzən təyyarələr vaxtında eniş edə bilmirdi.

Gecənin qaranlığında ulduztək parlayan şəhərin işıqları Qara dəniz ilə Mərmərə dənizini birləşdirən, eyni zamanda Avropa və Asiya qitəsini bir-birindən ayıran, İstanbulu isə ikiyə bölən Bosfor boğazının sularında bərq vururdu. Bu, əsrarəngiz bir mənzərə idi. Bu məşhur tarixi şəhəri gəzməyə, görməyə Gülcə də səbirsizlənirdi. Hələ ki, təyyarənin enməsini səbrlə gözləmək lazım idi. Sərnişinlərin əksəriyyəti də deyəsən onun kimi səbrsizlənirdilər. Bunu onların sözlərindən və üzlərindəki ifadələrdən bilmək çətin deyildi. Təxminən iki saatlıq hava yolçuluğunda onunla həmsöhbət olan orta yaşlı türk xanımı isə çox sakit idi. Xanımın söylədiyinə görə o, bir iş adamı idi və Bakı-İstanbul və İstanbul-Bakı reysləri ilə tez-tez uçurdu. Bugünkü reysi isə Türk Hava Yollarına məxsus təyyarə həyata keçirirdi. Gülcə ilə söhbət edən xanım bu hava yollarının xidmətinin

yüksək səviyyədə olduğunu söyləyirdi. Gülcə də bu hava yollarıyla ilk dəfə uçsa da xidmətdən razı idi.

Nəhayət, təyyarə enmə zolağına doğru yan aldı. Az keçmədən təyyarənin təkərlərinin enmə zolağına toxunaraq yaratdığı titrəyişdən yerə endiyi hiss edən sərnişinlər bu uğurlu enişi alqışlarla qarşıladılar. Xüsusən də təyyarənin enməsinin gecikdiyindən narahat olub həyacan keçirən sərnişinlər. Bir az sonra sərnişinlər təyyarənin salonunu tərk etməyə başladılar.

Gülcə uçuş boyu həmsöhbət olduğu xanımla xüdahafizləşərək hava limanında sərnişinləri qarşılayan izdihama tərəf getdi. İlk dəfə gəldiyi bu şəhərdə onu qarşılamalı idilər. O, diqqətlə eniş edən sərnişinləri qarşılamaq üçün gözləyən adamlara tərəf nəzər saldı. Birdən gözü əlində iri hərflərlə onun soyadı və adı yazılmış bir lövhə tutan gənc qıza sataşdı. Üzündə təbəssüm, ürəyində bir arxayınlıq hissi yarandı. Qonaq gedəcəyi qohumu İstanbuldan xeyli uzaqda yaşadığından İstanbulda onu qarşılamağı bu tanış gənc qızdan xahiş etmiş, bu barədə Gülcəni də əvvəlcədən xəbərdar etmişdi. Gülcə gənc qıza yaxınlaşaraq salam verdi. Özünü təqdim edib, Azərbaycandan gələn xanım olduğunu bildirərək, onu qarşıladığı üçün gənc qıza təşəkkürünü bildirdi.

-Türkiyəyə xoş gəldiniz.

-Sağ olun. Zəhmət çəkmisiniz. Sizinlə tanış olmaqdan məmnun oldum.

-Mən də. Yəqin ki, rahat gəldiniz? Məndən sizi oteldə yerləşdirmək, iki gün sonra isə qohumlarınızın yaşadığı şəhərə yola salmaq xahiş olunub. Bəlkə bizə gedək?

-Yox, çox sağ olun. Bəli, elə xahiş etmişdim. Qohumlara bir-iki gün İstanbulu gəzmək istədiyimi söyləmişdim. Sizi məsləhət bildilər. Sizi narahat etməyim. Eləcə bu bir-iki günü şəhəri gəzməyə yardım etsəniz minnətdar olaram.

-Necə istəyirsiz. Biz sizləri özümüzə doğma bilirik. Yenə siz necə istəyirsiz elə də olsun. Gedək, sizi oteldə yerləşdirim. İllərdir mən də, babam( o da digər Türkiyə türkləri kimi atasına baba deyə müraciət edirdi) da turizmdə çalışırıq. Sizi də elə uzun müddət əməkdaşlıq etdiyimiz otellərin birində yerləşdirəcəm.

Gülcənin yükünü də aldıqdan sonra, birlikdə sərnişinləri otelə aparmaq üçün gözləyən minibusa yaxınlaşdılar. Gülcənin yükünü maşının yük yerinə yerləşdirdikdən sonra keçib ön sıradakı oturacaqda əyləşdilər. Çox gözləmədilər, qalan sərnişinlər də boş yerlərdə əyləşən kimi sürücü minibusu işə salaraq otelə doğru yol aldı. Bələdçilik edən qız gedəcəkləri otelə hələ xeyli yol olduğunu söylədi.

Nəhayət, minibus şəhərin qədim məhəllələrinin birində yerləşən otelin qarşısında dayandı. Hər ikisi minibusdan enib yük yerindən Gülcənin yol çantalarını götürərək otelə daxil oldular. Qeydiyyatdan keç-

dikdən sonra dördüncü mərtəbəyə qalxdılar. Gənc qız önə keçərək əlində saxladığı açarla qapını açdı və Gülcənin keçməsi üçün yana çəkildi. Sonra özü də onun ardınca otağa daxil oldu. Bura kiçik və səliqəli bir otel otağı idi. Hər ikisi otağa nəzər saldıqdan sonra gənc qız yol çantalarını yerləşdirməyə kömək etdi. Sonra üzünü qonağa tutaraq:

-Otaq xoşunuza gəldimi?

-Bəli, məncə bir-iki gün qalmaq üçün hər rahatlığı var. Sağ olun, çox minnətdaram sizə.

-Belədirsə, mən də sevindim.

Gülcə əl çantasından qədim Bakının – İçərişəhərin bir mənzərəsi işlənmiş suviniri çıxarıb gənc qıza uzatdı.

-Bu da sizə kiçik bir Bakı xatirəsi.

-Çox sağ olun. Mənimçün çox qiymətli hədiyyə oldu. Hələlik sağollaşaq. Siz də yol gəlib yorulmusuz. Sizə dincəlmək lazımdır. Sabah saat doqquzda burada olacam. Ona kimi bir sözünüz olarsa, nəsə bir rahatsızlıq olarsa çəkinmədən ya mənə, ya da otel işçilərinə  zəng edə bilərsiz. Otelin sahibi də babamın yaxından tanıdığı biridir. Rahat olun.

Bunları dedikdən sonra gənc qız xudahafizləşib otaqdan çıxdı. Gülcə qapını özünə tərəf çəkib bağladı. Gec olmasına baxmayaraq hələ də küçədə səslər eşidilirdi. Pəncərəyə yaxınlaşdı. Pərdəni azca kənara çəkib pəncərəni açdı. İçəri dəniz qoxulu hava doldu. Yay fəsli olmasına baxmayaraq hava çox da isti de-

yildi. Pəncərənin açıldığı küçənin başında uca minarəli cami diqqətini çəkdi. İstanbulda camilərin, məscidlərin çox olduğunu bilirdi. Və indi bu gözəl mənzərə gözü önündə idi. Bir müddət minarəni və şəhəri seyr etdi. Artıq gecədən xeyli keçmişdi, həm də yolun yorğunluğu özünü göstərirdi. Odur ki, duş qəbul edib yatmaq qərarına gəldi.

Hər ehtimala qarşı telefonunda saatın zəngini səhər saat səkkizə qurub çarpayının yanındakı tumbanın üzərinə qoyaraq yatağa girdi. Adəti üzrə sağ tərəfi üstə yerini rahatlayıb nazik yay yorğanını üstünə çəkdi. Yorğun olduğundan tez də yuxuya getdi.

Gülcə minarələrdən ucalan azan səslərinə yuxudan oyandı. Ruhu oxşayan bu səslərin harmoniyası şəhərə fərqlilik gətirirdi. Gülcə bir şəhərdə eyni anda bu qədər azan səsini ilk dəfə idi eşidirdi. Konstantinopolisi İstanbul edən bir əzəmətin simfoniyası idi bu səs. Tarixin müxtəlif dövrlərində müxtəlif adlarla adlandırılan, müxtəlif mədəniyyətlərin mövcud olduğu, dünyada ən çox turist qəbul edən şəhərlərdən biri idi İstanbul.

Gülcə də bir neçə saat sonra, bir zamanlar xəyalını qurduğu bu əsrarəngiz şəhəri gəzəcək, görməli yerləri ilə tanış olacaqdı.

Sabahın açılmasına hələ xeyli qalırdı. Qalxıb yatağında oturdu. Sakitcə oyanan şəhəri dinlədi. Deyəsən, şəhər heç yatmamışdı. Hələ də küçələrdə səslər

eşidilirdi. Xeyli keçməsinə baxmayaraq hələ hava tam aydınlanmamışdı. Odur ki, yenidən yatağına uzandı. Dincəlmək lazım idi. Axı bir neçə saatdan sonra şəhəri gəzəcəkdi. Amma daha gözünə yuxu getmədi. Düşüncələrə daldı.

Telefonun səsi Gülcəni düşüncələrdən ayırdı. Yatmazdan qabaq telefonunda saatı səkkizə qurmuşdu. Saat səkkiz idi. Günəş çıxmış, hava tam aydınlanmışdı. Küçələrdə hərəkət canlanmışdı. Yataqdan qalxıb yenə pəncərəyə yaxınlaşdı. Yenə ilk gördüyü küçənin başındakı uca minarəli cami oldu. Ucu yonulmuş qələmə bənzəyən minarə səmaya doğru yol almışdı. Caminin nə minarəsi, nə gümbəzi onun yaşadığı şəhərdə olan məscidlərin minarələrinə, gümbəzlərinə bənzəmirdi. Buradakı cami və minarələrin memarlıq üslubu başqa idi. Bu da İstanbula bir başqa gözəllik, bir başqa əzəmət verirdi.

Pəncərə önündən çəkilib gəzinti üçün hazırlaşmağa başladı. Az sonra artıq hazır idi. Hələ bələdçilik edəcək qızın gəlməsinə xeyli qalırdı. Odur ki, səhər yeməyi üçün aşağıya-yeməkxanaya enməyi qərara aldı.

Açıq bufetdə yüngül bir qəlyanaltı edəndən sonra masa arxasından qalxdı. Çox vaxt itirmədi. On beş-iyirmi dəqiqədən sonra yenə otağında idi. Yalnız ona bələdçilik edəcək gənc qızı gözləmək qalırdı.

Nəhayət, daxili telefon səsləndi. Otelin qeydiyyat şöbəsinin əməkdaşının səsi eşidildi.

-Salam. Sizi foyedə gözləyən var.

-Salam. Məlumat üçün təşəkkür edirəm. İndi aşağı enirəm.

Gülcə telefonun dəstəyini yerinə qoyub, cəld yığışıb otaqdan çıxdı və pilləkənlərlə aşağı endi. Dünən onu qarşılayan gənc qız foyedə qoyulmuş divanda əyləşərək onu gözləyirdi. Gülcəni görcək qalxıb salam verdi. Gülcə də səmimiyyətlə salamı aldı.

-Gedə bilərik?

-Bəli, gedək.

Az sonra otel otağının pəncərəsindən görünən qədim dar küçə ilə irəliləyərək, onun pəncərədən gördüyü caminin yanından keçərək yaxınlıqdakı daha böyük bir camiyə doğru getdilər.

-Bu Sultan Əhməd camisidir, istəsəniz daxil ola bilərik.

-Əlbəttə, istəyirəm. Haqqında çox eşitmişəm.

Birlikdə camiyə daxil oldular. Səhər olmasına baxmayaraq ibadətə gələnlərlə yanaşı xeyli turist də vardı. Gülcə də onlar kimi, bu tikilinin əzəmətinə heyranlıqla baxırdı. Sultan Əhməd haqqında çox dərin olmasa da, məlumatı var idi. Çox inanclı biri olduğunu bilirdi. Və bu əzəmətli cami də Sultan Əhməd tərəfindən tikilmişdi. Gülcə də bir müsəlman kimi bu camidə ziyarət namazı qılıb, dualar etmək istədiyini bildirdi. Bələdçilik edən qız onun bu arzunu çox məmnunluqla və biraz da təəccüblə qarşıladı.

Odur ki, Gülcəyə sual ünvanlamaqdan özünü saxlaya bilmədi:

-Əski sovetlərdə dinin qadağan olunduğunu eşitmişdim. Nə yaxşı siz belə inanclı, inamlı birisiz?

-Sovet dönəmində nə qədər çətin olsa da, qadağalar qoyulsa da, millətimiz dilinə, dininə, kimliyinə sahib çıxmağa, qorumağa çalışıb. Mənim böyüyüb, tərbiyə aldığım ailə də müasir düşüncəli olmaqla yanaşı mənəvi, dini, milli dəyərlərimizi qoruyan bir ailədir. Bəlkə sizə maraqlı olar bu məlumatlar. Mən türk olduğumuzu ilk dəfə kiçik yaşlarımda nənəmdən eşitmişdim. Çünki, sovet dönəmində müəyyən tarixdən bu yana bizim kimliyimizi təsdiq edən sənəddə milli mənsubiyyətimiz sadəcə olaraq yaşadığımız coğrafi bölgənin adıyla "azərbaycanlı" deyə qeyd edilir. Təhsil aldığımız müddətdə də heç bir dərslikdə milli mənsubiyyətimizin türk olduğu haqqında məlumat verilmirdi. Bu qadağa nəinki biz Azərbaycan türklərinə, eyni zamanda Sovet Sosialist Respublikaları İttifaqı adı altında Çar Rusiyasının varisi olan bir dövlətin tərkibində yaşayan bütün türk xalqlarına tətbiq edilirdi. Bizim Azərbaycan türklərinin taleyi isə daha faciəvidir. Xalqımız iki əsrdən artıqdır ki, ikiyə bölünmüş halda yaşayır. Bizim ailə də əsrlər boyu bu həsrəti yaşamağa məcbur olub. Əslimiz Arazın o biri tayından, vətənimizin hazırda İran ərazisi sayılan torpaqlarında qalan qədim Ərdəbil şəhərindəndir. Torpaqlarımız Çar Rusiyasının Qacar

Türk dövlətinə qarşı apardığı müharibənin sonunda bağlanılan təslimçilik sülh müqaviləsinə əsasən Araz çayı boyunca iki yerə bölünüb. Bundan sonra mənim ulu babalarım türk kimliyinin, dilinin, dininin unudulmamasına xidmət etmək üçün vətənimizin Çar Rusiyasının torpaqlarına qatılan şimal hissəsinə köç ediblər. Mənim babamı da elə belə fəaliyyətlərinə görə 1937- ci ildə repressiyaya məruz qoyaraq 1938-ci ildə günahsız yerə güllələyiblər.

Mən bütün bunları böyüklərimizin, nənəmin söhbətlərindən bilirəm. Ailədə biz unutmayaq deyə, böyük türk yurdlarından da həmişə söhbət açılardı. Nənəmin 1918-ci ildə gənc Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Azərbaycana gəlişindən, türk ordusunun ermənilərə qarşı necə döyüşdüyündən fəxrlə, məhəbbətlə söz açmasının da şahidiyəm. Sovet dönəmində "türk" sözünü işlətmək qadağan olunsa da, bu söhbətləri dinlədikcə türk kimliyimiz bizim yaddaşımıza həkk olunurdu.

O zaman Bakıya doğru irəliləyən Qafqaz İslam Ordusu bizim kəndləri də xilas etmişdir. Türk əsgərlərindən şəhid olanlar isə yerli camaat tərəfindən elə həmin şəhid olduqları kəndlərdə dəfn edilmişdir.

Sonralar Azərbaycanda Sovet hakimiyyəti qurulsa da yerli insanlar bu şəhidləri unutmamışlar.

Sovetlər birliyi dağılıb, Azərbaycan azadlığına qovuşduqdan sonra qədirbilən xalqımız da unutmadığı türk şəhidlərinin məzarlarını yenidən bərpa et-

di. İndi mənim də doğulub-böyüdüyüm kənd də daxil olmaqla, bütün türk şəhidləri uyuyan yerlərdə Türkiyə və Azərbaycan bayraqları dalğalanmaqdadır. Əlamətdar günlərdə onları ziyarət etməyi hər kəs özünə mənəvi borc bilir.

-Nə gözəl. Millətimiz adına, ailənizin adına çox sevindim. Yəqin ki, bizə də Allah o yerləri ziyarət etməyi qismət edər.

-İnşallah. Mən də çox sevinirəm ki, bir vaxtlar yalnız xəyal etdiyimiz türk soydaşlarımızın yaşadığı bu yerlərə gəlmək mənə qismət olub. Bir-birindən ayrı düşmüş türk dövlətlərinin, türk xalqlarının nələr çəkdiyini, hansı şərtlər altında yaşamağa məcbur olduğunu siz də biləsiniz deyə belə geniş məlumat verdim. Ümid edirəm sizi yormadım.

-O nə sözdür? Mən də sayənizdə türk tarixinə aid yeni bilgilər öyrənmiş oldum. Türk millətinin son dönəmlərdəki tarixi doğrudan da keşməkeşli olub.

-Elədir.

Hər ikisi həyətə çıxdı.

Gülcə dəstəmaz aldıqdan sonra yenidən camiyə daxil oldu. Qəlbi Allahına eşq, millətinə sevgi ilə dolu olan Gülcə iki rikət ziyarət namazından sonra ilk növbədə bu türk torpaqlarını görməyi ona nəsib etdiyi üçün Tanrısına şükr etdi. Sonra uzun-uzadı dualar etdi. Onun milləti, işğalda, yağı düşmənlərin əlində qalmış torpaqlarının tezliklə azad olunması üçün, bütün türk dünyası üçün etdiyi dualar səmaya uca-

lırdı. Yəqin ki, bu sadə türk övladının vətəni, milləti üçün etdiyi səmimi dualar uca Yaradana çatacaqdı. Sonda camini inşa etdirən Sultanın da ruhuna fatihə oxuyub ibadətini bitirdi. Kənarda onu gözləyən bələdçi qıza yaxınlaşdı.

-İndi gedə bilərik.

-Allah dualarınızı qəbul etsin.

-Amin. Sağ olun.

Birlikdə camidən çıxıb yola davam etdilər. Ətrafda demək olar ki, qədim tikililər idi. Qədim qala divarlarının qalıqları da gözə dəyirdi.

Artıq sahilə enmişdilər. Dəniz qoxulu İstanbul! Həm Avropada, həm Asiyada yerləşməsiylə bənzəri olmayan möhtəşəm şəhər. Göz işlədikcə uzanan boğaziçi gözəllik. Boğazın hər iki sahilini birləşdirən əzəmətli körpülər. Sahil boyu düzülmüş gəmilər, qayıqlar. Dəniz suları üzərində uçuşan qağayılar.

Sahildə bir qədər gəzişdikdən sonra "Qapalı çarşı"ya doğru yol aldılar. İnsanlarla dolub daşan bu ticarət məkanı əsrlərdir beləcə varlığını sürdürürdü. Bir qədimlik, bir zənginlik hakim idi burada. Burada satılan qədim əl işləri, müxtəlif çeşidli geyim, ev əşyaları Gülcəni heyran qoymuşdu. Elə bil nağıllar aləminə düşmüşdü. Qarşısına çıxan hər əşyaya maraqla, diqqətlə baxır, yaddaşına həkk etməyə çalışırdı. Qədim əşyalara xüsusi marağı olan Gülcə İstanbul xatirəsi olaraq buradan aldığı, İstanbulu simvolizə edən bir neçə suviniri əlindəki böyük cantasına yer-

ləşdirdi. Çantasını çiynindən asaraq bələdçi qızla yoluna davam etdi.

Artıq günortadan xeyli keşmişdi. Səhərdən şəhəri piyada gəzdiklərindən yorulmuşdular. Sahildəki qədim qala divarlarına yaxın yerləşən bir kafenin açıq həyətində qoyulmuş masaya yaxınlaşaraq, masa arxasında əyləşdilər. Burada xidmət göstərən gənc oğlan onlara yaxınlaşaraq nəzakətlə salam verdi və kafenin xidmətlərini təklif etdi. Şəhəri gəzərkən ayaqüstü bir şeylər yedikləri üçün sadəcə iki fincan qəhvə sifariş verdilər. Gənc oğlan "baş üstünə" deyib masadan uzaqlaşdı.

Qəhvələr gələnə qədər xeyli söhbət etdilər. Gülcə də yaşadığı doğma şəhərindən xeyli danışdı və bələdçilik edən gənc qızı söhbət əsnasında yaşadığı şəhərə dəvət etdi. Qız gülümsəyərək:

-Əlbəttə, mən də Bakını görmək, gəzmək istərdim,- deyərək söhbətə davam etdi. Bu zaman xidmət göstərən oğlan əlində içinə qəhvə fincanları qoyulmuş sini ilə onların masasına yaxınlaşdı. Fincanları sakitcə masaya qoyub uzaqlaşdı. Bələdçilik edən gənc qız:

-Bizim türk qəhvəsinin də dadına baxın, yəqin ki, bəyənəksiniz.

-Yəqin ki, deyərək Gülcə gülümsədi. İçmədən bir söz deyə bilmərəm. Çünki ilk dəfə içəcəm türk qəhvəsini. Bunu deyib fincanı qaldırıb içdi. Biruzə verməsə də dadı acı gəldi. Amma sona qədər içdi.

-Biz çay içməyə alışmışıq. Amma bunun da bir ayrı dadı var,- deyə əlavə etdi.

-İndi sizin falınıza baxaram. Bələdçi qız Gülcəyə baxaraq gülümsədi. Niyyət tutub nəlbəkini fincanınızın ağzına qoyaraq saat əqrəbinin əksi istiqamətə üç dəfə fırladın, sonra fincanla birlikdə nəlbəkini çevirib masaya qoyun.

Gülcə də o deyən kimi etdi və bələdçi qıza baxaraq gülümsədi.

-İndi gözləmək lazımdır ki, soyusun, yoxsa düz olmaz.

Bələdçi qız bir-iki dəqiqədən sonra ağzı aşağı nəlbəkiyə qoyulmuş fincanın soyuduğunu yoxladıqdan sonra qaldırıb diqqətlə içinə baxdı. Gülcə də marağını gizlədə bimədi.

-Fal nə deyir?

-Siz yenə bura qayıdacaqsız. Bu qayıdışların biri çox möhtəşəm olacaq. Fal bunu deyir. Hələlik isə bu səfərinizdə sizi şəhərin başqa görməli yerləriylə tanış edim.

Gülcə bu sözlərə sadəcə gülümsəmişdi. Bəlkə də türk qəhvəsinə diqqəti çəkmək üçün qəhvə falı uydurulmuşdu. Amma çox diqqət çəkdiyi ortadaydı. Gülcə heç xəyal belə etməzdi ki, vaxt olacaq özü də bu türk qəhvəsinin sehrinə düşəcək və böyük həvəslə içəcək.

Masa arxasından qalxıb şəhərin başqa səmtinə doğru getdilər. Gülcənin diqqətini bir şey də çəkmiş-

di. Şəhərin hər guşəsində ay-ulduzlu, al rəngli türk bayraqları asılmışdı. Bu ölkənin insanlarının bayrağına olan bu qədər böyük sevgisi bu ölkəni, bu insanları onun gözündə daha da ucaltdı. Gəzinti zamanı Türk bayrağı almağı da unutmadı. Gülcə yəqin ki, ən əziz, ən qiymətli bir xatirə kimi saxlayacaqdı bu bayrağı.

Nəhayət, günəş yavaş-yavaş qüruba enməyə başladı. İstanbulun qürub çağı da bir başqa görünürdü. Şəhərə hər halıyla heyran olmamaq mümkünsüzdü. Dünyaca məşhur olan bu şəhər Gülcədə çox böyük təəssürat yaratmışdı. Yaranmış bu düşüncələr altında otelə necə gəldiklərini belə fərq etmədi. Ona bələdçilik edən qız sağollaşıb ayrıldı. Gülcə oteldə qaldığı otağa qalxdı. Nə yorğunluq, nə aclıq hiss edirdi. Ruhu doymuşdu, qəlbi fərəhlənmişdi. Uzun müddət həsrət qaldıqları bu türk torpaqlarına nəhayət ki, qədəm qoymuşdu. Sovet dönəmində yaşadığı illərdə nə qədər çətin, müşgül idi bura gəlmək. Xüsusən türk xalqları üçün.

Gülcənin qaynar gənclik illəri ölkəsinin Sovet İmperiyasından qopub, qurtulma illərinə rast gəlmişdi. O da çox gənclər kimi bu azadlıq mübarizəsinə qatılmışdı. Bu gün azad, müstəqil bir Türk dövlətinin vətəndaşı olmasının qürurunu yaşayırdı. Və bu gün dili bir, dini bir qardaşlarının, soydaşlarının yaşadığı ölkədə idi. Sərbəst, heç bir tərcüməciyə ehtiyac

olmadan istədiyi adamla danışa bilir, münasibət qura bilirdi. Elə bil öz vətənində idi.

Bütün bunları düşündükcə, yaşadıqca uşaq kimi sevinirdi Gülcə. Yaradanına ona bu günləri yaşamağı nəsib etdiyi üçün şükürlər edirdi qəlbində. Qismət olsa sabah da fikrində tutduğu yerləri gəzib, nəhayət axşamüstü İstanbuldan, bu gözəl şəhərdən ayrılacaqdı.

Səhər saat doqquz olmamış Gülcə artıq foyedə ona bələdçilik edən qızı gözləyirdi. Amma çox gözləmədi. Bələdçilik edən qız az keçmədi ki, gəldi.

Salamlaşdılar və yenə oteldən birgə çıxdılar. Qız ondan bu gun hara getmək istədiyini soruşdu. Gülcə də dünəndən fikrində tutduğu yerləri söylədi.

-Amma bu gün söylədiyiniz yerlərə giriş yoxdur. İstirahər günlərinə rast gəlmisiz.

Gülcə məyus olmuşdu. Ayasofiyanı və Topqapı sarayını gəzə bilməyəcəkdi.

-Məyus olmayın, inşallah sonrakı gəlişinizdə gəzərik. Mən özüm sizi gəzdirəcəm, söz verirəm. Bələdçi qız Gülcənin könlünü almağa çalışdı. Bu sözlərdən sonra Gülcə də gülümsəyərək razılıq hissi ilə gənc qıza baxdı.

-İnsallah qismət olar- deyə əlavə etdi.

-Gəlin mən sizi bir-iki dükana da aparım. İstədiyiniz bir şeylər alarsız. Vaxt qalarsa yenə şəhəri gəzərik. Axşamüstü də sizi qohumunuzun yaşadığı şəhərə yola salaram. Razılaşdılar.

Nəhayət, İstanbul gəzintisi başa çatmış, gənc qız onu Avropa tərəfə, Egey dənizi sahillərinə yaxın yerdə yaşayan qohumlarının yanına yola salmışdı.

İstanbulla bağlı bütün bu xatirələri yaddaşında canlandıran Gülcə istər-istəməz İstanbulun bu günü-nü, daha doğrusu bu günkü siyasi həyatını da dü-şünməyə bilmirdi. Bu gün Türkiyədəki siyasi oyanış, Türkiyənin ürəyi sayılan İstanbulda da özünü göstə-rirdi. Bu isə gözü İstanbulda olan xarici qüvvələrdə ümidlərinin puç olacağı qorxusu yaradırdı. Türk mil-ləti lazım olan anda birləşib sözünü deməyi bacaran bir millətdir. Vətən, millət naminə düşünmədən ca-nını fəda edəcək dərəcədə qəlbində vətən, torpaq sevgisi daşıyan bir millətdir.

Dünyanın təlatümlər içində çalxalandığı bu illər lazım gələrsə istər Yer, istər Göy Türklərinin vətənin müdafiəsi üçün səfərbər olacağı yəqin idi.

## F Ə S İ L – 35

Gülcənin ilk İstanbul səfərindən artıq neçə illər keçmişdi. Amma bu şəhərin sehri, bu şəhərə olan maraq hələ də onu tərk etməmişdi. Bu möhtəşəm şə-hərdə cərəyan edən hadisələr həmişə Gülcəni maraq-landırır, diqqətini çəkirdi.

Bu günlər isə İstanbulda yerləşən, şəhərin sim-vollarından biri olan Ayasofiya tarixi tikilisi gün-

dəmdə idi. Bizans dövrünə aid olan, vaxtilə kilsə kimi fəaliyyət göstərən bu məbəd İstanbulun 1453- cü ildə  Sultan Mehmet xan tərəfindən fəthindən sonra camiyə çevrilmişdi. Sonradan, müəyyən səbəblərdən 1934-cü ildən muzey kimi fəaliyyət göstərsə də bu günlər  yenidən cami kimi istifadə ediləcəyi haqqında söhbətlər gedirdi.

2020-ci ilin 11 iyulundan isə  artıq rəsmi olaraq Ayasofiyanın yenidən cami kimi fəaliyyətinə dövlət səviyyəsində rəsmi qərar verildi. Bundan sonra dünya xristianlarının reaksiyası necə olacaqdı, bunu artıq yaxın gələcək göstərəcəkdi. Amma bu məbəd və yerləşdiyi şəhər haqqında gəzən əfsanələrlə, miflərlə nəinki xristian aləminin, bütün dünyanın həmişə diqqət mərkəzində olmuşdur. İstanbul haqqında bu günə kimi çox əfsanələr dolaşmaqdaydı. Deyilənlərə görə 1453-cü ilin 29 mayında Konstantinopolis  Sultan Mehmet xan tərəfindən fərh edildikdən sonra burada şeytani düzən tərs getməyə başlamışdır. Ayasofiya camiyə çevrilmiş, buradan ucalan azan səsləri buradakı mənfi enerjinin azalmasına səbəb olmuşdur.

Şəhərin fəthi zamanı bir xristian komandir Fateh Sultan Mehmetdən soruşur:

-Necə olur ki, siz hər savaşı qazanırsız. Nə etsək də biz də sizi yenə bilmədik?

Sultanın cavabı isə belə olur:

-Çünki bizim besmelemiz və göylərdə də bir ordumuz var.

Sultan göylərdəki ordu deyəndə bəlkə də bu gün də çoxlarının xəbərsiz olduğu Göy Türklərindən bəhs edirmiş. Bu gün də İstanbulda, Ayasofiyada nələrin baş verdiyindən Göy Türkləri də xəbərsiz deyildi. Onların da bu məbədin yenidən camiyə çevrilməsi fikrinə münasibəti müsbət idi. Belə olan halda burada gizli ibadətlər həyata keçirən sürüngənlərin düzəni pozulacaqdı.

Bu günlərdə, yəni 2020-ci il iyul ayının 11-dən cami kimi yenidən fəaliyyətə başlaması ilə dünyada buna qarşı çox təpgi göstərilməsi çoxlarının mif, əfsanə kimi bildiyi söhbətlərin içində bəlkə də böyük həqiqətlərin gizlənməsi fikrini doğurur. Bəlkə də bu qərarın siyasi yönümdən çox mənəvi yönümü daha böyük əhəmiyyət kəsb edəcəkdi. Bu günlərdə COVID- 19 pandemiyası ilə əlaqədar dünya əhalisi təkcə iqtisadi, sağlamlıq cəhətdən deyil, mənəvi cəhətdən də çox təsirə məruz qaldığı bir dövrdə mənən güc tapmağımıza kömək olacaqdı.

Çoxları kimi Gülcə də bu günlərdə dünyada cərəyan edən hadisələrin gedişatını izləyir, dünyada baş verənlərdən kənar qala bilmirdi. Axı o da bu dünyanın bir sakini idi. Bu gün dünyada baş verənlər, qloballaşmış dünyada hər kəsin yaşamına təsirsiz ötüşmürdü. Odur ki, həm siyasi, həm iqtisadi xəbərlər onu da çox maraqlandırırdı.

Artıq Türkiyə hakimiyyəti tərəfindən 24 iyulda Cümə namazının Ayasofiyada qılınacağı barədə qə-

rar verilmişdi. Baxmayaraq ki, dünyada COVID-19 pandemiyası hökm sürürdü. Bu gün, yəni, 24 iyun 2020-ci ildə bu mərasim həm Türkiyənin yerli televiziyalarl üçün, həm də xarici informasiya vasitələri üçün birbaşa translyasiya edilirdi. Gülcə də ekran qarşısında oturaraq bu mərasimi maraqla izləyirdi. Ayasofiyanın həyəti insan seliylə dolub daşırdı. Hakimiyyət rəsmiləri də çox keçmədən göründü. Və ibadətə gələnlər sırasında öz yerlərini aldılar. İbadət əsnasında hətta dövlət başçısı da Qurandan qiraət etdi və dualar oxudu. Beləliklə, Ayasofiya rəsmən müsəlmanların ibadəti üçün cami statusunda yenidən fəaliyyətə başlamış oldu.

Bu hadisəyə xristian dünyasının reaksiyası özünü çox gözlətmədi. Katolik kilsəsinin ruhani lideri papa Françesko icra etdiyi dua mərasimində bu sözləri söylədi:

-Ayasofiyanı düşünürəm və çox acı çəkirəm.

Yunanıstanın, Rusiyanın, Amerikanın, Avropanın da narazılıqları özünü çox gözlətmədi. Bir sözlə, illərdir müsəlman dünyasında axıdılan qanlara, vandalcasına dağıdılan dini məbədlərə susan xristian dünyasından narazılıqlar səslənməyə başladı. Onlardan fərqli olaraq Türklər fəth etdiyi ərazilərdə yaşayan insanların dini inancına və dini məbədlərinə həmişə hörmətlə yanaşmışdılar. Ayasofiya məbədi də İstanbulun fəthindən sonra cami kimi fəaliyyət gös-

tərsə də onun divarlarındakı dini rəsmlərin bu gün də olduğu kimi qalması buna sübutdur.

Deməli, dünyada demokratiyadan söhbət gedə bilməz. Çıxarlar ön plandadır. Dünyanın düzəni çox dinamik dəyişir. Dövlətlərin mövqeyi də həmçinin. Kimin nə etmək istədiyini, hansı dövlətin hansı mövqe tutduğunu da artıq bilmək çətindir. Amma dünyanın ümumi siyasi mənzərəsində dəyişiklikləri görməmək də mümkün deyil. Gülcə də bu dəyişiklikləri görür və Çocuğun söylədiklərinin həqiqətə çevrildiyinin fərqinə varırdı. Onun söylədiyi kimi artıq Qərb yavaş-yavaş Türkiyə Cumhuriyətinin Şərqdə aparıcı, həlledici güc olduğu fikrini qəbul edirdi.

Bunu həzm etməyənlər də çoxdur. Bu qərar verilən günün səhəri, 12 iyulda gözlənilmədən Azərbaycan-Ermənistan sərhəddində Ermənistan hərbi qüvvələri təxribat törətdi. Bununla türk dünyasına, xüsusən Türkiyəyə və Azərbaycana mesaj verildi. Hədəf həm də Türkiyədən keçərək Avropaya qədər uzanan neft-qaz kəmərləri idi. Bu hadisəyə Türkiyənin də münasibəti özünü çox gözlətmədi. Dövlət səviyyəsində sərt etiraz bildirildi. Eyni zamanda Azərbaycan tərəfindən cavab atəşiylə düşmən təxribatının qarşısı alındı. Bütün bu hadisələr fonunda Azərbaycan xalqı öz ordusunun, dövlətinin yanında olduğunu bildirmək üçün 14 iyulda Bakı şəhərinin müxtəlif yerlərindən küçələr boyu mərkəzə doğru axın etdi. Gülcə də bütün bu hadisələri diqqətlə izlə-

yirdi. Özü də bu təxribata etiraz səsini ucaldaraq küçələrə axın edən insanların, canı qədər sevdiyi xalqının arasında idi. Gecədən xeyli keçməsinə baxmayaraq, hələ də minlərlə vətənpərvər kimi hadisələri bir başa şəhərin dolub-daşan küçələrindən birində izləyirdi. Elə bu zaman telefonuna zəng gəldi. Zəng edən Çocuk idi, həmişə dünyanın harasında olursa-olsun millətinin yanında olan Göy Türk bəyi.

Gülcə telefonu açdı.

– Salam, Gülcə. Biz burdayız. Qədim türk yurdu Bakıda. Qorxmayın. Biz varız. Kimsə türk birliyini poza bilməz. Gülcə, bir dəqiqə gözlə,- deyərək Çocuk səsli danışığı bitirdi.

Bir an sonra ondan təkrar video görüntülü zəng gəldi.

Gülcə telefonu açan kimi Çocuğun bir qədim qapı önündə durduğunu gördü.

-Bura haradır?- deyərək Çocuk gülümsədi.

Gülcə doğma Bakısını, İçərişəhərdə yerləşən qədim Şirvanşahlar sarayını həmən an tanıdı.

-İçərişəhər! Bütün türk insanlarının Çocuğu, sən həqiqətən buradasan,- deyərək sevincini gizlədə bilmədi.

-Bəli, biz burdayız. Millətimizin yanındayız, görəvimizi yerinə yetiririz. Bu zor günlər keçəcək. Türk milləti də oyansın artıq. Uyquda olmasının türklərə hansı zorluqlar, zülmlər yaşatdığını bilsin artıq. Gözəl yarınlar üçün mücadilə etməsindən usanmasın.

Əlbəttə, görüləsi işlər çoxdur. Amma yorulmaq yox, çalışmaq lazımdır. Həm də usanmadan.

Bir vaxtlar Bosniyanın, bosnakların bir xalq kimi yer üzündən silinməsi təhlükəsi yarananda biz özümüzü ora yetirdik, onların dövlətçilik uğrunda mücadiləsində yanlarında yer aldıq, güclərinə güc qatdıq, tarixdə yaşamını təmin etdik, onlarla birlikdə düşmənə qarşı dirənərək biz qazandıq.

Bu gün də sizinləyik. Önümüzdə gözəl günlər var. Bizi  dünyanı bürüyən pandemiyalarla, bizlərə qarşı tətbiq edilən qadağalarla, təzyiqlərlə qorxutmaq mümkün deyil. Yaxın zamanlarda nələrin olacağını görəcəklər. Türk birliyi üçün çalışmaq lazımdır. Türk milləti, türk gəncliyi nəhayət, nicat yolunu anlamalıdır. Bu dünyanın gedişatını anlamalıdır. Bu gün vaxt itirmənin zamanı deyil. Kimin əlindən nə gəlirsə etməlidir. Yoxsa gec olar. Dünyada siyasi güclərin çoxunun türkə düşmən olduğu bir zamanda bütün türk dünyasının birləşməsi gərəkdir. Sən çox yaxın zamanda, bəlkə də günlər sonra yeni türk işbirliyinin şahidi olacaqsan. Təkcə Azərbaycan və Türkiyə deyil, bütün dünya, türkə düşmən kəsilənlər də bunu görəcək. Türk millətinə heç bir şey edə bilməyəcəklər. Nə zülm etsələr də, çalışsalar da sonunda məğlub olacaqlar. Onlar da sonlarının gəldiyinin fərqindədirlər. Bunu bizdən də yaxşı bilirlər. Bu zülmlərin artması, hücumların artması ondandır. Ruhunu şeytana satanlar, ona xidmət edənlər qorxsun-

lar. Doğrudur, onlar hətta son nəfəslərində, son çırpınışlarında belə təcavüzlərindən, hücumlarından vaz keçmək istəmir, keçməyəcəklər də. Döyüş bitsə də, savaş bitməyəcək. Bu bizim istədiyimiz bir savaş deyil. Türk milləti heç kimə düşmən olmadı, amma ona düşmən olan çoxdur. Türk milləti bütün yaradılanların yaşama haqqını tanıyan, onlarla dostca yaşamağı seçən bir millətdir. Heç kimə kinimiz yoxdur, düşmənçiliyimiz yoxdur. Amma bizə kini, nifrəti, düşmənçiliyi olanlar bilsinlər ki, onlara qarşı dirənəcəyik, haqqa, hüquqa sayqılı, bizdən başqa bütün yaradılmışların yaradılış haqqlarına sayqılı olaraq dirənəcəyik.

Gözəl türk milləti, əsil türk milləti rahat olsun, sən də rahat ol, Gülcə! Sabahlar bizimdir! Gələcək türkündür! Bu igid, mərd millət Allahdan başqa kimsədən qorxmaz, çəkinməz! Türk millətinin Allahdan qorxusu can qorxusu deyil, sevdiyini incidə bilmək qorxusudur.

Ruhundan sənə salam gətirdiyimiz Əhməd Cavad nə söyləmişdi:

Mən də bir Türk övladıyam, dərin ağlım, zəkam var,
Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?
Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam,
Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram!

Gülcə, sən də susma, yaz! Türk kimliyini, əcdadımız olan Göy Türklərinin kimliyini bəyan elə! Görəvini unutma! Sözünü tut! Vətəninə, Böyük Turana xidmətdən usanma! Biz varız, biz səninləyiz, unutma! Gülcənin kimliyini unutma!

Gülcə, Yer planetində yaşayan türklərin çətin anlarında görəvini yerinə yetirərək, onların yanında olan Göy Türk Akınçı bəyi Çocuğun sözlərinə diqqət kəsilmişdi. O, yerdə yaşayan türklərdən seçilmişlər arasında özünün də yer aldığı, ona da güvənildiyi, görəv verildiyi üçün nə qədər şanslı olduğunu düşünürdü.

Gülcə bu düşüncələr içindəykən, Çocuk onunla video-görüntülü zəngi bitirərək, görüşmək üzrə,- deyib sağollaşdı. Əlində həm Azərbaycanın, həm də Türkiyənin bayraqlarını tutan Gülcə isə yenidən küçələrdən keçən insan selinə qarışdı. Hər iki dövlətin birlik və bərabərliyindən xəbər verən, insanların başının üzərində dalğalanan ay-ulduzlu üç rəngli və al rəngli bayraqlara baxdıqca yenə Gülcənin ruhu dilə gəldi, vətəninə, millətinə aşiq qəlbində bu misralar yarandı:

Derin duygulardır ruhumu saran,
Neden iyileşmez bu kadar yaram?
Yüreğim rahatsız, olmuyor aram,
Gerekdir yarayı bağlayım, sarım,
Türklüğün uğruna sonadek varım!

Anlamaz bu aşkı yoldan ötenler,
Hakka söz verip de sonda dönenler,
Yalançı din içre doğub, ölenler,
Vatan, Allah aşkın arayım, sorum,
Türklüğün uğruna sonadek varım!

Göklerden inecek muzaffar ordu,
Onda gör gelecek savunma, sorgu,
Davada galipdir, biline sonu,
Uğruna fedadır benim de canım,
Türklüğün uğruna sonadek varım!

Baktım gök yüzüne, duam Mevlaya,
Türke hain çıkan gelsin belaya,
Tutunmuşum Turan adlı sevdaya,
Bu gün değilsede, mutlaktır yarın!
Türklüğün uğruna sonadek varım!

Türk kızı! ilhamın gelir bil Hakdan,
Bilmez ki, duymayan, görmez ki, nadan,
Ben kimim ki, emr etmiştir Yaradan,
Tanrıdan kalemim, Haktandır yazım,
Türklüğün uğruna sonadek varım!

Gülcə bu duyğular içində Göy Türklərini minnətdarlıqla xatırladı. Onların yer üzünə bu dəfə dördüncü gəlişlərinin olduğundan xəbərdar idi. İlk dəfə

24 min il öncə yer üzünə yerləşmək məqsədilə sadəcə doqquz nəfərdən ibarət heyətlə “Mu-Gul” gəmisiylə yer üzünə enmiş, burada məskunlaşmışlar. İkinci dəfəki gəlişləri, ilk gəlişləriylə şumerlər zamanındakı gəlişləri arasındakı bir zamana təsadüf edirdi. Üçüncü gəlişləri Şumerlər zamanındakı Anunnaki istilasına son vermək üçün, dördüncü gəlişləri isə bizim yaşadığımız çağdır. Türk millətlərinin milli kimliyinə, dövlətçiliyinə qarşı dünyada aparılan oyunların, edilən zülümlərin, qətliyamların olduğu çağ. Türk dövlətçiliyinin təhlükədə olduğu çağ.

Zamanda yolçuluk edən Göy Türkləri bu günümüzə dünyamızdan 9,46 trilyon km məsafədə olan Qütb ulduzunun planeti olan Ötükendən gəlmişlər. Sələfləri olan Yer türklərini bu dəfə də köməksiz qoymamaq üçün buradadırlar. Hər dəfə Yer Türkləri təkləndikdə, daha çöx təzyiqə məruz qaldıqda görəvləndirilən Göy Türkləri yerə enər və yer türklərinin köməyinə yetişərlər. Əlbəttə, onlara verilən izn daxilində müdaxilə etmək şərti ilə. Göy Türklərinin mühafizəçiləri olan Gökbörülər üçün isə zaman, məkan, şəkil sərhədi yoxdur.

Bu gün Gülcəylə danışan Göy Türk bəyi Çocuk üçün də bu anlayışlar keçərlidir. Yəni KOVİD-19 pandemiyasının hökm sürdüyü, dünyada ölkələrarası nəqliyyatın dayandığı bir vaxtda, o da Azərbaycan türklərinə dəstək olaraq bu gün Bakıda idi. Bütün bunlar əfsanə kimi görünsə də Türk gerçəkliyi idi.

Göy Türkləri bugünkü çağımızda türk dövlətlərinin suverenliyinə təhlükə yarandığı üçün, türk yurdlarında qətliyamlar bitmədiyi üçün axın-axın gələrək göylərdə səf qurmuşdular. Türk dünyasını tək qoymamaq üçün gəlmişdilər. Gülcə onlardan yalnız birini tanıyırdı. Amma onlar çox idi. O, başını qaldıraraq səmaya baxdı və göylərdən doğma Bakısına salam verən, "biz burdayıq" anlamına gələn yanıb-sönən işıq selini gördü. Demək hələ də Azərbaycan səmasında idilər. Bu Türk yurdunun səmasında ayıq-sayıq keşik çəkirdilər.

Göy Türkləri özləriylə neçə-neçə yeni silah modellərinin bilgisini də gətirmişlər. Düşüncə yolu ilə bu bilgiləri türk bilim adamlarına ötürürdülər. Yaxın gələcəkdə dünya bütün bunları görəcək və biləcəkdi. Məsələn, Türk pilotsuz uçuş aparatı və təyyarəsi və bu kimi yüksək texnologiya ilə hazırlanmış istər suda, istər quruda, istər havada istifadə olunan  başqa silahların nələrə qadir olduğunu da dünya görəcəkdi.

Bu hadisələrdən çox az zaman keçmişdi, hətta yalnız günlər keçmişdi. Artıq Çocuğun söylədikləri reallaşırdı. Həm Gülcə, həm bu iki qardaş türk dövləti, həm də dünya bunun şahidi idi.

Artıq imzalanmış sərəncama əsasən 2020 ci il 1-5 avqust tarixləri arasında keçirilməsi nəzərdə tutulan iri miqyaslı hərbi təlimlər üçün Türk Ordusunun böyük bir hərbi heyəti və silahlı texnikası Naxçıvan ərazisindən Azərbaycan torpaqlarına daxil oldu. Bu

gəlişi Azərbaycan xalqı çox böyük coşqu ilə qarşıladı. Çünki 1918 –ci ildən keçən  yüz ildən artıq bir zamandan sonra şanlı Türk Ordusu yenidən birgə təlimlər üçün Naxçıvan ərszisindən  qardaş Azərbaycan türk torpağına daxil olurdu. Türk Ordusu 2020-ci il, 29 iyul- 10 avqust tarixində isə hərbi aviasiyanın iştirakı ilə təlimlər keçirdi. Bu düşmənlərə bir mesaj, türk gücünün göstəricisi idi. Qorxuya düşən düşmənlər və dünya bu hadisəni diqqətlə izləyirdi. Mesaj təkcə bununla bitmədi. Ardından təlimlərin son günü Türkiyənin yüksək çinli hərbi heyəti də Bakıya rəsmi səfər etdi. Bu da artıq ikinci mesaj idi. Bir millətin iki dövlətinin sıx əməkdaşlığından, birliyindən xəbər verirdi.

Son günlər nəinki bu iki türk dövlətinin, bütün türk dövlətlərinin birliyindən danışılırdı. Böyük Türk Ordusunun qurulacağından söhbət açılırdı. Artıq xəyal kimi görünən fikirlər reallaşmaq üzrə idi. Düşmən güclərə qarşı birləşmənin vaxtı gəlmişdi.

Bu istiqamətdə təkcə yerdə deyil, göydə də işlər gedirdi. Bu yaxınlarda Göy Türklərinin də "Qalaktik Federasyon"dedikləri Turan Birliyini yönəldən "Gok Türkleri Evrensel Konseyi"də toplanacaqdı. Görüləsi işlər barədə bu gün yerə göndərilmiş Göy Türkləri də xəbərdar ediləcəkdi. Artıq türk çağı başlamışdır. Kimsə köməyini əsirgəməməlidir. Çünki başda Türkiyə dövləti olmaqla bu yolda Türk dövlətlərinə qarşı yaradılan əngəllər bitmək bilmir. Neçə illərdən bə-

ri müxtəlif müstəvilərdə aparılan aşkar və gizlin mübarizələr səngimək bilmir.

Ağ Dəniz bölgəsində bor yataqlarının olması fikirlərinin səslənməsi isə artıq çoxlarının yuxusuna haram qatmışdı. Türkiyənin enerji asılılığından çıxaraq bölgənin hegemon dövlətinə çevrilə biləcək düşüncəsi isə dünya güclərinin rahatlığını əlindən almışdı. Təsir imkanlarının azalacağını düşündükcə bu qüvvələr dəliyə dönürdülər. Bütün bunlardan xəbərdar olan Göy Türkləri də hər sahədə dövlətinin, millətinin yanında olmağa, ona qarşı olan belə təsirlərdən qorumağa çalışırdı. Dünyada baş verən son hadisələr də bunu diktə edirdi.

## F Ə S İ L – 36

Çocuk yenə vətəni haqqında, onun gələcəyi haqqında düşünürdü. Ağ dənizin qolu olan Yunanıstanın şimal-şərqində, İyon dənizində yerləşən Korfu adasında idi. Sahildə oturaraq, gözlərini uzaqlara dikmişdi. Beynindən Korfu adasının qorxu adası ola biləcəyi fikri keçdi. Çünki, son zamanlar Yunanıstan havadarlarına arxalanaraq təhdidlərlə dolu bəyanatlar verirdi. Türkiyənin Ağ dənizdə fəallığı yunanların və havadarlarının yuxusunu qaçırmışdı.

Konfu adasına həsr olunmuş "Ölülər adası" tablosu dünyaca məşhur bir əsərdir. Bu gün də bu

ərazilərdəki adalar gündəm mövzusudur. Amma başqa bir yöndən. Çocuğu da düşündürən bu günkü hadisələr idi. Əgər Türkiyəni təhdid edənlər geri çəkilməsə, adalar onlar üçün də "ölülər" adası ola bilərdi. Bunu onların bilməsi və addımlarını düşünərək atması lazım idi. Buna görə Göy Türkləri xəbərdarlıq etməyi qərara almışdılar. Hələlik isə Türkiyə dövlətinin necə addım atacağını gözləyirdilər. Çox güman ki, bu addımlar onları təhdid edənlərin geri addım atmasına səbəb olacaqdı. Göy Türkləri isə hələlik hadisələrin gedişini izləməklə kifayətlənirdilər.

Görünən o idi ki, Türkiyənin Kipr sahilində neft-qaz axtarışları nəinki sahilyanı ölkələrin, həm də bura marağı olan ölkələrin xoşuna gəlməmişdi. Buradakı karbohidrogen ehtiyatlarına marağı olan ölkələr də az deyildi. Amma bu ölkələr Türkiyənin uzun müddət aralıq dənizində söz sahibi olmasını unudurlar.

Bir vaxtlar Çocuk Miltonla söhbətində "klonlarınızı da götürüb bu yerlərdən gedin! Türk torpaqlarından, Yaxın Şərqdən əlinizi çəkin!" demişdi. Bu gün artıq Qərb və Yaxın Şərqə iddia edən digər güclər buradan çəkilmək istəməsələr də Türk gücünün nə olduğunu da anlayırdılar.

Türkiyə bu günə kimi ona qarşı birləşən gücləri həm diplomatik, həm də lazım gələndə gücə qarşı güc yolu ilə geri oturtmağı bacarmışdı. Türkiyənin sahib olduğu son model silahlar, təhdid güclərinin

qarşısına çıxan Türkiyənin gücünə güc qatırdı. Bunları nəzərə alan Göy Türkləri düşüncə yolu ilə bu sahədə yeni nailiyyətlər üçün köməklərini əsirgəmirdilər. Yaxın zamanda bütün dünya türk hərb elminin nəyə qadir olduğunu da görəcəkdi. Türkün ən modern silahlarını gördükdə, Türkiyəyə özlərinin son modern silahlarını satmamaqla təhdid edənlər, türk dövlətinin bu oyunda etdiyi gediş qarşısında mat vəziyyətə düşəcəkdilər. Göy Türklərinin də istəyi, məramı elə budur. Türk millətini güclü görmək. Axı bütün türk yurdları onların da vətənidir. Vətən isə onlar üçün çox müqəddəsdir.

## F Ə S İ L - 37

Gülcə artıq bir neçə il idi ki, Göy Türklərinin və Çocuğun varlığından, onların qoruması altında olan, təmas qurduqları insanlardan bir neçəsinin Goy Türk bəyi ilə tanışlıq hekayəsindən, onların da Çocukla zaman yolçusu olmasından xəbərdar idi. Onu tanıdığı gündən Gülcənin anladığı, gördüyü, bildiyi dünyada çox şey dəyişmişdi, çox hadisələr baş vermişdi. Çocuğun öncə söylədiyi hadisələr də, özünün yaşadığı hadisələr də, müşahidə etdiyi hadisələr də çox olmuşdu. 2-3 illik zaman kəsimi üçün bunlar çox idi. Baxmayaraq ki, bu qısa müddət zamanın yalnız bir anı, yaşanan ömrün yalnız qısa bir hissəsi idi. Amma

o bu qısa müddətdə Göy Türklərinin varlığından xəbərdar olmuşdu. Özü də birbaşa bir Göy Türkünün verdiyi bilgilər, təsir etdiyi hadisələr əsasında. Onun həyatı tamam başqa yönə, başqa səmtə dəyişmişdi. Özü də hadisələrin axınına düşmüşdü, bəzən də iştirakçısına çevrilmişdi. Bəlkə də çoxuna nağıl kimi gələn həqiqətlər, çoxları xəbərsiz olsa da öz mahiyyətini, doğruluğunu dəyişməyən həqiqət aləmində-türk ruhunun onu aparıb çıxardığı bir aləmdə idi. Hələ türk dünyasına dair xəbərdar olub söyləyəcəyi çox hadisələr olacaqdı. Odur ki, Çocuk da,-"Kayd et Gülce, zaman kayb etme, kayd et!- söyləyirdi. Türk ruhunun gücüylə, gen yaddaşıyla xatırlayaraq əldə etdiyin bilgiləri, yaşadığın hadisələri yaz,- deyirdi. Sən çox hadisələrin birbaşa şahidi olmusan, yaşamısan. Hələ bundan sonra da çox hadisələrin şahidi olacaqsan, çox bilgilər əldə edəcəksən. Bu sənin doğulduğun gündən görəvindir. Bunu unutma.

Çocuk deyirdi:

-Yer insanı çox vaxt hikmət arayır. Hikmət arayanlar qarşılarındakı aynaya baxsınlar. Bu gün sizlərin arasında yaşayan Göy Türklərinin sizdən fərqi, onların Göydən endirildiyini unutmamalarıdır. Yer türkləri - sizlər isə unutdunuz, xatırlamadınız. Cismani duyğulara, istəklərə aludə olaraq unutdunuz. Biz isə unutmadıq.

Türk olmaqdan bəxtiyar olmaq, qürur duymaq bir başqa duyğudur. Hər halimizlə bəxtiyarıq. Kibirli, kinli deyilik.

Bizim uzay gəmisi kimi olan planetimiz artıq Yerə yaxınlaşmaqdadır. Texnologiya dediyimiz budur. Geriyə sayım başladı artıq! Çox az qaldı. Nə etsələr də boş. Bizə, dünya insanına qarşı etdikləri özlərinə qarşı dönəcək.

Özünə dönmək üçün az tükət, yaşaya bilmədiklərinin hirsini ətrafındakılardan alma, sürü psixologiyasından çıx, titrə və özünə gəl, ölümdən o yana yoxdur!

Bizlərin bu günə kimi kimsənin hazırlaya bilmədiyi texnologiyalarımız var. Dünyanı idarə etmək istəyənlərin təlaşları da ondandır. Biz sabahları qurtarmaq üçün yerə endik. Sizləri qurtarmaq üçün gəldik. Mustafa Kamal Atatürkün komandanlığı altında yenidən Türkiyə Cumhuriyəti adlanan yeni bir türk dövlətinin qurmasına, Birinci Dünya Müharibəsi zamanı Qara dəniz boğazlarına doğru hərəkət edən düşmən gəmisini məhv etmək üçün topçu Seyid Əlinin 275 kiloqram ağırlığında olan üç top mərmisinin hər birini tək başına qaldırıb atmasına yardım edənlər də bizlərdik. Çünki, bunun üçün bizlərə izn verilmişdi.

Qorxma! Dirən! Ümidsiz olma!

Çalışmadan, ürətmədən miras yeyən adamlar, cəmiyyətlər satacaq bir şeyi qalmayınca, o iş dönər,

dolanar ruhlarına qədər gedər. Amma bu ümidsizliyə sövq edən zamanın sonu gəlmək üzrədir. Ümidsiz olma!

Düşməni təqib etmək çətin deyil. Çətin olan özünü dost kimi təqdim edən, ya da dost kimi görünənlərdədir.

Seytana biət edən sürüngənlərə dedik ki, sərhədlərimizə girib bizi rahatsız etməyin. İndi yaşayaraq öyrənəcəklər. Hər kəs bilsin, kibrit öz atəşilə yanar.

Dedik ki, Türkə dost olun. Düşmən olmayın. İnsanlıqdan, gözəllikdən yana olun. Yaxın günlərdə-XXI əsrin 2020-ci ilinin sentyabrından etibarən bütün dünya, kainat Türkün qopardığı fırtınanı görəcək.

Məqsədləri qula qulluq olan sürüngənlər bunu qanla, şiddətlə etmək istədilər olmadı. Texnologiya ilə etmək istədilər, bacara bilmədilər. Ağıllarından istifadə edərək etmək istədilər, onların üst ağıl dedikləri ilə etmək istədikləri isə bizim ağılsızlıq dediklərimizdir. İnsanın ağılı ruhunun dışa, zahirə vuruşudur. Zəka başqa şeydir, ağıl başqa şey. Biz belə öyrəndik.

Gülcə bu gün ruhunun ən çox dinclik tapdığı ata yurdunda idi. Axşamın sakitliyini cırcıramaların səsi pozurdu. Ayın da işığının düşdüyü eyvanın məhəccərinə söykənərək təbiətin səsini dinləyən Gülcə Çocuğun söylədiklərini də xatırlayaraq düşüncələrə dalmışdı.

Birdən ətrafının işıqlandığını hiss etdi. Səmadan sanki onun yanına bir nur seli axdı. Bu nur selinin bir an içində onun ətrafında dövrə vuraraq yenidən səmaya doğru yol aldığını gördü. Və səmanın ənginliklərərində bir müddət eyni nöqtədə dayandı. Sonra bir anda gözdən itdi. Gülcə səmaya yol alaraq gözdən itən işığın ardınca xeyli baxdı. Məhəccərin üzərinə qoyduğu telefonuna gələn mesaj onu düşüncələrdən ayırdı. Əlini uzadaraq telefonu götürüb açdı. "Parol: O I O (SIFIR BİR SIFIR)" yazısı ekranda göründü. Yazan Çocuk idi:

-Biz səni bir gün yenə ziyarət edəcəyimizi demişdik. Biz boş yerə heç vaxt söz söyləmədik, Gülcə. Bunu bizi tanıdığın gündən bilirsən. Bizə inandığını bilirik. Bizi bu halımızla da görməni istədik. Ona görə indicə sənin yanından bir nur seli kimi keçib, səmadan səni xeyli izlədik. Hələ görüləsi çox işlər var, Cülcə. Həm bizim, həm sənin, həm də bizdən xəbərdar olanların, bizim varlığımıza inananların. Bu günlərdə Göy Türklərinin "Gök Türkleri Evrensel Konseyi" toplanacaq. Biz də dəvətliyiz. Oradan dönəndən sonra nələrin olacağını, bizlərin daha nə işlər görəcəyimizdən sən də xəbərdar olacaqsan. Bu qısa müddət ərzində bizlərlə birlikdə insanlıq naminə, türklük üçün çalışdığın zaman kəsiyində türk ruhunla çox şey əldə etdin və etməkdə davam edəcəksən.

Gülcə nə baş verdiyini indi anladı. Deməli, Çocuk söz verdiyi kimi onu ziyarətə gəlmişdi. Artıq Ço-

cuk yanında olmasa da Gülcə olanları anlayırdı. Qarşıda isə türklük adına hələ Çocukla uzun bir zaman yolçuluğu vardı. Zamanın hansı dilimində olmasından asılı olmayaraq. Gülcə bu yolda tək deyildi, bu yolun bəlkə yüzlərlə yolcularından biri idi. Bunlardan isə bir neçəsini Çocuğun sayəsində tanıyırdı və artıq aralarında səmimi dostluq da yaranmışdı. Hər birinin Çocukla ayrı bir hekayəsi vardı. Onunla tanışlıq hər biri üçün başqa-başqa məkanda baş versə də Göy Türk bəyinin nələrə qadir olduğu hər birinə məlum idi. Türk torpaqlarının müxtəlif yurdlarında, ondan uzaqlarda yaşasalar da , müxtəlif türk boylarından olsalar da, ürəkləri vətən, yurd sevgisiylə dolu olan bu türk övladlarını böyük türk dünyasının birliyi, bütövlüyü, xoşbəxt gələcəyi kimi bir amal, bir məqsəd, bir istək birləşdirirdi. Hər biri harada yaşamasından asılı olmayaraq bir türk bayrağı kimi idilər. Onu təmsil etmələrindən qürur duyurdular. Bu işdən yorulub, usanmaq bilmirdilər. Hər biri türk yurdlarından xəbərdar olduqları kimi, Göy Türklərinin yaşadığı Ötükendən də xəbərləri vardı. Çocukla birlikdə zaman yolçusu olmuş Tunçay bəy də, Ceyhan, Perihan, Gülcə də həm bir-birlərini yaxından tanımış, həm hər biri vətən, millət uğruna əllərindən gələni əsirgəməmiş, həm də Çocuğun nələrə qadir olduğunun və Göy Türklərinin yaşadığı Ötükenin özəlliyinin də şahidi olmuşdular. Çocuk dedikləri Göy Türk bəyinin də nə qədər doğru biri olduğunu,

Göy Türklərinin də türklük adına nələr etdiyini də bilirdilər. Hamısı düşüncə birliyində idilər. Bəzən düşüncə vasitəsi, bəzən telefon rabitəsi, bəzən sosial şəbəkələrdə fikir bölüşərək bir məqsəd, bir amal uğrunda çalışırdılar. Və belə də davam edəcəkdilər. Dünyada hansı proseslərin getməsindən asılı olmayaraq Böyük Turan, türklük naminə bu fədakar türk övladları çıxdıqları yoldan dönməyəcəklər.

## EPİLOQ

Gülcə bu günə kimi həyatında çox şeylər yaşamışdı, həyatın çox sınaqlarından keçmişdi. Əslində həyat var olmaqla yox olmaq arasında bir cizgi, bir məsafə, bir yoldur. Gülcə də artıq bu yolu yarı etmişdi. Son bir neçə ildə isə həyatının axarı tamam başqa bir səmtə dəyişmişdi. Məhz bu dönəmdə Göy Türklərini tanımış, Göy Türk bəyi onunla əlaqə qurmuş, Göy Türkləri haqqında ona bilgilər, məlumatlar ötürmüş, bundan sonra düşüncəsi, dünyaya, həyata baxışı dəyişmiş, bir sözlə, başqa bir adam olmuşdu. Gülcə anlayırdı ki, Göy Türklərlə tanışlığa qədərki həyatı, ömrünün Gülcə kimi düşünə biləcək bundan sonra yaşanacaq həyatına bir hazırlıq imiş. Bir neçə il bundan əvvəl gördüyü də yuxu deyilmiş, Çocuğun onu Göy Türklərinin əzəli məskəni Ötüken planeti ilə tanış etmək üçün zaman yolçusu etməsi, daha

doğrusu bu planetə gediş və dönüş imiş. Evin tavanına yaxın, havadan asılı halda duraraq ona baxan qanadlı varlıq isə Çocuk imiş. Məqsəd isə onu bu tanışlığa, çıxacağı yola hazırlamaq imiş.

Bir gün Gülcənin Çocuğun paylaşdığı fotoşəkillər arasında bir fotoşəkil diqqətini cəlb etmişdi. Rəsmi görən Gülcə heyrət içində Çocukdan bunun kimin şəkli olduğunu yazıb soruşmuş və bunu həyatda gördüyünü söyləmişdi.

Çocukdan isə bu cavabı almışdı:

-Bu mənim işınlanma anından öncə çəkilən fotoşəklimdir.

- Mən bir neçə il bundan əvvəl gördüyüm bir yuxudan sonra oyanada eynilə bu insanı görmüşdüm. Bu adam havadan asılı halda-otağın tavanına yaxın dayanmışdı. Amma qanadları vardı. Üz cizgiləri isə eyni bu fotoşəkildə olduğu kimi idi. Mənə çox ciddi nəzərlə baxırdı. Hətta həyəcanla yataqdan qalxaraq qorxu içində qışqırmışdım da. Yəqin ki, mənim qorxduğumu görüb bir anda yox olmuşdu. Sonralar bu hadisə haqqında danışsam da mənə inanan olmamışdı. Mən isə bu varlığı yuxuda deyil, gerçəkdən həyatda gördüyümə əmin idim. Demək ki, o, sən imişsən.

Çocuk da Gülcənin sözlərini təsdiqləmişdi:

-Sən hər şeyi doğru söyləyirsən. O, mən idim. Və sən bizimlə tanışlığa özün də bilmədən zaman yolçuluğu ilə başladın. Biz sənə nə demişdik? Biz sə-

ni lazım olan zaman, lazım olan yerə götürəcəyik. Özün də bilmədən bizimlə tanış olana kimi artıq səni Ötükenə götürmüşdük. Sənin heyranlıqla baxıb, gəzdiyin Ötükenə.

Mən sənin əslində kim olduğunu xatırlatmaq üçün "Dəlilər" görkəmində sənin ziyarətinə gəlmişdim. Yəqin ki, "Dəlilər" adlanan türk döyüşçüləri haqqında məlumatın var. Sənin "Dəlilər" kimi qorxmadan səni sıxan qılafı sürətlə dağıdıb ruhunun ardınca getməyini xatırlatmaq, ruhunu oyatmaq üçün belə bir görkəmdə gəldim. Sən də şahidsən ki, mən bunu bacardım. Sən də bu qısa zamanda Gülcə olmağı bacardın. Niyə elə bir libasda, görkəmdə gəldiyimi indi sən də anladın.

Sən əslində bugünkü Gülcəsən. İllər sonra da olsa səni sıxan, kimliyini gizləyən qılafı bizim köməyimizlə qıra bildin. İçindəki türk ruhu nələrə qadirmiş hamımız gördük. Bundan sonra nələrin şahidi olacağını, hansı hadisələrin iştirakçısı olacağını, nələr yazıb-yaradacağını da görəcəklər. Sən türk ruhunun ardınca get, onu izlə. Bu ruh daha nələrə qadirdir özün şahid olacaqsan. O, səni həqiqətə çatdıracaq. Hələ çox hadisələrdən söhbət açacaqsan. Bu bir başlanğıcdır.

Sənin vətəninin işğal altında olan torpaqları da öz azadlığına qovuşacaq. Biz illər öncə də sənə bunun müjdəsini vermişdik, bu gün də bir daha təsdiqləyirik. O günlərə az qaldı. Qəhrəman Azərbaycan

Ordusu bunu bacaracaq. “Dəlilər” kimi düşmən üzərinə gedəcək. Sən də düşmənin necə vahimə, qorxu içində qaçdığını görəcəksən. Sən çox şeylərin şahidi olacaqsan. Həm bütün dünya, həm dostlar, həm düşmənlər bunu görəcək. İllər sonra yenidən Türkiyə Ordusunun Azərbaycan Ordusuyla yanaşı Bakı küçələrində mətin addımlarla, qalib ordu kimi addımladığının da şahidi olacaqsan. Biz Göy Türklər də lazım olan anda “Dəlilər” kimi Türk Ordusunun ön sıralarında qanadlanıb uçarcasına savaşacağıq.

Gülcənin də türk döyüş tarixindən düşmənin canına qorxu salan, son dərəcə döyüşkən, qorxmaz “Dəlilər” adlanan döyüşçülər haqqında məlumatı var idi. Ölümdən əsla qorxmayan, döyüş bacarığı son dərəcə yüksək olan bu döyüşçülər savaş zamanı ön sıralarda gedərmişlər. Sınaqdan keçmiş bu döyüşçülər xüsusi fərqli geyimləri ilə də seçilərmişlər. Döyüş zamanı müxtəlif heyvanların dərisindən paltar və baş geyimləri geyər, bəzən qanad taxarmışlar. Döyüşə “hu” deyə hayqıraraq girər, onların qarşısında kimsə dayana bilməzmiş. At üstündə çox sürətlə, uçarcasına irəliləyər və silahlardan çox məharətlə istifadə edərmişlər.

Bu gün Çocuğun söylədikləri artıq həqiqətə çevrilmişdi. Gülcənin vətəninin işğal altında olan torpaqları artıq işğaldan azad edilmişdi. Qəhrəman Azərbaycan Ordusu inanılmaz bir döyüş nəticəsində 44 gün içərisində işğal altında olan Qarabağı və ətraf

rayonları azad etmişdi. Aparılan bu müharibənin döyüş taktikası bir çox ölkələrin yüksək rütbəli hərbçilərini belə heyrətdə qoymuşdu. Türk hərb elminin məhsulu olan Bayraqdar PUA–ları düşməni və dünyanı mat vəziyyətinə salmışdı. Hətta bəzi güc dövlətləri bu müharibədən sonra Hərbi Doktrinalarını dəyişməyi düşünürdü. Bunun nə olduğunu isə hərb elmindən anlayanlar çox yaxşı bilir.

Çocuk müharibə başlamamışdan az öncə "Türkün qoparacağı fırtınanı dünya görəcək",- demişdi. Gülcəyə Azərbaycan türklərinin mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin azadlığına qovuşacağı müjdəsini də vermişdi.

Bu gün Şuşa da azad idi. Şəhər inanılmaz bir döyüş nəticəsində geri alınmışdı. Türk ruhunu daşıyan Qəhrəman Azərbaycan Ordusu mümkünsüzü bacarmışdı. Süngü, bıçaq və yüngül silahlarla silahlanmış Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri sıldırım qayalara dırmanaraq təpədən dırnağa qədər silahlanmış düşməni qısa müddətdə məhv etmişdi. "Dəlilər" kimi düşməni elə bir vahiməyə salmışdılar ki, düşmən silah-sursatını belə atıb qaçmışdı.

Azərbaycan Ordusunun döyüşçüləri cəsurluğu, əzmi, döyüş qabiliyyəti ilə hətta dünyanın peşəkar hərbçilərini belə heyrətdə qoymuşdu.

Yəqin ki, Çocuğun ruhundan ona salam gətirdiyi Turan, Vətən sevdalısı şair Əhməd Cavadın da ru-

hu daha rahatlıq tapmışdı. Bunları düşündükcə şair ruhlu Gülcənin qəlbində bu misralar yarandı :

Ruhuyla salam verən,
Ustadım Əhməd Cavad.
Mən də sənə söyləyim,
Vətən, Qarabağ azad!

Sən ruhunla oyatdın,
Neçə yatmış türk ruhun.
İndi sənin tək neçə
Övlad Vətənə vurğun.

Bu gün yolumuz Turan,
Adın anılır hər an.
Əcdadımız, sizlərsiz,
Yolun təməlin qoyan.

Neçə min türk övladı,
Sabaha yol aldılar.
Bu yolda, bu ülküdə,
Sizdən ilhamlandılar.

Sabahın salamını,
Yetirir sənə qızın.
Bütün dünya görəcək,
Türk ruhumuzun gücün!

Gülcəyə elə gəlirdi ki, Əhməd Cavadın ruhu onu dinləyir. Və Gülcəni ruhuyla bir daha salamla-

yır. Onun qəlbindəki Vətən sevgisindən, Turan arzusundan da istiqlal şairi xəbərdardır. Yəqin ki, şairin ruhu da qazanılan böyük qələbədən, igid türk övladlarının qəhrəmanlığından qürur duyur.

Bu gün - 10 dekabr, 2020-ci il idi. Çocuğun müjdələdiyi daha bir xəbər Gülcənin gözləri önündə öz təsdiqini tapırdı. Ona "Yaxında Türkiyə Ordusunun Azərbaycan Ordusuyla bərabər Bakı küçələrində qalibiyyətlə addımladığını da görəcəksən" söyləmişdi. Yaşadığı doğma Bakısında Türkiyə Ordusu və Azərbaycan Ordusu birlikdə Zəfər paradında mətin addımlarla, qalib ordu kimi addımlayırdı. Bu addım səsləri Gülcəni xəyalən 1918–ci ilə apardı. O zaman da Nuru paşanın komandanlığı altında Azərbaycana köməyə gələn Qafqaz Türk İslam Ordusu yeni yaranmış Azərbaycan Milli Ordusu ilə birgə Bakı küçələrində zəfər yürüşündə iştirak etmişdi. Bu yürüşü izləyənlər arasında Azərbaycanın istiqlal marşının müəllifləri Turançı şair Əhməd Cavad və dahi bəstəkar Üzeyir Hacıbəyli də var idi. Bu zəfər keçidini görən Əhməd Cavad şövqlə Türk ordusuna həsr etdiyi "Çırpınırdın Qara dəniz" şeirini oxuyur. Bundan ilhamlanan Üzeyir bəy də bu şeirə bu gün də dillər əzbəri olan, "Çırpınırdın Qara dəniz" mahnısını bəstələyir.

O gün olduğu kimi, bu gün də hər zaman yerdəki soydaşlarının yanında olan, onların gücünə güc qatan Göy Türkləri də bu qürurverici keçidi göydə səf quraraq izləyirdilər. Gülcə Əhməd Cavadın da

onların arasında olduğuna inanırdı. O, cismən vətənindən ayrılsa da, ruhən heç vaxt vətənindən, millətindən ayrılmamışdı. Bunu Gülcə ilə söhbətlərində Çocuk da dəfələrlə demişdi:- "İndi o, bizlərin-Göy Türklərinin arasındadır".

Azərbaycanın qələbəsiylə sonlanan Vətən Müharibəsi də başqa bir kitabın mövzusu idi. Və müharibə başlanan gün-2020- ci il, sentyabrın 27-si Çocuk Gülcəyə "Savaşı biz qazandıq!" söyləmişdi. Bir payız səhərində - top səsiylə açılan səhərdə qələbənin müjdəsini vermişdi. Həm də dünyanı COVID-19 pandemiyasının bürüdüyü bir zamanda, hər kəs canının hayında olduğu bir vaxtda, türk milləti dünyadakı sürüngənlərə, düşmənlərə meydan oxuyurdu. Türk gücünün qarşısını heç bir qüvvə ala bilməyəcəyi mesajını verirdi. Qəhrəmanlıqlarıyla onların bütün niyyətlərini boşa çıxaracaqlarını bir daha göstərirdi. Bundan hər kəs dərs almalı idi. Zaman keçdikcə sürüngənlərin, onurğasızların bütün planları boşa çıxacaqdı. Artıq onlar qədim türk yurdu olan Azərbaycanın işğal etdikləri torpaqlarından qovulurdu. Turana gedən yol onlardan təmizlənirdi.

Gülcə 44 günlük müharibədə şanlı türkün yazdığı tarixin, bu torpaqları özünə vətən bilən, onu canından artıq sevən insanların işğalçılara qarşı apardığı savaşın hər gününün şahidi idi. Və Çocuğun söylədiyi kimi türk ruhunun nələrə qadir olduğunu bir daha öz gözləriylə görür və bu tarixi günlə-

ri yaşayırdı. Yəqin ki, bütün bunları da yazacaqdı. Yer və Göy Türklərinin bu 44 günlük müharibədə necə bir qəhrəmanlıq tarixi yazdığından söz açacaqdı. Axı Çocuk da söyləmişdi :

-Sən hələ çox hadisələrin şahidi olacaqsan, çox şey anladacaqsan...

## İçindəkilər:

P R O L O Q........................................................................3
F Ə S İ L- 1..... ....................................................................6
F Ə S İ L – 2........................................................................13
F Ə S İ L – 3........................................................................17
F Ə S İ L – 4........................................................................22
F Ə Sİ L – 5........................................................................29
F Ə S İ L – 6........................................................................31
F Ə S İ L – 7........................................................................37
F Ə S İ L – 8........................................................................42
F Ə S İ L –9... ......................................................................49
F Ə S İ L – 10......................................................................61
F Ə S İ L – 11......................................................................66
F Ə S İ L – 12......................................................................76
F Ə S İ L – 13......................................................................81
F Ə S İ L – 14......................................................................93
F Ə S İ L – 15......................................................................104
F Ə S İ L – 16......................................................................107
F Ə S İ L– 17.......................................................................116
F Ə S İ L – 18......................................................................127
F Ə S İ L – 19......................................................................135
F Ə S İ L – 20......................................................................147
F Ə S İ L – 21......................................................................154
F Ə S İ L – 22......................................................................163
F Ə S İ L – 23......................................................................178
F Ə S İ L – 24......................................................................187
F Ə S İ L – 25......................................................................194
F Ə S İ L – 26......................................................................198
F Ə S İ L – 27......................................................................203
F Ə S İ L – 28......................................................................206
F Ə S İ L – 29......................................................................213
F Ə S İ L – 30......................................................................221
F Ə S İ L – 31......................................................................236
F Ə S İ L – 32......................................................................246
F Ə S İ L – 33......................................................................254
F Ə S İ L – 34......................................................................268

F Ə S İ L – 35 .......... 284
F Ə S İ L – 36 .......... 297
F Ə S İ L – 37 .......... 299
E P İ L O Q... .......... 305

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 07.08.2025
Şərti çap vərəqi 19,5. Sifariş № 358
Kağız formatı 60x84 1/16. Tiraj 500

**Kitab “Elm və təhsil”** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4